*Elnur Kəlbizadə*

# Naxçıvanın tarixi coğrafiyası

*(XII-XVIII əsrin I yarısı)*



**ELNUR KƏLBİZADƏ**

106274

# NAXÇIVANIN TARİXİ COĞRAFİYASI

## (XII-XVIII əsrin I yarısı)

***AMEA Naxçıvan Bölməsi Rəyasət heyətinin 23 sentyabr 2016-cı il tarixli 07/15 nömrəli qərarı (Protokol № 07) ilə çapa tövsiyyə olunmuşdur.***

Azərbaycan Milli Kitabxanası

**Naxçıvan - 2016**

T3(2A-6Hə) + Д9(2A-6Hə)

**Elmi redaktor:** **İsmayıl Hacıyev**
*AMEA Naxçıvan Bölməsinin sədri, Akademik*

**Rəyçilər:** **Fəxrəddin Səfərli**
*AMEA-nın müxbir üzvü, professor*

**Zəhmət Şahverdiyev**
*AMEA-nın müxbir üzvü*

**Elbrus İsayev**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*

***Elnur Həşim oğlu Kəlbizadə. Naxçıvanın tarixi coğrafiyası (XII-XVIII əsrin I yarısı),*** *Naxçıvan, "Əcəmi" NPB, 2016, 200 s.*

*Monoqrafiyada XII-XVIII əsrin I yarısında Naxçıvan diyarının tarixi coğrafiyası tədqiq edilmişdir. Əsərdə bu dövrdə Azərbaycanın Naxçıvan diyarının daşıdığı inzibati statuslar, sərhədləri, ərazisi, şəhərləri, əhalisinin etnik və dini tərkibi öyrənilmişdir.*

4700000000
053-2016

ARXİV

©"Əcəmi", 2016

# Naxçıvanın tarixi coğrafiyasına həsr olunmuş dəyərli tədqiqat əsəri
## (Ön söz yerinə)

Azərbaycanın yerləşdiyi tarixi-coğrafi məkan əsrlər boyu bu bölgəni dünyada güc mərkəzi rolunu oynayan müxtəlif qüdrətli dövlətlərin maraq dairəsinə salmışdır. Ərazisinin tarixi-coğrafi mövqeyi, təbii¸ mədəni zənginlikləri Azəbaycanın tarixi taleyinə də təsirsiz ötüşməmişdir. Buna uyğun olaraq Azərbaycan ərazisinin, eləcə də onun ayrı-ayrı bölgələrinin tarixi coğrafiyasının öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bu cəhətdən Naxçıvanın tarixi coğrafiyasının öyrənilməsi xüsusilə aktual məsələdir. Doğrudur, son illər ərzində Naxçıvanın bu dövr tarixinin öyrənilməsi istiqamətində bir sıra tədqiqatlar aparılmış və ciddi nəticələr əldə edilmişdir. Tarixi-coğrafiya istiqaməti isə yeni bir tarixi elm sahəsidir. Nəzərə almaq lazımdır ki, bu elmi istiqamətdə Azərbaycanda tədqiqat əsərlərinin yazılmasına əsasən XX əsrin 80-ci illərinin ortalarından başlanılmışdır və bu sahədə tədqiqat əsərləri çox azdır.

Bu baxımdan Elnur Kəlbizadənin "Naxçıvanın tarixi coğrafiyası (XII-XVIII əsrin I yarısı)" adlı monoqrafiyası Azərbaycan tarixşünaslığında az işlənilmiş bir problemin – Naxçıvanın tarixi coğrafiyasının tədqiqinə həsr edilmişdir. Tarixşünaslığımıza nəzər saldıqda görə bilərik ki, bu fundamental tədqiqat əsəri ümumilikdə Naxçıvanın tarixi coğrafiyasına həsr olunmuş ikinci monoqrafiyadır.

Əsər giriş, 3 fəsil, 12 yarımfəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı, xəritə və şəkillərdən ibarətdir.

"XII-XV əsrlərdə Naxçıvanın tarixi coğrafiyası" adlanan I fəsil 3 yarımfəsildən ibarətdir. Həmin yarımfəsillərdə Eldənizlər (Azərbaycan Atabəyləri) dövründə Naxçıvan diyarının ərazisi, şəhərləri, əhalisinin etnik və dini tərkibi, monqol işğalı və Hülakülər hakimiyyəti dövründə yenə Naxçıvanın ərazisi, əhalisi və şəhərlərin vəziyyəti, XIV əsrin sonu - XV əsrdə hərbi-siyasi proseslərin Naxçıvan diyarı ərazisinin dəyişməsinə təsiri kimi məsələlər

tədqiqata cəlb edilmişdir.

Tədqiqatçı Eldənizlər dövründə Naxçıvanın vilayət yoxsa əyalət statusu daşıdığına aydınlıq gətirmiş, 1146-1175-ci illərdə Naxçıvanın əsas idarəçilik mərkəzi, 1175-1225-ci illərdə isə əsas idarəçilik mərkəzlərindən biri olduğunu göstərmişdir. Bəhs olunan dövrdə Naxçıvanın daşıdığı inzibati statusun ayrı-ayrı hökmdarların dövrləri üzrə müəyyənləşdirilməsi, bu dövr Naxçıvan vilayətinin sərhədlərinin müəyyənləşdirilməsində mənbə boşluğunun doldurulması üçün komporativ-qarşılaşdırma metodunun tətbiq edilməsi tədqiqatçının tarixi tədqiqatların metodologiyasına dərindən bələd olmasının göstəricisi hesab edilə bilər. Ümumiyyətlə, müəllifin gəldiyi nəticə budur ki, Şəmsəddin Eldənizin Arrana hakim göndərildiyi dövrdə Naxçıvan Azərbaycan vilayətinin tərkibində bir əyalət statusunda olmuşdur. Əvvəlcə Naxçıvan Azərbaycan vilayəti tərkibində bir sərhəd dairəsi idisə, Cahan Pəhləvanın dövründə ayrıca olaraq vilayət statusu daşımışdır. Müəllif ilk dəfə olaraq Naxçıvan vilayətinin sərhədlərini və ərazisini dəqiqləşdirmişdir.

Monoqrafiyada göstərilir ki, Naxçıvan mahallara və dairələrə bölünürdü. Bu dövrdə Naxçıvan vilayətinin tərkibində Naxçıvan, Şərur, Azadciran, Əlincək, Şahbuz kimi mahallar var idi. Kartoqrafik hesablamalar nəticəsində müəllif belə bir qənaətə gəlir ki, bu dövrdə Naxçıvanın ərazisi 9609 km$^2$ olmuşdur. Bu fəsildə Naxçıvan, Kiran, Ordubad, Qafan, Azad, Dəbil şəhərlərindən, Əlincə, Sürməli, Tağmar və Faqnan qalalarından bəhs edilir.

Monqol işğalı və Hülakülərin hakimiyyəti dövründə Naxçıvanın ərazisi, əhalisi və şəhərlərin vəziyyətindən bəhs edən müəllif göstərir ki, Naxçıvan ərazisi Cənubi Qafqazın digər torpaqları kimi Qızıl Orda (Cuci) ulusunun tərkibinə daxil edilmiş, Naxçıvan tüməni yaradılmış və bu tümən Azərbaycan vilayətinin tərkibində olmuşdur. Monoqrafiyada Naxçıvan tüməninin ərazisi və sərhədləri də dəqiqləşdirilmişdir. Müəyyən edilmişdir ki, Naxçıvan tüməninə Naxçıvan, Əncan, Ordubad, Azad, Makuyə, Sürməli, Qarabağlar şəhərləri və iri yaşayış məntəqələri daxil idi. Naxçıvan əhalisindən bəhs edən tədqiqatçı göstərir ki, əhalinin əksəriyyəti türkdilli idi. Bu hissədə Naxçıvan tüməninin sərhədlərinin nə qədər



böyük bir ərazini əhatə etməsinin faktlarla sübuta yetirilməsi, ərazilərin riyazi hesablanmasının həyata keçirilməsi, bölgə şəhərləri ilə bağlı ciddi tədqiqatların aparılması, xüsusilə Əncan şəhərinin lokalizasiyası ilə bağlı maraqlı mülahizələrin irəli sürülməsi qiymətləndirilməlidir.

XIV əsrin sonu – XV əsrdə baş vermiş hərbi siyasi proseslərin təsiri ilə bağlı məsələlər də bu fəsildə geniş şəkildə tədqiqata cəlb edilmişdir. Müəllif Əmir Teymurun və Toxtamışın hücumlarının bölgənin tarixi coğrafiyasına təsiri məsələlərini müəyyən etmiş, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri üçün Naxçıvan bölgəsinin əhəmiyyətindən bəhs etmişdir. Çuxursəd əyalətinin tərkibində Naxçıvanın coğrafi mövqeyi tarixi baxımdan qiymətləndirilmişdir. Müəllif qeyd edir ki, Artıq Qaraqoyunlu və Ağqoyunlular dövründə Çuxursəd əyaləti inzibati baxımdan 8 yerə - Naxçıvan, Maku, Zar-zəbil, Sədərək, Bəyazid, Şadilu, Əkrad-e Donboli, Məğazbord hakimliklərinə bölünürdü. Deməli, XIV əsrdən fərqli olaraq XV əsrin əvvəllərində Naxçıvan tüməninin ərazisi nisbətən kiçilmiş, Maku, Sədərək, Zar-zəbil əraziləri ayrıca hakimliklərə - mahallara çevrilmişdilər.

İ.Şiltberqerin "Səyahət kitabı"nın "İpək yığılan ölkələr, Persiya və digər krallıqlar" adlanan 33-cü bölümündəki Naxçıvan şəhərləri ilə bağlı məlumatların tədqiqata cəlb edilməsi də xüsusi qeyd edilməlidir.

Monoqrafiyanın II fəsli "XVI-XVII əsrlərdə Naxçıvan ölkəsinin tarixi coğrafiyası"na həsr edilmişdir. Bu fəsildə əvvəlcə Səfəvilər dövlətinin yaranması ərəfəsində baş verən ictimai-siyasi proseslər və Naxçıvan məsələsi tədqiq edilmişdir. Müəllif göstərir ki, I Şah İsmayılın hakimiyyəti ərəfəsində ona qoşulan tayfalardan Şamlı və Ustaclılar xüsusi ilə fərqlənmişdir. Naxçıvan ərazisi isə bu tayfaların Azərbaycanda əsas məskunlaşma areallarından biri olmuşdur. Kəngərlilər isə Ustaclı tayfasının bir qolu olmuşdur. Bu tayfa isə bilavasitə Naxçıvanla bağlıdır. Monoqrafiyada Səfəvi şahlarının Naxçıvana xüsusi önəm verdiyi tarixi faktlar əsasında sübuta yetirilir.

Fəslin "Naxçıvan ölkəsi Azərbaycan bəylərbəyliyinin

tərkibində (1500-1605)" adlanan ikinci yarımfəslində Naxçıvanın inzibati ərazi quruluşu, sərhədləri, şəhərləri və əhalisi araşdırılmışdır. İnzibati ərazi quruluşundan bəhs edən tədqiqatçı qeyd edir ki, şimallı-cənublu Azərbaycan ərazilərində 4 bəylərbəylik var idi ki, Naxçıvan mərkəzi Təbriz olan Azərbaycan bəylərbəyliyinə tabe idi və o, "ölkə" inzibati ərazi vahidi statusunda olmuşdur. Müəllif Naxçıvan ərazisini XIII-XIV əsrlərdəki ərazisi ilə müqayisə edərək qeyd edir ki, Naxçıvanın ərazisi kiçilmiş, Van gölünün şimal-şərq sahillərindən başlamış Şərur düzünün qərbinə qədər olan ərazilər, Maku və Qafan əraziləri, şimal istiqamətində bir sıra mahallar Naxçıvan ölkəsinin tabeliyindən çıxmışdır. Tədqiqatçı bu dövrün Naxçıvan şəhərləri sırasında Naxçıvan, Ordubad, Culfa, Əylis, Qarabağlar şəhərlərinin və böyük olmayan qəsəbə kimi Azadın adını çəkir və onlardan bəhs edir. Naxçıvan əhalisinin etnik tərkibindən bəhs edən müəllif qeyd edir ki, bu dövrdə qızılbaş tayfalarından ustaclı, ərəşli, zülqədərli üstün yer tuturdular. XVII əsrin əvvəllərində çoxsaylı naxçıvanlılar Səfəvi imperiyasının digər ərazilərinə köçürülmüş, sürgün edilmişdir.

İkinci fəslin digər bölümləri I Osmanlı idarəçiliyi dövründə Naxçıvanın tarixi-coğrafiyasına (1587-1603) və Çuxursəd bəylərbəyliyinin tərkibində olmasına həsr edilmişdir. Osmanlılar tərəfindən tutulan Naxçıvan ölkəsi İrəvan əyalətinin tərkibində sancaq statusunda olmuş, üç qəza (Naxçıvan, Şərur və Ordubad) və 16 nahiyəyə bölünmüşdür.

Monoqrafiyanın III fəsli XVIII əsrin I yarısında Naxçıvanın tarixi coğrafiyasına həsr edilmişdir. Bu fəsildə ilk növbədə XVIII əsrin I yarısında baş vermiş hərbi-siyasi proseslərin Naxçıvanın tarixi coğrafiyasına təsiri araşdırılmışdır. Müəllif qeyd edir ki, XVIII əsrin I yarısında Naxçıvanın idarəçiliyi dörd dəfə dəyişilmişdir. Əvvəlcə Səfəvilər, sonra Osmanlı idarəçiliyi, daha sonra Nadir şah imperiyasının tərkibinə daxil olmuş Naxçıvanda 1747-ci ildə müstəqil regional idarəçilik ənənələrinin davamı olan Naxçıvan xanlığı yaranmışdır. Tədqiqatçının qənaətinə görə, XVIII əsrin əvvəllərində Naxçıvan ölkəsinin ərazisi 7,2 min $km^2$ idi. Üçüncü bölmədə Osmanlı idarəçiliyi dövründə (1724-1735) Naxçıvanın



tarixi coğrafiyası, Osmanlı-Səfəvi müharibələri və bağlanılan müqavilələrə diqqət yetirilmiş, Naxçıvan sancağının tərkibində 14 nahiyənin olduğu göstərilmişdir. Çox yaxşı haldır ki, nahiyələr haqqında ayrı-ayrılıqda məlumatlar verilmişdir. Bu hissədə Naxçıvan sancağının digər nahiyələri ilə yanaşı, həm ərazicə, həm də yaşayış məskənlərinin sayına görə ən böyük nahiyəsi olmuş Dərələyəzin tarixi coğrafiyasına xüsusi diqqət yetirməsi qeyd edilməlidir. Tarixi Azərbaycan torpağı olmuş Dərələyəz haqqında tədqiqatların genişləndirilməsi həm də mənfur qonşularımız olan ermənilərə ciddi bir cavabdır.

III fəslin sonuncu iki bölməsi Əfşarlar imperiyası və Naxçıvan xanlığının yarandığı vaxtda Naxçıvanın tarixi coğrafiyasına həsr olunmuşdur. Müəllifin əldə etdiyi nəticə budur ki, Əfşar idarəçiliyi dövründə Naxçıvan "ölkə" və "tümən" kimi adlandırılmış və Nadir şah Naxçıvana iki hakim təyin etmişdir: Naxçıvan ölkəsinin hakimi və Naxçıvan tüməninin başçısı. Naxçıvan xanlığının ərazisindən bəhs edən tədqiqatçı onun sahəsinin 9,4 min $km^2$ olduğunu göstərmişdir. Monoqrafiyada həmçinin xanlıq dövründə Naxçıvanın əhalisi və şəhərləri tədqiq edilmişdir.

Tədqiqatçı mövzuya uyğun yeddi dildə olan ədəbiyyatlara və arxiv materiallarına istinad etmişdir. Monoqrafiyanın əlavələr hissəsində 19 xəritə və bir neçə fotoşəkil təqdim edilmişdir ki, bu da əsərin əhəmiyyətini daha da artırmışdır.

Ümumiyyətlə, haqqında bəhs olunan monoqrafiyanı Azərbaycan tarixinə, tarixi coğrafiya elminə və ən əsası Naxçıvanşünaslığa mühüm töhfə hesab etmək olar.

**İsmayıl HACIYEV**
**AMEA Naxçıvan Bölməsinin sədri, akademik**

## GİRİŞ

Azərbaycan ərazisində mövcud olmuş bir sıra dövlətlərin və imperiyaların (Eldənizlər, Qaraqoyunlular, Qızılbaş-Səfəvi dövləti və s.) əsas idarəçilik mərkəzlərindən biri olmuş Naxçıvan tarixin bütün dövrlərində Azərbaycan üçün strateji əhəmiyyət daşımışdır. Bu baxımdan bütün hüquqi və tarixi Azərbaycan torpaqları kimi, Naxçıvanın tarixi coğrafiyasının öyrənilməsi də vacib məsələlərdəndir. Ümummilli lider Heydər Əliyevin söylədiyi aşağıdakı fikirlər bunu bir daha sübut edir: "Naxçıvanın ərazisini götürsək, bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. ...Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşı, hər qayası tarixin canlı şahididir" (80, s. 1-2). Ulu öndər Heydər Əliyevin bütün ömrü boyunca başlıca fəaliyyət amalı Azərbaycanın yenidən öz əvvəlki qüdrətini qaytarması olmuşdur. Bunun üçün isə Azərbaycanın tarixinin, həmçinin onun tarixi coğrafiyasının öyrənilməsi vacib əhəmiyyət daşımaqdadır. Bəlkə də, bu səbəblərdəndir ki, Azərbaycanın tarixi coğrafiyasının öyrənilməsi istiqamətində oyanışın baş verməsi də Heydər Əlirza oğlu Əliyevin hakimiyyətinin birinci dövrünə XX əsrin 70-ci illərinin sonu, 80-ci illərinin əvvəllərinə təsadüf etmişdir. Azərbaycanın tarixi coğrafiyasının əsas tədqiqatçılarından olan tarix elmləri doktoru V.Piriyev bu barədə yazır: "XX əsrin 80-ci illərində Azərbaycanın tarixi coğrafiyasının araşdırılması sahəsində oyanış baş verdi, bu sahədə ciddi işlər görüldü və demək olar ki, yeni dövr başladı. ...80-ci illərin ortalarında Azərbaycanın tarixi coğrafiyasına həsr olunmuş ilk kollektiv əsər - «Историческая география Азербайджана» ("Azərbaycanın tarixi coğrafiyası") toplusu 10 min nüsxə ilə çap olundu. Toplunun hazırlanmasına 1982-ci ilin ortalarından başlanılmış və təxminən, 2 il sonra toplu nəşriyyata təqdim olunmuşdur" (93, s. 23). Topluda Azərbaycanın digər əraziləri ilə yanaşı, qədim Naxçıvanın da tarixi coğrafiyasına dair qiymətli faktlar öz əksini tapmışdır (181).

Orta əsrlər dövründə Naxçıvan diyarı şəhərlərinin tarixi-



coğrafi mövqeyi, inkişafı, memarlıq abidələri, əhalisinin tərkibi və məşğuliyyətinin tədqiqi Vətən tarixi üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Naxçıvan bölgəsinin XII-XVIII əsrin birinci yarısında tarixi coğrafiyasının öyrənilməsi aşağıdakı cəhətlərdən aktualdır:

1. Azərbaycan ərazisində yaranmış dövlətlərin əsas idarəçilik mərkəzlərindən biri kimi bölgənin tarixi, strateji, coğrafi əhəmiyyətinin öyrənilməsi baxımından;
2. Naxçıvanın təbii-coğrafi şəraitinin bölgənin strateji müdafiə potensialına təsirinin müəyyən edilməsi baxımından;
3. Türkdilli tayfaların (protoazərbaycanlıların) ilk vətənlərindən biri kimi Naxçıvan bölgəsində orta əsrlərdə mövcud olan demoqrafik durumun öyrənilməsi baxımından;
4. Orta əsrlərdə bölgədə baş vermiş etno-demoqrafik proseslərin sonrakı dövrdə Naxçıvan bölgəsinin tarixi taleyinə təsiri baxımından;
5. Naxçıvanın strateji-coğrafi mövqeyinin ticarət əlaqələrinin inkişafı üçün əhəmiyyətinin öyrənilməsi baxımından;
6. Azərbaycanın ayrılmaz tərkib hissəsi və azərbaycanlıların tarixi vətəni olan Naxçıvana qarşı ərazi iddialarının tarixi-coğrafi faktlarla əsassızlığının sübuta yetirilməsi baxımından.

Sovet dövründə Naxçıvanın tarixi coğrafiyasının müəyyən məsələlərinə ayrı-ayrı tədqiqatlarda toxunulsa da, bu sahədə xüsusi tədqiqatlar, demək olar ki, aparılmamışdır. Ümumilikdə isə Azərbaycanın Sovet dövrü tarixşünaslığında tarixçi alimlərdən Z.Bünyadov (25; 165; 166), O.Əfəndiyev (27; 213), M.Heydərov (170), R.Məmmədov (72), R.Hüseynov (176), Ə.Rəhmani (200; 201) və başqaları əsərlərində Naxçıvanın tarixi coğrafiyası ilə bağlı bəzi məsələlərdən bəhs etmişlər.

Tədqiqatlarımız üçün 1987-ci ildə "Azərbaycanın tarixi coğrafiyası" adı altında akademik Ziya Bünyadovun baş redaktorluğu ilə rus dilində çap edilmiş kitabdakı məqalələr də istiqamətverici rol oynamışdır (181). Topluda Z.Bünyadovun "Eldənizlərin idarəçiliyi dövründə Azərbaycanın etnosiyasi sərhədləri", V.Piriyevin "XIII – XV əsrin əvvəllərində Azərbaycanın tarixi coğrafiyasına dair",

O.Əfəndiyevin "XV-XVI əsrlərdə Azərbaycan dövlətlərinin ərazisi və sərhədləri", Ə.Rəhmaninin "Azərbaycan: XVI əsrin sonu-XVII əsrdə: sərhədlər və inzibati bölgü", F.Əliyevin "Azərbaycan XVIII əsrdə" məqalələrində Naxçıvanın tarixi coğrafiyası, şəhərləri, inzibati ərazi bölgüsünə aid müəyyən məlumatlar əksini tapmışdır (181).

Naxçıvanın tarixi coğrafiyasının öyrənilməsi üçün R.Məmmədovun 1977-ci ildə nəşr edilmiş "Naxçıvan şəhərinin tarixi oçerki" əsəri (72), S.Babayevin "Səyyahlar Naxçıvan haqqında" (13) məqaləsi də əhəmiyyətli faktları əks etdirir. Tədqiq etdiyimiz dövrün xronoloji çərçivəsinə uyğun olaraq, Naxçıvan diyarının şəhərləri haqqında məlumat verən ən qiymətli tədqiqat əsərlərindən biri M.Heydərovun 1982-ci ildə rus dilində çap edilmiş "XIII-XVII əsrlərdə Azərbaycanda şəhərlər və şəhər təsərrüfatı" adlı monoqrafiyasıdır (170).

Türk və rus müəlliflərindən F.Sümər (120), F.Kırzıoğlu (144; 145), E.Kürkçüoğlu (146), V.Leviatov (185), İ.Petruşevski (195), V.Minorski (219) və başqaları əsərlərində Naxçıvanın tarixi coğrafiyası ilə bağlı bəzi məsələlərə toxunmuşlar. L.M.Çaumont (214), J.Hammer (141), V.Hinz (143), H.Hovort (215), L.Lokhart (218) və bir sıra digər Qərbi Avropa müəlliflərinin müxtəlif məsələlərə həsr etdikləri əsərlərdə də Naxçıvanın tarixi coğrafiyasına təsir göstərən müəyyən proseslərdən bəhs olunmuşdur.

Azərbaycanın, o cümlədən Naxçıvanın tarixi coğrafiyasının öyrənilməsi istiqaməti ümummilli lider Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonrakı dövrdə xüsusi diqqət mərkəzində saxlanılmışdır. 1994-cü ildə Azərbaycan Ensiklopediyası tərəfindən hazırlanmış "Azərbaycanın tarixi xəritələri" adlı nəfis atlas işıq üzü görmüş, burada Azərbaycanın, o cümlədən Naxçıvanın müxtəlif tarixi dövrlərdəki coğrafi durumunu əks etdirən 24 xəritə verilmişdir (8).

XX əsrin 90-cı illərinin ortalarından başlayaraq Naxçıvanın tarixi coğrafiyasının öyrənilməsi istiqamətində xeyli işlər görülmüş, Naxçıvanın tarixinin müxtəlif dövrlərinə həsr edilmiş monoqrafiya və məqalələr çap olunmuşdur. Naxçıvan Muxtar Respublikasının tarixinin və tarixi coğrafiyasının öyrənilməsində Naxçıvan Muxtar



Respublikasının 75 illik yubileyinin keçirilməsi ilə bağlı ümummilli lider Heydər Əliyev tərəfindən imzalanan fərmanın da böyük əhəmiyyəti olmuşdur. Bu tarixi sənədin özündə Naxçıvanın tarixi coğrafiyasının bəzi vacib məsələlərinə toxunulmuş, Naxçıvan Muxtar Respublikasının beynəlxalq müqavilələrlə təsbit olunmuş sərhədlərinin, coğrafiyasının sonralar necə dəyişməsi təkcə dövlət rəhbəri kimi deyil, həm də bir tarixçi peşəkarlığı ilə qeyd edilmişdir (122, s. 7).

Azərbaycan Respublikası Prezidentinin 12 fevral 1999-cu il tarixli 72 saylı "Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında" Sərəncamının II bəndinə uyğun olaraq, Naxçıvanın tarixini və mədəniyyətini tədqiq edən elmi qurum yaradılmışdır (84, s. 11). Qurumun qarşısına qoyulan əsas vəzifələrdən biri də Naxçıvan diyarının tarixi coğrafiyasına həsr olunmuş kitabların nəşrinə nail olunması və "Naxçıvan tarixi" adlı xəritələr toplusunun hazırlanması olmuşdur. Fəaliyyət müddəti az olan bu elmi qurum bütün vəzifələri tam yerinə yetirə bilməsə də, burada bir sıra ciddi nəticələr əldə olunmuş və gələcək tədqiqatlar üçün istiqamətverici rol oynamışdır. Məhz bu ideyaların işığında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi altında "Naxçıvan tarixi atlası" hazırlanaraq 2010-cu ildə nəşr edilmişdir (83, s. 3). 2013-2015-ci illər ərzində isə üçcildlik "Naxçıvan tarixi" nəşr edilmiş, burada Naxçıvanın tarixi coğrafiyası ilə bağlı da qiymətli məlumatlar öz əksini tapmışdır.

Ümummilli lider Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli Sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması Naxçıvanın tarixinin bütün sahələri ilə yanaşı, diyarın tarixi coğrafiyasının tədqiqi istiqamətində müəyyən işlərin görülməsinə də təkan vermişdir. Naxçıvan xanlığının müfəssəl və daha dəqiq tarixi xəritəsinin hazırlanması da məhz bölmə əməkdaşlarının çoxillik tədqiqatlarının nəticəsi olmuşdur (108, s.173).

Müasir dövr tarixşünaslığımızda Naxçıvanın tarixi coğrafiyasının müxtəlif məsələlərinə aid xüsusi əsər yazmış

müəlliflər sırasında Vaqif Piriyevin (93; 94), İsmayıl Hacıyevin (45; 46; 48), Nailə Vəlixanlının (128, 128a), Fəxrəddin Səfərlinin (112; 148), Sahibə Budaqovanın (24) və başqalarının adlarını çəkə bilərik. Seyidağa Onullahi (90; 91), Yaqub Mahmudov (67), Vəli Əliyev (37), Tofiq Mustafazadə (76; 77), Musa Quliyev (107; 108), Səfərəli Babayev (12; 13), Elbrus İsayev (54; 55) və başqa müəlliflərin əsərlərində də Naxçıvanın tarixi coğrafiyası ilə bağlı müxtəlif məsələlərə toxunulmuşdur.

Monoqrafiyada qarşıya qoyulan əsas məqsəd Naxçıvan diyarının konkret götürülmüş xoronoloji çərçivədə tarixi coğrafiyasının tədqiqi, sərhədlərinin, yaşayış məntəqələrinin, əhalisinin etnik və dini tərkibinin öyrənilməsidir. Bu məqsədə çatmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- XII-XVIII əsrin birinci yarısını əhatə edən xronoloji dövrdə Naxçıvan diyarının tərkibinə daxil olduğu dövlətlərin siyasi coğrafiyasında yerinin öyrənilməsi;
- Naxçıvan diyarı ərazisinin hüdudlarının, inzibati bölgüsünün tədqiqi və müqayisəli təhlilinin aparılması;
- Tədqiq edilən dövrlərdə Naxçıvan ərazisində iri yaşayış məntəqələrinin tarixi-coğrafi mövqelərinin öyrənilməsi, lokalizasiyasının aparılması;
- Naxçıvan diyarı əhalisinin etnik və dini tərkibinin müəyyənləşdirilməsi;
- Əhalinin miqrasiyası, onun səbəb və nəticələrinin müəyyənləşdirilməsi.

Monoqrafiya milli-tarixi təcrübənin əsas xüsusiyyətləri nəzərə alınmaqla nəzəri yanaşma, qarşılıqlı müqayisə, təhlil və elmi tarixi ümumiləşdirmə kimi tədqiqat metodlarının tətbiqi əsasında yazılmışdır. Əsərin yazılması zamanı dünya və vətən tarixşünaslığında əldə edilmiş mühüm elmi nailiyyətlərə və müddəalara istinad olunmuşdur.

Monoqrafiyanın yazılması zamanı ümumi tarixi tədqiqat metodları ilə yanaşı, xüsusi tarixi və coğrafi tədqiqat metodlarından da istifadə edilmişdir. Tədqiqata cəlb olunan qaynaqlara tənqidi yanaşılmış, faktların qarşılıqlı olaraq təhlili və müqayisəsi aparılmış,



alınan elmi nəticələr ümumiləşdirilmişdir.

Araşdırmalarımızı apararkən biz müxtəlif ümumi tarixi metodların tətbiqi ilə yanaşı, tarixi coğrafiyanın özü üçün xarakterik olan aşağıdakı metodları tətbiq etməklə müxtəlif elmi problemlərin həllinə çalışmışıq. Naxçıvan diyarının tarixi coğrafiyasını öyrənərkən tətbiq etdiyimiz əsas tarixi-coğrafi metodlardan biri proqressiv metod oldu. Bu metodu tətbiq edərək biz əvvəllər yaşayış məskəni olmuş, sonradan isə tərk edilmiş müxtəlif ərazilərdə müşahidələr aparmaqla ərazilərin hazırda necə olduğunu müəyyənləşdirdik və tarixi mənbələrdə verilən məlumatlarla qarşılaşdırma apardıq. Bu isə bir sıra maraqlı nəticələrə gəlməyimizə imkan verdi.

Reduktiv metodun tətbiqi nəticəsində isə biz müxtəlif tayfa qruplarının keçmiş məskunlaşma areallarının, o arealların bugünkü əhalisinin tərkibinə və sonrakı dövr inkişafına təsiri məsələlərini müşahidə etdik. Məsələn, Qarabağlar və Yaycı ərazilərində monqol və türk tayfalarının axınları zamanında məskunlaşmış əhalinin ərazilərin adlandırılmasında öz izlərini qoyması, bu tayfaların bölgədə yaşayan əhalinin bugünkü ənənlərinə təsiri ilə bağlı əldə etdiyimiz nəticələr məhz bu metodun tətbiqi ilə gerçəkləşdirilmişdir. Bu metodun həm retrospektiv, həm də retroqressiv növlərini tətbiq etsək də, Naxçıvan bölgəsinin tarixi coğrafiyasının öyrənilməsi üçün retroqressiv metodun tətbiqi daha əlverişli olmuşdur.

Bundan əlavə, apardığımız tədqiqatlar zamanı tərəfimizdən tarixi coğrafiyanın tipoloji, komparativ-qarşılaşdırma metodu da tətbiq olunmuşdur. Danimarka şərqşünası H.Mortensenin Şərqi Avropanın tarixi coğrafiyasının öyrənilməsi zamanı tətbiq etdiyi komparativ-qarşılaşdırma metodunun (152, s.193) tətbiqi xüsusilə Eldənizlər (Azərbaycan Atabəyləri) dövründə bölgənin sərhədlərinin müəyyənləşdirilməsi zamanı əlverişli olmuşdur. Belə ki, bu dövrdə bölgənin sərhədləri və daxili inzibati bölgüsü ilə bağlı mənbələrdə konkret məlumatlar olmadığından qonşu vilayətlərin sərhədləri və inzibati bölgüsünün xarakterizə edilməsi ilə Naxçıvan vilayətinin sərhədlərini xeyli dəqiqləşdirmək mümkün olmuşdur.

Əsər yazılarkən ilkin tarixi mənbələrdən, arxiv sənədlərindən, mövzu ilə əlaqəli olan tədqiqat əsərlərindən, çöl və kartoqrafik

materiallarından istifadə edilmişdir. Mövzu ilə əlaqədar ilkin tarixi mənbələrin araşdırılması zamanı türk, fars, ingilis, rus dillərində çoxsaylı mənbələrdən istifadə olunmuşdur.

Naxçıvanın XII-XVIII əsrlər tarixi coğrafiyasının öyrənilməsi üçün orta əsr alban mənbələri, ərəbdilli, farsdilli və türkdilli mənbələr xüsusi əhəmiyyət daşıyır. "Kitabi-Dədə Qorqud" dastanı (65), Nizami Gəncəvinin "Xosrov və Şirin" poeması (44), Mxitar Qoşun "Alban salnaməsi" (58), Əhməd bin Mahmudun "Səlcuqnamə" (133), İbn əl-Əsirin "Əl-kamil fi-t-tarix" (50; 234), Yaqut Həməvinin "Mucəm əl-buldən" (211), Həmdullah Qəzvininin "Nüzhət əl-qülub" (211), Əbu Bəkr əl-Qütbi əl-Əhərinin "Tarix-e Şeyx Uveys" (28), Nizaməddin Şaminin "Zəfər-namə" (123), Əs-Səmaninin "Kitab əl-ənsab" (38), naməlum müəllifin "Əcaib-əd-dünya" (92), Əbdürrəşid Bakuvinin "Kitab təlxis əl-asar və əcaib əl-məlik əl qəhhar" (19), Zeynəddin bin Həmdullah Qəzvininin "Zeyl-e tarixe qozide" (103), Əbubəkr Tihraninin "Kitabi-Diyarbəkriyyə" (126), Həsən bəy Rumlunun "Əhsən üt-təvarix" (42), İsgəndər bəy Münşinin "Tarix-e-aləmaraye-Abbasi" (78),Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" (18) əsərləri və b. bu mənada xüsusilə qeyd edilməlidir.

Naxçıvanın XII-XVIII əsrlər tarixi coğrafiyasının öyrənilməsi üçün orta əsr Avropa müəlliflərinin (tarixçi-salnaməçi, səyyah və coğrafiyaşünasları) əsərləri xüsusi əhəmiyyət daşıyır. XIII əsrin flamandiyalı səyyahı Vilhelm de Rubruk (198; 199), XIV əsrdə yaşamış alman İohan Şiltberqer (222; 237), XV əsrin 70-ci illərində Azərbaycanda olmuş venesiyalı diplomat İ.Barbaro, venesiyalı səfir A.Kontarini, XVI əsrin 70-ci illərində Səfəvilər sarayına gəlmiş Venesiya elçisi de Alessandri (130), XVII əsr müəlliflərindən J.Tavernye (153; 223; 226), fransız səyyahı J.Şardən (124), polyak J.Kruşinski (66) və başqalarının yazdıqları əsərlərdə Naxçıvanın tarixi coğrafiyasına aid qiymətli məlumatlar verilir.

Naxçıvanın XIV əsr tarixi coğrafiyasının öyrənilməsi üçün ən əhəmiyyətli mənbələrdən olan İohan Şiltberqerin "Səyahət kitabı" tərəfimizdən geniş tədqiqata cəlb olunmuş və bu dövr tarixi coğrafiyasına aid bir sıra məsələlərə aydınlıq gətirilmişdir. Qeyd



edək ki, XIX əsrdə əsərin tərcüməsi zamanı bir çox faktlar təhrifə uğradılmışdır. Lakin bizim əsər üzərində apardığımız iş nəticəsində bir çox təhrif olunmuş məsələlərə aydınlıq gətirilmişdir. Qeyd edək ki, bu səyahətnaməni 1867-ci ildə Novorossiya (Odessa) Universitetinin professoru, tarix elmləri doktoru F.K.Braun (1804-1880) "İohann Şiltberqerin səyahətnaməsi" adı altında qədim alman dilindən rus dilinə tərcümə etmişdir (237). Məhz Braunun tərcüməsindən sonra "Səyahətnamə" ingilis və alman dillərində çap edilmişdir. Azərbaycanda isə səyahətnamə akademik Ziya Bünyadovun redaktəsi ilə 1984-cü ildə rus dilində çapdan çıxmışdır. Bu kitab Türkiyədə "Türkler ve Tatarlar arasında (1394-1427)" adı ilə tanınır.

Mövzunun öyrənilməsi üçün Osmanlı mənbələrində verilən məlumatlar da xüsusi maraq doğurur. Evliya Çələbinin "Səyahətnamə"si (26), Mustafa Cəlalzadənin "Səlimnamə"si (136), Heydər Çələbinin "Ruznamə"si (142) belə mənbələr sırasındadır.

Naxçıvanın XVI-XVIII əsrlərdə tarixi coğrafiyasının öyrənilməsi üçün Osmanlı Başbakanlıq Arxivində saxlanılan rəsmi mənbələr xüsusilə əhəmiyyətlidir. Osmanlıların idarəçiliyi dövründə tərtib olunmuş "müfəssəl" və "icmal" dəftərlər bu dövr Naxçıvanın tarixi coğrafiyasının öyrənilməsi üçün ən zəngin mənbələrdir. Osmanlıların birinci işğal dövrü 1587-1603-cü illər arasındakı dövrü əhatə edir ki, bu dövrdə Naxçıvanın tarixi coğrafiyasına dair əsas mənbələr İstanbul Başbakanlıq Arxivində saxlanılan 53, 263 nömrəli "Mühimmə dəftər"ləri, "İrəvan əyalətinin müfəssəl dəftəri" (1590) hesab edilir (82, s. 9-10).

Monoqrafiyanın yazılmasında 1590-cı ilə aid "İrəvan əyalətinin müfəssəl dəftəri"ndən, 1727-ci ilə aid "Naxçıvan sancağının müfəssəl dəftəri"ndən, 1595-ci ilə aid olduğu ehtimal edilən "İrəvan əyalətinin icmal dəftəri"ndən və 1727-ci ilə aid "İrəvan əyalətinin icmal dəftəri"ndən istifadə edilmişdir ( 53; 82).

Beləliklə də, Azərbaycan tarixində ilk dəfə olaraq Naxçıvan diyarının XII-XVIII əsrin I yarısında tarixi coğrafiyası kompleks şəkildə öyrənilmiş, Naxçıvan diyarının ərazisi və inzibati ərazi bölgüsündə dəyişikliklər xronolji çərçivədə izlənilmiş, Naxçıvan

diyarının müxtəlif dövrlərdə daxil olduğu inzibati ərazi vahidlərinin sahəsi kartoqrafik və peyk çəkilişləri vasitəsilə hesablanmışdır. Bundan əlavə tədqiqatın xronoloji çərçivəsinə uyğun olaraq, Naxçıvan diyarının və onun ərazi vahidlərinin xəritələri tərtib edilmiş, bəhs olunan dövrdə əhalinin etnik və dini tərkibi etibarlı elmi mənbələr əsasında tədqiq edilmişdir.



1062774

# I FƏSİL

# XII – XV ƏSRLƏRDƏ NAXÇIVANIN TARİXİ COĞRAFİYASI

Azərbaycan Milli Kitabxanası

## 1.1. Eldənizlər (Azərbaycan Atabəyləri) dövründə Naxçıvan diyarının tarixi coğrafiyası

Eldənizlər (Atabəylər) dövlətinin mövcud olduğu dövr (1136-1225) şimallı-cənublu Azərbaycan torpaqlarının vahid dövlətin tərkibində birləşdirilməsi dövrü kimi xarakterizə olunur. Azərbaycan tarixinin önəmli ınərhələlərindən biri olan bu dövr tarixi-coğrafi proseslərin öyrənilməsi baxımından xüsusi maraq doğurur. Bu dövlətin ilk paytaxtı NaxçıvanAzərbaycan türklərinin birmənalı şəkildə avtoxton və dominant olduqları şəhərlər olmuşdur.1146-cı ildən 1175-ci ilə qədər Naxçıvan bu dövlətin paytaxt şəhəri, 1175-ci ildən 1225-ci ilə qədərki dövrdə isə əsas idarəçilik mərkəzlərindən biri idi.

Eldənizlər dövlətinin mövcudluğu illərində ölkənin ərazisi bir sıra vilayət və əyalətlərə bölünmüşdür (93, s. 59). Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərinə istinad etsək deyə bilərik ki, Eldənizlər dövlətinin sahib olduğu ərazilər 7 vilayətə bölünmüşdü. Ehtimal ki, Atabəylərin tərifini verən Nizami Gəncəvi məhz buna işarə edərək əsərində yazmışdır:

Qılıncı buluddur, dəmir yandırar,
Bu qılıncdır yeddi ölkəyə açar.
Altı tağ çadrını daşıyır cəhət,
Doqquz göy də edir ona itaət (44, s. 47).

***

Atabəy Eldəgiz "Əlvida" deyə
Dörd təkbir söylədi yeddi ölkəyə (44, s. 49-50).

***

Yeddi ölkə şahı, var çox hünəri,
Dinə və dövlətə verdi zəfəri.
Tacı Aydan yüksək o Qızıl Arslan
Qərbin pənahıdır, Şərqə hökmran (44, s. 57).

Tarix elmləri doktoru V.Piriyev Eldənizlər dövlətinin tərkibi-



nə daxil olan vilayətlər sırasında Azərbaycan, Arran, Əcəm (Fars) İraqı, Rey və Həmədan vilayətləri ilə yanaşı, Naxçıvan vilayətinin də adını çəkmişdir (93, s.59). Daha sonra isə o, Naxçıvanın adını Qaradağ, Talış, Arran, Şirvan, Muğan və Şəki ilə birlikdə əyalətlər sırasında da qeyd etmişdir. Bu baxımdan bəhs etdiyimiz dövrdə Naxçıvanın vilayət, yoxsa əyalət statusu daşıdığını müəyyənləşdirmək tədqiqatımızın qarşısında duran əsas məsələlərdən birincisidir.

Dövrün tarixini tədqiq edən alimlər arasında bu zaman Naxçıvanın ərazisinin Arran, yoxsa Azərbaycan vilayətinin tərkibinə daxil olması barədə fikirlər də müxtəlifdir. Bir çox müəlliflər Yaqut əl-Həməvinin "Mucəm əl-buldən" əsərində Arranla bağlı qeyd etdiyi fikri əsas götürərək, Naxçıvan ərazisinin Arranın tərkibinə daxil olduğunu yazırlar. Belə ki, XII-XIII əsrlərdə Azərbaycana səyahət etmiş Y.Həməvi "bu çaydan (Araz – E.K.) şimalda və qərbdə nə yerləşirsə Arrana, cənubda nə yerləşirsə Azərbaycana aiddir" yazmışdır (211, s. 10). Lakin onu da nəzərə almaq lazımdır ki, Y.Həməvi səyahətləri ilə yanaşı, bir sıra özündən əvvəlki dövrlərin müəllifləri tərəfindən yazılmış mənbələrdən də istifadə etmiş və bəzən onların məlumatlarını təkrarlamışdır. Türkiyəli professor, doktor Faruk Toprak bu barədə yazır ki, Y.Həməvi özündən əvvəlki mənbələrə, o cümlədən İbn Xordadbeh, İbn Havqəl, əl-İstəxri, əl-Bəkri kimi müəlliflərin əsərlərinə istinad etmişdir (154, s. 175).

İnkaredilməz faktdır ki, Səlcuqlardan əvvəlki dövrlərdə Naxçıvan və ətraf ərazilərin Arranın tərkibinə daxil olduğu vaxtlar olmuşdur. Naxçıvan və ətraf ərazilər üçün ilkin orta əsrlər dövründə işlədilmiş "Basfuracan" adının, eyni zamanda Naxçıvan şəhərinin adının "Nəşəva" formasının "Mucəm əl-buldən"də yer alması da təsdiq edir ki, bu ərazi haqqında məlumatları yazarkən ərəb müəllifi özündən öncəki dövrlədə yazılmış məlumatlardan istifadə etmişdir (211, s. 20). Digər tərəfdən, Y.Həməvinin özü də əsərinin sonrakı hissələrində Kabban (Qafan), Qiran (Kiran), Naxcuvan, Naşava şəhərlərinin Azərbaycan vilayətinin ərazisində və yaxud Azərbaycanla Baylakan arasında yerləşdiyini göstərmişdir. Y.Həməvinin Naxçıvan ərazisində şəxsən olmadığını, məlumatları

ikinci və üçüncü mənbəyə istinadən verdiyini sübut edən digər fakt diyarın şəhərləri haqqında bəhs edərkən "deyirlər ki", "bir sakini dedi ki" ifadələrini işlətməsidir. Məsələn, Nəşəva ilə bağlı o yazır: "Nəşəva – Azərbaycanda şəhər və yaxud bəziləri deyir ki, o, Arrandadır. ...Xalq arasında o, Naxcuvan və ya Nakcuvan kimi məşhurdur" (211, s. 32).

Digər bir qrup tədqiqatçılar isə İbn əl-Əsir, Sədrəddin Əli əl-Hüseyni və başqa orta əsr müəlliflərinə istinad etməkə bu zaman Naxçıvan ərazisinin birmənalı şəkildə Azərbaycan vilayətinin tərkibinə daxil olması qənaətinə gəlmişlər (170, s. 24). Təsadüfi deyildir ki, İbn əl-Əsir monqolların Azərbaycana 1221-1222-ci illərdə baş tutan yürüşlərindən bəhs edərkən Naxçıvanın adını Azərbaycan vilayətinin şəhərlərindən biri kimi çəkmişdir (50, s. 170).

Atabəylərin hakimiyyəti dövrünə aid bir sıra faktların qarşılaşdırılması belə bir nəticəyə gəlməyə əsas verir ki, Şəmsəddin Eldənizin Arrana hakim göndərildiyi dövrdə Naxçıvan Azərbaycan vilayətinin tərkibində bir əyalət statusunda olmuşdur. Çünki Atabəy Şəmsəddin Eldəniz sadəcə Məsudun Azərbaycan vilayətindəki valisi Çavlinin ölümündən sonra Naxçıvanı tuta bilmiş və dövlətin paytaxtını Naxçıvana köçürmüşdü. Mxitar Qoşa istinad edən Ziya Bünyadov bu barədə yazır ki, Atabəy Şəmsəddin Eldəniz Sultan Məsudun Azərbaycandakı canişini (valisi) Çavlinin ölümündən sonra (1146) yaranmış qarışıqlıqdan istifadə etmiş və Naxçıvan bölgəsini öz hakimliyinə birləşdirmişdi (165, s. 179).

Dövlətin yaranmasından sonra Şəmsəddin Eldəniz bir sıra digər amillərlə yanaşı, Naxçıvanın strateji mövqeyini nəzərə alaraq, bu əyaləti Azərbaycanın tərkibində xüsusi "xass vilayəti" və yaxud "iqta vilayəti"nə çevirmişdir. Məhz bu səbəbdəndir ki, dövrün tarixçisi Mxitar Qoş Atabəy Şəmsəddin Eldənizin "Naxçıvan şəhəri və vilayətinin hakimi" olduğunu vurğulamışdır (58, s. 197). Fikrimizcə, Naxçıvanın mərkəz kimi seçilməsində strateji mövqedən əlavə, möhkəmləndirilmiş qalalar və bölgədə məskunlaşmış qıpçaq tayfaları amili də rol oynamışdır.

Apardığımız tədqiqatlar sübut edir ki, Məhəmməd Cahan



Pəhləvanın hakimiyəti dövründə inzibati quruluşda bəzi dəyişikliklər edilmişdir. Əgər dövlətin yarandığı ilk dövrlərdə biz Naxçıvanı Azərbaycan vilayəti tərkibində bir sərhəd dairəsi kimi görürüksə, Cahan Pəhləvanın dövründə Naxçıvan ayrıca olaraq vilayət statusu daşımışdır. Bunu Azərbaycan, Arran, Rey, Həmədan, Əcəm İraqı ilə yanaşı, Naxçıvana da valinin təyin olunması barədə mənbələrdə verilən məlumatlar sübut edir (161, s. 200, 208, 209, 229). Z.Bünyadov bir sıra orta əsr müəlliflərinə istinad etməklə (Əl-Hüseyni, İbn İsfəndiyar, ən-Nəsəvi və b.) yazır ki, Cahan Pəhləvan hakimiyyətə gəldikdən sonra qardaşı Qızıl Arslanı Azərbaycan və Arrana vali təyin etmişdi. Sonralar bu vəzifəyə Cahan Pəhləvanın böyük oğlu Əbu Bəkr təyin edilmişdi. Rey, İsfahan və İraqın bir hissəsinin valisi isə Məhəmməd Cahan Pəhləvanın digər oğlu Qutluq İnanc Mahmud idi. Həmədan valisi Müzəffərəddin Özbək idi. Ən-Nəsəvinin qeydlərindən isə görünür ki, Məhəmməd Cahan Pəhləvanın qızı Cəlaliyyə Naxçıvan valisi təyin edilmişdir (165, s. 188). Əgər bu dövrdə Naxçıvan Azərbaycan və ya Arran vilayətinin tərkibində olsaydı, nə hökmdar oraya vali təyin edər, nə də orta əsr müəllifləri bunu xüsusi olaraq vurğulamağı lüzum bilərdilər.

İbn əl-Əsirin "Əl-kamil fit-tarix" əsərində verdiyi məlumatlar isə sübut edir ki, son Eldənizlər dövründə - Xarəzm hökmdarı Sultan Cəlaləddinin və monqolların hücumları ərəfəsində Naxçıvan yenidən Azərbaycan vilayətinə tabe edilmişdir. Belə ki, dövrün hadisələrindən bəhs edən müəllif yazır: "Azərbaycan və Arran onun (Özbəyin –E.K.) hakimiyyəti altında idi, lakin düşmənlər ölkəni işğal etmək istəyərkən o, müdafiəni təşkil etmək üçün tamamilə gücsüz idi. Tatarların Həmədana daxil olduğunu eşidəndə o, Təbrizi tərk etdi və Naxçıvana getdi, ailəsini isə özündən uzaqlaşdırmaq üçün Xoya göndərdi" (50, s. 170; 234).

***Sərhədlər və inzibati ərazi quruluşu.*** Eldənizlər dövründə Naxçıvan ərazisinin sərhədlərinin müəyyənləşdirilməsi bir sıra çətinliklər törədir. Akademik Z.Bünyadovun da yazdığı kimi, Atabəylər dövründə vilayətlərin dəqiq müəyyənləşdirilmiş sərhədləri olmamışdır (165, s. 189). Lakin bir çox faktlar deməyə əsas verir ki, bəhs olunan dövrdə Naxçıvan vilayəti günümüzdəkindən daha geniş

əraziləri əhatə etmişdir. Atabəy Şəmsəddin Eldəniz Naxçıvanı "xass vilayəti"nə çevirdikdən sonra, bir sıra ətraf ərazilər də məhz bu vilayətin tərkibinə daxil edilmişdir.

Yuxarıda da qeyd etdiyimiz kimi, Eldənizlər dövründə Naxçıvan vilayətinin sərhədlərini və inzibati ərazi bölgüsünü əks etdirən konkret mənbə olmadığı üçün biz komparativ-qarşılaşdırma metodunu tətbiq etməklə vilayətin sərhədlərini dəqiqləşdirməyə çalışdıq. Bu metoda uyğun olaraq, qonşu ərazilərin sərhədlərini təsvir edən mənbələr və xəritələrə əsasən, Naxçıvan vilayətinin sərhədləri ilə bağlı xeyli məsələlərə aydınlıq gətirmək mümkün olmuşdur.

Mənbələrin verdiyi məlumatlar əsasında apardığımız təhlillər göstərir ki, XII əsrin 60-cı illərinə qədər Naxçıvan vilayətinin sərhədləri aşağıdakı kimi olmuşdur. Vilayət qərbdən alban Sünik hakimliyinin Bəycivazlı dairəsi, şimaldan Sünik hakimliyinin Dərələyəz və Gərgər dairələri, şərqdən isə Qafan dairəsi ilə həmsərhəd idi (Şəkil 1, 2) (172, s. 86-87; 219, s. 68-69). Yaqut Həməvinin "Mücəm əl-Buldən" əsərində monqollara qədərki dövrdə vilayət tabelikli inzibati vahidlərin "dairə" kimi təsvir edildiyini görürük (211, s. 7-32). Deməli, Naxçıvan vilayəti də dairələrə (mahallara) bölünmüşdü. Valilərə tabe olan rəislər şəhərləri idarə edirdilər. Onlar həmçinin şəhər ətrafı ərazi və kəndlərin də idarəçiləri sayılırdılar (165, s. 191).

Yenə də komparativ-qarşılaşdırma metodunun tətbiqi nəticəsində Naxçıvan vilayətinin tərkibinə Naxçıvan, Şərur, Azadciran, Əlincə (Yeröncək), Şahbuz, Qapanat (və ya Kabban) dairələrinin (mahallarının) daxil olduğunu müəyyənləşdirmək mümkün olmuşdur (Şəkil 4). Apardığımız kartoqrafik hesablamalara əsasən deyə bilərik ki, bu dövrdə Naxçıvan vilayətinin ərazisi, təqribən, 9609 $km^2$ olmuşdur (Şəkil 3).

Vilayətin mərkəzi dairəsi sayılan Naxçıvan dairəsi qərbdən Şərur, şərqdən Azadciran, şimaldan Şahbuz dairələri ilə həmsərhəd idi. Dairənin cənub sərhədləri Araz çayından keçirdi. Təqribi hesablamalarımız göstərir ki, bu dairənin ərazisi bəhs etdiyimiz dövrdə 1874 $km^2$ idi.

Şərur dairəsi bugünkü Azərbaycan Respublikasının Kəngərli



rayonunun bir hissəsini, Şərur və Sədərək rayonlarını, indiki Ermənistan Respublikasının Ararat mərzinin (əyalətinin) böyük bir hissəsini və Vayots Dzor (Soylan və Keşişkənd rayonları) mərzinin ərazisini əhatə edirdi. Təqribi hesablamalarımıza görə, bu dairənin ərazisi, təqribən, 4027 $km^2$ olmuşdur. Qeyd edək ki, indi Ermənistan tərəfindən Vayots Dzor və Ararat mərzlərinə bölünmüş ərazilər Azərbaycanın tarixi Dərələyəz mahalının torpaqlarıdır.

Vilayətin Azadciran dairəsi şimal-qərbdən Əlincə (Yeröncək) dairəsi, şimaldan Sünik hakimliyinin Gərgər dairəsi, şərqdən Sünik hakimliyinin Qapanat dairəsi, cənubdan Araz çayı, qərbdən Naxçıvan dairəsi ilə həmsərhəd idi (172, s. 86-87). Tarixi mənbələrdə Azadciran adına ilk dəfə əl-İstəxrinin "Məsalik vəl-məmalik" kitabında "Xadciran" formasında rast gəlinmişdir (6, s. 13). Bəhs olunan dövrün müəlliflərindən Yaqut əl-Həməvi ərazinin adını "Kiran" və yaxud "Qiran" kimi qeyd etmişdir (211, s. 30).

Təqribi kartoqrafik hesablamalarımız göstərir ki, dairənin ərazisi 1628 $km^2$ olmuşdur. Dairənin ərazisində Şahkənd qalası, Kiran, Culfa kimi iri yaşayış məntəqələri yerləşirdi.

Əlincə və Şahbuz dairələri (mahalları) Naxçıvan vilayətinin şimal ərazilərini əhatələyirdi. Əlincə (Yeröncək) mahalının ərazisi, təqribən, 1125 $km^2$ olmuşdur. Tədqiqatlar göstərir ki, bəhs etdiyimiz dövrdə Əlincə mahalına 30 kənd daxil idi (172, s.156). Mahal mərkəzi, fikrimizcə, bu dövrdə ciddi əhəmiyyətə malik olan Əlincə qalası olmuşdur. Xalq etimologiyasına görə, "Əlincə" adının izahı "əlini çək", bəzi tədqiqatçılara görə, "Alancik" ("boş sahə") mənasını verir (80, s. 105-106). XX əsrin əvvəllərində Naxçıvanın tarixi ilə bağlı tədqiqatlar aparmış K.N.Smirnov "Əlincə" sözünün, bəzilərinin fikrincə, "əyləncə" sözündən yarandığını yazmışdır. Sovet-rus tədqiqatçısı bunu qalanın ibadətlə əyləncəni birləşdirən və Səlcuqlar dövründə İran və Azərbaycanın bir sıra ərazilərində yayılmış olan bidətçi ismaili təriqətinin ritualları ilə əlaqələndirmişdir (207, s.110). Bölgədə ismaililərin fəaliyyətləri ilə bağlı Mxitar Qoş "Alban salnaməsi"ndə də bəhs etmiş, Atabəy Şəmsəddin Eldənizin ismaililərə qarşı mübarizəsi haqqında məlumat vermişdir. Mxitar Qoş yazırdı: "Eltkuz Aran ölkəsindəki iğtişaşları yatırdı, zalım

ismaililər tayfasını sakitləşdirdi və beləliklə də, həmin tayfanın Alban ölkəsində tez-tez törətdiyi talanların qarşısını aldı" (58, s. 270). Akademik İsmayıl Hacıyev "Əlincə" yer adının tayfa adı ilə əlaqəli olduğunu qeyd etmişdir. O, göstərir ki, "Əlincə" sözü Ərincə tayfası ilə əlaqəlidir (45, s. 24). "Ərincə" yer adı Göyçə, Ərzurum, İran, Ağbaba elində, Axısqa şəhəri yaxınlığında da olmuşdur. Akademik İ.Hacıyevin qeyd etdiyi kimi, "Əlincə" adının "Ərincə" tayfalarının adı ilə bağlı olması inandırıcıdır. Lakin tayfanın adını yaşadığı ərazidən alması, yoxsa ərazinin adını tayfadan alması məsələsi üzərində dayanmaq istərdik. Bunu müəyyənləşdirmək üçün bir məqama diqqət yetirmək yararlı olardı. Bəzi orta əsr mənbələri Əlincə qalasından "Yeröncək" deyə bəhs edir (128, s. 62). 1225-ci il hadisələrindən bəhs edən Mirxond Əlincə qalasının adını Əlincək kimi qeyd etmişdir (170, s. 124). Sonralar "Əlincək"ə çevrilən "Yeröncək" isə fikrimizcə "İlk məskən, ilk yurd" mənasındadır. Belə ki, sözün birinci hissəsi "Yer" bu gün də dilimizdə və bir çox digər türk dillərində "yer", "məkan", "torpaq" mənalarında işlənir. Əslində bu söz qədim şumer türklərində "ur" kimi ifadə olunan "məskən-şəhər" sözünün sonradan şəkildəyişməsi də hesab oluna bilər (Ur - yur (yer) – yurt – yurd). "Öncək" isə daha çox Mərkəzi Asiyanın türk xalqlarında "giriş", "ilkin", "əvvəlki" mənalarını ifadə edir. Bu söz bu gün dilimizdə öz varlığını "öncə" kimi saxlayır. Beləliklə də, ehtimal edirik ki, Yeröncək - Əlincə qala ilə bağlı ad deyildir, hələ qalanın bu ərazidə inşa olunmasından daha əvvəl bu əraziyə verilən ad olub. Deməli, Ərincə tayfalarının adını ilk məskənlərindən almaları ehtimalı da böyükdür. Təsadüfi deyildir ki, bir sıra tədqiqatçıların fikrincə, Gəmiqayadan Nuh qövmündən ayrılan Nuhun Türk adlı oğlunun və tərəfdarlarının ilk məskənlərindən biri də bura olub və ad da buradan meydana gəlib. AMEA-nın müxbir üzvü Qadir Qədirzadə Nuh peyğəmbərin övladlarından olan Türkün Naxçıvan ərazisində məskunlaşması ilə bağlı yazır: "...xalq arasında yayılmış rəvayətlərdə və müəyyən tarixi qaynaqlarda Nuh peyğəmbərin Türk adlı oğlunun olması söylənilirdi. Beləliklə, hər şey Dünya tufanından sonra Nuh yurdu Naxçıvandan başlanır" (99, s. 28).



Vilayətə daxil olan Şahbuz dairəsinin (mahalının) ərazisi isə, təqribən, 995 $km^2$ olmuşdur. Bəhs olunan dövrdə mahalın tərkibinə 48 kənd daxil idi (172, s.156).

Bu mahal şimalda Sünik hakimliyinin Gərgər mahalı, şərqdən Naxçıvan vilayətinin Əlincə, cənubdan Naxçıvan, qərbdən isə Şərur dairələri (mahalları) ilə həmsərhəd idi.

XII əsrin 60-cı illərində paytaxtı Qapanat olan alban Sünik hakimliyinin süquta uğramasından sonra, onun daxil olduğu ərazilər də Naxçıvan vilayətinin tərkibinə daxil edilmişdir. S.Orbelianinin qeydlərindən məlum olur ki, 1170-ci ildə Atabəy Şəmsəddin Eldənizin sonuncu Sünik qalası olan Baqaberdi tutmasından sonra Sünik hakimliyinin varlığına faktiki olaraq son qoyulmuşdur (172, s. 62). Bu dövrdən başlayaraq bölgənin inzibati ərazi quruluşundan yeni bir dairənin (mahalın) Qapanatın və ya Kabbanın olduğu qənaətinə gəlmək olar. Təsadüfi deyildir ki, orta əsr müəllifi Y.Həməvi Naxçıvan vilayətinin tərkibində olmuş Kabbanı (Qafanı – E.K.) şəhər və dairə (mülk, əmirlik) kimi təsvir etmiş və onun Təbriz və Beyləqan arasında yerləşdiyini yazmışdır (211, s. 29).

XII əsrin 60-cı illərindən XIII əsrin 20-ci illərinin əvvəllərinədək olan dövrdə Naxçıvan vilayəti daha geniş əraziləri əhatə etmişdir. Bu dövrdə vilayətin şimal sərhədləri bir çox hallarda Göyçə gölünün şimal-qərb sahillərinə, şərq sərhədi Bərgüşad mahalına, qərb sərhədləri isə Dəbil şəhərinin qərbinə qədər uzanırdı (93, s. 106) ki, bu da təqribi hesablamalarımıza görə, təqribən, 15 min 835 $km^2$-ə yaxın ərazi deməkdir.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq XII əsrin 60-cı illərindən XIII əsrin 20-ci illərinə qədər olan dövrdə Naxçıvan vilayətinin sərhədlərini təqribi olaraq belə müəyyənləşdirmək olar. Bu dövrdə vilayət şimaldan və şərqdən Arran (Ağvan) vilayətinin Arran əyaləti ilə, cənub-şərqdən Azərbaycan vilayətinin Qaradağ əyaləti ilə, cənubdan Azərbaycan vilayətinin digər əraziləri ilə, qərbdən isə Ərməniyyə ilə həmsərhəd idi. Vilayətin qərb sərhədləri bəzi dövrlərdə Van gölünün şimal-şərq sahillərinə qədər uzanırdı. XII-XIII əsrlərdə yaşamış ərəb müəllifi Y.Həməvi "Mucəm əl-Buldən" əsərində göstərirdi ki, Naxçıvan Ərməniyyə ilə sərhəddə

yerləşir (211, s. 32). Bu fakt bir daha onu sübut edir ki, tarixin bütün dövrlərində olduğu kimi XII-XIII əsrlərdə də Naxçıvan birmənalı şəkildə Azərbaycanın ayrılmaz tərkib hissəsi olmuşdur.

Sibt ibn əl-Cauzinin "Mirat az-zaman" əsərində verdiyi məlumatlara əsaslansaq, 1185-ci ildən başlayaraq Əhlətə qədərki ərazilərin də ya Azərbaycan vilayətinin, ya da Naxçıvan vilayətinin tabeliyində olması fikrini söyləyə bilərik. Əl-Cauzinin verdiyi məlumatlarda Əhlətin konkret olaraq Azərbaycana tabe edildiyi göstərilsə də (165, s. 338), burada Naxçıvana hər hansı işarə yoxdur. Məhz bu səbəbdən də biz artıq bu dövrdə Əhlətin də Naxçıvan vilayətinə tabe edildiyini qəti olaraq söyləyə bilmərik. Lakin XIII-XIV əsrlərə aid olan bir sıra mənbələrdə Əhlət ərazilərinin Naxçıvan vilayətinin (tüməninin) tərkibində olduğunu göstərən faktlar mövcuddur (222, s. 44; 237).

Məhz bu da 1185-ci ildən etibarən Əhlətin məhz Naxçıvan vilayətinin tərkibinə daxil edilməsi ehtimalını gücləndirir. Bəhs olunan dövrdə Naxçıvan vilayətinin dövlət xəzinəsinə verdiyi vergilərilərin miqdarı da vilayətin ərazisinin daha geniş olmasını söyləməyimizə imkan verir. Belə ki, bu dövrdə Naxçıvan vilayəti Eldənizlər dövlətinin xəzinəsinə 2000 tümən vergi verirdi. Bu barədə XIV əsr müəllifi H.Qəzvini yazırdı ki, Səlcuqlar və Atabəylər dövründə xəzinəyə Naxçıvan və Talış 2000 tümən, Muğan və Aran 300 tümən, Şirvan 100 tümən, Quştəsfi (Kür və Arazın delta ərazisi) 100 tümən pul verirdi (176, s. 124).

***Şəhərlər, iri yaşayış məntəqələri və qalalar.*** Ərazinin əlverişli strateji-coğrafi mövqeyini nəzərə alan Eldənizlər burada şəhərlərin inkişafı və tərəqqisinə, qalaların möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına xüsusi diqqət yetirirdilər. Orta əsr mənbələrində Naxçıvan şəhəri ilə yanaşı, Kiran, Ordubad, Kabban (Qafan), Azad, Dəbil kimi şəhərlərin, Əlincə, Sürməri, Tağmar və Faqnan qalalarının adı çəkilir, habelə şəhərlərin idarəçiliyi, iqtisadiyyatın inkişaf səviyyəsi, ticarət yolları haqqında məlumatlar verilir (211, s. 21, 24, 29, 30, 31, 32, 51). Arxeoloji qazıntılar zamanı Naxçıvan ərazisindən (Şahtaxtı, Şahbuz, Köhnə Vayxır, Qaraçuq, İtqıran, Söyüdlü və s.) aşkar edilən Səlcuqlar və Atabəylər dövrünə



aid zəngin maddi-mədəniyyət nümunələri də sübut edir ki, bəhs olunan dövrdə Naxçıvan özünün intibah dövrünü yaşamışdır (216, s. 308).

Eldənizlər dövründə Naxçıvan vilayətinin baş şəhəri Naxçıvan şəhəri idi. Atabəy Şəmsəddin Eldənizin daimi yaşayış yeri olan Naxçıvan vilayətinin torpaqları, o cümlədən Naxçıvan şəhəri tac (xass) torpağı idi. Tədqiqatlar göstərir ki, Naxçıvan şəhəri 1146-cı ildən sonra Eldənizlər dövlətinin tərkibinə qatılmış və əsas mərkəzə çevrilmişdir. Mirxondun məlumatına görə Şəmsəddin Eldəniz Arranı özünə tabe etdikdən sonra sultan Məsudun Azərbaycandakı canişini Çavlinin ölümü (1146) ilə yaranan qarışıqlıqdan istifadə etmiş və Naxçıvanı öz mülklərinə qatmışdır. Bundan sonra Eldəniz paytaxtı Naxçıvana köçürmüş və Azərbaycanın böyük hissəsinin sahibi olmuşdur (9, s. 409). Mxitar Qoşa istinad edərək akademik Z.Bünyadov da Naxçıvan vilayətinin Elədənizlərin tərkibinə qatılma tarixini 1146-cı il olaraq göstərmişdirir (25, s. 191). 1136-cı ildən 1146-cı ilə qədərki dövrdə isə Eldənizin iqamətgahı Arran vilayətinin mərkəzi sayılan Bərdə şəhərində yerləşmişdir. Çünki, Zahirəddin Nişapuri "Səlcuqnamə"də 1136-cı ildə Sultan Məsudun Arranı Eldənizə iqta verərkən onun Bərdədəki iqamətgahına yola düşməsi haqqında məlumat vermişdir (25, s. 49-50). Mərkəzin Naxçıvana köçürülməsişəhərin inkişafına xüsusi qayğı göstərilməsinə, onun abadlaşdırılmasına və möhkəmləndirilməsinə rəvac vermişdir.

Dövrün mənbələrində Naxçıvan şəhərinin adı müxtəlif formalarda Naxçıvan, Nəşəva, Naqcuvan, Naxcuvan, Nakcuvan və s. kimi işlədilmişdir. Təkcə XII-XIII əsrlərdə yaşamış ərəb müəllifi Y.Həməvinin "Mucəm əl-buldən" əsərində Naxçıvan şəhərinin adının 3 forması qeyd edilmişdir. Bunlar "Naxcuvan", "Nakcuvan" və "Nəşəva"dır (211, s. 31-32).

Naxçıvan şəhəri Araz çayının sahilindəki düzənliklərdə yüksələn təpə üzərində idi. Bizə qədər aparılmış tədqiqatlarda Naxçıvan şəhərinin Araz çayına nəzərən mövqeyi ilə bağlı müxtəlif yanaşmalar olduğu üçün bir məsələyə toxunmağı zəruri hesab edirik. Belə ki, Həmdullah Qəzvinin "Nüzhət əl-qülub" əsərində qeyd olunmuş məlumatlara düzgün yanaşılmaması nəticəsində, bir sıra

tədqiqatçılar bu dövdə Araz çayının guya Naxçıvan şəhərinin içərisindən axdığını yazmışlar. Əslində isə əsərdə Araz çayının Naxçıvan şəhərinin içərisindən deyil, kənarından axıb keçdiyi göstərilmişdir. Bu problemə toxunan akademik İsmayıl Hacıyev əsəri təhlil edərkən yazır ki, kitabda Araz çayının şəhərin içindən deyil, hüdudlarından keçdiyi dəqiqliklə göstərilib. "Hüdud" sözü isə "kənar", "ətraf", "qıraq" kimi mənalandırılır (46, s. 14).

Müdafiə məqsədi ilə şəhər hərbi qala istehkamı ilə əhatə olunmuşdu. Həmdullah Qəzvininin verdiyi məlumatlardan aydın olur ki, divarları və içqalası olan şəhərdə binaların çoxu bişmiş kərpicdən tikilmişdi (6, s. 168). Bu dövrdə başqa orta əsr şəhərlərində olduğu kimi Naxçıvan da qala divarları içərisində yerləşən şəhristandan, geniş bazar və karvansaraları olan şəhərkənarı hissədən - rabatdan ibarət idi (72, s. 66).

Şəhərin müdafiə sistemi o dərəcədə möhkəm olmuşdu ki, hətta bir çox Eldəniz hökmdarları ən çətin vaxtlarda məhz Naxçıvana sığınmağa çalışmışlar. Mənbələrdə verilən məlumatlar da bunu təsdiq edir. Hətta sonuncu atabəy Özbəyin dövründə dövlətin Təbrizdən idarə olunmasına baxmayaraq dağıdıcı monqol hücumlarından canını qorumaq üçün o ilk növbədə qaçaraq Naxçıvanda məskunlaşmağa çalışmışdı. İbn əl-Əsir 12 cildlik "Əl-kamil fi-t-tarix" ("Mükəmməl tarix") əsərində bu haqda bəhs etmişdir. "Təbrizin əsl hakimi Özbək ibn-Pəhləvan oranı buraxıb getmişdi. Çünki, o, fəaliyyətsiz bir əmir idi. ...Tatarların Həmədandan çıxıb gəlməkdə olduqlarını eşitdikdə, özü Təbrizi buraxıb Naxçıvana getmiş və arvad-uşaqlarını da, özündən uzaqlaşdırmaq üçün Xoya göndərmişdi" (6, s.143). Mirxondun məlumatlarından isə aydın olur ki, Özbək Naxçıvana gəldikdən daha sonra Əlincə qalasına çəkilmişdir. O yazır: "...Sultan Cəlaləddinin onun (Özbəyin – E.K.) hakimiyyəti altında olan Azərbaycanı tutmasından sonra, Əlincə qalasında kədərdən və qəmdən öldü" (176, s. 124). Dövrün digər bir salnaməçisi Şihabəddin Məhəmməd ən-Nəsəvi də "Sultan Cəlaləddin Mengübərdinin həyatının təsviri" adlı əsərində Atabəy Özbəyin məhz Naxçıvanda Əlincə qalasında vəfat etməsi barədə məlumat vermişdir (161, s. 164).



Akademik İsmayıl Hacıyev bu dövrdən bəhs edərkən yazır ki, Müzəffərəddin Özbəyin hakimiyyəti dövründə dövlətin rəsmi paytaxtının Təbriz olmasına baxmayaraq Naxçıvan şəhəri Eldənizlərin iqtisadi və mədəni mərkəzlərindən biri olmaqla yanaşı, eyni zamanda onların xoşladıqları şəhər və mühafizə olunduqları yer idi. Bunu tarixi məxəzlər və hazırkı dövrə qədər qalmış yerüstü möhtəşəm abidələr də sübut edir (47, s. 44).

Qeyd edək ki, Atabəy Özbəyin hakimiyyəti dövründə Naxçıvanı Cahan Pəhləvanın qızı Cəlaliyyə xatın idarə edirdi. Cəlaliyyə xatına bu idarəçilik hüququ anası Zahidə xatının ölümündən sonra keçmişdir (206, s. 90).

Bu dövrə aid naməlum müəllifin "Əcaib əd-dünya" əsərində Naxçıvan belə təsvir olunur: "Naxçıvan – Bu şəhər Azərbaycandadır, böyük və əhalisi çoxdur, hündür yerdədir, çox möhkəmdir. Orada çoxlu saraylar, köşklər, eyvanlar tikilib, şəhərin yanında daşdan qala tikiblər, qalada isə məscid və mədrəsə inşa ediblər; qalada şirinsulu bulaq var. Deyirlər ki, yer üzündə əhalisi bundan çox olan şəhər yoxdur, bütün tikililər alibastrdan və bişmiş kərpicdən tikilib. Köşklərin əksəriyyəti qalalar kimi üç-dörd mərtəbəlidir. Şəhər ətraf kəndləri çox gözəldir, axar suyu var, bağları və yaşıllıqları boldur" (92, s. 135).

Eldənizlər dövründə Naxçıvan şəhərində saraylar, mədrəsələr, məscidlər, köşklər və məqbərələr var idi. XII əsr Naxçıvan şəhərinin Atabəylər kompleksində olmuş qoşa minarəli qapı - baştağ haqqında dövrümüzə qədər gəlib çatan məlumatlar da o dövrdəki Naxçıvan şəhərinin möhtəşəmliyini təsəvvür etməyə imkan verir. XIX əsrdə V.A.Engelqardın verdiyi məlumata görə Naxçıvan came məscidindən 50 sajen (təqribən, 107 metr) aralıda vaxtilə bu məscidə aid olan və yanlarında hər biri 10 sajen (təqribən, 21 metr) ucalıqda qoşaminarəli qapı olmuşdur (105, s. 533). Şərqşünas Xanıkovun verdiyi məlumata görə bu qapı üzərində kitabə olmuşdur (37; s. 56). Kitabədə bu nadir memarlıq incisinin 1187-ci ildə Atabəylər dövlətinin atlı qoşun başçısı və vergiyığanı Əmir Nurəddin tərəfindən tikdirildiyi qeyd olunmuşdu. Abidə üzərindəki kitabədən həmçinin o da məlum olmuşdur ki, bu memarlıq incisi də məhz

memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilmişdir. Naxçıvan memarlıq məktəbinin ən qiymətli inciləri sayılan Yusif Küseyir oğlu və Möminə Xatın türbələri də məhz Eldənizlər dövründə inşa edilmişdir.

Müasir Ordubad rayonu ərazisində qalıqları indiyə qədər qalmış Kiran şəhəri XII əsrdə bölgənin əsas ticarət və mədəniyyət mərkəzlərindən biri idi. Tədqiqatçılar hesab edirlər ki, Kiran şəhəri Atabəylər dövründə bölgənin ikinci iqtisadi və mədəni mərkəzi olmuşdur (180, s. 29).

XII əsr ərəb müəlliflərindən Yaqut əl-Həməvi bu şəhərin adı və yeri haqqında məlumat vermişdir. Yaqut əl-Həməvi yazır ki, bir sakinin verdiyi məlumata görə Kiran şəhəri Təbriz və Baylakan arasında yerləşən Azərbaycan şəhəridir (211, s. 30).

İbn əl-Əsirin "Əl-kamil fi-t-tarix" kitabında Kiran şəhərinin adı "Qiran" kimi qeyd olunmuşdur. Müəllif bu şəhərin adını VII əsrdə yaşamış ərəb sərkərdəsi Mərvan ibn Məhəmmədin əraziyə yürüşü ilə əlaqədar xatırlamışdır. "Əcaib əd-dünya" əsərində də bu ərazidə yerləşən qalalar, həmçinin şəhərin ticarət həyatına aid bəzi məlumatlar verilmişdir (92, s. 134). XII əsrin sonu – XIII əsrin əvvəllərində çariça Tamarının yürüşlərindən bəhs edən naməlum gürcü müəllifi "Müqəddəs monarxların tarixi" adlı əsərində bu bölgənin siyasi həyatı haqqında bəhs etmişdir (180, s. 12).

Bu şəhər Araz çayının şimalında, Gilançayın isə şərqində yerəşirdi (80, s.133). Kiran möhkəm qala divarları ilə əhatələnmişdi. "Əcaib əd-dünya"da qeyd olunur ki, Araz sahilində yerləşən bu şəhər daş divarlarla əhatələnmiş möhkəm bir qaladır (92, s. 134).

Şəhərdə məscidlər və məqbərələr inşa olunmuşdu. Gilançay üzərində əzəmətli körpü salınmışdı. Kiranın XII əsrdə bölgənin ikinci ən qüdrətli şəhəri olduğunu sübut edən amillərdən biri də burada da Naxçıvan şəhərində olduğu kimi yüksək səviyyəli memarlıq abidələrinin inşa edilməsidir. Arxeolji tədqiqatlar göstərir ki, Kiran şəhəri ərazisindəki çoxsaylı tikililər məhz Eldənizlər dövründə formalaşmış Naxçıvan memarlıq məktəbinin ənənələri əsasında inşa edilmişdir. Xaraba-Gilan ərazisində yerləşən 1 №-li səkkizguşəli məqbərənin qalıqları haqqında V.M.Sısoyevin, B.İbrahimovun



verdiyi məlumatlar da fikrimizi bir daha təsdiq edir. Tədqiqatçılar hesab edirlər ki, bu məqbərə bəzi cəhətlərinə görə hətta Möminə Xatın və Yusif Küseyir oğlu türbələrindən üstündür. Bu isə yəqin ki, memarlıq məktəbi ənənələrinin sonrakı dövrdə daha çox inkişafı ilə bağlı olmuşdur (80, s. 144).

Sənətkarlıq və ticarət mərkəzi kimi bu dövrdə Kiranın əhəmiyyəti daha da artmışdır. Orta əsr şəhərləri adətən üç hissədən: sitadel, şəhristan və rabat hissələrindən ibarət olurdu və adətən bir hissə digərini əhatəliyirdi. Ərazisi əsasən dağ döşündə yerləşən Kiran şəhərinin quruluşu bir az fərqli olmuşdur. Belə ki, şəhərin mərkəz - sitadel hissəsi dağın nisbətən yuxarı hissəsində yerləşmişdi. Sitadeldən aşağı hissədə isə şəhristan yerləşirdi. Şəhristanda şəhər əhalisinin əsas hissəsi məskunlaşmış və yaşayış evlərinin əksəriyyəti olmuşdur. Təpəliklərin ətəklərində isə rabat hissəsi yerləşmişdi. Burada da əhalinin nisbətən aşağı təbəqəsi məskunlaşmışdı.

XII əsrdə Ordubad şəhəri daha çox təsərrüfat və ticarət mərkəzi kimi məhşur olmuşdur. Naxçıvan və Kirandan sonra üçüncü şəhər sayılan Ordubad dövrün bir sıra mənbələrində "əyalət şəhəri" kimi xatırlanmışdır (211, s. 51).

AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru Fəxrəddin Səfərlinin yazdığına görə Atabəy Eldənizin Naxçıvanı tutmasından 1225-ci illədək Ordubad ərazisi Atabəylər dövlətinin tərkibində olmuşdur. Kiran şəhərinin tənəzzülü və monqollar tərəfindən dağıdılmasından sonra Ordubad şəhəri sürətli inkişaf yoluna qədəm qoymuşdur. XIII əsrdən başlayaraq Ordubad şəhəri Azərbaycanın 260 tümən illik hasilatının toplandığı 21 iri şəhəri sırasına daxil olmuşdur (115, s. 32-33).

Ordubadın əlverişli karvan yolları üzərində, Araz çayı sahilində yerləşməsi, ərazinin 3 tərəfdən dağlarla əhatələnməsi onun inkişafını şərtləndirən əsas amillərdən olmuşdur. Ordubad ticarətlə yanaşı həmçinin Azərbaycanın əsas bağçılıq və üzümçülük bölgələrindən biri idi.

Bölgədəki Qapan şəhəri peçeneq tayfalarının məskunlaşma arealı idi. Ərazinin adı da məhz peçeneq tayfalarından birinin - kapanların adı ilə bağlıdır (102, s. 110). Hələ X əsrdə Cənubi Asiya

çöllərindəki peçeneqlərin içərisində yaşamış Konstantin Porfirogennet (Boqryanarodniy) erdim, kapan, çur, kuerçi, kuloba, karabay adlı tayfaların adlarını çəkmişdir (163, s. 155; 118, s. 50). Qapan şəhəri indiki Oxçu çayından təqribən 10 kilometr şimal-qərbdə, Oxçu çayının sağ sahilində yerləşmişdir. Yaqut əl-Həməvi Naxçıvan vilayətinin tərkibində olmuş Kabbanı (Qafanı – E.K.) şəhərinin Təbriz və Beyləqan arasında yerləşdiyini yazmışdır (211, s. 29).

Ticarət yolları üzərində yerləşən Culfa haqqında da XII əsrdən başlayaraq bəzi mənbələrdə məlumatlar saxlanılmışdır. Z.Bünyadov, F.Səfərli kimi tədqiqatçılar Atabəylər dövründə kiçik şəhərcik olan Culfaya Məhəmməd Cahan Pəhləvan tərəfindən əslən gürcü mənşəli olan Elikumun əmir təyin edilməsi haqqında məlumat vermişlər (116, s. 7). İpək yolunun Naxçıvan ərazisindən keçən qollarından biri üzərində yerləşən bu yaşayış məntəqəsinin ərazisində bir çox yol karvansaraları olmuşdur. Eyni zamanda Araz çayına yaxın hissələrdə bərəçiliklə məşğul olan əhali məskunlaşmışdı. Qədim Culfa şəhəri bu günki Culfadan 3 kilometr şərqdə yerləşmişdir. Culfa rayonunun Gülüstan kəndi ərazisində, Araz çayının sol sahilində tikilmiş Culfa karvansarayı memarlıq abidəsi də məhz bu dövrə aid tarixi memarlıq abidəsidir. Tədqiqatlar nəticəsində XII əsrə aid ümumi uzunluğu 37 metr olan bu memarlıq abidəsinin Azərbaycanda yol karvansaraları içərisində ən görkəmlisi və möhtəşəm abidə olduğu müəyyənləşdirilmişdir (80, s. 62). XIV əsr müəllifi H.Qəzvini "Nüzhət əl-qülub" əsərində Culfa yaxınlığında yerləşən və ticarət karvanlarının hərəkəti üçün xüsusi əhəmiyyət daşıyan Ziya ül-Mülk körpüsü haqqında məlumat vermişdir. Hazırda xarabaları qalmış körpünün salınması ilə Culfa şəhərinin Böyük İpək yolu üzərində mərkəz kimi əhəmiyyəti artmışdı (80, s. 489). Culfa yaxınlığında yerləşən bu körpü haqqında dövrün Azərbaycanlı səyyahı Əbdürrəşid Bakuvi də məlumat vermiş və bildirmişdir ki, daşdan tikilmiş bu körpü dünya möcüzələrindən biridir. O yazırdı: "Ər-Rum dağlarından başlayan Üveys çayı (Araz çayı – E.K.) o sahədə çox sürətlə axır. Bir çox yerlərdən sonra bu çay Nakçuvan yaxınlığındakı Diyə ül-Mülk körpüsünə qədər bir çox



vilayətlərdən keçir. Daşdan tikilmiş körpü dünya möcüzələrindən biri hesab olunur" (64, s. 87).

Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, Culfa XV əsrə qədər böyük şəhərlər sırasına daxil olmamışdır. O.Əfəndiyev, F.Səfərli, E.İsayev və bir sıra digər tədqiqatçıların əsərlərindən aydın olur ki, Culfa XV əsrədək kənd olmuş, bu zamandan etibarən onun iqtisadi yüksəlişi başlamışdır (27, s. 278; 116, s. 10; 54, s. 164).

Bəhs olunan dövrdə Naxçıvan vilayətinin şimalında Eldəniz hökmdarlarının xanımlarına məxsus mülklər yerləşirdi. Dəbil istiqamətində gedən yollar üzərində yerləşən bu mülklər sonrakı dövrlərdə xüsusilə XVI-XVII əsrlərdə elə "Xatın mülkləri" kimi xatırlanmış və "Məvaziyi-xatın" adlandırılmışdır (53, s. 143). Eldənizlər dövründə bu mülklərdə çoxlu karvansaralar tikilmiş və onların bəzilərinin qalıqları günümüzə qədər qalmışdır. Bu fakt isə bizə əski Oğuz-Səlcuq adətlərini xatırladır. F.Sümər "Oğuzlar" kitabında yazır ki, karvansaralar, xəstəxanalar və körpülər kimi dini səciyyə daşımayan çoxlu əsərlər tikdirənlər arasında Səlcuq xanədanına mənsub xatınların olması da maraqlıdır. Hətta İranda karvansaraların əsasən və ya daha çox Səlcuq sultanlarının qızları tərəfindən inşa edildiyi sanılırdı (120, s. 12).

Orta əsr mənbələrinin verdiyi məlumatlardan aydın olur ki, bu dövrdə Naxçıvan ətrafında bir neçə qalalar ucalırmış. Monqolların Azərbaycana hücumları dövründə isə bu qalaların bir çoxu şəhərlərin müdafiə qabiliyyətinin zəiflədilməsi məqsədi ilə dağıdılmışdır. H.Qəzvininin yazdığına görə Əlincik, Sürməri, Tağmar və Faqnan qalaları bu dövrdə dağıdılmışdır (211, s. 51; 6, s. 170).

"Kitabi-Dədə Qorqud" dastanında möhkəm istehkam kimi təsvir olunan Əlincə qalası haqqında orta əsr tarixçilərindən Nəsəvi, Şərafəddin Əli Yəzdi, türk səyyahı Evliya Çələbi də məlumat vermişdir (81, s. 163).

Əlincə qalasının Eldənizlər dövründə dövlət üçün nə dərəcədə əhəmiyyətli bir yer olduğunu Sədrəddin Əli Hüseyni "Əxbar əd dövlət əs-Səlcuqiyyə"də də yazır. Onun məlumatlarından aydın olur ki, ilk Eldəniz hökmdarları dövründə İraq və Azərbaycandan yığılan bütün gəlirlər məhz Əlincə qalasındakı xəzinədə toplanmışdır. Hətta

bəzi dövrlərdə məhz Əlincə qalasındakı xəzinəyə sahiblənmək uğrunda ciddi mübarizə getmişdir. Əsərdə yazılır: "Atabəy Pəhləvan və onun atası Eldəniz hakimiyyətdə olarkən İraq və Azərbaycandan yığdıqları bütün gəliri Naxçıvan yaxınlığında olan Əlincə qalasında toplamışdılar" (6, s. 134).

Bu dövrdə müdafiə qabiliyyətinə görə seçilən qalalardan biri də Sürməli qalası olmuşdur. Sürməli qalası və ətraf ərazilər hələ Alp Arslanın Anadoluya yürüşləri ərəfəsində (1064) oğlu Məlikşahın rəhbərlik etdiyi türk ordusu tərəfindən fəth edilərək Naxçıvan əmirinin idarəsinə verilmişdi (155, s. 154). Orta əsr mənbələrinin bir çoxunda bu qaladan "müsəlmanların sərhədyanı dayağı" kimi bəhs olunur. Akademik Nailə Vəlixanlı yazır ki, Səlcuq Sultanı Alp Arslan 1063-cü il yürüşü zamanı Naxçıvana gəldikdən sonra səlcuqlar "müsəlmanların sərhədyanı dayağı" olan iki qalanı (Sürmərini və Qarabağı) tutur və "əsgərlərlə, sursatla, pulla və silahla təmin edib, Naxçıvan əmirinin sərəncamına verirlər" (128, s. 79).

Sürməri qalasının monqollar dövründə dağıntılara məruz qalmasına baxmayaraq qala haqqında XIV əsr müəllifi Nizaməddin Şami Əmir Teymurun yürüşlərindən bəhs edən "Zəfər-namə" əsərində məlumat vermişdir. 1386-cı il hadisələri haqqında müəllif yazır: "Əmir Teymur o yazı Təbriz və ətrafında keçirdikdən sonra Naxçıvan yolundan yola düşüb Qərbi qalasına gəldi. Buranı müharibəyə girişərək zəbt etdi. Buranın başçısı olan Şeyx Həsəni tutub Əmirin yanına gətirdilər. Bundan sonra Sürməri qalasına gələrək, onu müharibə ilə zəbt edib yıxdıqdan sonra bu qövmün böyüyü olan Tutan adındakı türkməni tutdular. Bundan sonra oradan köçüb Qars qala və içqalasına gəlib bunun da ətrafını ələ keçirdilər" (123, s. 7).

Qeyd edək ki, tarixçilərin bir çoxu bu qalanın hazırda müasir Türkiyənin İğdır vilayəti ərazisində yerləşdiyi ehtimalını irəli sürürlər. Bu ehtimal ilə yanaşı bir məsələni də qeyd etmək lazımdır ki, Naxçıvan ərazisində (indiki Babək rayonu ərazisində) XX əsrin ortalarına qədər Sürəməlik toponimi mövcud olmuşdur. AMEA-nın müxbir üzvü Adil Bağırov yazır ki, XVI əsrin sonlarında bu ad Yuxarı Sürəmərk və Aşağı Sürəmərk adları ilə qeydə alınmışdır



(14, s. 50).

Lakin Nəsəvi Sürməri şəhərinin Araz çayının cənub sahilində yerləşdiyini göstərir (170, s. 23). Nəzərə alsaq ki, Babək rayonunun ərazisi Araz çayından şimalda, İğdırın Sürməli kəndinin ərazisi isə Araz çayından cənubda yerləşir o zaman orta əsr mənbələrində adı çəkilən Sürməlini İğdır ərazisindəki qala ilə eyniləşdirmək olar. Məlumat üçün deyək ki, İğdır rayonunun Tuzluca ilçəsinin bir kəndi olan Sürməli İğdırın mərkəzindən 32 kilometr, Tuzluca şəhər mərkəzindən isə 11 kilometr aralıda yerləşir (233). Bu günkü Sürməli ərazisində iki qala mövcuddur. Onlardan biri Sürməli qalası adlanan gözətçi qalası, digəri isə Qaraqala (Karakale) adlanan Suri-Maridir. Birinci qala Tuzlucanın mərkəzindən 14,5 kilometr məsafədə Sürməli kəndindən 400 metr şərqdə yerləşir, şimalından Araz çayı axır. Bölgə tarixinin tədqiqatçılarından olan Ziya Zakir Acarın yazdığına görə Qaraqala kimi böyük bir qalaya yaxın olması Sürməli qalasının sərhəd-gözətçi qalası olduğunu deməyə əsas verir (132, s. 203).

Nəsəvi Sürməlini Azərbaycanın mahallarından biri kimi göstərmiş, Sürməli hakimlərinin Naxçıvanla bağlılıqları haqqında məlumat vermişdir (161, s. 229). "Əcaib əd-dünya" əsərində isə Sürməli əhalisinin məşğuliyyəti haqqında məlumat verilir. Məlumatlardan aydın olur ki, Sürməlidə bu zaman sənətkarlıq xüsusilə yüksək səviyyədə inkişaf etmişdi. Burada silahqayırma sənətkarlığı seçilirdi. Maraqlıdır ki, əsərdə bu şəhərin qala kimi təsviri verilmiş və yerli müsəlman əhalinin bir sıra maraqlı xüsusiyyətlərindən də bəhs edilmişdir: "Bu şəhər ...Araz çayının sahilində yerləşir. Buradan yaxşı müdafiə olunan yer həmin tərəflərdə yoxdur. Şəhərdən kənarda tikililər, bazar və evlər var. O, türklərin yaşayış məskənidir, orada hər zaman bolluqdur. Əhalisi müsəlmandır, igid və cəsurdurlar, din uğrunda savaşarlar, qazidirlər. Oranın əhalisi şərab içir, əl və saçlarına xına qoyurlar, lakin eyni zamanda namaz da qılırlar" (92, s. 131-132).

H.Qəzvininin "Nüzhət əl-qülub" əsərində adını çəkdiyi qalalardan biri də Tağmar qalasıdır (6, s. 170). Qalanın dəqiqliklə Naxçıvan ərazisində hansı istiqamətdə yerləşməsi haqqında

məlumatımız olmasa da, toponimə əsasən müəyyən fikirlər irəli sürmək mümkündür. Məlumdur ki, Naxçıvanın bu gün də simvollarından biri hesab edilən Haçadağın digər bir adı İlandağdır. Culfa rayonu ərazisində yerləşən 2415 metr hündürlükdə olan bu dağ bəzi əfsanə və fərziyyələrə görə Nuh peyğəmbərin öz qövmünə xitabət dağı olmuş, sonradan isə bu inam o dağı Elandağa çevirmişdi. Digər bir ehtimal isə ərazidə zəhərli ilanların çox olması ilə əlaqəlidir. İlandağın zirvəsində iki haça arasında qalın gil təbəqəsi, ocaq yeri və orta əsrlərə aid saxsı qab qalıqları aşkar edən tədqiqatçılar qeyd edirlər ki, İlandağ müşahidə məntəqəsi kimi istifadə edilmiş, yaxınlaşan təhlükə haqqında burada yandırılmış ocaq vasitəsilə Əlincə qalaya, oradan isə Çalxanqala və Şapurqalaya məlumat verilmişdir. Tağmar toponimindəki "Tağ" indi də dilimizdə qalmış "dağ" sözünün ilkin forması, "mar" isə səlcuqların saray dili olan – farscadan tərcümədə ilan deməkdir (183, s. 103). Qalanın digər adı kimi işlədilmiş "Dizmar" sözünün tərkibindəki "Diz" hissəsi "qala, yüksəklik", "mar" isə ilan mənasını verir. Deməli hesab etmək olar ki, İlandağın üzərindəki gözətçi məntəqəsindən – qaladan H.Qəzvini Tağmar olaraq bəhs etmişdir (61, s. 140). Bəzi orta əsr mənbələrində isə "mar" tayfa, xalq adı kimi xatırlanır (177, s. 46). Qədim Gal-İlandağ yaşayış yerində qalıqları bu günədək gəlib çatmış İlandağ karvansarayından 40-50 metr cənubda bu gözətçi məntəqəsinin – qalanın qalıqları bu gün də qalmaqdadır. Tarix üzrə fəlsəfə doktoru Elbrus İsayevin verdiyi məlumata görə ətrafı qaya parçaları ilə hasarlanmış, sıldırım qaya üzərində yerləşən bu gözətçi məntəqəsindən ətraf əraziləri izləmək mümkün olmuşdur. Ordubad-Culfa-Naxçıvan-Sədərək beynəlxalq karvan yoluna xidmət edən yardımçı qollardan biri Gal-Şurut-Paradaş-Dərgəməlik-Nürgüt-Sisyan (Sünik) istiqamətində uzanan yolun Culfa şəhərindən Paradaş kəndinə qədər olan hissəsi bu məntəqə vasitəsilə aydın müşahidə olunurdu ( 54, s. 98).

Qeyd edək ki, "Naxçıvan abidələri ensiklopediyası"nda da Culfa rayonunun Gal kəndindən şimal-şərqdə İlandağın yamacında, sıldırım qayalarla əhatə olunmuş orta əsrlərə aid yaşayış yerindən bəhs olunur. Yerli əhali arasında "Nəbi qala"sı adlandırılan bu



qalada arxeoloji tədqiqatlar zamanı tapılan maddi mədəniyət nümunələrinə əsasən onun XI-XVIII əsrlərə aid olması ehtimal edilir (80, s. 199).

H.Qəzvininin adını çəkdiyi digər qala – Faqnan (211, s. 51) haqqında apardığımız araşdırmalar isə hələlik bu qalanın harada yerləşdiyi, hansı məqsədlərlə istifadə olunduğu barədə konkret fikir irəli sürməyimizə imkan vermir. Tədqiqatlar apardığımız dövrdə Culfa rayonunun Gülüstan kəndi yaxınlığında bir gözətçi-istehkam qalasının Faqnan qalası ola biləcəyi ehtimalı bəzi yerli sakinlər tərəfindən irəli sürülsə də, hələlik əlimizdə bunu təsdiqləyən fakt mövcud deyildir.

***Əhalinin etnik və dini tərkibi.*** XII-XIII əsrlərdə Naxçıvan ərazisi türk tayfalarının və ümumilikdə, əhalinin sıx məskunlaşdığı areallardan biri olmuşdur. Bu dövrdə Azərbaycan əhalisinin böyük əksəriyyətini türkdilli əhali təşkil edirdi. Təsadüfi deyildir ki, Nəsəvi, o dövrdə Azərbaycanı "türklərin dəniz qumunun dənələri qədər çox olduğu ölkə" kimi təsvir edirdi (88, s. 514). Nəsəvinin qeydlərindən aydın olur ki, şərqdən qərbə doğru hərəkət edən bu insan seli Araz çayındakı körpünü keçilməz bir hala salmışdılar (146, s. 67). XI-XII əsrlərdə paytaxt Naxçıvan şəhəri əhalisinin sayına görə Yaxın Şərqin tanınmış iri şəhərləri ilə eyni səviyyədə olmuşdur (37, s. 49).

Hələ Səlcuqlar zamanında türkmən tayfalarının məskun olduqları arealdan bəhs edən F.Sümər yazır ki, Azərbaycandakı türkmənlər ələlxüsus Ərdəbil, Xoy, Urmiya və Naxçıvan tərəflərdə yaşayırdılar (120, s. 142). XI-XII əsrlərdə oğuz türklərinin bölgəyə növbəti axınları ilə bölgədə türkdilli tayfalar tam hegemon mövqeyə yüksəlmişdilər. Dövrün müəlliflərindən biri Əhməd bin Mahmud da "Səlcuqnamə"də yazırdı ki, Şəmsəddin Eldənizin ordusu əsasən türkmənlərdən ibarət idi (133, s. 84).

Bu ərazilərin tarixi sahibləri olan türkdilli tayfaların mövqeyinin şimaldan qıpçaq, cənubdan isə oğuz axınlarının gəlməsi ilə daha da güclənməsi barədə akademik Z.Bünyadov yazır: "...Proses türk aborigenlərinin, cənubdan gələn oğuzlar və şimaldan gələn qıpçaqlarla qarışması nəticəsində, bunların assimilyasiyasından sonra başlandı və getdikcə sürətlənib XI-XII əsrlərdə qurtararaq,

Azərbaycan və Arran ərazisində müasir Azərbaycan millətini əmələ gətirən türkdilli Azərbaycan xalqının təşəkkül tapması ilə nəticələndi" (9, s. 479).

Avtoxton türkdilli tayfalar sırasında türkmən tayfalarının gəlişindən daha əvvəlki dövrdə burada yaşamış və bölgənin aborigen sakinləri olmuş kəngərlilər xüsusi yer tuturdurlar. Kəngərlilərin Azərbaycan xalqının etnogenezindəki yerindən danışan S.Əliyarov kəngər və ya kener adının əslində sumer adını bildirməsi, sumerin isə kəngər sözünün akkad dilində qarşılığı olduğu mülahizəsini irəli sürmüşdür (9, s. 470). Hələ V əsrdə Naxçıvan, indiki Ermənistan və Cənubi Azərbaycan ərazisini əhatə edən böyük bir arealda güclü tayfa birliyi yaratmış kəngərlilər 20 tayfadan və 120 tirədən ibarət olmuşlar (84, s. 146). Bu tayfaların nəsilləri zaman keçdikcə bölgədə mövqelərini daha da möhkəmlətmişdilər.

Kəngərlilərlə bağlı məlumatların əks olunduğu əksər mənbələr və kəngərlilərin etnogenezi məsələsi ilə məşğul olan əksər tədqiqatçılar kəngərliləri oğuz mənşəli hesab etmişlər.

X əsrdə yaşamış Bizans imperatoru, "İmperiyanın idarə olunması haqqında" əsərinin müəllifi Konstantin Porfirogennet (Boqryanarodniy) əsərində Cənubi Rusiya çöllərində erkən orta əsrlərdə yaşayan peçeneqlərin bir sıra tayfalardan ibarət olmasını göstərmiş (163, s. 159) və kəngərlilərin peçeneqlərin bir qolu olduğunu yazmışdır (163, s. 71).

Bizanslı müəllifə istinad edən Q.Qeybullayev də "Qədim türklər və Ermənistan" əsərində kəngərliləri peçeneqlərin bir qolu kimi təqdim etmişdir (102, s. 77-80). Müəllif göstərir ki, "mənşəcə kəngərlər və peçeneqlər eyni etnosdur və həm də kəngərlər peçeneqlərin bir hissəsinin adı olmuşdur" (102, s.85). Q.Qeybullayev digər bir əsərində isə peçeneqlərin oğuz mənşəli etnos olması fikrini qeyd etmişdir (101, s. 152).

Bəzi tədqiqatlarda isə "Oğuznamə"də oğuzlara sonradan köməyə gələn uyğur və kanqlı ifadələri əsas götürülərək kəngərlilərin oğuzlardan ayrı, müstəqil bir türk qolu olduğu mülahizəsi irəli sürülmüşdür (111, s. 13, 15).

XIX-XX əsrlərdə bölgədə olmuş rus müəllifləri İ.Şopen və



K.Smirnov isə daha da irəli gedərək Kəngərliləri qıpçaqlarla bağlamağa cəhd göstərmişlər. K.Smirnov yazırdı ki, çar dövrünün rus tədqiqatçısı İ.Şopenin fikrincə kəngərlilər peçeneqlərin və qıpçaqların davamçılarıdır (207, s. 26). K.Ş.Şaniyazov da öz yazılarında kəngərləri peçeneq türkləri ilə bir ittifaqda kıpçaq, ıstı, cəlayir, üçoktı, srqalı, çançklı tayfaları ilə birgə Kanqli kimi göstərmişdir (212, s. 39-40). Təbii ki, bölgədə qıpçaq türklərinin məskunlaşması faktı mövcud olsa da, kəngərliləri qıpçaq tayfalarından biri kimi göstərmək yanlışdır və mənbələrin əksəriyyətində də qeyd olunduğu kimi kəngərlilər oğuzdurlar.

Bölgədə oğuz-kəngərlilərlə yanaşı, qıpçaq qruplarının olmasını da nəzərə alan Səlcuq-oğuz hökmdarı Sultan Məsud qıpçaq Şəmsəddin Eldənizi Arrana hakim təyin etmişdi. Məlum olduğu kimi Şəmsəddin Eldəniz Dərbənd bazarından alınmış qıpçaq qullarından olmuş, zirəkliyi, fərasətliliyi ilə diqqəti cəlb etmiş, Səlcuq sultanının etimadını qazanmış və sultanın şəxsi məmlükləri sırasına keçmişdir (84, s. 197). Eldəniz isə Naxçıvanı dövlətinin mərkəzinə çevirməklə tayfa faktorundan istifadə edərək hakimiyyətini möhkəmlətmişdir. Son dövr tədqiqatları və bir çox mənbələr Naxçıvan ərazisində Qıpçaq boylarının məskunlaşmasını eramızdan əvvəl III minilliyin əvvəllərindən başladığını təsdiq edir (84, s. 129).

Bu dövr Naxçıvan əhalisinin dini inancının nə olmasına gəlincə mənbələrdə verilən məlumatlar göstərir ki, Naxçıvan əhalisinin dini tərkibində müsəlmanlar və xristianlarla yanaşı, hətta atəşpərəst və bütpərəstlər də olmuşdur (166, s. 103; 25, s. 198). Lakin əhalinin tərkibində həm say, həm də nüfuz baxımından müsəlmanlar üstün yer tutmuşlar.

Sədrəddin Əli əl-Hüseyni "Əxbar əd-dövlət əs-Səlcuqiyyə"də yazırdı: "Atabəy Eldəniz Azərbaycan və Arrana qayıtmağı qərara aldı, çünki ona xəbər çatmışdı ki, gürcülər İslam ölkələrinə soxulmaq üçün hərəkətə gəlmiş Dəbil şəhərini talayaraq, orda olanları əsir götürmüşlər. Buna görə o, Azərbaycana qayıtdı. ...Sultan hərəkət edib Naxçıvanda atabəy Eldənizlə birləşdi. O, Naxçıvandan yoluna davam edərək Gəncəyə çatıb burada bir neçə günlüyə ayaq saxladı" (6, s. 126-127). Bu qeydin özü sübut edir ki, bu dövrdə Naxçıvan

vilayəti "islam ölkəsi"nin bir parçası hesab edilmişdir.

Akademik Ziya Bünyadov hesab edirdi ki, Atabəylər dövründə Naxçıvan sərhəd vilayəti kimi xüsusi rejimdə olmuş, burada başqa dinə - xristianlığa etiqad edənlərin nüfuzu məhdudlaşdırılmış, islamın mühafizəsi üçün ciddi nəzarət mövcud olmuşdur (25, 170-181; 84, s. 197). Bununla yanaşı vurğulamaq lazımdır ki, Səlcuq dövlət idarəçilik ənənələrindən irəli gələn digər dinlərdən olanlara xoşgörülü yanaşma prinsipi Eldəniz dövlətinin hökmdarları tərəfindən də davam etdirilmişdir. İnkaredilməz faktdır ki, bu dövrə qədər Azərbaycan ərazisinin bəzi dağlıq hissələri istisna olmaqla digər ərazilərində yerli əhalinin əksər hissəsi İslamı qəbul etmişdi. Bu proses daha çox əhalinin İslamı könüllü qəbul etməsi nəticəsində baş vermişdir. Belə olan halda xüsusi status daşıyan Naxçıvanda İslamın mühafizəsi üçün ciddi nəzarətin mövcud olması, digər dinlərin məhdudlaşdırılması anlamına gəlməməlidir. Çünki Böyük İpək yolu üzərində yerləşən bu ərazidə nəinki xristian, hətta buddist, iudaist və digər dinlərə mənsub olan tacirlər və səyyahlar üçün ibadətxanaların yaradılması məhz bu dövrə təsadüf edir.

Eldəniz hökmdarı Məhəmməd Cahan Pəhləvanın öz vassalı - xristian hakimi Elikuma Naxçıvan şəhərində 30 karxana və dükan, Qızıl Arslanın isə torpaq sahəsi bağışlaması faktının özü də xristianlara hansı münasibətin mövcud olmasının göstəricisidir (72, s. 64). Bölgəyə gələn xristanların sıxışdırılmadığını sübut edən digər bir fakt isə 1224-cü ilə Xarəzmşah Qiyasəddin Pirşahın Naxçıvanı tutmasından sonra, Naxçıvana hakim təyin edilməsi ilə bağlı verdiyi sərəncamda öz əksini tapmışdır. Sərəncamda əraziyə gəlmək istəyən xristian etiqadlı insanlar ilə bölgə hakiminin şəxsən görüşməli olduğu qeyd olunurdu (166, s.103). Sərəncamdan aydın olur ki, bölgədə nəinki xristianlar (əhli-zimmət), hətta çoxallahlılığa etiqadını saxlayanlara (muşriklərə) da tolerant münasibət bəslənilmişdir.

XII əsrdə Naxçıvan vilayəti əhalisinin mütləq əksəriyyətinin islam dininə etiqad etməsini sübut edən digər amillər də mövcuddur. Məlum olduğu kimi 1146-cı ildən sonra Atabəy Şəmsəddin Eldəniz və xanımı Möminə xatın (bəzi mənbələrə, o cümlədən Mxitar Qoşun "Alban xronikası", Mirxondun "Tarix-i rövzət əs-səfa" əsərlərinə



görə Narınc Xatın (72, s. 74) Naxçıvanda yaşayıb. Bir müsəlman türk hökmdarının isə xristianların çoxluq təşkil etdiyi bir şəhəri mərkəz seçməsi və ən sevimli saray xatını ilə orda yaşaması inandırıcı deyil (62, s.1443). Eldənizlə İraq Səlcuq sultanı arasındakı məktublaşmaya diqqət yetirərəkən də fikrimiz bir daha təsdiqlənir. Şəmsəddin Eldəniz İraq Səlcuq sultanı Məhəmmədə kömək təklifi müqabilində belə bir cavab alır: "Hal-hazırda sənin xidmətə gəlməyinə ehtiyac yoxdur; orada (yəni Naxçıvanda, - N.V.) müsəlmanların hamisi və müşriklərin hücumlarını dayandıracaq bir istinadgah, qala ol". Akademik Nailə Vəlixanlı Sultan Məhəmmədin "yolunu azmışlar" ifadəsinin bu zaman Şirvana və Arana tez-tez basqınlar edən gürcü qoşunları haqqında işlətdiyi qənaətinə gəlmişdir (128, s.98). Sultan Məhəmmədin Şəmsəddin Eldənizə cavab məktubu Əhməd bin Mahmudun "Səlcuqnamə"sində əksini belə tapmışdır: "İndi sənin gəlmənə lüzum yoxdur. Yerində qal müsəlmanların işini gör" (133, s. 84).

Bəzi mənbələr əhalinin nəinki dini mənsubiyyəti hətta təriqətləri ilə bağlı da müəyyən məlumatlar vermişdir. "Əcaib əd-dünya"da yazılır ki, bu dövr Naxçıvanın yerli əhalisi din uğrunda "qazi" olan şiə və sünnilərdən ibarət idi (72, s. 62; 92, s. 136). Yerli əhalinin İslamın şafii təriqətinə mənsubluğu barədə H.Qəzvini "Nüzhət əl-qülub" əsərində məlumat verir. O yazır: "Əhalisinin üzü ağdır. Şafii təriqətinə bağlıdırlar" (6, s. 170).

XII əsrdə Naxçıvan ərazisində əhalisinin sayına görə ən böyü şəhər şəksiz ki, Naxçıvan şəhəri olmuşdur. Bu dövrdə Naxçıvan şəhəri nəinki bölgənin, ümumilikdə Yaxın Şərqin ən çoxsaylı əhaliyə malik olan şəhərlərindən biri olmuşdur. Hələ "Əcaib əd-dünya" əsərində bu dövr Naxçıvan şəhəri haqqında yazılırdı: "Deyirlər ki, yer üzündə bundan çox əhalisi olan şəhər yoxdur" (92, s. 135). Akademik Ziya Bünyadov bu dövrdə Azərbaycan şəhərləri haqqında bəhs edərkən əhalisinin sayı 100 min və daha artıq olan şəhərlər sırasında 4 Azərbaycan şəhərinin - Naxçıvan, Beyləqan, Təbriz və Şamaxının adını çəkir (25, s. 208). Tarixçi R.Məmmədov bu rəqəmi daha da konkretləşdirərək göstərir ki, bu dövrdə Naxçıvan şəhəri əhalisinin sayı 150-200 min nəfər olmuşdur (72, s. 61; 170, s. 31).

Tarixçi Sahibə Budaqova da bu dövrdə Naxçıvan şəhərində təxminən 150-200 min nəfər əhali yaşaması fikrini təkrarlamışdır (24, s. 56). M.Heydərov isə monqollaraqədərki dövrdə Təbriz, Gəncə və Marağa şəhərləri ilə müqayisə edərək burada əhalinin sayının, təqribən, 80-100 min ola biləcəyi fikrini irəli sürmüşdür ( 170, s. 31).

Beləliklə, Azərbaycan tarixində ən qüdrətli dövlətlərdən biri olmuş Eldənizlərin (Atabəylərin) hakimiyyəti illərində bu ərazidə şəhərlərin, ticarətin inkişafına xüsusi diqqət yetirilmiş, ərazinin mühafizəsini təşkil etmək üçün qalaların möhkəmləndirilməsinə çalışılmışdır. Bu dövrdə sürətlə inkişaf edən Naxçıvan diyarı şəhərləri həm də böyük elm, mədəniyyət mərkəzləri olmuş, diyarın müsəlman türk əhalisi nəinki Azərbaycan mədəniyyətinin, ümumilikdə bütün İslam və Türk dünyasının mədəni irsinin ən zəngin örnəklərini yaratmağa nail olmuşdur.



## 1.2. Monqolların işğalı və Hülakülərin hakimiyyəti dövründə Naxçıvanın tarixi-coğrafiyası

***İnzibati-ərazi quruluşu.*** Artıq monqolların ilk hücumları dövründə Naxçıvan vilayəti diqqət mərkəzinə düşən ərazilərdən biri olmuşdur. Çünki bu zaman Naxçıvan ölkənin əsas vilayətlərindən biri kimi statusunu qoruyub saxlamış, Eldənizlər dövründən başlayaraq burada çoxsaylı hərbi qüvvə və xəzinə cəmləşdirilmişdi. 1225-ci ildə Atabəy Özbəyin vəfatından sonra Naxçıvan Xarəzm dövlətinin hökmdarı Sultan Cəlaləddin Məngübərdinin hakimiyyəti altına düşmüş və 1231-ci ilə qədər onun əlində qalmışdır. 1231-ci ildə Sultan Cəlaləddini təqib edən monqollar Qafqazın Kür və Araz çayları vadilərini, həmçinin Şərqi Anadolunun bəzi ərazilərini ələ keçirməyə nail olmuşdular. Bu baxımdan Naxçıvan da ilk monqol hücumlarına bu zaman məruz qalmışdır. 1231-ci ildə Cəlaləddin qətl edilmiş və monqollar Naxçıvanı tam olaraq ələ keçirmişlər (84, s. 204). Monqolların ilk hücumlarından fərqli olaraq, 1229-1245-ci illərdə sərkərdələr Cormaqon və Baçunun hücumları ilə gerçəkləşən işğallardan sonra monqollar burada idarəçilik sistemini qurmağa və inzibati ərazi quruluşunda bir sıra dəyişikliklər etməyə başlamışlar. Azərbaycan və ümumiyyətlə, Cənubi Qafqaz ərazisi 1239-1256-cı illərdə Ali Monqol xaqanlığının təyin etdiyi canişinlər tərəfindən idarə olunmuşdur (98, s. 148). Bu zaman Naxçıvan ərazisi Cənubi Qafqazın digər torpaqları kimi Qızıl Orda (Cuci) ulusunun tərkibində hesab edilirdi. Rəşidəddin yazırdı ki, Ugedey Cormaqonu 40 minlik qoşuna sərkərdə təyin etmiş və onu Cənubi Qafqazagöndərmişdi. Cənubi Qafqazı işğal etdikdən sonra Muğanda qışlamaq üçün dayanan Cormaqon 110 monqol hərbi rəhbərinin - noyonların iştirakı ilə qurultay keçirmiş və bu noyonlardan 85-ni Azərbaycan vilayətinin ayrı-ayrı tümən və ərazilərinin idarəçiləri təyin etmişdir (202, s. 98-99). Həmdullah Qəzvinin verdiyi məlumatlardan aydın olur ki, Cormaqon tərəfindən işğal edilmiş ərazilərdə 5 inzibati ərazi vahidi – vilayət yaradılmışdır. Bu vilayətlər aşağıdakılar idi:

1) Zaxarilər knyazlığının əhatə etdiyi əraziləri birləşdirən

Gürcüstan vilayəti;

2) Van gölündən qərbdəki torpaqları əhatə edən Ərməniyə vilayəti;

3) Şirvan;

4) Arran və Muğan;

5) Azərbaycan (Atropaten) (189, s.120).

Vilayətlər isə hərbi-inzibati ərazi vahidləri olan tümənlərə bölünürdülər. İnzibati ərazi bölgüsü kimi "tümən" haqqında bir çox müəlliflər araşdırmalar aparmış və bu anlayışın necə formalaşması ilə bağlı elmi fikirlərini ortaya qoymuşlar.( 94, s. 23; 160, s. 239; 210, s. 37) Tədqiq etdiyimiz mövzuda işlədilən əsas terminlərdən biri olaraq "tümən" termini ilə bağlı müəyyən izahat verməyi biz də vacib bilirik. Qeyd edək ki, tarix boyunca "tümən" anlayışı hərbi, inzibati və pul vahidi kimi işlənmişdir.

Hərb ənənələrinə görə, monqol ordusunda atlılardan ibarət olmaqla, ən böyük dəstə on min nəfərdən təşkil olunurdu və ona "tümən" deyilirdi. Tümən özü özlüyündə minlik, yüzlük və onluq vahidlərə bölünürdü. Onlara minbaşı, yüzbaşı və onbaşılar rəhbərlik edirdilər. Onminlik ordunun rəhbərinin hərbi rütbəsi də "tümən" hesab edilirdi. Min nəfərlik ordunun rəhbərinin hərbi rütbəsi "minqan" (minxan –E.K.), yüz nəfərlik ordu rəhbərinin hərbi rütbəsi "cequn", on nəfərlik hərbi dəstə rəhbərinin hərbi rütbəsi isə "arban" idi (210, s. 37).

Pul vahidi kimi isə tümən 10 min dinara bərabər idi. Tarix elmləri doktoru V.Piriyevin fikrincə, inzibati baxımdan tümən orduya 10 min əsgər verə biləcək müəyyən bir ərazinin göstəricisi idi (94, s. 23). Sonralar isə tümən istilahı inzibati ərazi vahidi kimi daha çox işlədilmişdir.

Naxçıvan ərazisində də bu dövrdə eyni adlı Naxçıvan tüməni yaradılmış və Azərbaycan vilayətinin tərkibinə daxil edilmişdir (Şəkil 5).

1258-ci ildə Ali monqol xaqanı Munkenin qardaşı Hülakünün hərbi yürüşü nəticəsində bütün Azərbaycan əraziləri tabe edilmiş, Abbasilər xilafəti süquta uğradılmış və tutulan ərazilərdə beşinci monqol ulusu - Hülakülər dövləti qurulmuşdur. Azərbaycan ərazisində 1357-ci ilə qədər mövcud olan bu yeni dövlət ilk dövrlərdə vahid Monqol Dövlətinin əlavəsi rolunda çıxış etsə də, getdikcə daha çox islamlaşdı və türkləşdi, beləliklə də əslində müstəqil bir dövlətə çevrildi. İlk monqol işğallarından sonra Azərbaycan vilayəti ərazilərinin, o cümlədən Naxçıvan tüməni ərazisinin kiçilməsi prosesi Hülakülər zamanındaaradan qalxmağa başlamışdır. Görünür, elə bu səbəbdəndir ki, H.Qəzvini Azərbaycan torpaqlarının fərsəxlə ölçüsünü verərkən, Bakıdan Xalxala, Bacravandan isə Sipan (Sübhan) dağlarına qədər olan məsafəni göstərmişdir (211, s. 37). Məlumat üçün qeyd edək ki, bugünki Türkiyə ərazisində yerləşən Süphan dağları Van gölünün şimalında yerləşir. Deməli, nəinki Dəbil, hətta Vana qədərki torpaqlar da monqollar dövründə Azərbaycana aid edilmişdir.



Hülakülər dövlətinin inzibati quruluşu da vilayət, əyalət və tümənliklərə əsaslanırdı. Hülakülər dövlətinin tərkibinə Azərbaycan, Ərəb İraqı, Əcəm İraqı, Kirman, Gürcüstan, Rum, Ermənistan, Kürdüstan, Fars, Xuzistan, Xorasan vilayətləri daxil idi. Aparılan tədqiqatlar göstərir ki, Hülakülər dövründə şimallı-cənublu Azərbaycan ərazisi bir vilayətə (Azərbaycan vilayəti) və 4 əyalətə (Arran, Muğan, Şirvan, Güştasfi əyalətləri) bölünmüşdü. Əksər hallarda dövrün inzibati quruluşundan bəhs etmiş bir çox tədqiqatçılar Arran, Muğan, Şirvan, Güştasfi əyalətlərini də vilayət kimi göstərirlər. Lakin vilayət və əyalət anlayışlarının fərqləndirilməsi vacibdir. Belə ki, əyalət vilayətdən daha kiçik inzibati vahid idi. Vilayətin tərkibinə bəzən bir neçə əyalət daxil ola bilirdi. Həmçinin yeni inzibati ərazi vahidi olan tümənlər yalnız vilayətlərin tabeliyində yaradılırdı. Bu baxımdan H.Qəzvininin "Nüzhət əl-qülub" əsərində verilmiş məlumatlardan aydın olur ki, Azərbaycan vilayətinin tərkibində yaradılan tümənlərin sayı 9 olmuşdur. Müəllif əsərində bu tümənlərin tabeliyində olan 26 şəhərin adını da qeyd etmişdir (84, s. 233; 211, s. 43-45).

H.Qəzvininin "Nüzhət əl qülub" əsərində verilmiş məlumatların təhlili göstərir ki, Naxçıvanın Eldənizlər dövründə mövcud olmuş vilayət statusu Hülakülərin idarəçiliyi dövründə ləğv edilmiş və Naxçıvan Azərbaycan vilayətinin tərkibində bir tümənə çevrilmişdir. Belə ki, əsərin VIII bölümündə Azərbaycan vilayətinin

tərkibindəki tümənliklər sırasında Təbriz, Ərdəbil, Pişkin, Xoy, Sərab, Marağa və Mərəndlə yanaşı Naxçıvanın da adı çəkilmişdir (211, s. 51). Naxçıvan tüməni öz növbəsində mahallara bölünmüşdü. Tümən əmir tərəfindən, mahal isə mahal hakimi tərəfindən idarə edilirdi (84, s. 233).

Naxçıvan tüməninin ərazisi və sərhədləri. Azərbaycan vilayətinin 9 tümənindən biri olan Naxçıvan tüməninin ərazisi təkcə Araz çayından şimaldakı hissəni deyil, çayın hər iki sahilini əhatə edirdi (84, s. 229).

Naxçıvan tüməninin sərhədlərindən bəhs edən AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru Fəxrəddin Səfərli qeyd edir ki, Naxçıvan tüməni çox böyük bir ərazini Araz çayının şimalındakı indiki Naxçıvan bölgəsi ilə yanaşı, Arazın cənub sahillərindəki bir sıra torpaqları da əhatə etmiş və Maku, Dəbil (Dvin), Qafan əraziləri də bu tümənə daxil olmuşdur.(112, s. 26). Beləliklə, tümənin ərazisi şərqdə Həkəri çayı sahilləri, qərbdə Dəbil daxil olmaqla, şimalda Göyçə gölü və Göyçə mahalından, cənubda Araz çayından cənubdakı ərazilərə qədər uzanmışdır

Həmdullah Qəzvininin məlumatları da sübut edir ki, bu dövrdə nəinki indiki Naxçıvan ərazisində yerləşən şəhərlər, hətta Dəbil, Maku, Sürməli şəhərləri, Göyçə gölünün cənub sahillərinə qədərki ərazilər belə Naxçıvan tüməninin ərazisi idi. Bu orta əsr müəllifinin qeydlərindən aydın olur ki, Naxçıvan Azərbaycanın sərhəddə yerləşən bir tüməni, Dəbil isə qərb sərhədlərində yerləşən ən sonuncu şəhər olmuşdur. (10, s. 19).

Apardığımız təhlillər və mənbələrdə verilən məlumatlara əsaslanaraq bu dövrdə Naxçıvan tüməninin sərhədlərini aşağıdakı kimi müəyyənləşdirə bilərik. Naxçıvan tüməni şimaldan və şərqdən Arran əyaləti ilə həmsərhəd idi. Arran əyaləti ilə sərhəd Göyçə gölünün cənubundan başlamış, cənub-şərqə doğru hərəkət edərək Şahbuzun şimalından Qafan və Həkəri çayının isə şimal şərqindən keçmişdir. Cənub-şərqdən və cənubdan Naxçıvan tüməni Azərbaycan vilayətinin Mərənd və Xoy tümənləri ilə həmsərhəd olmuşdur. Mərənd tüməni ilə sərhəd Araz çayı boyunca idi. Araz çayından cənubdakı Culfa istiqamətindən başlayaraq, sərhəd cənuba



doğru istiqamətlənir və beləliklə Maku ərazisi də Naxçıvan tüməninin tərkibində qalmış olurdu. Xoy tüməni ilə sərhəd eyniadlı şəhərin şimalından keçirdi. Qərbdən isə sərhədlər Van gölünün şərqindəki ərazilərdən başlamış, şimala doğru uzandıqca Sürməli çuxurunun və Dəbil şəhərinin qərbindən keçmişdir. Orta əsrlər Naxçıvanın tarixi coğrafiyasına dair qiymətli tədqiqatlar aparmış V.Piriyev "Naxçıvan tarixindən səhifələr" və "Azərbaycanın tarixi coğrafiyası" kitablarında bu dövrdə Naxçıvanın tarixi coğrafiyası ilə bağlı maraqlı məlumatlar vermişdir. Lakin yəqin ki, texniki səhv ucbatından hər iki kitabda Naxçıvanın şərqdən Ərmənlə həmsərhəd olduğu yazılmışdır (93, s.106). Halbuki, qərb əraziləri bəzi dövrlərdə, hətta Vana qədər uzanan Naxçıvan şərqdən deyil, qərbdən Ərmən vilayəti ilə həmsərhəd ola bilərdi (Şəkil 6).

Monqollar zamanında ərazilərinin ən geniş olduğu şərq sərhədlərinin Həkəri çayına, qərb sərhədlərinin Van gölünün şimal-şərq sahillərinə çatdığı dövrlərdə Naxçıvan tüməninin ərazisi, təqribən, 25 min 269 km$^2$-ə çatmışdır. Lakin bu dəyişkən xarakter daşımış, əksər dövrlərdə Naxçıvan tüməninin qərb sərhədləri Sürməli və Dəbilin qərbindən keçmiş, Van gölünə qədər çatmamışdır. Sərhədləri belə müəyyənləşdirdiyimiz təqdirdə Naxçıvan tüməninin ərazisinin, təqribən, 23 min 408 km$^{2}$-i əhatə etdiyini söyləmək olar.

***Şəhərlər və iri yaşayış məntəqələri.*** İlk monqol hücumları dövrü Naxçıvan əraziləri üçün bir sıra dağıntılarla yaddaqalan olsa da, Hülakülər dövründə burada quruculuq işləri həyata keçirilmişdir. Dövrün mənbələrində Naxçıvan tüməninin tərkibinə aid olan Naxçıvan, Əncan, Ordubad, Azad, Makuyə, Dəbil, Sürməli, Qarabağlar şəhərlərinin adı çəkilmişdir. "Naxçıvan tarixi"nin I cildində qeyd olunur ki, bəhs etdiyimiz dövrdə Naxçıvan tüməninə 5 şəhər və əlavə olaraq, 10 şəhərtipli kiçik yaşayış yeri də daxil olmuşdur (84, s. 229).

Qeyd etmək lazımdır ki, "Nüzhət əl-qülub" əsərində H.Qəzvini Naxçıvan tüməninə aid olan 5 şəhərin adını çəkmişdir. Bunlar Naxçıvan, Əncan, Ordubad, Azad və Makuyə şəhərləri idi (211, s. 51).

Yuxarıda da vurğuladığımız kimi paytaxtın Naxçıvandan

köçürülməsinə baxmayaraq Xarəzm hökmdarı Sultan Cəlaləddin Məngübərdinin və monqolların hücumları zamanı təhlükə yarandıqda Eldəniz hökmdarları məhz Naxçıvana üz tuturdular. Elə bu səbəbdəndir ki, monqol hücumları zamanı Naxçıvan şəhəri daha çox dağıntılara məruz qalmışdır. XIII əsrdə bu ərazilərdə olmuş fransız Vilhelm de Rubruk Naxçıvanın monqol hücumlarından sonrakı vəziyyətini təsvir edərkən tatarların (monqolların- E.K.) onu səhraya çevirdiklərini yazmışdır (182, s. 171). Dözülməz zülm nəticəsində Naxçıvanda mövcud olan evlərin 5/6 hissəsi boşalmışdı (10, s. 54). Monqol hücumlarından sonra həyat şəraitinin ağırlaşması əhalinin aşağı təbəqələrinin kütləvi şəkildə yaşayış yerlərini, xüsusilə şəhərlilərin şəhərləri tərk etməsinə səbəb olmuşdur. H.Qəzvinin verdiyi məlumatlardan aydın olur ki, əvvəlki dövrlərdə Naxçıvan ətrafında möhkəm müdafiə qalaları olan Əlincə, Sürməri, Taqmar və Faqnan qalaları bu dövrdə dağıntılara məruz qalmışdır (6, s. 170).

Lakin bütün dağıntılara baxmayaraq Naxçıvan şəhəri yenə də monqollar dövründə bölgənin əsas şəhəri statusunu qoruyub saxlamaqda idi. Dövrün müəllifi Əbdürrəşid əl-Bakuvinin IV iqlimə aid etdiyi şəhərin coğrafi koordinatları 80°55´´ uzunluq, 33°24´´ en dairələri kimi qeyd olunmuşdur (19, s. 132).

1295-ci ildə Naxçıvan Qazan xana tabe olan şəhərlər sırasına keçdikdən sonra şəhərin əvvəlki qüdrətinin qaytarılması üçün quruculuq işlərinə başlanılmışdır. 1301-ci il noyabrın 7-də Misir yürüşündən qayıdarkən Naxçıvana baş çəkən Qazan xan şəhərin bərpası haqqında göstəriş vermişdi (84, s. 230). Qazan xan dövründə vergilərin azaldılması, iqtisadiyyatın müəyyən qədər yüksəlişi ümumi tənəzzül təmayülünü nisbətən aradan qaldırmışdır.

Naxçıvanın iqlimi haqqında danışan V.Rubrukun məlumatlarından aydın olur ki, ərazinin qışı çox sərt və yağıntılı olmuşdur. Çünki, V.Rubruk məlumatında güclü qar səbəbindən yaxınlıqdakı dağlara getməyin mümkün olmadığını qeyd etmişdir (199, s. 188).

Bu dövrdə Naxçıvan şəhərindəki yaşayış evləri və sarayların əksəriyyəti bişmiş kərpicdən olmuşdur. İl ərzində 113 min dinar vergi verən Naxçıvanda taxılçılıq, pambıqçılıq, üzümçülük və



meyvəçilik xüsusilə inkişaf etmişdir. (93, s. 46; 84, s. 230)

Bölgənin digər bir şəhəri Əncan (və ya Əcnan) şəhəri olmuşdur. Bu şəhərin mis mədənləri olduğunu qeyd edən "Nüzhət əl-qülub"da şəhərin digər adı Karxana kimi göstərilir (211, s. 51). Ehtimal ki, burada hasil edilən misdən yerli sənətkarlar müxtəlif məmulatlar hazırlamaq üçün istifadə etmişlər. Bu dövrdə mis və mis-bürünc məmulatının, əsasən məişət təyinatlı qab-qacağın istehsalı geniş intişar tapmışdır. Təbriz, Gəncə, Xoy, Şəmkir şəhərləri ilə yanaşı Naxçıvan da monqol yürüşlərinə qədərki dövrdə metalişləmə sənətinin mühüm mərkəzlərindən biri olmuşdur (10, s. 58).

Apardığımız araşdırmalar göstərir ki, bu şəhər haqqında naməlum müəllifin "Əcaib əd-dünya" əsərində də məlumat verilmişdir. 2003-cü ildə "Əcaib əd-dünya"nı Azərbaycan dilinə tərcümə edən C.Bayramlı və V.Əliyev əsərdəki Əncan şəhəri ilə bağlı məlumatları mükəmməl şəkildə dilimizə tərcümə etmiş, lakin yanlış olaraq bu sözün Əncan deyil, Abxaz kimi oxunulmalı olduğu qənaətinə gəlmişlər. "Əcaib əd-dünya"da Əncan haqqında verilən məlumatlardan aydın olur ki, şəhər möhkəm qala divarları ilə əhatə edilmişdi. Əsərdə yazılır: "Əncan. Sərt, çətinliklə keçilən yerdədir. Dağlar şəhərin hüdudlarından kənarda yerləşir, möhkəm qaladır. Oranın malları incə parçalar, yaylıqlar, keyfiyyətli üst örtükləri, zilə corablardan ibarətdir" (92, s. 126-127).

Əncan şəhəri ilə bağlı müxtəlif tədqiqatçılar müxtəlif fikirlər irəli sürsələr də bu şəhərin lokalizasiyasını aparmaq bu günə qədər mümkün olmamışdır. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası ərazisində mis filizi və sərbəst mis yataqları Naxçıvan şəhərindən 18 kilometr şimal-şərqdə Naxçıvançayın orta axın hövzəsində, Qızıldağ dağından 1 km cənub-şərqdə yerləşən Xalxal yatağında (79, s. 13), mis-molibden-porfir yataqları isə Ordubadçayın yuxarı axın hissəsində, Aqaraq yatağından 9 km şimal-qərbdə - Sərkidağ-Diaxçay filiz sahəsində aşkara çıxarılmışdır. Sərkidağ-Diaxçay yatağı eyniadlı filiz sahəsinin şimal-qərb hissəsində yerləşərək şimal-qərb istiqamətdə Xocanverdiçaydan Əylisçayın yuxarı axım hissəsinə qədər uzanaraq 2 kilometrdən də çox məsafədə izlənilir (79, s. 14). 1925-ci ilə aid olan "Naxçıvan diyarının təhqiqi üzrə

xüsusi komissiyanın məruzəsi"ndə isə qeyd edilir: "Ən iri gümüş-qurğuşun yataqları Noraşen stansiyasından Arpaçaya gedən şose yolu üzrə 15 verst aralıda Gümüşlü deyilən yerdədir. Bu yataqlar çoxdan işlənmişdir, bunu ordakı köhnə mədən yerləri göstərir. Bu cür köhnə şaxtalardan biri təmizlənmiş və onda qədim alətlər: dəmir pazlar, gil lampalar, yağ bardağı, bir neçə insan kəlləsi və sümükləri tapılmışdır" (56, s. 208).

XIX əsr rus mənbələrində Naxçıvan haqqında verilən məlumatlardan bəhs edən digər bir müəllif yazır: "Rus mənbələrinin təhlilindən belə məlum olur ki, Dərələyəz mahalındakı Gümüşxana kəndinin (İndiki Şərur rayonunun Gümüşlü kəndi – Y.R.) ətrafında gümüş çıxarılan iki dərin xəndək olmuşdur" (110, s. 142). S.Babayevin "Naxçıvan Muxtar Respublikasının coğrafiyası" adlı kitabında təqdim etdiyi xəritədə də Gümüşlü yaxınlığında polimetal yataqlarının olduğu qeyd olunmuşdur (12, s. 139).

M.Seyfəddini bu şəhərin Şərur ərazisində yerləşməsi fikrini irəli sürmüşdür (15, s. 134). AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru Adil Bağırov isə göstərir ki, Əncanın digər adı olan Karxana indiki Gümüşlü kəndinin keçmiş adı olmuşdur (15, s. 134). Müəllifin özü digər bir əsərində isə Naxçıvan ərazisində üç yerdə Babək rayonunda, Ordubad rayonunun Biləv kəndində və Şərur rayonunda Karxana toponiminin olduğunu göstərmişdir (16, s. 169).

Bizim fikrimizcə XIX əsr rus mənbələrində verilən məlumatlar, 1925-ci ilə aid olan "Naxçıvan diyarının təhqiqi üzrə xüsusi komissiyanın məruzəsi"ndə göstərilmiş faktlar Əncan və ya Əcnanın məhz Gümüşlü kəndi istiqamətində yerləşdiyini söyləməyə imkan verir.

Maraqlıdır ki, A.Ş.Milmanın yazdığına görə XIX əsrdə Qarabağ xanlığına aid olan 21 mahaldan biri Əcnan-türk mahalı olmuşdur (187, s. 44). Əcnan-Türk mahalının xanlıq dövründəki vəziyyətindən bəhs edən başqa bir müəllif isə qeyd edir ki, bu mahal 9 kənddən ibarət olmuşdur (167, s. 70). Ola bilsin ki, monqol hücumlarının ağırlığı nəticəsində Əcnan sakinləri Qarabağa üz tutmağı üstün tutmuş və bu türk tayfaları Qarabağda məskunlaşdıqdan sonra öz doğma şəhərlərinin adını yerləşdikləri



mahala vermişlər. "Naxçıvan tarixi"ndə Naxçıvanda XIII əsrdən sonra mis mədənlərinin işinin tənəzzülə uğraması haqqında verilən məlumatı da nəzərə alsaq (84, s. 212) deyə bilərik ki, bu proses yerli əhalinin miqrasiyası ilə də bağlı ola bilərdi.

Ordubad şəhəri isə bəhs olunan dövrdə də bağlar şəhəri kimi məşhur olmuşdur. Üzüm, taxıl, pambıq sahələri, meyvə bağları şəhəri əhatələmişdi. Suvarmada Qapan dağlarından (Qafan dağları) axan çay və bulaq sularından geniş istifadə olunurdu. Şərq ölkələrinin əksəriyyətində olduğu kimi, Azərbaycanda da süni suvarma kənd təsərrüfatı üçün həlledici əhəmiyyətə malik idi (10, s. 47). Görünür, hələ o dövrdə Ordubadın və Naxçıvan diyarının mövcud suvarma şəbəkəsi o qədər mükəmməl olmuşdur ki, bu orta əsr müəlliflərinin diqqətindən yayınmamışdır. Lakin bir məsələni də qeyd etmək lazımdır ki, monqol yürüşləri Azərbaycanda mövcud olmuş süni suvarma şəbəkəsini xeyli dərəcədə sarsıtmışdır.

Eldənizlər dövründə bölgənin ikinci ən qüdrətli şəhəri sayılan Kiran şəhəri (180, s. 29) monqol hücumları zamanı dağıntılara məruz qalmış, yerli əhali şəhəri tərk etməyə məcbur olmuşdur. Şəhərin tənəzzülü və uzun müddət öz keçmiş qüdrətini bərpa edə bilməməsi səbəbindən sonrakı dövr mənbələrində bu şəhər haqqında məlumatlar çox məhduddur. XIII əsrin 30-40-cı illərindən başlayaraq isə artıq orta əsr müəllifləri daha çox Kiran şəhəri yaxınlığında meydana çıxan və getdikcə çiçəklənən Azad şəhəri haqqında məlumatlar verirlər.

Həmdullah Qəzvininin də adını çəkdiyi Azad şəhəri bugünkü Ordubad rayonunun Aza kəndindən qərbə doğru uzanan ərazidə yerləşmişdir. Şəhərin əhalisi, əsasən, üzümçülüklə məşğul olmuşdur. Azad şəhəri keyfiyyətli şərabları ilə məhşurlaşmışdır. H.Qəzvini bu şəhərin yerli əhalisinin ağbənizli olduğunu yazmışdır. O göstərirdi ki, şəhər hər il dövlət büdcəsinə 18 min 300 dinar vergi verirdi (211, s. 51). Əsas karvan yollarının keçdiyi ərazidə yerləşən şəhər orta əsrlər zamanı mühüm ticarət və sənətkarlıq mərkəzi kimi şöhrət qazanmışdır. AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin fikrincə şəhər monqolların hücumu zamanı çox zərər çəkmiş, kənd tipli yaşayış məskəninə çevrilmişdir (113, s. 224; 114, s. 192).

Yuxarıda vurğuladığımız kimi, bu dövrdə Araz çayından cənubda yerləşən bir sıra ərazilər, o cümlədən, Maku da Naxçıvan tüməninin tərkibinə daxil olmuşdur. Mənbələrdə Maku qaya üzərində yerləşmiş möhkəm qala kimi təsvir edilmişdir (211, s. 51).

Bu dövrdə inkişaf edən Naxçıvan şəhərləri sırasında Qarabağlar xüsusi ilə seçilmişdir. İndiki Kəngərli rayonunun Qarabağlar kəndi ətrafında yerləşən ərazilərdəki toponimlər də (Yurdçu və s.) məhz ərazidə monqollar dövründə sürətli məskunlaşmanın olduğunu sübut edir. Qarabağlar ərazisində bu günə qədər qorunub saxlanılan Qarabağlar türbəsi də məhz monqol-hülakilər dövründə tikilmişdir. XIX əsrdə bu kənddə olmuş V.M.Sısoyev Qarabağlar türbəsinin son Hülakilər-ilk Teymurilər dönəmində tikildiyini yazmışdır (208, s. 114). O, portal-baştağ çərçivələrinin isə XIV əsr memarlığına uyğun olduğunu göstərmişdir.

Bu gün Qarabağlar abidələri kompleks şəklindədir. Buraya türbə, qoşa minarə və bu iki abidənin arasında yerləşən dini binanın qalıqları daxildir. İki minarəni bir-birinə bağlayan portal quruluşunun üzərində Qudi xatının adı oxunur (84, s. 272). Qudi (Qutuy) xatın Hülakülər dövlətinin banisi Hülakü xanın həyat yoldaşı olmuşdur. Hülakü monqol hökmdarlarının ailələri haqqında "Cami ət-Təvarix" əsərində geniş məlumat verən Fəzlullah Rəşidəddin göstərirdi ki, Hülakü xanın Qutuy xatın adlı həyat yoldaşı konkurat xalqının (tayfasının – E.K.) nümayəndəsi olmuşdur. Əsərdə yazılır: "Daha bir həyat yoldaşı Qutuy xatındır, konkurat xalqının hökmdarlarının sümüyündən (şəcərəsindən – E.K.) olan .... qızı. Güyük xatın (Hülakünün əvvəlki həyat yoldaşı - E.K.) Monqolustanda vəfat etdikdən sonra o ona (Qutuy xatına) elçi düşdü və onun (Güyük xatının) yurd yerini ona verdi" (203, s. 16).

Qeyd edək ki, Quti (Qutuy) xatın vəfat etdiyi zaman Hülakülər dövlətində İslam hələ rəsmi din olaraq qəbul edilməsə də, bu gün Qarabağlar kəndindəki abidə üzərində ərəb dilində "La ilahə illəllah" kəlmələri və dini mətnlər həkk olunmuşdur (84, s. 272). Bu isə onu göstərir ki, abidə sonrakı dövrlərdə restavrasiya olunmuşdur. Üslub və tikinti texnikası xüsusiyyətləri türbəni Əbu Səid Bahadur



xanın hakimiyyət illərinə (1319-1335-cu illər) aid etməyə imkan verir (94, s. 26).

Hülakü xanın 14 oğlundan ikisini Qutuy xatın dünyaya gətirmişdi. Bunlar xanın dördüncü oğlu Təkşin və yeddinci oğlu Əhməd Təkudər idi. Əhməd Təkudər Abaqa xandan sonra Hülakülər dövlətində hakimiyyətdə olmuşdur.

Qutuy xatının mənsub olduğu konkurat və yaxud konqoran tayfası ən iri tayfalarından biri olmuşdur. Çingiz xanın əcdadı olmuş və X yüzillikdə yaşadığı ehtimal edilən Bodonçarın nəslinin davamı olan qəbilələrdən olan konkuratlar monqolların özləri tərəfindən də monqol kimi deyil, tatar (türk) kimi qəbul edilirdilər (134, s. 79).

Bu gün Kəngərli rayonunun mərkəzi sayılan Qıvraq ərazisində də monqollar dövründə məskunlaşma olmuşdur. Bu mənada "Qıvraq" adının monqol tayfalarının Qaraqorumdan əvvəlki mərkəzi olmuş və 1228-ci il Qurultayının keçirildiyi Auraqdan gəldiyini ehtimal etmək olar. Monqol torpaqlarındakı Auraq şimal istiqamətində dağ bölgələrinə gedən yolda yerləşirdi. Mənası qaynaq olan, əski monqolca "Auraq" adlandırılan və qədim zamanlardan məhşur olan şəfa ocaqları buranı dövrələmişdi (73, s. 22). Ərazinin cənubundan Kerulen çayı axır, çayın cənub sahilində isə bozqır çölləri uzanırdı. Naxçıvan ərazisindəki Qıvraqın yerləşdiyi mövqeyə də baxarkən bu iki ərazi arasındakı açıq-aşkar oxşarlıq sezilməkdədir. Mümkündür ki, bu bənzərlik səbəbindən monqollar bu əraziyə "Auraq" adını vermiş, zamanla bu söz dilimizdə "Qıvraq" formasına düşmüşdür.

Hülakülər dövlətində vəzir vəzifəsində çalışmış Fəzlullah Rəşidəddinin verdiyi məlumatlara görə bu dövrdə Qapan ərazisi də Naxçıvan tüməninə daxil olmuşdur (94, s. 23). V.Piriyev göstərir ki, müəllif "Asar və əhya" əsərində 2 yerdə Qafanın Naxçıvan tüməninə aid olduğunu açıq-aşkar yazmışdır (93, s. 106). Bu dövrdə Qafan özünün zoğalı və ərvağan çiçəyi ilə məhşur idi. Bəzi tarixçilərin fikrincə "Qafan" sözü etnonim olub peçeneqlərin Kopon boylarının adı ilə bağlıdır (88, s. 95). Nəzərə alsaq ki, Naxçıvan ölkəsinin şərq hissəsi tarixən oğuz – peçeneqlərin yayılma arealına daxil olmuşdur, o zaman bu fikrin həqiqiliyi şübhə doğurmur.

Mənbələr Dəbil şəhərinin də bu dövrdə məhz Naxçıvan tüməninin tərkibində olduğunu təsdiqləyir. Əbu Bəkr əl-Əhərinin 1338-ci ildə Şərur və Dəbil ərazilərinin eyni şəxs tərəfindən idarə edildiyi barədə verdiyi məlumat da (93, s. 106) fikrimizi bir daha təsdiq edir. Dəbil şəhəri indiki İrəvan şəhərindən 30-35 kilometr cənubda yerləşmişdir. Şəhərin adının orta pəhləvi dilində "təpə" mənasını verdiyini M.Çaumont və V. Minorski öz əsərlərində orta əsr mənbələrinə istinadən qeyd etmişlər (214, s. 418).

Əlincə qalasına gəldikdə isə bu qala ilk monqol hücumları ərəfəsində İsmaili sektası mənsublarının əsas istinadgahlarından birinə çevrilmişdi. K.M.Smirnov Əlincə qalasında bu günə qədər qalmaqda olan Şahtaxtı və yaxud Şeyxtaxtı, Xarab-bağ, Daş-arası, Murd-dərəsi toponimlərinin məhz ismaili inancı ilə bağlı olduğunu qeyd etmişdir (207, s. 73).

"Kitabi-Diyarbəkriyyə"də verilən məlumatlardan aydın olur ki, Hülakü xanın yürüşləri ərəfəsində Əlincə qalası Bayandurlu tayfalarının əlində olmuş, Pəhləvan bəy Bayandurlu qala uğrunda Hülakünün sərkərdəsi Comaqonla vuruşaraq onu qaçmağa məcbur etmişdir (126, s. 41).

Atabəylər dövründə Naxçıvanın müdafiə qabiliyyətinə görə seçilən qalalardan biri olan Sürməli monqolların hücumları ərəfəsində Xilat hakimi Şihabəddin Qazi Adil Əbubəkr oğlu tərəfindən tutulmuşdu. Qala haqqında bəhs edən İbn əl-Əsir 1223-cü il hadisələrindən bəhs edərkən Dəbil və Xilat hakimləri arasında qala uğrunda müharibəni təsvir edir (234). Monqollar dövründə dağıntılara məruz qalmasına baxmayaraq Sürməli qalası haqqında XIV əsr müəllifi Nizaməddin Şami "Zəfər-namə" əsərində də bəhs etmişdir (123, s. 7).

Tarix elmləri doktoru Vaqif Piriyevin yazdığına görə bu dövrdə Naxçıvan ərazisində Vənənd, Qarabağlar, Giran, Culahə, Şahbuz, Şərur və s. yaşayış yerləri, Gərni, Tağmar və başqa kiçik qala istehkamlar da mövcud olmuşdur (93, s. 106).

Nəticə olaraq qeyd edə bilərik ki, monqolların Azərbaycan ərazisinə ilk hücumları dövründə Naxçıvanda dağıntılar törədilsə də sonralar Hülakülərin hakimiyyəti dövründə Naxçıvanın strateji



əhəmiyyətini anlayan monqol-hülakü hökmdarları burada nəinki şəhərlərin bərpasına, hətta yeni şəhərlərin salınmasına da çalışmışlar. Fikrimizcə bunun bir çox səbəbləri olmuşdur ki, onları aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1. Naxçıvan ərazisinin monqolların gələcəkdə qərbə - Anadolunun içərilərinə doğru hərəkəti üçün strateji əhəmiyyət daşıması;
2. Ərazinin təbii müdafiə qabiliyyətinin olması və ərazidəki qalaların müdafiə imkanlarının genişliyi;
3. Naxçıvan ərazisinin iqliminin Qafqazın digər əraziləri ilə müqayisədə daha isti olması və monqolların gəldiyi ərazilərlə iqlim oxşarlığı;
4. Monqol tayfaları ilə yanaşı qərbə doğru hərəkət edən türk tayfaları ilə yerli avtoxton türklər arasında ünsiyyətin daha tez qurulması, etnik bağlılıq.

Nəticədə isə bəhs olunan dövrdə bir sıra yeni şəhərtipli yaşayış məskənləri meydana çıxmış, dağınıtlara məruz qalan şəhərlər isə tədricən əvvəlki qüdrətinin bərpa etməyə başlamışdır.

***Əhalinin etnik və dini tərkibi.*** Bəhs olunan dövrdə Naxçıvanın əhalisinin əksəriyyətini avtoxton türkdilli əhali təşkil etmişdir. Bu dövrdə türkdilli əhaliyə rəsmi dövlət sənədlərinin çatdırılması üçün bu sənədlər bir çox hallarda onlar türk dilində hazırlanmışdır. Bu barədə məlumat verən Məhəmməd Naxçıvani yazırdı ki, Hülakülər dövlətində mühüm sənədlər 3 dildə (ərəbcə, farsca və türkcə), hər xalqa öz dilində, o cümlədən türklərə türk dilində çatdırılırdı (10, s. 20).

Monqol hücumları ərəfəsində Naxçıvan ərazisindən əhalinin digər ərazilərə, xüsusən dağlıq ərazilərə köçməsi baş vermişdir. Orta əsr mənbələrinin verdiyi məlumatlardan aydın olur ki, qırğınlardan canını qurtarmaq istəyən əhalinin köçməsi nəticəsində Naxçıvan və ətraf şəhərlərdə əhalinin sayı kəskin şəkildə azalmışdı. Bunun əvəzində isə XIII əsrin ortalarında Hülakü xanın dəstələrinin tərkibində Azərbaycan, o cümlədən Naxçıvan ərazisinə gələrək məskunlaşan türk və monqol mənşəli qəbilələr tədricən yerli əhali ilə qaynayıb qarışmışdır. Həmçinin Qazan xanın 1303-cü ildə verdiyi bir fərmanla bütün ölkə səviyyəsində torpaq mülkiyyətçilərinə yaşayış

yerindən qaçmış kəndliləri 30 il ərzində geri qaytara bilmək imkanı verilmişdi ki, bu da Naxçıvanda əhalinin say dinamikasına öz müsbət təsirini göstərmişdi (84, s. 230). Mənbələrin məlumatları və toponimik materiallar 20-dən artıq qəbilənin, o cümlədən sulduz-çobani, cəlairi, cığatay, kurqan, sukait, corat, budat, oyrat, tatar, dolan, onqut və sair qəbilələrin həmin dövrdə Azərbaycana gəlib məskunlaşdıqlarını təsdiqləyir.

V.Piriyev, İ.Kəngərli və bir sıra digər tədqiqatçıların qeydlərində göstərilir ki, Qarxun, Cığatay və mənşəcə oğuz tayfalarından olan Yaycı tayfaları da XIII əsrdə Naxçıvana gəlmiş tayfalardandır (94, s. 49; 63, s. 61). XIII əsrdə Naxçıvan tümənində xüsusi nüfuza malik olan tayfalardan biri olan Cığatayların Naxçıvan şəhərində o dövrdən başlayaraq məskunlaşdığı xüsusi bir areal – Cığatay məhəlləsi olmuşdur (81, s. 110).

Monqollar və onlarla birlikdə bölgəyə gələn bir sıra tayfaların Naxçıvan ərazisindəki izləri bu gün də bəzi toponimlərimizdə qorunub saxlanılmaqdadır. AMEA-nın müxbir üzvü Adil Bağırov Naxçıvan ərazisindəki toponimlərin dil mənsubiyyətindən bəhs edərkən buradakı Timurçin, Çingiz, Sabutay antroponimlərinin, Çığatay urbonimінin, Günnüt, İşgəsu, İncəsu, Qərincə toponimlərinin monqollarla bağlı olduğunu qeyd etmişdir (15, s. 30).

Quti xatının məhz Naxçıvanda məskunlaşmasından sonra onun mənsub olduğu türkdilli konkurat (kəngərat) tayfalarının da Naxçıvanda məskunlaşması və geniş imtiyaza sahib olması ehtimalının gücləndirir. Qutuy xatının mənsub olduğu konkurat və yaxud konqoran tayfası ən iri tayfalarından biri olmuşdur. Çingiz xanın əcdadı olmuş və X yüzillikdə yaşadığı ehtimal edilən Bodonçarın nəslinin davamı olan konkuratlar monqolların özləri tərəfindən də monqol kimi deyil, tatar (türk) kimi qəbul edilirdilər (134, s. 79; 60, s. 4). Sədərək rayonu ərazisində bu gün də yaşamaqda olan Günnüt (Küngüt) toponimi də ehtimal ki məhz konqoratların adı ilə bağlıdır. Qeyd edək ki, bu toponimin monqol mənşəli olması fikrini A.Axundov və A.Bağırov da təsdiqləmişlər (15, s. 142; 4, s. 33). A.Axundov küngüt sözünü monqol və monqolların tərkibində Azərbaycana gələn küngüt türkdilli tayfa adı



ilə əlaqələndirmişdir (4, s. 33).

Monqolların Naxçıvan ərazilərini işğal etdikləri dövrdə bölgədə əhalinin əksər hissəsi müsəlmanlardan ibarət idi. Yerli əhalini "ağüzlülər" kimi təsvir edən H.Qəzviniyə görə onlar İslamın şafii təriqətinə mənsub idilər (211, s. 51). Monqol hakimiyyətini qəbul etməyən müsəlmanların kütləvi şəkildə qətlə yetirilməsi, monqollar tərəfindən İslama qarşı digər dinlərin, o cümlədən, xristianlığın və buddizmin dəstəklənməsi əhalinin inanc sisteminə də təsirsiz ötüşməmişdir. İlk Elxanilərin islama qarşı mənfi münasibətdə olduqları, islama qarşı xristianlığı, yəhudiliyi, buddizmi dəstəklədikləri şəksizdir. Monqolların hakimiyyətinin ilk 30 ili ərzində mərkəzi dövlət aparatında "ölkənin baş qazısı" vəzifəsi rəsmən tanınmamış, vəqf torpaqları müsadirə edilmiş, dini işlərin idarəsi icarəyə verilmiş və nəticədə islamın dövlət aparatındakı mövqeyi zəifləmişdir. Arqun xanın dövründə müsəlmanlara etimadsızlıq o həddə gəlib çatmışdı ki, bu Hülakü hökmdarı 1289-cu ildə vəzirini belə yəhudi inancına sahib olan şəxslər içindən seçmişdir (196, s. 193-194). Bu dövrdə Hülakülərin nəzarətində olan ərazilərdə çoxlu sayda bütxanalar,xristian kilsələri, yəhudi məbədləri (sinaqoqlar) tikilmişdi (98, s. 148-149).

Bəlkə də bu səbəbdəndir ki, XIII əsrdə Naxçıvanda olmuş Vilhelm de Rubruk bölgədə yanlız xristian kilsələrindən bəhs etmişdir (199, s. 188). Unutmamaq lazımdır ki, V.Rubrukun səyahəti məhz ilk Hülakü hökmdarlarının hakimiyyəti dövrünə təsadüf etmişdir. Təbii ki, səyyahın fikirlərinə onun missionerlik missiyası və xristian təəssübkeşliyi də təsir etmişdir. Onun bölgədə dini durumla bağlı verdiyi təsvirlər sanki burada əhalinin kütləvi şəkildə xristian olması təəssüratı yaradır. Lakin monqol hökmdarlarının xristianlığı dəstəklədikləri təqdirdə belə yenə də bölgədə, xüsusən Naxçıvan ərazisində xristianlığın islam üzərində üstünlüyündən söhbət gedə bilməzdi. Çünki, eyni əsrdə yaşamış salnaməçi Kirakos Gəncəli belə Naxçıvan və Təbrizi birmənalı şəkildə müsəlman şəhərləri kimi göstərmişdir (168, s. 174). Analoji faktı ingilis tarixçisi Henri Hovort "IX əsrdən XIX əsrə qədər Monqolların tarixi" əsərində də qeyd etmişdir (215, s. 34).

XIII əsrin sonlarında Qazan xanın (1295-1304) hakimiyyətə yiyələnmək və Azərbaycanda (eləcə də islamın yayıldığı digər ölkələrdə) mövqelərini möhkəmləndirmək naminə bütpərəstlikdən üz döndərərək İslamı qəbul etməsi ilə bölgədə müsəlmanların say çoxluğu yenidən əvvəlki nisbətə qayıtmışdı. O, İslamı dövlət dini elan etmiş və bu islahata görə "altıncı əsr (hicri) islam dininin islahatçısı" kimi tarixə düşmüşdür. Onun hakimiyyəti dövründə Hülakülər dövləti ərazisində çoxlu sayda məscidlər, xanəgahlar inşa olunmuşdur.

XIV əsrin əvvəllərində Naxçıvan ərazisinin böyük bir hissəsində İslamın şiəlik və şafiilik məzhəbləri yayılmışdı. Elxanlı (Hülakü) hökmdarı Olcaytunun on iki imam şiəliyini qəbul etməsindən sonra (139, s. 262; 196, s. 206) bu məzhəb bir növ rəsmi ideologiyaya çevrilməyə başlamış və Anadoluda, o cümlədən, onunla həmsərhəd olan Naxçıvan ərazisində məskunlaşmış qızılbaş türkmənlər tərəfindən sevinclə qarşılanmışdır. Olcaytunun dövründə on iki imam şiəliyinin dövlətin rəsmi ideologiyasına çevrilməsi barədə Xacə Zeynalabidin Əli Əbdi bəy "Təkmilətül-əxbar" əsərində də məlumat vermişdir. O bu barədə yazırdı: "Abbasilər alçalıb süqut etdikdə hakimiyyəti bir müddət monqol və tatar kafirləri ələ aldılar. Qazan xan İslamı qəbul etdi. Ondan sonra günahı bağışlanmış Sultan Xudabəndə-Sultan Məhəmməd Olcaytu xan həqiqət gözünü açıb on iki şiə məzhəbinin yolunu aləmə göstərdi. Ömrü vəfa etmədiyinə görə tezliklə cənnətin dinclik evinə köçdü (yəni öldü)" (131, s. 21). Olcaytunun bu islahatı türkdilli əhalinin ona qarşı rəğbətinin artmasına səbəb olmuşdur. Məhz bu qüvvələrin Olcaytu hakimiyyətini dəstəkləmələri onun hakimiyyəti dövrünün Monqol imperiyasının çiçəklənmə dövrü kimi xarakterizə olunması ilə nəticələnmişdir. Bu dövrün Hülakü dövlətinin tarixində xüsusi yeri barədə Həmdullah Qəzvini (220, s. 147), Əbu Bəkr əl-Qütbi əl-Əhəri (28, s. 27) kimi müəlliflər də məlumat vermişlər.

Səlcuqlar dövründə xüsusi intişar tapmış sekta olan ismaililərin bu dövrdə Naxçıvan ərazisində mövcudluğu barədə mənbələrdə məlumat verilir. Hülakü xanın bu sektaya qarşı kəskin mübarizəsindən bəhs edən K.N.Smirnov yazır ki, məhz Hülakü



xanın hakimiyyəti dövründə Ordubad ətrafında mövcud olan ismaili xanəgahları dağıdılmış, Nüsnüs kəndinin yaxınlığındakı bir ərazidə 40-a yaxın ismaili cərəyanı mənsubu qətlə yetirilmişdir (207, s. 72-73). Qeyd edək ki, İsmaililik (Səbiyyə - yeddilik) müqavimətçi şiə cərəyanlarından biri idi. Bu cərəyan nümayəndələri oniki imamçı (isna əşəriyyə) şiələrindən fərqli olaraq hesab edirlər ki, imam nəsli yeddinci imamda qurtarır. Onlar altıncı şiə imamı Cəfəri-Sadiqdən sonra onun böyük oğlu İsmayılın imamətini qəbul edirlər (70, s. 168-169). Bəhs etdiyimiz dövrdə genişlənən ismaililik və xüsusən onun haşhaşi (asasin) qanadı daha çox siyasi cərəyan xarakteri daşımış və yadellilərə qarşı müqavimətə rəhbərliyi ələ almağa çalışmışdır. K.N.Smirnov sonrakı dövrlərdə hürufizmin mərkəzlərindən biri kimi gördüyümüz Culfa Xanəgahının (Əlincəçay xanəgahının) da məhz ismaililərə aid olması barədə iddialar irəli sürmüşdür (207, s. 72-73). Ola bilsin ki, ismaili cərəyanı nümayəndələri bir müddət Əlincəçay Xanəgahının sufi-islam dünyasındakı nüfuzundan istifadə etmişlər, lakin bu xanəghanın birmənalı şəkildə ismaililərə aid olduğu barədə fikirlərin həqiqiliyi şübhə doğurur.

## 1.3. XIV əsrin sonu, XV əsrdə hərbi-siyasi proseslərin Naxçıvan diyarı ərazisinin dəyişməsinə təsiri

XIV əsrin sonu XV əsr Azərbaycan tarixinin ən qarışıq dövrlərindən biri hesab edilir. Tarixdən məlum olduğu kimi, XIV əsrin ortalarında Hülakülər dövləti parçalanmış, müxtəlif sülalələr, feodal qruplaşmaları arasında Azərbaycan uğrunda mübarizə güclənmiş, eyni zamanda ölkə ərazisi Əmir Teymur, Toxtamış kimi fatehlərin hücumlarına məruz qalmışdır. Baş verən hərbi-siyasi proseslər Naxçıvan ərazisinin də dəfələrlə əldən ələ keçməsinə səbəb olmuş, Naxçıvan diyarı ərazisində bir sıra dəyişikliklər baş vermişdir. Yuxarıda qeyd etdiyimiz kimi, XIV əsrin ortalarında Hülakülər dövləti daxili böhran nəticəsində parçalanmışdır. 1339-1340-cı illərdə Şərq ölkələrini gəzmiş ərəb səyyahı İbn Bəttutənin verdiyi məlumatlardan Hülakülər dövlətinin 10-a yaxın hissəyə parçalandığı məlum olur (10, s. 27).

Bu dövrdə Naxçıvan ərazisində Hülaku hakimiyyəti formal olaraq qorunub saxlanılmış, əslində real hakimiyyət isə Çobani əmirlərinin əlində olmuşdur. Çobani əmirləri ilə Cəlairilər arasında Azərbaycan uğrunda gedən mübarizədə 1338-ci ildə qısamüddətli də olsa, Şeyx Həsən Çobani qalib gəlmişdir. O, 1338-ci ildə Hülakülərin mərkəzi hakimiyyətinə qarşı çıxmış, ətrafına hərbi qüvvələr toplayaraq Təbrizdə Sultan Məhəmməd Xudabəndənin qızı Satıbəy xatını (1339-1340) padşah elan etmişdir. 1338-ci ilin payızında bağlanmış sülh müqaviləsinə əsasən, Şeyx Həsən Cəlairi Qəzvinə, oradan isə Bağdada getmiş və Cahan Teymur xanı padşah elan etmişdir. Beləliklə, Çobanilər və Satıbəy xatın Azərbaycana sahib olmuşlar (10, s. 27).

XIV əsrin 50-ci illərində Çobani Əşrəf Naxçıvanı öz hakimiyyəti altına aldıqdan sonra cucilərə rəğbət bəsləyən bir sıra nəsillər Naxçıvan ərazisini tərk etməyə başlamışdılar. 1356-cı ildə Naxçıvan Canıbəy tərəfindən ələ keçiriləndə Əşrəf öldürülmüş (72, s. 91) və 1357-ci ilə qədər Naxçıvan cucilərin nüfuz dairəsində qalmışdır. Lakin Azərbaycan ərazisi uğrunda mübarizə səngimədi.



1358-ci ilin oktyabr ayında Çobani əmiri Əxicuqla Cəlairi Şeyx Üveys arasında baş verən vuruşma cəlairilərin qələbəsi ilə başa çatdı. Döyüşdə məğlub olmuş Çobani əmirləri Naxçıvana tərəf çəkildilər və hakimiyyətlərini qorumağa çalışdılar. Lakin bu mümkün olmadı, Cənubi Azərbaycanda möhkəmlənən sultan Üveys Arranı, Naxçıvanı və digər vilayətləri öz hakimiyyətinə tabe etdirdi (2, s. 155). Şeyx Üveysin hakimiyyəti dövründə ölkədə təsərrüfat və mədəni həyatın dirçəldilməsinə diqqət yetirilməyə başlandı. Ara müharibələri nəticəsində dağıdılmış suvarma kanalları bərpa olundu, təsərrüfatın dirçəldilməsi üçün bir sıra tədbirlər həyata keçirildi. 1382-ci ildə oturaq əhalinin və yerli feodalların narazılığından istifadə edən Sultan Əhməd hakimiyyətə yiyələndikdən sonra Naxçıvanı öz hakimiyyətinin əsas dayaq nöqtələrindən birinə çevirdi. Sultan Əhməd qardaşı Sultan Bəyazid və Əmir Adillə mübarizənin ən ağır çağlarında məğlubiyyətdən yaxa qurtarmaq üçün Naxçıvana çəkilir və burada qüvvələrini bərpa edərək yenidən Təbriz və Azərbaycan uğrunda mübarizəni davam etdirirdi.

XIV əsrin sonlarında Naxçıvan öz tarixinin ən çətin və ağrılı dövrlərini yaşayır. Teymurun Naxçıvan ərazisinə yürüşləri, Əlincə qalasının uzun illər ərzində mühasirədə saxlanılması bölgənin sosial-iqtisadi inkişafına ciddi zərbə vurur, əhalinin azalmasına səbəb olur. Lakin bu dövrdə də Naxçıvan Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparan real hakimiyyət sahibləri Cəlairilərin əsas istinadgahı olur. Teymurun hücumları zamanı bütün Azərbaycan ərazisi işğal edilsə də Cəlairi şahzadələri məhz Naxçıvana və Əlincəyə sığınmaqla hakimiyyətlərini qoruyub saxlamağa çalışırdılar.

Qızıl Orda xanı Toxtamış 1385-ci ildə Təbrizi talayıb geri dönərkən işğalçıların bir qismi Naxçıvan ərazisinə gəlmiş, əhalini qarət edərək, şəhərin bəzi hissələrində dağıntılar törətmişdilər. Toxtamışın bu yürüşlərinin dağıdıcı xarakterləri barədə "Əmir Teymurun vəsiyyətləri"ndə yazılır: "Toxtamış xan mənim tərəfimdən yeniləndən sonra Cuci ulusunu talan-tarac eyləyib aradan çıxmışdı. Mən ordan gedəndən sonra fürsətdən istifadə edərək Dərbənd və Şirvan arxalı Azərbaycana çoxlu sayda əsgər göndərib fitnə-fəsad

törətdi" (39, s. 38). Lakin görünür Teymurun öz yürüşü də Toxtamışın yürüşlərindən xarakterсə fərqlənməmişdir. Teymurun 1386-cı il yürüşü zamanı da Naxçıvan ərazisi dağıntılara məruz qalmış, Əlincə qalası ətrafında yerli feodallarla Teymur arasında bir günlük qanlı vuruşma olmuşdur.

Yuxarıda da qeyd etdiyimiz kimi Teymur və Toxtamışın hücumları zamanı Cəlairi sultanı Əhmədin Azərbaycanda yeganə etibarlı istinadgahı olan Əlincə qalasında Cəlairilərin xəzinəsi də saxlanılırdı. Qala Sultan Əhmədin oğlu Sultan Tahirin başçılığı ilə Əmir Altun və qalabəyi Xacə Cövhər tərəfindən müdafiə olunurdu. Burada Cəlairilərin 300-dən artıq əsgəri var idi (10, s. 27). 1399-cu ildə Teymurun qərbə doğru "Yeddillik müharibə" adı ilə məşhur olan yürüşü başladı. Əlincə qalası da bu yürüş zamanı - 1401-ci ildə işğal edildi (49, s. 17; 43, s. 87).

XIV əsrin sonundan etibarən Naxçıvan üzərində Qaraqoyunlu əmirlərinin nüfuzu getdikcə yüksəlməyə başlayır. Bağdad əmirlərinə qarşı mübarizə aparmaq üçün Sultan Əhmədin məhz Naxçıvana gələrək Qaraqoyunlu Qara Məhəmmədlə ittifaq bağlaması da bunu bir daha təsdiq edir.

Teymurilərin zəifləməsindən sonra əksər Azərbaycan ərazilərini öz hakimiyyətləri altında birləşdirə bilən Qaraqoyunlular Naxçıvanın idarəsini də ələ alırlar. 1406-cı ildə Qaraqoyunlu tayfa ittifaqının döyüşçüləri Miranşahın oğlu Əbubəkr Teymuri üzərində məhz Naxçıvan ərazisində qələbə çalmışdılar (213, s. 110). Bu hadisədən sonra 1410-cu ildə cəlairi Əhməd yenidən Azərbaycanda, o cümlədən, Naxçıvan tümənində hakimiyyəti ələ keçirməyə çalışsa da Qaraqoyunlu Qara Yusif ona qalib gəlmiş və öz hakimiyyətini Azərbaycan ərazisində bərqərar etmişdir. Beləliklə, 1412-ci ilin sonlarına yaxın Naxçıvan ərazisi birmənalı şəkildə Qaraqoyunlular dövlətinin tərkibinə daxil edilmişdir (72, s. 97). Qara Yusifin hakimiyyəti illərində Naxçıvan Qaraqoyunlu şahzadəsi Əbu Səid tərəfindən idarə olunurdu. Ş.Fərzəlibəyli bu barədə yazır: "Şahrux 823 (1420)-cü ilin rəbiul-əvvəl ayının 19-da (aprelin 5-də) Təbrizə gəldikdə Naxçıvan və Salması da idarə edən Qaraqoyunlu şahzadələri Əbu Səid və İspənd Mirzə də gələrək, ona tabe



olduqlarını bildirmişdilər" (40, s. 15-16).

XV əsrin 60-ci illərində isə Naxçıvan ərazisi Ağqoyunluların hakimiyyəti altına düşmüşdü (84, s. 246). Naxçıvanda Ağqoyunlu hakimiyyəti 1501-ci il Şərur döyüşünə qədər davam etmiş, həmin il Qızılbaş dövlətinin qurucusu İsmayıl Səfəvinin Ağqoyunlu Əlvənd Mirzəni Şərur düzündə məğlubiyyətə uğratmasından sonra Naxçıvan Səfəvi hakimiyyətinə keçmişdir.

***Sərhədlər və inzibati ərazi quruluşu.*** Hülakülərin dövründə olduğu kimi Çobanilərin və Cəlairilərin idarəçiliyi dövründə də inzibati ərazi bölgüsü əyalət (vilayət) – tümən – mahal bölgüsünə əsaslanırdı. Cəlairilər dövrünə aid bəzi mənbələrdə Naxçıvan ərazisi üçün tümən əvəzinə ümumilikdə mahal ifadəsinin işlədildiyini görürük (84, s. 236).

Monqollar dövründə mövcud olmuş Naxçıvan tüməninin XIV əsrin sonundan başlayaraq XV əsrin ikinci yarısına qədərki dövrdə Qapanat, Arran və Arasbar niyyəti tüməni adlı inzibati məntəqələrin tərkibində olması barədə müxtəlif iddialar mövcud olsa da (63, s. 210), fikrimizcə Naxçıvan tüməni bu dövrə qədər xüsusi tümən kimi mövcudiyyətini qoruyub saxlamış, şərqdə Həkəri çayından başlamış qərbdə Van gölünə qədər olan böyük bir ərazini əhatə etmişdir. XIV əsrin sonu XV əsrin başlanğıcında Naxçıvan müstəqil bir tümən olaraq Çuxur-Səd əyalətinin tərkibinə daxil edilmişdir (84, s. 242).

XV əsr Azərbaycan dövlətlərinin quruluşundan bəhs edən Ş.F.Fərzəlibəyli yazır ki, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri hərbi-inzibati əyalətlərə bölünürdülər (41, s. 18). Bu dövrdən başlayaraq Naxçıvan ölkəsinin (tüməninin) də daxil olduğu Çuxursəd əyalətinin adı mənbələrdə çəkilməkdədir (Şəkil 10). "Kitabi-Diyarbəkriyyə" məhz belə mənbələrdən biridir (126, s. 65). Matenadaranda saxlanılan 1428-ci ilə aid sənədlərdən birində Çuxursəd əyaləti Azərbaycan ölkəsinin tərkib hissəsi kimi göstərilir. Sənəddə yazılır: "...Karbi nahiyəsinin Üçkilsə kəndi, Azərbaycan ölkəsində, Çuxursəd vilayətində yerləşir" (191, s. 14).

Çuxursəd (və ya Çuxur-Səəd) Azərbaycan dilində iki komponentdən ibarət olub, "çuxur" dərə, düzənlik ərazi, ovalıq mənasını verir. Sözün tərkibindəki ikinci komponent Qaraqoyunlu

tayfalarından biri olan Səədlilərin və yaxud Saadluların adı ilə bağlıdır. Mənbələrdə göstərilir ki, Çuxursəd ərazisi Qara Yusifin oğlanlarından biri olan İspəndin qışlaq ərazisi olmuşdur. Məhz İspənd Qaraqoyunluların tərkibində ən böyük tayfalardan biri olan Saadlu camaatının idarəçiliyinə namizədlərdən biri idi (213, s. 112). Hafiz Əbru və Əbdürrəzzaq Səmərqəndi kimi orta əsr müəllifləri qeyd edirlər ki, Naxçıvan və Sürməli əraziləri ta qədim zamanlardan Saadluların (Səədlilərin) yaşadığı areala daxil olmuşdur (213, s. 112). XIV əsr tarixçisi Tovma Mesoplu "Teymurləngin və onun varislərinin tarixi" əsərində Sürməli ətrafı ərazidən (İndiki İğdır və ətraf ərazilər) "Caqat ölkəsi" kimi bəhs etmişdir. O yazır: "1387-ci ildə Teymur Xorasanı tərk edib Təbrizə gəldi. ... buradan Əlincə qalasına, oradan isə Caqaat ölkəsinə (Saad ölkəsinə) getdi. Mari (Surmari) şəhərini tutdu..." (209, s. 82). Fikrimizcə, burada xristian müəllif Səəd və ya Saad ölkəsini Caqaat kimi qeyd etmişdir.

Artıq XV əsrdə Çuxursəd adı altında Naxçıvan ərazilərinin də nəzərdə tutulduğunu aşağıdakı fakt da sübut edir. 1436-1437-ci illərin hadisələri ilə əlaqədar olaraq, tarixçi Həsən bəy Rumlu göstərir ki, Qara Yusifin oğlu Mirzə İsgəndər Kağızmandan keçərək Çuxursəd və Sürməliyə daxil oldu və burada qışladı. Növbəti il isə buradan Təbrizə doğru hərəkət etdi. İsmayıl Səfəvinin 1501-ci ildə Ağqoyunlu Əlvənd Mirzə ilə döyüşündən bəhs edərkən isə müəllif Çuxursəd ərazisindəki Şərur ifadəsini işlətmişdir (213, s. 113). Digər bir orta əsr müəllifi Şərəf xan Bitlisli də Naxçıvan ərazisini Çuxursədlə birlikdə xatırlamışdır (164, s. 174).

Oqtay Əfəndiyevin fikrincə, XV əsrdə Çuxursəd ərazisi şimal-qərbdən Şuragel, şimal-şərqdən Göyçə gölü, cənub-qərbdən Qars, cənubdan və cənub-şərq istiqamətində isə Sürməli, Naxçıvan, Maku, bəzi hallarda isə Bəyazid ərazilərini birləşdirirdi (213, s. 112). V.Piriyev də Çuxursəd əyalətinin əhatə etdiyi əraziləri bu şəkildə göstərmişdir (93, s. 107). Lakin biz, İsgəndər Münşinin verdiyi məlumatlara əsaslanaraq deyə bilərik ki, Qars ərazisi Çuxursəd vilayətinin tərkibinə daxil olmamışdır. Çünki bu orta əsr müəllifi Qarsı Çuxursəddən ayrıca bir ərazi kimi təsvir edərək qeyd etmişdir ki, Qars Çuxursədlə Ərzurumun arasında Mesq vilayəti (indiki



Gürcüstan Respublikasının Mesxetiya rayonu) ilə qonşuluqda yerləşir (78, s. 158). Göstərilən sərhədlər daxilində Çuxursəd vilayətinin ümumi ərazisi apardığımız hesablamalara görə, 38 min 399 km$^2$ olmuşdur (Şəkil 7).

Artıq Qaraqoyunlu və Ağqoyunlular dövründə Çuxursəd əyaləti inzibati baxımdan 8 yerə - Naxçıvan, Maku, Zar-zəbil, Sədərək, Bəyazid, Şadilu, Əkrad-e Donboli, Məğazbord hakimliklərinə bölünürdü (231). Deməli, XIV əsrdən fərqli olaraq XV əsrin əvvəllərində Naxçıvan tüməninin ərazisi nisbətən kiçilmiş, Maku, Sədərək, Zar-zəbil əraziləri ayrıca hakimliklərə - mahallara çevrilmişdilər. Bu məlumatların qarşılaşdırılmasından aydın olur ki, bəhs etdiyimiz dövrdə Naxçıvan tüməni şimaldan İrəvan, Zar-zəbil, qərbdən Qarabağ mahalı, cənubdan Mərənd, Xoy, cənub-qərbdən Maku, qərbdən isə Sədərəklə həmsərhəd idi. Təqribi hesablamalarımız göstərir ki, bu dövrdə Naxçıvan tüməninin ərazisi 9498 km$^2$ olmuşdur (Şəkil 8).

***Şəhərlər, iri yaşayış məntəqələri və qalalar.*** XIV əsr hadisələrindən bəhs edən mənbələr və tədqiqat əsərlərində əsasən Naxçıvan şəhəri və Əlincə qalası ilə bağlı hadisələrdən bəhs olunur. Hərbi-siyasi vəziyyətin gərginliyi səbəbindən XIV əsrin 50-ci illərindən XV əsrin 30-cu illərinə qədərki dövr şəhər həyatının, ticarətin tənəzzülü dövrü kimi xarakterizə olunur (170, s. 88). Bu dövr Naxçıvan şəhərləri haqqında məlumat verən ən ciddi mənbə tərəfimizdən bu istiqamətdə ilk dəfə tam şəkildə tədqiqata cəlb edilmiş İohan Şiltberqerin "Səyahət kitabı"dır (59, s. 70-76).

"Səyahət kitabı"nın "İpək yığılan ölkələr, Persiya və digər krallıqlar" adlanan 33-cü bölümündə alman müəllifi İ.Şiltberqer Azərbaycandakı feodallıqlar və şəhərlər haqqında məlumat verir. Təbriz, Sultaniyyə və Rey haqqında məlumat verdikdən sonra Şiltberqer Naxçıvan şəhərlərindən də bəhs edir. Naxçıvan şəhəri haqqında danışarkən o bu şəhərin Nuh peyğəmbərlə bağlılığı məsələsinə toxunaraq yazır: "Daha bir şəhər Nuhun gəmisinin dayandığı dağların əhatəsində yerləşən Naxçıvandır. Bu şəhərin ətrafındakı torpaqlar məhsuldardır" (222, s. 44).

Məhəmməd İbn Hinduşah Naxçıvani "Dəstur əl-katib fi tayin

əl-məratib" kitabında Sultan Əhmədin hakimiyyəti illərində yerli əhalinin öz yaşadığı yerləri tərk etməsi, şəhərin viranəyə çevrilməsi haqqında məlumat verir. O qeyd edir ki, əvvəllər Bağdad və Təbrizdən sonra ən möhtəşəm və möhtərəm şəhərlərdən biri hesab edilən Naxçıvan feodal zülmü ucbatından viranəyə çevrilmişdir (227, s. 625). Lakin buna baxmayaraq Naxçıvan yenə də ölkənin əsas şəhərlərindən biri rolunu qoruyub saxlamaqda idi. Naxçıvanın adının XIV əsrdə sikkə kəsilən şəhərlər sırasında çəkilməsi də bunu bir daha sübut edir. Azərbaycan Tədqiq və Təttəbö Cəmiyyətinin jurnalının 1926-cı ildə çıxan III buraxılışında E.A.Poxomov "Azərbaycanın sikkə xəzinələri" məqaləsində müxtəlif ərazilərdən tapılan və məhz Naxçıvanda kəsilmiş sikkələr barədə məlumat verir. Məsələn o Tiflis uezdinin Sartaçala-Marienfeld kəndində 1862-ci ildə aşkarlanmış 243 gümüş sikkədən ibarət olan dəfinədə XIV əsrə aid, 1862-ci ildə İrəvan yaxınlığında tapılmış dəfinədə 1337-1338-ci illərə aid, 1860-cı ildə Tiflis yaxınlığında tapılmış dəfinədə 1344-1345-ci illərə aid, 1858-ci ildə Göyçə yaxınlığında tapılmış xəzinədə 1360-1376-cı illər arasındakı dövrə aid Naxçıvan sikkələrinin aşkarlandığını qeyd etmişdir (197, s. 56-58).

Ə.Bakuvinin verdiyi məlumatlardan aydın olur ki, XIV əsrdə Naxçıvan Azərbaycanın möhkəm divarları və içqalası olan gözəl şəhərlərindən biri olmuşdur. Ə.Bakuvi yazır: "Şəhər düzənliyin ortasında yüksək yerdə bina olunub. Bu yerdən Araz çayı görünür. Bağlı-bostanlı, meşəli, meyvəli və çörəkli yerdir. Orda məşhur binalar, mədrəsələr və xanəgahlar var" (19, s. 132).

XV əsrin ikinci yarısında Ağqoyunlular tərəfindən ələ keçirildikdən sonra bölgənin əsas şəhəri olan Naxçıvanda təmir-bərpa işləri həyata keçirilmişdir. Ərazinin mühafizəsinə xüsusi diqqət yetirən Ağqoyunlu (Bayanduriyyə) dövlətinin hökmdarı Həsən padşah (Uzun Həsən) qalaların möhkəmləndirilməsi üçün bir sıra işlər həyata keçirmişdir. Naxçıvan qalası da məhz Həsən padşahın zamanında təmir və islah edilmişdi (143, s. 96).

XIV əsrin 80-ci illərinə qədər bölgənin əsas şəhərlərindən biri də Kiran və ya Gilan şəhəri olmuşdur. A.Bağırov yazır ki, şəhər XIV əsrin sonunda Əmir Teymurun oğlu Miranşah tərəfindən dağıdıl-



mışdır (16, s. 55). Apardığımız tədqiqatlar zamanı Kiran (Gilan) şəhəri ilə bağlı mənbələrdə verilən bir sıra məlumatların yanlış yozumunu da aşkara çıxardıq. Belə ki, İ.Şiltberqerin "Səyahət kitabı"nın həm Kaliforniya Berkley Universitetinin kitabxanasından əldə etdiyimiz professor Karl Fridrix Neymanın 1859-cu il tərcüməsi əsas götürülməklə J.Buçan Telfer tərəfidən hazırlanaraq Londonda nəşr etdirdiyi ingilisdilli tam versiyasında, həm də 1984-cü ildə Braunun tərcüməsi əsasında akademik Ziya Bünyadovun redaktəsi ilə Azərbaycanda nəşr olunan ixtisarlı rusdilli versiyasında tədqiqatçılar tərəfindən Gilanla bağlı məlumatlar Xəzər dənizinin cənubundakı Gilan ərazisi ilə səhvən eyniləşdirilmişdir (237). Əsərin tərcümələrini və şərhlərini oxuyarkən Naxçıvan şəhərlərindən danışan müəllifin qəflətən Xəzərin cənub sahillərindəki şəhərlər haqqında məlumatlara keçməsi, sonra isə yenidən Şərqi Anadoludan cənubda – Aralıq dənizi sahillərində yerləşən Antioxiya şəhəri haqqında məlumatları qeyd etməsi bir az qəribə görünür. Şəhərlərin ərazi ardıcıllığı ilə deyil, qarışıq verilməsi sual doğurur. Elə bu məqsədlə də Kaliforniya Universitetinin kitabxanasından əldə etdiyimiz kitaba üz tuturuq və mətnin analoji hissəsi ilə tanış olarkən məsələ aydınlaşır: "Burda Naxson (Nachson) adlanan daha bir şəhər var; Nuhun gəmisinin dayandığı dağların yaxınlığında yerləşir və bu ölkənin münbit əraziləri var. Burda üç şəhər də var, biri Maraqara (Maragara), digəri Hilat (Gelat) və üçüncüsü Kırna (Kirna) adlanır. Hər üçünün torpaqları məhsuldardır. Burada həmçinin dağlar üzərində yerləşmiş Maku (Meya) adlı bir şəhər də var.

... Burada pambıq və düyü yetişdirilən və əhalisi dəri ayaqqabılar toxuyan Gilan adlı bölgə də var. İpək örtüklərin (ləçək) toxunduğu böyük bir şəhər də var ki, Ress adlanır. Həmçinin Strauba adlanan bir şəhər də var.

Digər bir şəhər isə qala divarları qırmızı rəngdə olan Antioxiyadır" (222, s. 44).

Bu nəşrin də izahlar bölümü Novorossiya Universitetinin professoru Braunun şərhlərinə əsaslandığı üçün Kırna – Gərni kimi, Ress- Rəşt kimi, Strauba (Strawba) - Astrabad kimi təqdim olunub (222, s. 156-160).

Mətni diqqətlə araşdırdığımız zaman isə aydın olur ki, İ.Şilterberqer ayrı-ayrı ölkələrin şəhərlərindən qarışıq olaraq deyil, Naxçıvan və ətrafındakı ərazilərdən bəhs edir. Haqqında danışılan Gilan şəhərinin Xəzər dənizinin sahilində yerləşən Gilanla, Ressin isə Rəştlə eyniləşdirilməsi doğru deyildir. İohan Şiltberqer Naxçıvan ərazisində qalıqları indi də qalmaqda olan Kirandan (Gilan) və orta əsr mənbələrində "ər-Rass" kimi bəhs olunan Araz çayının sahilində yerləşən Ress adlı şəhərdən bəhs edir (222, s. 44). Araz çayından orta əsr ərəb müəlliflərinin əksəriyyəti, o cümlədən, İbn-Rusta, Məsudi, Əbu-Mənsur və başqaları "ər-rass" və yaxud "ər-ress" kimi bəhs etmişlər (188, s. 63-66). Qeyd edək ki, digər XII əsrə aid olan ərəbdilli müəllif Əbu Səad Əbdülkərim ibn Məhəmməd əs-Səmani "Kitab əl-Ənsab" ("Nisbələr kitabı") əsərində də "Ər-Rəas" nisbəsindən bəhs etmiş və bu nisbəni daşıyan şeyxin Naxçıvanda (Nəşəvada) olduğunu yazmışdır (38, s. 112).

İ.Şiltberqer Kiranda yaşayan əhalinin təsərrüfat məşğuliyyətindən, onların düyü becərmələrindən, dəri başmaqlar tikmələrindən bəhs edərək yazmışdır: "...Burada daha bir zəngin ölkə var ki, Gilan adlanır. Hansı ki, orada düyü və pambıq yığılır. Onun sakinləri dəri başmaqlar tikirlər. Sonra isə böyük bir vadidə yerləşən şəhər var ki, Ress adlanır. Sonra isə Astabad, hansı ki o da əlverişli mövqedə yerləşir. Qala divarları qırmızı olan Antioxiya adlı şəhər də var" (237).

Yaxşı ölkədə yerləşən və Strauba (Strawba) adlanan şəhər isə indiki İran ərazisində yerləşən Astrabad yox, Naxçıvan şəhərindən 12 kilometr cənub-şərqdə yerləşən Astabad adlı orta əsr şəhəridir. Qeyd edək ki, xarabalıqları Babək qəsəbəsinin yaxınlığında qalan bu şəhər orta əsrlərdə hürufiliyin əsas mərkəzlərindən biri, Fəzlullah Nəimi Astabadinin doğulduğu yer olmuşdur. 1967-1971-ci illərdə Araz su qovuşağının tikintisi ilə əlaqədar şəhərin xarabalıqları su altında qalmışdır (80, s. 28).

İ.Şiltberqerin verdiyi məlumatlardan aydın olur ki, Hülakülər dövründə olduğu kimi bu dövrdə də Naxçıvan daha geniş əraziləri öz tabeliyində birləşdirmişdir. Onun əsərinin Berkley Universitetindən əldə etdiyimiz "Bavariyalı İohan Şiltberqerin əsirliyi və səyahətləri



(Avropa, Asiya və Afrika 1396-1427)" adı ilə nəşr olunmuş ingilis dilində olan tam mətni ilə tanış olarkən aydın olur ki, rusdilli tərcümədə bəzi məsələlər və şəhərlərin adı təhrifə uğradılmışdır.

Rus dilində olan tərcümədə mətn belə təqdim edilir: "Sonra isə üç şəhərin ölkəsi gəlir: Marağa, Hilat və Karni. Həmçinin dağlar üzərində yerləşən Maqu adlı şəhər də var" (237). Lakin Naxçıvandan bəhs etdikdən sonra bu şəhərləri təqdim edən İ.Şiltberqerin məlumatlarının dəqiq tərcüməsi belədir: "Burda üç şəhər də var, biri Maraqara (Maragara), digəri Hilat (Gelat) və üçüncüsü Kırna (Kirna) adlanır." Əsərin ruscaya təcüməsində bu cümlə təhrif edilmişdir. Belə ki, ingilis dilli mətndə "İn it are olsa three city..." ("Bunun tərkibində üç şəhər də var...") hissəsindəki "in" – "daxilində", "tərkibində" ifadəsi bilərəkdən "İn" – "sonra" kimi tərcümə edilmişdir. Diqqət yetirək: "In it are also three cities, one called Maragara, the other Gelat and the third Kirna" (222, s.44). – «Затем идет страна с тремя городами: Марага, Хилат и Карни» (237). Beləliklə bu cümlənin düzgün tərcüməsindən də aydın olur ki, bu üç şəhər ayrıca bir feodallıq olmamış və Naxçıvanın ərazisi hesab edilmişdir.

Qeyd olunan ilk şəhər – Maraqara və ya Maqara adlı ərazinin adı 1722-1736-cı illərin hadisələrindən bəhs edən "Anonim erməni xronikası"nda da qeyd olunmuşdur. Nadirqulu xanın Talış ərazisindən Arpaçay yaxınlığında yerləşən Maraqaraya tərəf hərəkət etdiyini göstərən mənbədə Maraqaranın Arpaçay yaxınlığında yerləşdiyi göstərilir (162, s. 55). Xronikanı türk dilindən rus dilinə tərcümə edən və qeydlər yazan akademik Z.Bünyadov Maraqara vadisinin Arpaçayın sol sahilində Ani şəhəri ətrafında yerləşdiyini qeyd etmişdir. Araşdırmalarımız nəticəsində müəyyən edə bildik ki, Şiltberqerin adını çəkdiyi Maraqara bugünki Ermənistan Respublikasının Armavir mərzinin (rayonunun) Türkiyə Cumhuriyyətinin İğdır vilayəti ilə sərhədi ndə yerləşən bir yaşayış məskənidir. Qeyd edək ki, bu rayonun tarixi adı Sərdarabaddır və 1935-ci ilə qədər rayon belə adlanıb. Maraqara yaşayış məntəqəsi Arpaçayının sol sahilində yerləşir (Şəkil 9).

Hülakülər dövründə olduğu kimi, bu dövrdə də Naxçıvan

şəhərləri sırasında Hilat şəhərindən də bəhs etmək lazımdır. Şiltberqerin məlumatları bu dövrdə Hilatın (Əhlət) Naxçıvan idarəçilərinin hakimiyyəti altında olduğunu deməyə əsas verir. Bu isə ermənilərin bu qədim türk torpağı ilə bağlı iddialarını darmadağın edir. Bir daha qeyd edək ki, "Nüzhət əl-qülub"un VIII bölümündə Azərbaycan ölkəsinin sərhədlərini təsvir edən H.Qəzvini də Azərbaycan torpaqlarının fərsəxlə ölçüsünü verərkən Bakıdan Xalxala, Bacravandan isə Sipan (Sübhan) dağlarına qədər olan məsafəni göstərmişdir (211, s. 37). Məlumat üçün qeyd edək ki, bugünki Türkiyə ərazisində yerləşən Süphan dağları Van gölünün şimalında yerləşir. Deməli, yuxarıda da qeyd etdiyimiz kimi nəinki Hilata hətta Vana qədərki torpaqlar da hələ monqollar dövründə Azərbaycana aid edilmişdir. Əhlətin şəhər kimi inkişafına və tərəqqisinə Səlcuqlularla yanaşı, monqollar da xüsusi diqqət yetirmişlər. Əhlətin hələ monqollardan əvvəl də müsəlman vilayəti olduğunu İbn əl-Əsirin "Əl-kamil fi-t-tarix" kitabında Xarəzmşah Cəlaləddinin yürüşləri ilə bağlı qeyd etdiyi aşağıdakı fikir təsdiqləyir: "Biz keçən illərdə gürcülərin müsəlman vilayətlərində: Xilatda və ətrafında, Azərbaycanda, Arranda, Ərzən-ər Rumda və Şirvan Dərbəndində nələr etdiklərini yazmışdıq" (7, s. 169). Əsərin digər bir yerində isə İbn əl-Əsir açıq şəkildə yazır: "Hilat həmişə düşmənlər üçün ən təhlükəli sərhəd məntəqəsi olmuşdur. İslama qədərki dövrdə o qonşu farsların (Sasani imperiyasının-E.K.), sonrakı dövrdə isə müsəlmanların sərhəd məntəqəsi idi." (179, s. 395).

Əhlətin inkişafında əsas səbəblərdən biri də onun Hülakülərin qış paytaxtı Təbrizlə yay paytaxtı Aladağ arasında önəmli nöqtədə yerləşməsində idi (140, s. 280). Monqollar dövründə bölgə mərkəzi rolunda olan Əhlətin XIV əsrdə artıq Naxçıvan tüməninin tabeliyində olan bir şəhər kimi verilməsinin də xüsusi bir səbəbi olmuşdur. Məlumdur ki, bölgədə 1246 və 1275-ci illərdə güclü zəlzələ baş vermiş və Əhlətə ciddi ziyan dəymişdi. İki böyük zəlzələnin baş verməsi bölgənin əhalisinin azalması və Əhlətin tarixi binalarının darmadağın olması ilə nəticələnmişdi (179, s. 281). Ehtimal edirik ki, bundan sonra şəhərin nüfuzunu itirməsi Əhlət və ətraf ərazilərin də



Naxçıvanın tabeliyinə verilməsi üçün əsas səbəb olmuşdur. XIV əsrin sonu XV əsrin əvvəllərinə aid digər bir dəyərli mənbə olan "Kitab təlxis əl-asar və əcaib əl-məlik əl qəhhar" ("Abidələrin" xülasəsi və qüdrətli hökmdarın möcüzələri") kitabında Ə.Bakuvi yazır ki, müsəlmanlardan və xaçpərəstlərdən ibarət olan Xilat (Əhlətin) əhalisi əsasən türkcə və əcəmcə (farsca) danışır (19, s. 120). Verilən məlumatlardan aydın olur ki, ərazidə bərəkətli torpaqların olması Əhlətin bu dövrdə meyvəçiliklə məhşurlaşmasına səbəb olmuşdur. Şəhərin möhkəm qala divarları olmuşdur.

Orta əsr mənbələrində adı çəkilən şəhərlərdən biri də Kirnadır (237). Məlumdur ki, Naxçıvan ərazisində Kırna adlı toponim bu günə qədər qalmaqdadır, Kırna ərazisində nekropol mövcuddur, şəhər mədəniyyətinə aid maddi mədəniyyət nümunələri tapılmışdır (80, s. 219-220). Nəzərə almaq lazımdır ki, alman müəllif İ.Şiltberqer Kirnadan qala kimi deyil, şəhər kimi bəhs etmişdir. Elə bu səbəbdən də, tərcüməçilər və sonrakı tədqiqatçılar tərəfindən orjinal mətndə "Kırna" kimi yazılmış sözün Gərni formasına salınaraq İrəvan yaxınlığındakı qala ilə eyniləşdirilməsi doğru deyildir.

XIV-XV əsrlərdə Naxçıvan tüməninin əsas məntəqələrindən biri də Əlincə olmuşdur. Bu dövrdə Əlincənin kiçik qala-şəhər kimi fəaliyyət göstərdiyini göstərən bir çox faktlar vardır. İ.Şiltberqer "Səyahət kitabı"nda Əlincəni (Aluitze) sadəcə müdafiə qalası kimi deyil, şəhər kimi təsvir etmişdir (222, s. 44). XV əsrdə Əlincəni görmüş İspaniya səyyahı Ryui de Qonzales Klavixo uca dağın başında yerləşən Əlincə qalasının divar və bürclərlə əhatə olunduğu barədə məlumat vermişdir (184, s. 152). O yazırdı: "Qalada çoxlu üzümlük, bağlar və əkin yerləri, çoxlu su, otlaqlar var idi. Qala dağın lap zirvəsində ucalırdı" (67, s. 14).

Fəzlullah ibn Ruzbixan Xunci "Tarixi aləmarayi Əmini"də Ağqoyunlular dövründə baş vermiş hadisələrlə əlaqədar Əlincə qalasının adını çəkmişdir (204, s. 143). Onun verdiyi məlumatlardan aydın olur ki, bəhs olunan dövrdə Əlincəqalası bir növ bəzi şahzadə və feodalların nəzarət altında saxlanıldığı həbsxana kimi istifadə edilmişdir.

XV əsrin sonunda baş verən hadisələrdən bəhs edərkən

"Tarix-e-aləmaraye-Abbasi" əsərinin müəllifi İsgəndər Türkman Ağqoyunlular arasında gedən mübarizədən bəhs edərkən bu qalanın adını Ələnciq kimi qeyd etmiş və qalanın hakiminin kutval (qala hakimi) Qırıq Seydi Əli olduğunu yazmışdır (78, s. 75).

XIV əsrdə baş vermiş hadisələrlə əlaqədar olaraq mənbələrdə adı çəkilən yaşayış məntəqələrindən biri də Şərurdur. V.Piriyev yazır ki, bu yaşayış məntəqəsinin adı Əbu Bəkr əl-Əhərinin və Zeynəddin Qəzvininin əsərlərində xatırlanır (94, s. 26). Əl-Əhəri Şərurun 1338-ci ildə Dəbil ilə birlikdə Hacı bəy tərəfindən idarə olunduğu barədə məlumat vermişdir (28, s. 40). Zeynəddin Qəzvini isə 1344-cü ildə baş vermiş hadisələrlə bağlı Şərurun adını çəkmişdir. Z.Qəzvini "Zeyl-e tarixe qozide" əsərində Naxçıvan və Şərur ətrafı ərazilərdə Məmuriyyə və Qəsrtağ adlı daha iki ərazinin adını çəkmişdir (103, s. 16). Məmuriyyə adlı ərazinin lokalizasiyası ilə bağlı dəqiqləşdirici faktlar olmasa da, Z.Qəzvini bu ərazinin Naxçıvanda Mastəkuh dağının ətəklərində olduğunu göstərmişdir (103, s. 18). Fikrimizcə, Qəsrtağ ərazisi əvvəlki başlıqda haqqında bəhs etdiyimiz Tağmar qalasıdır.

Kiçik şəhərcik olan Culfanın rolu XV əsrdən başlayaraq – xüsusilə Qaraqoyunluların hakimiyyəti illərində yüksəlməyə başlayır. Culfanın şəhər kimi XV əsrdən etibarən rolunun yüksəlməsi barədə O.Əfəndiyev, F.Səfərli, E.İsayev kimi tarixçilər tədqiqat əsərlərində məlumat vermişlər (27, s. 230; 116, s. 10, 44; 54, s. 164). Tarix elmləri doktoru F.Səfərli yazır ki, Culfa şəhəri xüsusi əhəmiyyətinə görə Qaraqoyunlu hökmdarlarının diqqət mərkəzində olmuş, ona qayğı ilə yanaşmışlar. Tədqiqatçı hətta hicri 857-ci ilin ramazan ayında (sentyabr 1452-ci il) Qaraqoyunlu hökmdarı Cahanşah tərəfindən Culfa şəhəri haqqında xüsusi fərman imzalandığını yazır (116, s. 9-10). Bu məlumat göstərir ki, Culfanın şəhərləşməsində Qaraqoyunluların xüsusi rolu olmuşdur.

XIII əsrin sonlarında Kiran şəhərinin getdikcə tənəzzülə uğraması ilə bölgədə vilayətin iqtisadi-siyasi mərkəzi kimi Azad şəhərinin rolu artmış və yalnız XVI əsrin sonlarında bölgənin mərkəzi Ordubada keçmişdir (20, s. 154). Deməli bəhs etdiyimiz dövrdə XIV-XV əsrlərdə bölgənin əsas şəhərlərindən biri Aza və



yaxud Azad şəhəri olmuşdur. Hələ XIII əsrdə bu şəhər özünün memarlıq tikililəri ilə seçilmişdir. XIII əsrdə naxçıvanlı memar Şeyx ibn Cühənnah tərəfindən inşa edilmiş tək minarəli Cümə məscidinin qalıqları XIX əsrdə Xanıkov tərəfindən qeydə alınmışdır (117, s. 63). XIV əsr müəllifi Həmdullah Qəzvini Azadı kiçik bir şəhər kimi təsvir etmiş və bu dövrdə bu ərazinin öz şərabı ilə məhşur olduğuna diqqət çəkmişdir (211, s. 51).

Bəhs olunan dövrdə Naxçıvan ərazisində diqqət çəkən ərazilərdən bəhs edərkən Naxçıvan duzlağı və ya Naxçıvan Duzdağı haqqında verilən məlumatlar da maraq doğurur. A.Bakıxanov "Gülüstani-İrəm" əsərinin "Moğol istilasından Səfəvilərin zühuruna qədər, Şirvanşahlar sülaləsi və onların səltənətinə aid hadisələr haqqında" adlanan üçüncü fəslində Sultan Əhmədin Əmir Teymurun Azərbaycana hücumu xəbərini "Naxçıvan duzlağında" aldığı barədə məlumat vermişdir (18, s. 225). Burada tarixi hadisələr haqqında məlumat verərkən "duzlağ" ifadəsi - birinci mənada, "quraqlıq səhra ərazisi", "duzlu torpaq" mənasında, ikincisi isə Naxçıvan ərazisində bu gün də mövcud olan duz mədənləri ilə bağlı ola bilər. Ola bilsin ki, Naxçıvanda tam hakimiyyətini bərqərar etmək istəyən Sultan Əhməd Naxçıvan duz mədənlərinə nəzarəti də ələ almaq istəyirdi.

***Əhalinin etnik və dini tərkibi.*** XIV-XV əsrlərdə Naxçıvan əhalisinin etnik tərkibində türk tayfaları üstünlük təşkil etmişlər. Bölgədə oğuz-türkmən tayfalarının nüfuz üstünlüyünü göstərən faktlardan biri N.Şaminin "Zəfər-namə" əsərində əksini tapmışdır. Müəllif Sürməri qalasının türkmən qalası olduğundan və "bu qövmün böyüyü olan Tutan adlı türkmən"dən bəhs etmişdir ( 123, s. 7).

XIV əsrdən başlayaraq bölgənin idarəçiliyndə Qaraqoyunlu-Sədlilərin rolu önə çıxmışdır. Qaraqoyunluların tarixini araşdıran F.Sümər orta əsr müəlliflərindən Hafiz Əbru və Əbdürrəzzaq Səmərqəndiyə istinadən Naxçıvanda və Sürməli bölgəsində qədim dövrlərdən Qaraqoyunluların əsas tayfalarından olmuş Sədli (Sədlu) tayfasının yaşadığını qeyd etmişdir (151, s. 14-15, 20). Qaraqoyunluların mənşəyi probleminə toxunmuş T.Nəcəfli də bu faktı öz əsərində qeyd etmiş və XV əsrdən başlayaraq mənbələrdə

adı tez-tez çəkilən Çuxursədin bu tayfanın adı ilə bağlı olduğunu yazmışdır (89, s. 29).

Türkiyəli professor Salim Cöhce Əhlət və ətrafındakı türk boylarından bəhs edərkən Qaraqoyunlu dövlətini quran tayfaların yayılma arealını göstərmişdir. Tədqiqatçının fikirlərindən aydın olur ki, Səd-çuxuru, İrəvan və Naxçıvan ərazisində Sədli (Saadlu), onlardan şərqə doğru Sürməli – indiki İğdır düzü istiqamətində Baharlı, Gəncə və Qarabağ istiqamətində Qaramanlı, Malazgird istiqamətində Alpagud (Alpout) və Bayramlu kimi Qaraqoyunlu tayfaları məskunlaşmışdılar (137, s. 247).

F.Sümər yazır ki, XIV əsrin II yarısında Mosul-Ərzurum arasındakı bölgənin mühüm bir hissəsinə hakim olan Qaraqoyunlu oymağı XIV əsrin sonlarına doğru Naxçıvan, Xoy və bir sıra digər vilayətləri də ələ keçirmişdilər (120, s. 157).

Qaraqoynulular dövründə bölgə əhalisinin tərkibində türk tayfalarının yerini göstərən əsas faktlardan biri də Əlincə qalasının hakimi Qazi İmadəddinin öz nüfuzunu artırmaq üçün qalaya türk və tərəkəmə tayfalarının nümayəndələrini yığması ilə bağlıdır (42, s. 77).

XIV-XV əsrlərdən bölgə əhalisinin inanc sistemində İslamın müxtəlif məzhəb və təriqətləri xüsusi yer tutmağa başlayır. Bu dövrdə yayılmaqda olan sufi təriqətləri əsasən islamın qayda qanunları ilə əski türk Tanrı inancının və xristianlığın culğalaşması nəticəsində meydana çıxırdı. Bəhs olunan dövrdə Naxçıvanda İslamın ənənəvi məzhəbləri ilə yanaşı hürufilik, bektaşilik, səfəviyyə, nöqtəvilik kimi sufi təriqətləri geniş yayılmışdılar (84, s. 263). Bu təriqətlər bir çox hallarda xalq kütlələrini siyasi proseslərdə aktiv şəkildə iştiraka təhrik edirdi. Hürufiliyin Əmir Teymura qarşı mübarizədəki rolu, səfəviyyənin Səfəvilər dövlətinin qurulmasındakı rolu bu cəhətdən qiymətləndirilə bilər.



# II FƏSİL

# XVI-XVII ƏSRLƏRDƏ NAXÇIVANIN TARİXİ COĞRAFİYASI

## 2.1. Səfəvilər dövlətinin yaranması ərəfəsində baş verən ictimai-siyasi proseslər və Naxçıvan

Məlum olduğu kimi, XV əsrin sonunda Azərbaycan əraziləri əsasən iki dövlətin - Ağqoyunlu və Şirvanşahlar dövlətinin idarəçiliyi altında olmuşdur. Faktiki olaraq bu dövlətlərin heç biri Azərbaycanın bütün ərazilərini birləşdirmək iqtidarında deyildilər. Bu dövrdə Naxçıvan ərazisi Azərbaycan Ağqoyunlular dövlətinin tərkib hissəsi sayılırdı. Baş verən feodal çəkişmələri, müharibələr ölkənin hər yerində olduğu kimi Naxçıvan ərazisində də dağıntılara səbəb olur, yerli hakimlərin mərkəzdənqaçma meyilləri güclənir, bir çox hallarda hər hansı dövlətə formal olaraq bağlı feodal malikanələri yaranırdı. Bu dövrdə sürətlə güclənməkdə olan belə malikanələrdən biri də daha çox dini xarakter daşıyan Səfəvilərin "Ərdəbil malikanəsi" idi.

Ərdəbil şeyxlərinin nüfuzunun gündən-günə güclənməsi, onların əsas ideologiya olaraq seçdikləri qızılbaş şiəliyinin feodal istismarından və müharibələrindən bezmiş xalq kütlələrinə ədalət vəd etməsi Səfəvilərin nüfuzunu daha da artırırdı. Hələ Səfəvilərin güclənməsinə qədərki dövrdə Ərdəbil şeyxlərinin çox güclü nüfuza malik olduğu Azərbaycan bölgələrindən biri də Naxçıvan olmuşdur. Təsadüfi deyildir ki, gələcək Şah İsmayılın əsas tərəfdarları sırasında Naxçıvanda məskunlaşmış əhali xüsusi yer tuturdu. Naxçıvan ərazisində mövcud olan dərviş ordenləri qızılbaş-şiə inancının Kiçik Asiyadan digər ərazilərə yayılması üçün əsas dayaq nöqtələri rolunu oynayırdılar. 1499-cu ildə İsmayılın şeyx elan edilməsindən sonra Deyləmədən Taroma, Taromdan isə Mingölə doğru hərəkət edərkən yolboyu İsmayıla qoşulmuş tayfalar sırasında Şamlı və Ustacıların (27, s. 46-47) adı çəkilir ki, Naxçıvan ərazisi bu tayfaların Azərbaycanda əsas məskunlaşma areallarından biri olmuşdur. Naxçıvanda hələ ilk orta əsrlərdə baş vermiş hadisələrlə əlaqadar adı çəkilən tayfalardan biri olan Kəngərlilərin Ustaclı tayfalarının bir qolu olduğunu qəbul etsək, o zaman Naxçıvan əhalisinin Səfəvi dövlətinin qurulmasındakı misilsiz rolunu aydın təsəvvür edə bilərik. Unutmamaq lazımdır ki, Səfəvi sarayının gələcək əsas mühafizəçiləri



də məhz yüksək sədaqətlərinə görə dolayı Ustaclı-Kəngərlilərdən seçilmişdir. S.Q.Klayştornıya istinad edən Faruk Sümər də "Oğuzlar" əsərində Kəngərlilərin həm Ustacıların bir qolu olmasını, həm də onların qızılbaş olmalarını təsdiq edir (120, s. 35-36). İ.Petruşevski Ustaclı-Kəngərliləri Naxçıvan ölkəsinin hakimləri və əsas qızılbaş tayfalarından biri kimi göstərmişdir (195, s. 103, 132). Bu faktı görkəmli Azərbaycan tarixçisi Oqtay Əfəndiyev də təsdiqləyərək göstərir ki, I Şah İsmayılın dövründə Naxçıvan və İrəvan qızılbaş tayfalarından biri olan Ustacıların nəzarətində idi və onların məskunlaşma arealına daxil olmuşdur (213, s. 114). Kəngərlilərin qızılbaş tayfalarından biri olması haqqında məlumatlar M.Quliyev (108), İ.Əliyev (32, s. 142), F.Əliyev (30), İ.Kəngərli (63, s. 211) və başqa tarixçilərin tədqiqatlarında da öz əksini tapmışdır.

Yeni dövlətin yaranması ərəfəsində baş verən hadisələrin təhlili də göstərir ki, İsmayıl Səfəvi Naxçıvan ərazisinə xüsusi önəm vermişdir. İlk növbədə qeyd etmək lazımdır ki, İsmayıl Səfəvi 1500-cü il yazın əvvəllərində Gilandan Kiçik Asiyaya getmək üçün məhz Naxçıvan ərazisindən - Göyçə gölünün cənubundan keçməyə üstünlük vermişdir. Digər tərəfdənç İsmayıl Səfəvi Azərbaycan üzərində öz hakimiyyətini bərqərar etmək üçün Təbrizdən əvvəl Şamaxı, Bakı və Naxçıvanı tutmağı vacib hesab etmiş və 1501-ci ilin ortalarında özünün ən qatı rəqiblərindən biri olan Əlvənd Mirzəni Naxçıvan ərazisində - Şərur düzündə məğlubiyyətə uğratmışdır (78, s. 82-83). Qeyd edək ki, bu gün Naxçıvan ərazisində "Şərur düzü" adlanan yer Vəlidağ-Dəhnə yüksəkliyindən Qarabağlar-Qıvraq tirəsinədək uzanan geniş bir ərazini əhatə edir (12, s. 24). Döyüşün Şərur düzünün hansı hissəsində baş verməsi ilə bağlı mənbələrdə məlumatlar olmasa da, ərazidə apardığımız tədqiqatlar, xalq arasında yayılmış müxtəlif əfsanə və rəvayətlər, habelə bəzi abidələrdə apardığımız müşahidələr onu deməyə əsas verir ki, Səfəvi ordeni tərəfdarlarının ordugahı indiki Kəngərli rayonunun Şahtaxtı kəndi ərazisində yerləşmişdir.

Naxçıvan ölkəsi I Şah İsmayıl Səfəvi dövründə əsas qış paytaxtlarından biri olmuş, Şah İsmayıl 1518-ci və 1524-cü ilin qışını məhz Naxçıvanda keçirmişdir (131, s. 37-39).

Qızılbaş dövlətinin yarandığı ilk dövrlərdə Naxçıvanın əsas idarəçilik mərkəzlərindən biri olduğunu sübut edən faktlardan biri də odur ki, 1521-ci ildə gürcü çarları Levan, Kvarkvare, David və Manuçar I Şah İsmayıl Səfəvidən asılılığı qəbul etmək üçün onunla görüşməyə məhz Naxçıvana gəlmişdilər. I Şah İsmayıl Səfəvinin dövründə Naxçıvan ərazisinin idarəçiliyi Ustaclı tayfalarına mənsub olmuşdur. 1524-cü ildə Şah İsmayıl Səfəvinin ölümündən sonra hakimiyyətə onun on yaşlı oğlu I Şah Təhmasib Səfəvi gəlmiş, onun dövründə şahın vəkili və tərbiyəçisi olan Div Sultan Rumlu Naxçıvan ərazilərinin də daxil olduğu Çuxursəd (İrəvan) vilayətinin idarəçiliyini Ustaclıların əlindən alaraq Rumlulara vermişdir. 1527-ci ilin iyununda Div Sultan Naxçıvanda - Arpaçay yaxınlığında Köpək Sultan və Abdulla xan kimi Ustaclı əmirlərinə qalib gəlmiş, vəkalət vəzifəsi Div Sultanın və Təkəl tayfasının başçısı Çuxa Sultanın əlinə keçmişdir. Naxçıvan uğrunda qızılbaş tayfaları arasında mübarizə ərazinin Səfəvilərin tabeliyində olduğu əksər dövrlərdə getmiş, əksər hallarda Ustaclı-Kəngərlilərin qələbəsi ilə sona çatmışdır.

Qızılbaş dövləti ilə Osmanlı imperiyası arasında baş verən müharibələr Naxçıvanın tarixi-siyasi coğrafiyasına, əhalinin tərkibinin dəyişməsinə, bölgənin şəhərlərinin inkişafına, iqtisadi vəziyyətə ciddi təsir göstərmişdir. Hətta, elə dövrlər olmuşdur ki, Naxçıvan ərazisi ciddi dağıntılara məruz qalmış, əhali köçürülmüş, otlaqlar yandırılmışdır. Məsələn, Çaldıran savaşından sonra Təbrizə gedən Sultan Səlim geriyə qayıdarkən Naxçıvanda olmuş, Osmanlı ordusundakı bəzi komandanlar buranı məzhəb təəssübkeşliyindən irəli gələrək dağıtmışdılar (156, s. 258). Törədilən dağıntıları dövrün Osmanlı mənbələri "şəhər xalqının görünüşdə əhli-sünnə, əslində isə qızılbaş olması" ilə əlaqələndirirlər. Heydər Çələbi "Ruznamə"sində bu barədə yazır: "Şəhər əhalisi görünüşdə əhli-sünnə hesab olunsa da, onların əksər davranışları qızılbaşlar kimi olduğu üçün sipahilər şəhəri yağma etdilər" (142, s. 81).

Osmanlı Sultanı Süleymanın 1548-ci ilin yazında Azərbaycana yürüşü zamanı Səfəvilər "yandırılmış ərazilər" taktikasından istifadə etmişlər. Bu zaman qərb sərhədlərindən başlayaraq Naxçıvan da daxil olmaqla Təbrizə qədərki torpaqlarda



yaşayış üçün lazım olan hər şey məhv edilmişdi. "Osmanlı ordusunun hərəkətini çətinləşdirmək üçün sərhəddən başlayaraq paytaxta kimi bütün yollar viran edilmişdi. Hər şey yandırılmış, işğalçılar üçün "bir toxumcuq, ot saplağı" belə saxlanılmamışdı (10, s. 187).

1552-ci ildə Osmanlı hakimi İsgəndər paşanın Xoy və Çuxursəd bölgələrinə hücumları zamanı da Naxçıvan ərazisindəki yaşayış məntəqələri ciddi ziyan çəkmişdir. I Sultan Süleyman 1554-cü ilin yazında Azərbaycana dördüncü yürüşü zamanı Naxçıvanı tutmuş, I Şah Təhmasib Səfəvi onunla üz-üzə gəlməmək üçün Bazarçaya doğru geri çəkilmişdi. Tezliklə kəskin ərzaq çatışmazlığı hiss edən Sultan Süleyman Naxçıvan şəhərini tərk etmədən öncə oranı yandırıb Azərbaycandan Kiçik Asiyaya geri dönmüşdü (78, s. 168). Bu barədə bəhs edən türk tarixçisi İ.E.Atnur yazır ki, 1554-cü ilin yayında "Naxçıvan səfəri" adlandırılan və şəxsən Osmanlı padşahı Qanuni Sultan Süleyman tərəfindən idarə edilən hərbi yürüş nəticəsində Naxçıvan Osmanlı ordusu tərəfindən dağıdılmışdı (3, s. 15). Naxçıvanın işğalı və dağıdılmasını Osmanlı salnaməçisi Solakzadə belə təsvir edir: "Naxçıvan səhrasında məmləkətlər alan cahan padşahı mənzilgah qurdu. Orada daha əvvəllər olduğu kimi, qızılbaşların (şiə əhalisinin) ocaqlarının qarət edilməsi və dağıdılması üçün akıncılara icazə verildi. Akıncılar 20 günlük yeri dəhşətli yanğınla yerlə bir etdilər. Abad olan ev və kaşanələri yer ilə bir edib, daşı-daş üstündə qoymadılar" (150, s. 435).

Baş verən müharibə 1555-ci ildə imzalanan Amasiya sülhü ilə nəticələnmiş, imzalanan sülh müqaviləsinə əsasən, Naxçıvan Səfəvilərin hakimiyyəti altında qalmışdır (27, s. 83).

II Şah İsmayıl Şərəf xan Bidlisini Naxçıvan hakimi təyin etdikdən sonra Naxçıvanda yenidən bərpa-quruculuq işlərinə başlanılmışdır (159, s. 26).

Səfəvilərlə Osmanlılar arasında növbəti müharibə Şah Məhəmməd Xudabəndənin (13 fevral 1578-1587) dövründə oldu. Osmanlı sultanı III Muradın sərkərdəsinin 1555-ci il anlaşmasını pozması ilə başlayan müharibədə Çuxursəd hakimi Məhəmməd xan Toxmaq Ustaclı fəal iştirak etdi. Lakin buna baxmayaraq Səfəvi

qoşunları Çıldır gölü yaxınlığında Osmanlılar tərəfindən məğlubiyyətə uğradıldılar. 1578-ci il avqustun 9-da Çıldır gölünün (Qarsın şimal-şərqi) yaxınlığındakı məğlubiyyətin əsas səbəbi qızılbaş əyanlarının birləşə bilməməsi və bir-birlərinə qarşı ciddi rəqabətləri oldu.

1583-cü ilin yayından Osmanlı sərkərdəsi Fərhad paşa Qarsdan hərəkətə başlayaraq Çuxursədi tutdu, orada qala tikdirib qoşun yerləşdirdi. Çuxursəd hakimi Məhəmməd xan Toxmaq heç bir kömək almayaraq öhdəsindəki cüzi qüvvə ilə Naxçıvana geri çəkilməyə məcbur oldu (10, s. 193).

1586-1589-cu illərdə Naxçıvan əraziləri də daxil olmaqla demək olar ki, Azərbaycan torpaqlarının əksər hissəsi Osmanlılar tərəfindən ələ keçirildi. Daxili çəkişmələrdən istifadə edərək yeni hakimiyyətə gəlmiş I Şah Abbas Osmanlılarla sülh bağlamağa məcbur oldu.

1590-cı il İstanbul sülhünün şərtlərinə əsasən, Azərbaycanın Qaradağ, Ərdəbil və Talış vilayətləri istisna olmaqla qalan bütün bölgələri və İranın bəzi qərb vilayətləri Osmanlı imperiyasının tərkibinə daxil edildi. Maraqlı məqam orasındadır ki, İsgəndər bəy Münşinin göstərdiyinə görə, hər iki dövlətin sərhədlərinin yenidən təyin və təsdiq olunması Səfəvilər tərəfindən sarayın yüksək əyanlarından Həsən ağa Çavuşluya və Bəstam ağa Türkmana, Osmanlılar tərəfindənsə, Naxçıvan hakimi Xızır paşaya tapşırıldı (40, s. 157). Osmanlı idarəçiliyi dövründə Naxçıvanın tarixi coğrafiyası haqqında növbəti yarımfəsildə ayrıca bəhs edəcəyimiz üçün biz mövzunu Şah Abbasın hakimiyyəti dövrü ilə davam etdiririk.

XVII əsrin başlanğıcında Azərbaycanda Osmanlı hakimiyyətinin zəifləməsi, vergi və mükəlləfiyyətlər səbəbindən əhalinin narazılıqlarının artması, yerli feodalların bir çoxunun Osmanlı-türk hakimləri tərəfindən təqib edilməsi Osmanlılara qarşı üsyanların genişlənməsinə səbəb oldu. I Şah Abbasın dövründə hər nə qədər dövlətdə qızılbaş əyanlarının mövqeləri zəiflədilsə, qeyri-türk etnik ünsürlərinə üstünlük verilsə də, Azərbaycan və onun Naxçıvan bölgəsinin əhalisi Səfəvi imperiyasına xilaskar nəzəri ilə baxırdı. Lakin tarixin sonrakı gedişatı göstərdi ki, bəslənilən bu



ümidlər heç də bölgənin xilası və inkişafı ilə nəticələnməmiş, əksinə Naxçıvan ərazisində yerləşən şəhərlərin inkişafına ciddi zərbə vurulması, əhalinin köçürülməsi nəticəsində iqtisadiyyatın tənəzzülü ilə nəticələnmişdir. 1603-cü il sentyabr ayının əvvəllərində Şah Abbasın Təbrizi tutması Səfəviləri daha da ruhlandırdı. Bundan sonra şah qoşunu ilə birlikdə Naxçıvan istiqamətində hərəkət etdi. Həmin ilin oktyabr ayında Culfa və Naxçıvan şəhərləri döyüşsüz ələ keçirildi (10, s. 233). Şah qoşunu gəlməmiş ordubadlıların Osmanlılara qarşı üsyan etməsi, Səfəvi ordusunun şəhər əhalisi tərəfindən qırmızı qızılbaş geyimində qarşılanması Ordubadın vergidən azad edilməsi ilə nəticələndi (5, s. 475). 1604-cü ildə isə şah Çuxursədin mərkəzi sayılan İrəvanı ələ keçirdi. Çuxursəd vilayətinin hakimi vəzifəsinə Əmirgünə xan Qacar, Naxçıvan ölkəsinin hakimi vəzifəsinə isə bu diyarın ulu nəsillərindən biri olan türk-Ustaclıların nümayəndəsi Maqsud Sultan Kəngərli təyin olundu. Arakel Təbrizli də bu dövr hadisələrindən bəhs edərkən Maqsud Sultanı "bütün Naxçıvan ölkəsinin və ətraf ərazilərin hakimi" kimi təqdim etmişdir (177, s. 167). İrəvandan sonra Şuragel, Ordu-bazar qalaları zəbt olundu və Qars hüdudundakı Həsənqalaya kimi olan ərazi tutuldu, bölgə əhalisinin xeyli hissəsi İrana köçürüldü (10, s. 234). Bu zaman, Osmanlı ordusunun yeni hücumu xəbərini alan Şah Abbas Təbriz isiqamətində geri çəkilərkən ənənəvi "yandırılmış torpaq" taktikasının tətbiqin gerçəkləşdirdi. Arazın sol sahilindəki yaşayış məntəqələri dağıdıldı, bölgə əhalisinin xeyli hissəsi İsfahan, Mazandaran ərazilərinə köçürüldü. "Böyük sürgün"dən sonra Naxçıvan və onun ətrafındakı yaşayış məntəqələri xarabazara çevrilmişdi. Beləliklə, Naxçıvan, İrəvan, Culfa və digər abad diyarlar Səfəvi şahının fərmanı ilə yandırıldı və əhalisi köçürüldü (10, s. 235).

Səfəvi-Osmanlı müharibələri bütövlükdə Türk dünyasının ümumi mənafeyinə zərbə vurduğu kimi, Naxçıvan bölgəsinin inkişafına və tərəqqisinə də ciddi ziyan vurmuşdur. Lakin bu ərazidəki şəhərlərin və yaşayış məntəqələrinin bərpasında da ərazini ələ keçirən hər iki dövlət maraqlı olmuşdur. Bu isə Naxçıvanın İpək yolu üzərində tutduğu strateji mövqeyi ilə bağlı olmuşdur.

## 2.2. Naxçıvan ölkəsi Azərbaycan bəylərbəyliyinin tərkibində (1500- 1605)

***Sərhədlər və inzibati ərazi quruluşu.*** Yarandığı ilk dövrlərdə Qızılbaş (Səfəvi) dövlətinin ərazisi vilayətlərə bölünmüşdü və hakimlər tərəfindən idarə edilirdi. Həm "Tarix-e-aləmaraye-Abbasi"də (78, s. 408, 522, 645), həm də "Təzkirət ül-mülük"də (225, s. 72) Səfəvi idarəçiliyinin ilk dövründə inzibati vahidlər müasir ədəbiyyatda olduğu kimi bəylərbəylik kimi deyil, vilayət kimi qeyd edilmişdir. Səfəvi dövrünün görkəmli tədqiqatçısı O.Əfəndiyev yazır ki, şərqşünas V.Minorski də bəylərbəyi istilahının I Şah Abbasın dövründə meydana gəldiyini qeyd etmişdir. (27, s. 263). Alessandri I Şah Təhmasibin dövründə 50-yə qədər belə hakimliyin (sultanlığın) adını qeyd etmişdir (27, s. 263). Sonrakı dövrdə isə görünür əyalətlərin mərkəzləşdirilməsi prosesi aparılmış və Qızılbaş dövlətinin ərazisi 13 vilayətə bölünmüşdür (27, s. 263). Bu vilayətlər bəylərbəyilər (əmir-əl üməra) tərəfindən idarə edildiyi üçün tarixi ədəbiyyatda Qızılbaş dövrünə aid inzibati ərazi vahidi anlamından vilayət əvəzinə, çox vaxt müəlliflər bəylərbəylik anlayışını işlədirlər. Sonrakı dövrlərdə isə imperiyanın ərazisində 4 valilik də yaradılmışdı. Bəhs etdiyimiz dövrdə şimallı-cənublu Azərbaycan ərazilərində 4 əyalət (bəylərbəylik) mövcud olmuşdur. Bunlar mərkəzi Təbriz olan Azərbaycan, mərkəzi İrəvan olan Çuxursəd, mərkəzi Gəncə olan Qarabağ və mərkəzi Şamaxı olan Şirvan əyalətləri (bəylərbəylikləri) idi.

Yuxarıda da qeyd etdiyimiz kimi, Qızılbaş dövləti üçün xüsusi əhəmiyyət daşıyan Naxçıvan XVI əsrdə mərkəzi Təbriz olan Azərbaycan vilayətinə (bəylərbəyliyinə) tabe edilmiş və "ölkə" inzibati ərazi vahidi statusunda olmuşdur (Şəkil 11).İ.Petruşevski bu sözün türk dillərində "ulka" sözündən gəldiyini qeyd etmişdir (195, s. 102). A.D.Papazyanın fikrincə mərkəzi dövləti silahlı qüvvələrlə təmin etmək şərti ilə köçəri tayfa başçılarına və əmirlərə verilmiş kiçik torpaq mülklərinə ölkə deyilirdi (119, s. 7). Qeyd etmək yerinə düşər ki, Naxçıvanla həmsərhəd olan İrəvan, Şurəgəl və Qapanat da



bu dövrdə eyni statusu daşımışdır (236; 32, s. 160). XVI əsrin 50-ci illərində Səfəvi şahı Təhmasibin Osmanlı sultanı Süleymana yazdığı məktubunda da Naxçıvan haqqında "ulka" (ölkə) olaraq bəhs edilmişdir. Belə ki, İran Milli Şura Məclisinin 606 nömrəli əlyazmasında saxlanılan məktubda Səfəvi şahı Osmanlı sultanına yazırdı: "Mənə deyiblər ki, rum tayfası öz amansız qədəmlərini Naxçıvan vilayətinə basıb zülm bayrağını ucaltmışdır. Mən bəzi əsgərlərimi o tərəfə yolladım. Onlar Naxçıvan ulkasından itlər kimi qaçmış, qəhətlik, çatışmazlıq, aclıq və başqa səbəblər üzündən təngə gəlib Diyarbəkirə dönmüşlər" (40, s. 116).

Rus tədqiqatçısı K.N.Smirnovun verdiyi məlumatlardan aydın olur ki, hətta XVII-XIX əsrlərə aid sənədlərdə də Naxçıvan əksər hallarda "ulka" adlandırılmışdır (192, s. 5).

1604-cü ildə I Şah Abbasın Ordubadın bütün dövlət vergilərindən azad olunması haqqında fərmanının mətni ilə tanışlığımız da göstərir ki, bəhs olunan dövrdə Naxçıvan ərazisi, o cümlədən Ordubad şəhəri Azərbaycan bəylərbəyliyinin tərkibində olmuşdur. Fərmanda qeyd olunan "və Azərbaycan boniçəsində onu müstəsna buyurdu ki, onu xəzinəyə veriləcək itlaqatından çıxsın" (113, s. 278) ifadəsi məhz bunun göstəricisidir. Naxçıvan diyarının XVII əsrə qədər Azərbaycan (Təbriz) bəylərbəyliyinin tərkibində olması məsələsinə toxunan tarixçi Ə.Hüseynov bu faktı qeyd edərkən, "Təzkirət ül-mülük" əsərinə istinad etməklə yalnız XVII əsrdə Naxçıvanın Çuxursəd bəylərbəyliyinin tərkibinə daxil edildiyini yazmışdır (175, s.10).

Dövrün bəzi mənbələrində isə Naxçıvanın XIII-XIV əsrlərdə olduğu kimi, tümən adlandırılmasının da şahidi oluruq. Məsələn, 1527-ci ildə Rumlular və Ustaclılar arasında Arpaçay sahilində baş vermiş döyüşdən bəhs edərkən digər bir Səfəvi salnaməçisi Xacə Zeynalabidin Əli Əbdi bəy "Təkmilət ül-əxbar" əsərində Naxçıvanı tümən kimi qeyd etmişdir. O yazırdı: "Ərdəbildə bu işləri etdikdən sonra yola düşüb, Div Sultanın ordusunun dayandığı və Rumlu tayfasının məskən saldığı Çuxursədə getdilər. Div Sultan və Cuhə Sultan bu xəbəri eşitdikdə, Xorasana getməkdən vaz keçib, cümə [günü] ramazan [ayının] 8-də (8 iyun 1527) Savuxbulaqdan hücuma

keçib, Azərbaycana getdilər. Cümə [günü] ramazan [ayının] 29-da (29 iyun 1527) Naxçıvan tüməninin Arpaçay məntəqəsində onlara çatıb, şahanə vuruşdular" (131, s. 42).

Naxçıvan ərazisinin Azərbaycan bəylərbəyliyinə tabe olduğu dövrdə bu bölgənin sərhədlərinin müəyyənləşdirilməsi bir sıra çətinliklər doğurur. Belə ki, tarixi-hərbi proseslərin təsiri altında sərhədlərin tez-tez dəyişməsi, qızılbaş feodallarının çəkişmələri nəticəsində müəyyən ölkə, mahal və ərazilərin idarəçiliyinin bir feodaldan alınıb digərinə tapşırılması, mənbələrdə konkret olaraq ölkələrin sərhədləri haqqında məlumatlar verilməməsi problemin öyrənilməsini çətinləşdirir.

"Matenadaranın farsdilli sənədləri"ndə (1956, 1959, 1968) təqdim edilən sənədlərlə tanışlıq göstərir ki, bu dövrdə Sisəcan (Sisyan), Azadciran (193, s.177-178, 180, 184), Dərəşam, Şorlut (194, s. 310-311, 333, 337) əraziləri məhz Naxçıvan ölkəsinin tabeliyində olan nahiyələr olmuşlar. Bundan əlavə Naxçıvan şəhərindən şimal-qərbdə, ölkənin isə mərkəz hissəsində yerləşən Qarabağlar sultanlıq kimi Naxçıvan ölkəsi hakimlərinin tabeliyində olmuşdur (6, s. 231). H.Çələbinin "Ruznamə"sində verdiyi məlumatdan aydın olur ki, XVI əsrin ilk dekadasının sonlarında Qarabağlar əksər hissəsi xarabalıqlardan ibarət olan kiçik bir şəhər statusunda idi (142, s.81).

Sədərək əraziləri də bəhs edilən dövrdə sultanlıq statusunda olmuşdur. Şardən də təsdiqləyir ki, bu dövrdə Sədərək ayrıca bir hakimlik – sultanlıq olmuş, Qars, İğdır və Sədərək əraziləri bir sultanlıqda birləşmişdir (124, s. 62-63). Səfəvilər dövründə daha kiçik inzibati vahidlərin hakimləri sultan titulunu daşıyır və onlar yerli hakimiyyət orqanlarını müstəqil surətdə yaradırdılar. Sultanlar müvafiq vilayətin qolbəyilərinə və bəzən birbaşa bəylərbəyisinə tabe idi. Xan ali hərbi-inzibati mövqe tutan şəxs idi, sultan və bəy isə həmin şəxsdən aşağı mövqe tuturdu (10, s. 242).

Bütün bunları nəzərə aldıqda demək olar ki, Azərbaycan bəylərbəyliyinin tərkibinə daxil olduğu dövrdə Naxçıvan ölkəsinin sərhədləri təqribən aşağıdakı kimi olmuşdur. Ölkə şimaldan Çuxursəd bəylərbəyliyinin Vedi, Göyçə və Məzrəə nahiyələri, şimal-



şərqdən Azərbaycan (Təbriz) bəylərbəyliyinin Qapanat ölkəsi ilə əhatələnmişdir. Gəncə-Qarabağ bəylərbəyliyinin Bərgüşad nahiyəsi Naxçıvan ölkəsinin şərq sərhədində olmuşdur. Naxçıvan ölkəsi cənubdan Azərbaycan (Təbriz) bəylərbəyliyinin Zunuz və Maku nahiyələri ilə həmsərhəd idi. Qeyd edək ki, Zunuz ərazisi Araz çayının cənubunda Culfa və Mərənd arasında yerləşmişdir (201, s.122). Bu sərhədləri XIII-XV əsrlərdəki Naxçıvan tüməninin əraziləri ilə müqayisə etdikdə belə nəticəyə gəlirik ki, bu dövrdə Naxçıvanın əraziləri xeyli kiçilmişdir. Van gölünün şimal şərq sahillərindən başlamış Şərur düzünün qərbinə qədər olan ərazilər, Maku və Qafan əraziləri, şimal istiqamətində də bir sıra nahiyələr Naxçıvan ölkəsinin tabeliyindən çıxmışdır. Apardığımız hesablamalar göstərir ki, bu dövrdə Naxçıvan ölkəsinin ərazisi, təqribən, 7923 $km^2$ -ə bərabər olmuşdur.

Ölkənin tabeliyində olan inzibati vahidlər nahiyə və sultanlıq adlandırılırdı (78, s. 459, 583, 597; 6, s. 231). Mənbələrdə verilən məlumatların təhlilindən belə bir nəticəyə gəlmək olur ki, Azərbaycan bəylərbəyliyinin tabeliyində olduğu dövrdə Naxçıvan ölkəsinin tərkibində 12 nahiyə və bir sultanlıq var idi (6, s. 231; 194, s. 310-311, 333, 337; 32, s. 162-163). Bu dövrdə Naxçıvan ölkəsinin tərkibində Naxçıvan, Şərur, Dərələyəz, Bazarçayı, Məvaziyi-xatın, Mülki-Arslan, Dərəşahbuz, Əlincə nahiyələri olmuşdur. Bundan əlavə "Matenadaranın farsdilli sənədləri"ndə Sisəcan, Azadciran (193, s.177-178, 180, 184), Şorlut, Dərəşam nahiyələrinin adı çəkilir (194, s. 310-311, 333, 337).Qarabağlar ərazisi isə Naxçıvan ölkəsi tərkibində sultanlıq idi (6, s. 231).

Naxçıvan ölkəsinin mərkəzi Naxçıvan nahiyəsi hesab edilirdi. O, şimaldan Dərəşahbuz və Mülki-Arslan, şərqdən Əlincə və Dərəşam, cənubdan Zunuz və Maku, qərbdən Qarabağ (Qarabağlar) nahiyəsi ilə həmsərhəd olmuşdur. Hesablamalarımız göstərir ki, bəhs olunan dövrdə Naxçıvan ölkəsinin Naxçıvan nahiyəsinin ərazisi, təqribən, 685 $km^2$ idi.

Naxçıvanın tərkibində inzibati ərazi vahidi kimi bu dövrdən başlayaraq adı tez-tez mənbələrdə çəkilən Dərələyəz nahiyəsi şimalda Basarkeçər yaylası, şərqdə Zəngəzur silsiləsi, cənubda

Ələyəz dağları, qərbdə isə Səlim aşırımı yerləşən hündür dağlarla əhatə olunmuşdu. Bu sərhədlər daxilində hesablanan zaman məlum olur ki, bəhs etdiyimiz dövrdə Naxçıvan ölkəsinin Dərələyəz nahiyəsinin ərazisi, təqribən, 1607 $km^2$ olmuşdur.

Bu dövrdən sonra mənbələrdə adı tez-tez çəkilən "Dərələyəz" və ya "Dərə-alagöz" toponimin mənası ilə bağlı məsələni aydınlaşdırmaqda fikrimizcə fayda vardır. K.N.Smirnov topladığı müxtəlif yerli materiallar və tarixi əsərlərə əsaslanmaqla toponimin mənasını izah edərkən onun "dərə" və "ələyəz" sözlərinin birləşməsindən yarandığını qeyd etmiş və mənasının "ələyəz adlanan bitkinin bitdiyi dərə" mənasında olduğunu yazmışdır (207, s. 114). Görünür bu cür izah dövrün tələblərindən və müəllifin xüsusi məqsədlərindən irəli gəlmişdir. Doğrudur, qeyd olunan ərazidə ələyəz bitkisinin bitməsini məlumatçılar da təsdiqləyirlər (238; 239; 240). Lakin ərazinin adını sadəcə bir bitkidən alması o qədər də inandırıcı fakt deyildir. AMEA-nın müxbir üzvü A.Bağırov sözün sadəcə iki komponentdən ibarət olduğunu qeyd etmiş, lakin "ələyəz" və yaxud "alagöz" kimi qeyd olunan ikinci komponent barədə məlumat verməmişdir (15, s. 127). Professor H.Mirzəyev "Ələyəz" sözünün oğuzlarla bağlı etnonim olduğunu qeyd etmişdir (74, s. 191). Tədqiqatçı İ.Bayramov da bu sözün alagöz türk tayfası ilə bağlı etnonim olduğu qənaətinə gəlmişdir (22, s. 155). Alagöz tayfasının türkmənşəli tayfalardan biri olması barədə qeydlər türk tədqiqatçısı Necdet Sevinçin əsərlərində də qeyd edilmişdir (149, s. 120). Bizim fikrimizcə də Dərələyəz sözünün tarixən bu ərazidə məskunlaşmış türk tayfalarından biri olan alagözlərlə bağlı olması ehtimalı daha güclüdür.

Naxçıvan ölkəsinin Şərur nahiyəsi şimaldan və şimal-şərqdən Dərələyəz nahiyəsi, şərqdən Qarabağ (Qarabağlar) sultanlığı, cənubdan Maku hakimliyi, qərbdən Çuxursəd bəylərbəyliyinin Sədərək sultanlığı ilə həmsərhəd olmuşdur. Hesablamalarımıza görə bəhs olunan dövrdə Şərur nahiyəsinin ərazisi, təqribən, 627 $km^2$ olmuşdur.

Naxçıvan ölkəsinin nahiyələrindən biri də Məvaziyi-Xatın nahiyəsi idi. A.Bağırovun irəli sürdüyü ehtimala görə nahiyənin adı



1225-1229-cu illərdə Naxçıvanın hakimi olmuş Qızıl Arslanın arvadı Xatına məxsus kəndləri əhatə edən ərazinin adı ilə bağlı yaranmışdır (15, s. 162). Sözün birinci hissəsindəki "Məvazi" - "mevzi" (موضع) sözü əski Osmanlı türkcəsindən "mövqe", "mənzil", "yer" kimi tərcümə edilir (123, s. 304). "Xatın" isə Eldənizlərdə saraya xanımlarını ifadə etmək üçün işlədilmişdir. Məvaziyi-Xatın nahiyəsi şimaldan və qərbdən Dərələyəz, şərqdən Dərəşahbuz, cənubdan Mülki-Arslanlı nahiyələri ilə həmsərhəd olmuşdur. Apardığımız hesablamalara görə bu nahiyənin ərazisi, təqribən, 243 $km^2$ -ə bərabər olmuşdur.

Naxçıvan ölkəsinə daxil olan nahiyələrdən biri də Mülki-Arslan nahiyəsi olmuşdur. A.Bağırovun fikrincə bu ad Azərbaycan Atabəylər dövlətinin başçısı Müzəffərəddin Özbəyin (1210-1225) oğlu Qızıl Arslanın adı ilə bağlıdır (15, s. 166). Tədqiqatçı qeyd edir ki, atasının ölümündən sonra Naxçıvanın hakimi olmuş Qızıl Arslana (1225-1229) məxsus torpaq sahələri və kəndlər "Mülki-Arslan" adlandırılmışdır. Qeyd edək ki, tədqiqatçı bu fikri ifadə edərkən tarixdə daha çox Xamuş ləqəbi ilə qalmış Qızıl Arslanı nəzərdə tutmuşdur.

Bizim fikrimizcə də bu ərazinin adının formalaşmasının Atabəylər dövrü ilə bağlı olduğu şəksizdir. Lakin "Mülki-Arslan" sözündəki "Arslan" hissəsinin məhz Qızıl Arslan Xamuşla niyə əlaqələndirilməsi maraq doğurur. Qeyd edək ki, Azərbaycan Atabəylər dövlətinin mövcudluğu illərində Eldənizlər sülaləsində 2 Qızıl Arslan olmuşdur. Bunlardan biri Şəmsəddin Eldənizin Möminə Xatından olan ikinci oğlu Müzəffərəddin Qızıl Arslan (1186-1191), digəri isə Eldənizlərin sonuncu - 5-ci hökmdarı Müzəffərəddin Özbəyin İraq Səlcuqlu Sultanı III Toğrulun qızı Məlikə Xatından olan oğlu Qızıl Arslan Xamuşdur (25, s. 212). I Qızıl Arslanın daha böyük ərazilərin hakimi və Atabəylər dövlətinin hökmdarı, II Qızıl Arslanın isə xarəzmşahlar və monqollar dönəmində qısamüddətli Naxçıvanın hakimi olması faktını nəzərə alsaq, A.Bağırovun əsaslandırmasını daha məntiqi qəbul etmək lazımdır.

Bu nahiyə şimaldan Məvaziyi-Xatın, şərqdən Dərəşahbuz, cənubdan Naxçıvan nahiyələri, qərbdən Qarabağlar sultanlığı ilə

həmsərhəd olmuşdur. Apardığımız hesablamalara görə bu nahiyənin ərazisi, təqribən, 320 km$^2$-dən artıq olmuşdur.

Ərazisi, təqribən, 541 km$^2$ olan Dərəşahbuz nahiyəsi isə şimaldan Dərələyəz və Bazarçayı, şərqdən Sisyan, cənub-şərqdən Əlincə, cənubdan Naxçıvan, qərbdən Məvaziyi-Xatın və Mülki Arslan nahiyələri ilə həmsərhəd olmuşdur.

Bazarçayı nahiyəsinin ərazisinə gəldikdə isə bu ərazi, təqribən, 460 km$^2$-ə yaxın olmuşdur. Bu mahal şimaldan Çuxursəd bəylərbəyliyi, şərqdən Sisəcan, cənubdan Şahbuz, qərbdən isə Dərələyəz nahiyəsi ilə həmsərhəd olmuşdur.

Yuxarıda da vurğuladığımız kimi, Matenadaranın farsdilli sənədlərində verilən məlumatlar sübut edir ki, Sisəcan (Sisyan) nahiyəsi bu dövrdə məhz Naxçıvan ölkəsinin tabeliyində olmuşdur. Tədqiqatçı İ.Əliyevin də göstərdiyi kimi bəzi müəlliflər yanlış olaraq Səfəvilər dövründə Sisyanın ayrıca hakimlik və məliklik statusunda olduğunu göstərmişlər (31, s. 119). Bu nahiyə şimal qərbdən Bazarçayı mahalı, qərbdən Qapanat hakimliyi, cənubdan Azadciran və Əlincə nahiyələri, qərbdən isə Dərəşahbuz nahiyəsi ilə həmsərhəd idi. Sisəcan (Sisyan) nahiyəsinin ərazisi təqribi hesablamalarımıza görə 942 km$^2$ olmuşdur.

Əlincə nahiyəsi də bu dövrdə Naxçıvan ölkəsinin tabeliyində olan əsas nahiyələrdən biri olmuşdur. Nahiyənin mərkəzi Əlincə qalasında yerləşmişdir. Birmənalı şəkildə qeyd etmək lazımdır ki, bir çox müəlliflərin XIV əsrin sonundan etibarən Əlincə qalasının öz əvvəlki əhəmiyyətini itirməsi fikri ilə razılaşmaq olmaz. Çünki hələ Sultan Süleymanın Qızılbaş dövləti ərazilərinə 1534-cü ildə gerçəkləşmiş yürüşü zamanı Osmanlı ordusuna rəhbərlik edən iki qüdrətli sərkərdədən biri olan Xosrov paşa məhz çoxminlik Osmanlı qoşunu ilə Əlincə qalası üzərinə göndərilmişdir (27, s.72). Əlincə nahiyəsi şimal-qərbdən Dərəşahbuz, şimal-şərqdən Sisyan, şərqdən Azadciran, cənubdan Dərəşam, qərbdən Naxçıvan nahiyəsi ilə həmsərhəd olmuşdur. Ərazisi, təqribən, 703 km$^2$ olmuşdur.

"Matenadaranın farsdilli sənədləri"ndə adı çəkilən Azadciran nahiyəsi Naxçıvan ölkəsinə tabe olan ən böyük nahiyələrdən biri hesab olunurdu və mərkəzi Ordubad şəhəri idi. Nahiyənin adı I Şah



Təhmasibin 1544-cü və 1555-ci illərdə verdiyi fərmanlarında, Təbriz bəylərbəyinin 1581-ci il tarixli bir fərmanında, Sultan Məhəmməd Xudabəndənin 1585 və 1586-cı illərə aid fərmanlarında, I Şah Abbasın 1604, 1605, 1621-ci il tarixli fərmanlarında qeyd edilmişdir (180, s. 14). Azadciran nahiyəsi şimaldan Sisyan və Dərənürgüt, qərbdən Qapanat hakimliyi və Şorlut nahiyəsi, cənubdan Zunuz, qərbdən Əlincə və Dərəşam nahiyələri ilə həmsərhəd olmuşdur. Azadciran nahiyəsinin ərazisi, təqribən, 870 km$^2$ olmuşdur.

Naxçıvanın ölkəsinin tərkibinə daxil olan mərkəzi Culfa şəhəri olan Dərəşam nahiyəsinin ərazisi indiki Culfa rayonunun Gülüstan kəndi və ətraf əraziləri əhatə etmişdir. Dərəşam mağarası ətrafından tapılmış 14-17-ci əsrlərə aid tikinti qalıqları və keramika məlumatları (80, s. 82-83) da sübut edir ki, bəhs olunan dövrdə Dərəşam bölgənin əsas yaşayış məntəqlərindən biri olmuşdur.

Dərəşam nahiyəsinin adı da maraq doğurur və bu barədə fikirlər müxtəlifdir. Dərəşam sözünün mənasından bəhs edərkən K.N.Smirnov yazırdı ki, toponim Şamdan (Suriyadan) gələn qoşunların və ya tayfaların dayandığı yer mənasındadır. O, bu toponimin meydana çıxmasını hələ ərəb xilafəti dövrü ilə əlaqələndirmişdir (207, s.114). A.Bağırov isə Dərəşam nahiyyəsinin adının "Kitabi-Dədə Qorqud" dastanında da çəkildiyini qeyd etmişdir. Bir sıra tədqiqatçılar o cümlədən, Q.Qeybullayev(169, s. 56), M.Vəliyev (Baharlı) (129, s. 43) və başqaları bu adın qızılbaş-türk-Şamlı tayfaları ilə bağlı olması fikrini irəli sürmüşlər.

Yer adı olaraq "Dərəşam" adı ilk dəfə Kitabi-Dədə-Qorqud dastanının "Uşun Qoca oğlu Səgrək boyu"nda işlədilmişdir. Azərbaycanın bir çox bölgələrində Dərəşam toponimi mövcud olsa da dastanda məhz Naxçıvan ərazisindəki Dərəşamın nəzərdə tutulduğu şəksizdir. Çünki, Səgrəyin qardaşı Əgrəyi azad etmək üçün Əlincə qalasına gedərkən məhz Dərəşamdan keçdiyi dastanda açıq-aşkar göstərilmişdir. Dastanda yazılır: "Dün qatdı, yort eylədi. Üç gün dünli-günli yortdı. Dərəşam ucundan keçdi, ol qardaşı tutulan qorıya gəldi" (65, s. 149). Dastanda sözügedən boyun digər bir yerində Əlincədən qayıdarkən Səgrək və qardaşı Əgrəyin Dərəşam suyundan (çayından) keçmələri (65, s. 153) təsvir olunur ki, burada

da ehtimal ki, Dərəşam nahiyəsinin cənubunda yerləşən Araz çayı nəzərdə tutulmuşdur (81, s. 133). Nəzərə alsaq ki, "Kitabi-Dədə Qorqud" dastanında təsvir olunan hadisələr VII əsrdən-XI əsrə qədərki dövrə aiddir, o zaman Naxçıvan ölkəsinin ərazisində Dərəşam adlı mahalın ən geci Səlcuqlar zamanından bəri mövcud olması fikrini irəli sürə bilərik. Bu baxımdan bizcə Dərəşam sözündəki "şam" komponentinin qızılbaş-şamlu (Şamdan gələn abdullu və bəydili tayfalarının birliyi) tayfa birliyi ilə bağlanılması (169, s. 56) inandırıcı deyildir. Çünki, Şamlu tayfalarının Naxçıvan ərazisində məskunlaşması ən tezi XV-XVI əsrlərdə baş verə bilərdi.

Nahiyə şimaldan Əlincə, şərqdən Azadciran, cənubdan Zunuz, qərbdən Naxçıvan nahiyələri ilə həmsərhəd idi. Hesablamalarımız göstərir ki, nahiyənin ərazisi, təqribən, 221 $km^2$-ə bərabər olmuşdur.

Şorlut nahiyəsi Naxçıvan ölkəsinin ərazicə kiçik nahiyələrindən biri olub, şimaldan, qərbdən və cənubdan Azadciran, şərqdən isə Qapanat hakimliyi ilə həmsərhəd idi. Nahiyə mərkəzi Əylis şəhəri olmuşdur. Təqribi hesablamalarımıza görə onun ərazisi 261 $km^2$ olmuşdur.

Naxçıvan ərazisində Qarabağlar adlı sultanlığın mövcud olması ilə bağlı artıq qeyd etdiyimiz kimi dövrün bir sıra mənbələri, o cümlədən, E.Çələbi "Səyahətnamə"sində məlumat vermişdir (138, s. 565). F.Kırzıoğlu "Osmanlıların Kafkaz ellerini fethi (1451-1590)" kitabında Qarabağlar ərazisindən "Naxçıvan Qarabağı" kimi bəhs etmişdir (145, s. 108). Tarixçi İ.Əliyev isə "Qarabağ sultanlığı" ifadəsinin E.Çələbi tərəfindən nahiyə anlayışının əvəzində işlədildiyini qeyd etmişdir (32, s. 165). Bizim fikrimizcə isə Qarabağlar nahiyə deyil, xüsusi statuslu bir sultanlıq olmuşdur. Əgər belə olmasa E.Çələbi bu ərazini də digər nahiyələr kimi qeyd edər və Qarabağların sultanlıq olduğunu vurğulamağa ehtiyac duymazdı. Z.Rzayev də bu məlumata əsaslanmaqla göstərir ki, Qarabağlar XVII əsrdə ayrıca sultanlıq, XVIII əsrdə isə geniş əraziyə malik nahiyə olmuşdur (1, s. 16). Sultanlığın ərazisi, təqribən, 443 $km^2$ idi. Sultanlıq şimaldan Məvaziyi-Xatın, qərbdən Naxçıvan nahiyəsi, cənubdan Maku hakimliyi, qərbdən Şərur nahiyəsi ilə həmsərhəd



olmuşdur.

***Şəhərlər və iri yaşayış məntəqələri.*** Bütün Azərbaycan ərazilərini birləşdirən Səfəvilər dövlətinin meydana çıxması ilk dövrlərdə ümumilikdə bütün ölkə ərazisində inkişaf və tərəqqiyə səbəb oldu. Bu dövrdə bir çox kiçik şəhərlər böyüdü, bir sıra şəhərlər isə əvvəlki şöhrətini özünə qaytardı. XVI əsrin 70-ci illərində Səfəvilər sarayına Venesiya elçisi sifətilə gəlmiş Vinçenso Alessandri ümumilikdə Səfəvi dövlətinin ərazisində 52 şəhər olduğunu qeyd etmişdir (67, s. 134).

XVI əsrdə Naxçıvan ölkəsi ərazisində Naxçıvan şəhəri ilə yanaşı, Ordubad, Culfa, Əylis, Qarabağlar şəhərlərinin və böyük olmayan qəsəbə tipli şəhər kimi Azadın adı çəkilir.

Bəhs olunan dövrdə Naxçıvan ölkəsinin və Naxçıvan nahiyəsinin mərkəzi Naxçıvan şəhəri olmuş, məhz bu şəhərin adı bütün ölkənin adı kimi işlənmişdir. Naxçıvan şəhəri XVI əsrdə nəzərəçarpacaq dərəcədə həm siyasi, həm də iqtisadi-ticarət əhəmiyyətinə malik şəhər idi. Bu dövrdə Naxçıvan Qızılbaş şahlarının xüsusi himayəçiliyi altında olmuşdur. Hələ I Şah İsmayılın hakimiyyəti dövründə Naxçıvanın inkişafına xüsusi diqqət yetirilmiş, buranın idarəçiliyi Qızılbaş dövlətinə ən sadiq tayfaların nümayəndələrinə tapşırılmışdır. Təkcə onu qeyd etmək kifayətdir ki, I Şah İsmayılın dövründə Naxçıvan Qızılbaş dövlətində sikkə zərbxanası mövcud olan bir neçə şəhərdən biri idi.

Lakin 1514-cü ilin sentyabr ayında şəhərdə olmuş Osmanlı ordusu şəhər əhalisinə qanlı divan tutmuş və burada dağıntılar törətmişdi. Dövrün Osmanlı mənbələri bunun səbəbini şəhər əhalisinin qızılbaş olmaları ilə izah etmişlər (142, s. 81). Osmanlı tarixçisi Mustafa Cəlalzadə "Səlimnamə"də yazır: "...şəhərin əhalisi hər nə qədər müsəlman qılığında olsa da, .... yağma edilib, zərər verildi" (136, s. 592).

XVI əsrin 40-cı illərində Naxçıvanda olmuş Venesiya elçisi kiprli Mikele Membre Naxçıvandan keçərkən burada həyata keçirilən quruculuq işləri, yeni evlərin tikilməsi haqqında məlumat vermişdir (130, s. 36). Lakin bu şəhərin XVI - XVII əsrlərdə bir neçə dəfə dağıdılması onun sonrakı dövr inkişafına ciddi zərbə vurmuşdur.

Naxçıvan şəhəri xüsusilə Osmanlı sultanı Süleymanın 1554-cü ildəki yürüşü zamanı böyük dağıntıya məruz qalmışdır. İ.Münşi (Türkman) yazır ki, Sultan Süleyman azuqə qıtlığından bu ərazidə çox qala bilməyəcəyini görərək Naxçıvan şəhərini yandırtdırmışdı (78, s. 168).

Lakin XVI əsrin 60-cı illərində Naxçıvanı Osmanlılardan geri alan Qızılbaş dövləti şəhərin və ümumilikdə bölgənin inkişafı üçün bir sıra addımlar atmış, yerli əhalinin düşdüyü ağır vəziyyət nəzərə alınaraq I Şah Təhmasibin hicri 872-ci il (1564-1565) tarixli fərmanı ilə Naxçıvanın tamğa vergisi ləğv edilmişdir (42, s. 86).

XVII əsrin əvvəllərində I Şah Abbasın Təbriz-Salmas istiqamətində yürüşü zamanı Naxçıvana üz tutmuşQızılbaş ordusu qarşısında duruş gətirə bilməyəcəklərini anladıqları üçün Osmanlı qoşunları şəhərin talanması və yandırılması ilə məşğul olmuşdular (177, s. 50).

Bəhs etdiyimiz dövrdə Culfa şəhəri Dərəşam nahiyəsinin mərkəzi idi. XVI əsrin əvvəllərindən başlayaraq Culfa daha da böyüyüb inkişaf etməyə başlamışdır. Ərazisindən əlverişli ticarət yollarının keçməsi Culfanın zaman keçdikcə daha da böyüməsinə və beynəlxalq ipək ticarətinin iri mərkəzlərindən birinə çevrilməsinə şərait yaratmışdı. Bu dövrdə şəhərin adı mənbələrdə daha çox Sulfa kimi qeyd olunmuşdur. Tağı Musəvi bu sözün mənasının fars dilində "toxucu" sözü ilə bağlı olması fikrini irəli sürmüşdür (75, s. 46). B.Budaqov və Q.Qeybullayevin fikrincə isə toponimin fars dili ilə heç bir əlaqəsi yoxdur və Culfa sözünün mənası qədim türk dillərində "yol, keçid, su üzərində salınmış keçid, bərə" mənasını verir (23, s. 51). İ.Kəngərli də hesab edir ki, Culfa sözü əslində Cul sözündən olub "keçid"mənasını verir (63, s. 65). Culfa sözünün "keçid, bərə" sözləri ilə əlaqəli olmasını digər bir fakt da sübut edir. Belə ki, Culfa haqqında məlumat vermiş orta əsr Avropa müəlliflərinin əksəriyyəti bu ərazidən Arazın digər sahilinə hərəkət edən keçidlərə və üzən bərələrə rast gəldiklərini əsərlərində qeyd etmişlər. 1817-1820-ci illərdə Gürcüstan, Azərbaycan, İran və digər ölkələrə səfər etmiş avropalı müəllif Robert Ker Porter də 1821-ci ildə Londonda nəşr edilmiş kitabında bu barədə məlumat vermişdir.



Müəllif bu əsərdə buradakı bərələri də təsvir edərək onların romb formasında olduğunu yazır (217, s. 215).

XVI-XVII əsrlərdə Culfa tacirlərinin fəaliyyəti ilə bağlı mənbələrdə verilən məlumatlardan aydın olur ki, onlar Şamaxı, Ərəş və Gilan ipəyinin Qərbi Avropaya, Türkiyə, Suriya və Hindistana əsas satıcıları olmuşlar (27, s. 230). Culfa şəhərinin həm də möhkəm qala divarları ilə əhatələnməsi, möhkəmliyi onu İpək yolu ilə hərəkət edən tacirlər üçün əsas dayanacaq məntəqələrindən birinə çevirmişdir.

Bir sıra müəlliflər, o cümlədən görkəmli tarixçi M.Heydərov T.Avetisyana istinad etməklə Culfanın XVI əsrin 80-ci illərinə qədər kənd kimi xatırlandığını yazmışdır (170, s. 122). Halbuki, 1581-ci ildə Culfada olmuş ingilis taciri Nyuberi qeyd edirdi ki, şəhərdə 3 min ev, 15-20 min əhali vardı. 1591-ci ildə digər ingilis taciri və səyyahı Kartvrayt Culfada olmuş, orada 2 min evin, 10 min əhalinin mövcudluğunu qeyd etmişdir (27, s. 231). Kəndin şəhərləşməsi prosesi bir neçə il ərzində reallaşan proses olmadığını nəzərə alsaq, Culfanın XVI əsrin 80-ci illərindən sonra şəhərə çevrilməsi fikri qətiyyətlə inkar edilməlidir.

Mənbələrdə verilən məlumatlar sübut edir ki, XVII əsrin əvvəllərində Culfa artıq möhkəm qala divarlarına sahib bir şəhər olmuşdur. Alman İmperatoru II Rudolfun Səfəvi sarayındakı elçisi olmuş və Şah Abbasın 1603-cü il yürüşündə iştirak etmiş Georq Tektander yazırdı ki, möhkəm qala divarları olan bu şəhərdə 50 minə yaxın ev olmuşdur (235). Osmanlılar 1603-cü ildə Səfəvi qoşunları qarşısında geri çəkilərkən Culfanı da talamışdılar, bunun nəticəsində əhali şəhəri tərk etmiş dağlara və mağaralara sığınmışdı. Şah Abbasın Naxçıvana doğru yürüşü zamanı isə culfalılar uşaqdan böyüyə qədər şahın pişvazına çıxmış və onu xilaskar kimi qarşılamışdılar. Burada şaha qızıl qablarda yeməklər, qızıl pullar təqdim olunmuş və şah bu şəhərdə 3 gün qalmışdı (177, s. 52). Səfəvilərin "yandırılmış ərazilər" taktikasının tətbiqindən sonra isə Culfa şəhəri, demək olar ki, tamamilə dağıdılmış, əhalisi isə İranın mərkəzi vilayətlərinə köçürülmüşdü.

XVI əsrdə məhsuldar qüvvələrin inkişafı nəticəsində Əylis

xeyli tərəqqi etmiş, şəhərə çevrilmişdir. M.Heydərov yazır ki, Culfanın tənəzzülündən sonra Əylis bölgənin əsas ticarət mərkəzi rolunu XVII əsrdə öz üzərinə götürmüşdü (170, s. 123). Mənbələrdə verilən məlumatlar sübut edir ki, Şorlut nahiyyəsinə aid olan Əylis də Səfəvi şahlarının xüsusi himayəçiliyi altında idi. Bu şəhər də əsas ipək ticarəti mərkəzlərindən biri sayılırdı (10, s. 208).

Əylis təkcə tranzit keçid şəhəri olmamış, həm də tacirlərin və səyyahların müvəqqəti məskunlaşaraq gətirdikləri malları satdıqları, mübadilə etdikləri bir mərkəz olmuşdur. XVII əsrin əvvəllərində Osmanlı zülmündən bezmiş yerli əhalinin İsfahana- Şah Abbasın sarayına göndərdikləri nümayəndələr arasında Əylis və yaxınlığında yerləşən Dəştin nümayəndəsinin adı çəkilir. Mənbələrdə qeyd olunur ki, Dizaqlılar və Dəştlilər əsasən vergi və mükəlləfiyyətlərin ağırlığından əziyyət çəkirdilər (177, s. 47).

Heç bir tarixi mənbəyə əsaslanmayan erməni müəlliflərinin Əylis şəhərini ermənilərin məskunlaşdığı şəhər kimi göstərmələri kökündən yanlışdır. Əylis sözünün özünün belə əski türk dillərində izah olunması buranın qədim oğuz-türk yurdu olmasını sübut edir. Bu mənada Əylis və ətraf ərazilərdəki toponimlərin izahına diqqət yetirməyi vacib hesab edirik. Əylis toponimindən bəhs edərkən AMEA-nın müxbir üzvü Adil Bağırov yazır: "Ordubad rayonunda Aşağı Əylis və Yuxarı Əylis adlı iki kənd vardır. Bu adlar 1590-cı ildə Əylis və Səhrayi-Əylis kəndi, 1727 və 1728-ci illərdə isə Aşağı və Yuxarı Əylis adları ilə qeydə alınmışdır" (15, s. 136). Toponimin izahı ilə bağlı bir çox tarixi mənbələrdən iqtibaslar gətirən müəllif "Əylis" sözünün Əl-Leys, Ağ Kilis və Ağ Ulus kimi formalarından bəhs edir və göstərir ki, bütün hallarda bu toponim əski türk dilində izah olunur.

Fikrimizcə, qədim türk yurdu olan bu yaşayış məntəqəsinin bu diyarın aborigen sakinləri olan türklər tərəfindən türk dilində adlandırılması daha ağlabatandır. Əylisin qədim sakinləri buranı "Ağ Ulus" adlandırmışlar. "Ağ" sözü bu gün də dilimizdə qalan rəng mənasında izah oluna bilər. "Ulus" sözünün isə hələ qədim türk mənbələrində şəhər mənasında işlənməsi hamıya məlumdur. Dəqiqləşdirmə aparmaq üçün AMEA-nın müxbir üzvü Əbülfəz



Quliyevin "Orxon-Yenisey abidələrində toponim və etnonimlər" kitabından aşağıdakı sitata diqqət yetirək: "Uluş termini. Bu leksem ..."İki yıldız nom" abidəsindəki Talas uluş oykonimində işlənmiş, runik abidələrdə isə "Bukarak uluş bodun" şəklində çıxış etmişdir. Bu coğrafi termin də türklərin böyük bir qismi tərəfindən "şəhər" mənasında işlədilirdi: Balasaqun şəhərinə Kuz uluş deyildiyi kimi" (106, s. 25).

Göründüyü kimi, "uluş" sözü şəhər mənasında hələ Orxon-Yenisey abidələrində işlədilib. Əylisin isə orta əsrlərdə böyük bir şəhər olduğu inkarolunmaz faktdır(177, s. 52; 170, s. 123; 10, s. 208).

Digər tərəfdən, Əylisi "Ağ ulu su" kimi də izah etmək olar ki, "ulu" türk dillərində qədim mənasını ifadə edir. "Su" hissəciyini isə həm su tayfaları ilə, həm də maye, su, çay anlayışları ilə izah etmək olar. Nəzərə alsaq ki, Araz çayının cənub tərəfində eyni istiqamətdə Siyahrud – Qara çay – "Qara su" adlı yaşayış məntəqəsi var, onda Ağ ulu su və Qara su sakinlərinin fərqlənmək üçün bu adlarla yaşadıqları məntəqələri adlandırdıqları iddiasını da irəli sürmək olar. Təsadüfi deyildir ki, Araz çayının qollarından biri məhz Əylis adlanır (11, s. 189). Türk tayfa adlarında "ağ" və "qara" təyinedici sözləri ilə fərqlənməni biz Ağqoyunlu və Qaraqoyunlu tayfa adlarında da görürük. Digər bir məsələni də diqqət mərkəzində saxlamaq lazımdır ki, su bir sıra qədim tayfalarda müqəddəs hesab edilmiş və bu faktor xüsusilə türkdilli tayfalarda daha qabarıq şəkildə özünü biruzə vermişdir. Təsadüfi deyil ki, hələ XIX əsrdə belə Yuxarı Əylisdə zərdüşti məbədindən bəhs edən K.N.Smirnov burada su kultunun mövcudluğunu da ayrıca olaraq qeyd etmişdir (207, s. 68).

"Əylis" sözünü "Ay ulusu" kimi izah edərkən yenə də yol əski türk və monqol inanclarından keçir. Məlumdur ki, əski türklərdə Ay tanrısına inam olub. Hətta arattalıların bərəkət tanrısı İnanna da (En-ana – hökmdar qadın, ana) bəzi hallarda Ay tanrısı kimi göstərilir. Monqollarda Ay Tanrısının Böyük xan adlandırılması və ona sitayiş obyekti kimi baxılması barədə hələ XIII əsrdə Monqol ölkəsinə Papanın məktubunu aparmış İohan Karpini də məlumat

vermişdir. O yazırdı ki, monqollar hər hansı səfərə çıxacaqları zamanı hilalı və ya bütöv ayı gözləyərlər. Aya böyük xan deyər və qarşısında baş əyərək onları qoruması üçün dua edərlər (135, s. 40).

Ay tanrısına inancın qalıqları bu gün də məişətimizdə qalmaqdadır. İslamaqədərki inanclardan bəhs edən tarix üzrə fəlsəfə doktoru Türkan Qədirzadə bununla bağlı yazır: "Təzə Ay çıxanda müəyyən inamlara əməl olunur. Xalq arasında Ay təzələnəndə deyirlər ki, Ay yeng olub. ...Deyirlər ki, Aya salavat verib yaşıl ota, qızıl üzüyə baxanda ruzi bol olar" (100, s. 92).

Mənbələrin əksəriyyətində bugünkü Aşağı Əylisin adından "Dəşt" kimi bəhs olunur. N.Məmmədov "Vətən dərdi" adlı kitabında Aşağı Əylisə "Dəşt" deyilməsinin səbəbini ərazinin relyef quruluşu ilə əlaqələndirərək yazır ki, "Aşağı Əylis kəndi həm də "Dəşt" adlandırılıb (Dəşt – fars dilində düz, çöl deməkdir). Görünür, eramızdan əvvəl indiki Aşağı Əylis kəndinin ərazisi düzənlik, tikintisiz olduğuna görə "Dəşt" adlandırılmışdır. "Aşağı Əylis" adlandırılan kənd XVII əsrin sonuna qədər "Dəşt" adını qoruyub saxlamışdır".

İstənilən halda, etnonimin İran dillərində izah olunması belə, ərazinin ermənilərə məxsusluğuna əsas vermir. Digər tərəfdən, bəzi tədqiqatçılar Aşağı Əylisdə məskunlaşan əhalinin Yuxarı Əylisdən gələrək bu ərazidə məskən saldıqlarını iddia edirlər. O zaman "Dəşt"in "Dış" (kənar) olması daha ağlabatandır. Hər hansı bir səbəbdən Yuxarı Əylisdən çıxan yerli sakinlərin "Dış Ulus sakinləri" deyə adlandırılması mümkündür. Digər tərəfdən, mahalın İç Ulus və Dış Ulus adlanması mümkündür. Tarixi-coğrafi baxımdan yanaşdığımız zaman da görünür ki, Yuxarı Əylis nisbətən dağların içinə tərəf yerləşib. Sonralar İç Ulusun Əylisə çevrilməsi, Dış Ulusun isə "ulus" komponentinin düşməsindən sonra "Dış" kimi adlanması fikrini irəli sürmək olar. Sasanilər dövründə sərhəd məntəqələrinə köçürülmüş pəhləvi dilli əhalinin isə bu ərazidə məskunlaşdıqdan sonra "Dış"ı özlərinə daha yaxın olan "Dəşt" kimi ifadə etməsi də mümkün bir haldır. Necə ki, "Dəşt" sözünü tələffüz edə bilməyən ruslar ərazini "Nijniy Akulis" (Aşağı Əylis) adlandırmışdılar (15, s. 137).



Səfəvilər dövründə ən sürətlə inkişaf edən Naxçıvan şəhərlərindən biri olan Ordubad bəhs olunan dövrdə Azadciran nahiyəsinin əsas şəhəri idi. Şəhər Araz çayından 3-4 kilometr şimalda yerləşirdi. I Şah İsmayıl, I Şah Təhmasib və I Şah Abbasın dövründə Ordubadda geniş abadlıq işləri aparılmışdı. I Şah Təhmasibin dövründə Ordubad şəhərində pul vahidi buraxan yeni sikkəxana fəaliyyətə başlamışdır. S. Onullahinin bir məqaləsinə istinad edən AMEA-nın müxbir üzvü F. Səfərli yazır ki, Ordubad şəhəri I Şah Təhmasibin diqqətini cəlb etdiyi üçün şahın fərmanı ilə 1557-ci ildə tikintisi başa çatdırılmış Qəzvin dövlətxanasının tavanında ("Çehel sutun" sarayı) dövrün məhşur rəssamları və nəqqaşlarının fırçası ilə Ordubad şəhərinin təsviri mənzərəsi və plan modeli çəkilmişdir (115, s. 19). Faktı Ə.Baxşıyev "Ordubad Səfəvilər dövründə" adlı məqaləsində də qeyd etmiş və bunun I Şah Təhmasibin xüsusi sifarişi olduğunu vurğulamışdır (21, s. 48).

Bu maraqlı faktı araşdırmaq, o dövrün Ordubad şəhərinin tarixi coğrafiyası ilə bağlı bir sıra məlumatları dəqiqləşdirmək məqsədilə İran İslam Respublikasının Qəzvin şəhərində "Qırx sütun" ("Çehel sütun") sarayının divarlarında əks olunmuş şəhər təsvirlərini əldə edə bildik. XVI əsrdən günümüzə qədər yol gələn "Qırx sütun" sarayı tarixin müəyyən dövrlərində təbii təsirlərə məruz qaldığı və restavrasiya edildiyi üçün bu təsvirlərin hamısı tam saxlanılmasa da, hal-hazırkı dövrə qədər qorunub saxlanılmış iki şəhər təsviri mənzərəsini əldə edə bildik.

Əvvəla qeyd edək ki, Səfəvilər dövlətində 1524-1576-cı illərdə hakimiyyətdə olmuş I Şah Təhmasib 1548-ci ildə Qəzvini dövlətin paytaxtına çevirmiş və şəhərin abadlaşdırılması, yeni tikililərlə gözəlləşdirilməsi üçün bir çox işlər həyata keçirmişdir. Şəhər bu statusu 1596-1597-ci illərə qədər daşımışdır. Həmin tarixdən isə dövlətin paytaxtı İsfahana köçürülmüşdür. Məlumat üçün deyək ki, tarixi "Çehel sütun" saraylarından biri də İsfahanda I Şah Abbas tərəfindən tikdirilmişdir. Qədim Qəzvin şəhərinin mərkəzi meydanında yerləşən "Qırx sütun" sarayından qərb və cənub istiqamətində bazar, Cümə məscidi və şəhərin Səfəvilərdən öncəki dövrə aid qədim hissəsi yerləşir. Sarayda Qacarlar dövründə bir sıra

dəyişikliklər aparılsa da, XX əsrin 70-ci illərində burada əsaslı şəkildə bərpa işləri həyata keçirilmişdir.

"Qırx sütun" sarayında divarlarda bu günə qədər saxlanılmış və fotolarını əldə etdiyimiz iki şəkil haqqında topladığımız ilkin məlumatlar belədir. Şərti olaraq 1 nömrəli təsvir adlandırdığımız (Şəkil 22), digərlərinə nisbətən daha böyük olan təsvirdə iki mələk tərəfindən sanki şəhərin qorunması təsvir olunur (Şəkil 23). Şəkildə mərkəzdə axan çay, uzaqda isə meşəlik təsvir olunmuşdur. Çay təsvirindən solda bir, sağda isə iki məscid minarəsi təsvir edilmişdir. Çaydan sağ tərəfdə çox maraqlı tikiliş üslubu olan bir ev (saray) tikilisi görünür. Fikrimizcə, şəkildə təsvir edilən çay Ordubad çayıdır. Şəkildə sıx formada təsvir olunmuş məscid minarələri isə bu gün də Ordubadda qalmaqda olan hər bir məhəllənin öz məscidinin olması düşüncəsi ilə bağlılıq təşkil edir.

Bu əsas təsvirlə yanaşı, sütunlar üzərində çəkilmiş müxtəlif binalar və körpülərə aid təsvirlər də diqqət çəkir. Şərti olaraq iki nömrəli təsvir adlandırdığımız sütunların birinin üzərində əks olunmuş şəkil də maraq doğurur. Bu şəkildə hündür çinar ağacları, çay üzərindəki körpü, çayın sağ və sol tərəflərində tikililər təsvir olunmuşdur. Çayın sol tərəfində təsvir edilmiş tikili ehtimallarımıza görə, Ordubad şəhərindəki "Qeysəriyyə" abidəsidir. Roza Salayevanın 1989-cu ildə rus dilində çapdan çıxmış "Ordubad – mənbələr və formalaşması" adlı kitabında "Qeysəriyyə" abidəsinin 1965-ci il restavrasiyasına qədərki təsviri ilə "Qırx sütun" abidəsinin iki nömrəli təsvirini müqayisə edərkən bu eyniliyi açıq-aşkar müşahidə etmək mümkündür (205, s. 27). Şəkildə abidənin mərkəzindəki səkkizbucaqlı zalın üzərini qapayan günbəz və keçidlərin tavanını qapayan kiçik günbəzləri müşahidə etmək mümkündür. Beləliklə, təsvirlərdən də aydın olur ki, Şah Təhmasibin dövründə Ordubad şəhəri tərəqqi və inkişaf yoluna qədəm qoymuşdur.

I Şah Abbas isə 1604-cü ildə Ordubadın bütün dövlət vergilərindən azad olunması haqqında fərman vermişdi. Həmin fərmanın mətni Ordubad şəhərindəki Cümə məscidinin divarında həkk olunmuş və bu gün də qalmaqdadır. Fərmanda yazılırdı: "və



Azərbaycan boniçəsində onu müstəsna buyurdu ki, onu xəzinəyə veriləcək itlaqatından çıxsın. Şah bu hədiyyəni onlar üçün daimi bəxşiş hesab etdi. Bu qaydanın dəyişdirilməsinə yol verilməməsini əmr etdi" (113, s. 278).

Azad-ciran nahiyəsinin Azad şəhərinin adı da bu dövr mənbələrində çəkilir və onun əhalisinin üzümçülük və şərabçılıqda mahir olduğu qeyd edilir (170, s. 123). Monqol hücumlarından sonra əvvəlki əhəmiyyətini itirən Azad şəhəri bu dövrdə qəsəbə kimi mövcud olmuşdur. M.Heydərov bu dövr Naxçıvan şəhərlərindən bəhs edərkən J.Tavernyenin fikirlərinə əsaslanmış və fransız səyyahının yanlış olaraq Azadla Asdabadı eyniləşdirməsinə istinad etmişdir (170, s.123). Fikrimizcə Asdabad və Azad şəhərlərinin ad bənzərliyi bir sıra tədqiqatçıların fərqli şəhərləri eyniləşdirməsi ilə nəticələnmişdir. Halbuki əvvəlki fəsildə də bəhs etdiyimiz kimi Astabad və Azad şəhərləri tamamilə fərqli ərazilərdə yerləşən şəhərlər olmuşlar. Azad şəhərinin yerləşdiyi ərazi bu günkü Ordubad şəhərinin Aza kəndi yaxınlığında, Astabad isə bu günki Naxçıvan şəhərinin yaxınlığında su anbarının altında qalmış ərazidə mövcud olmuşdur.

Səfəvilər dövründə bölgənin əsas inkişaf etmiş şəhərlərindən biri də Qarabağlar idi. XVI əsrin sonu, XVII əsrin əvvəllərində bu şəhər Qarabağlar sultanlığının mərkəzi idi. Səfəvi hakimiyyətinin ilk dövrlərindən bəhs edən Osmanlı mənbələrində Qarabağlar xırda bir şəhər kimi xarakterizə edilir. Haydar Çələbi "Ruznamə"sində buranı kiçik bir şəhər kimi təsvir edərək yazır: "1 Şaban 920 (22 sentyabr 1514). Xaraba bir kiçik şəhər olan Qarabağlar yaxınlığında məskən salındı" (142, s. 81). Digər bir türk səyyahı E. Çələbinin nisbətən sonrakı dövrə aid qeydlərindən isə aydın olur ki, Səfəvilər dövründə bu şəhər xeyli böyümüş və abadlaşmışdır. E.Çələbi çox abad və münbit torpağı olan Qarabağlarda bu dövrdə 10 minə yaxın ev, 40-a yaxın məscid, çoxsaylı karvansara, məscid və bazarın olduğunu göstərmişdir (26, s. 10-11). Bu faktlara əsaslanan bəzi tədqiqatçılar dövrün Qarabağlar şəhərinin təqribən Naxçıvan şəhəri ilə eyni böyüklükdə olan bir şəhər olduğunu yazmışlar (1, s. 21). Bu dövrdə Qarabağlar şəhərinin sürətlə böyüyüb inkişaf etdiyi şəksiz olsa da,

onun Naxçıvanla eyni böyüklükdə olması mülahizəsi inandırıcı görünmür.

Bu dövrdə Naxçıvan ərazisində adı çəkilən iri yaşayış məskənlərindən biri də Şərurdur. Şərurun adı İsmayıl Səfəvinin Ağqoyunlular üzərindəki qələbəsi ilə əlaqədar çəkilir və mənbələrdə Şərur düzündə baş vermiş döyüşlərdən bəhs olunur. Maraqlıdır ki, "Tarix-i Qezelbaşan" (Qızılbaşların tarixi) əsərində naməlum müəllif bu ərazinin adını "Şəhrur" kimi qeyd etmişdir (104, s. 28).

***Əhalinin etnik və dini tərkibi.*** Bəhs etdiyimiz dövr etnik proseslərin aktivliyi baxımından da diqqəti cəlb edir. XVI əsrə qədərki dövrdə əsasən köçəri və yarımköçəri həyat tərzi keçirən bir sıra tayfalar bu dövrdə (Qaraqoyunlu, Ağqoyunlu, Cəlairi) oturaq həyat tərzinə keçməyə başlamışdılar. Beləliklə də, ümumazərbaycan səviyyəsində gedən etnik proseslər bu regionda da baş verməkdə idi. Səfəvilər dövlətinin qurulması ilə ilk dövrlərdə yaranan müəyyən sabitlik, feodal çəkişmələrinə son qoyulması ölkənin digər ərazilərində olduğu kimi, Naxçıvanın həyatında da müəyyən iqtisadi dirçəlişə səbəb oldu.

Dövrün mənbələrində verilən məlumatların təhlili bir fikri qətiyyətlə söyləməyimizə imkan verir ki, bəhs etdiyimiz dövrdə Naxçıvan bölgəsində əhalinin etnik tərkibində türkdilli qızılbaş tayfaları üstün mövqeyə sahib idilər. Səfəvilərin hakimiyyəti dövründə regionun idarəçiliyi, əsasən, Ustaclı tayfalarının əlində olmuşdur. Ölkə, yurd, ocaqlıq adlanan müəyyən ərazilər əmirlər tərəfindən idarə edilirdi. Səfəvi Divanının 1576-cı il tarixli siyahısında 114 əmirin olduğu göstərilirdi ki, bu siyahıda Ustaclı tayfasından olan əmirlərin sayı 15-ə çatırdı (10, s. 205). Dövrün tarixçisi İbrahim Əmininin verdiyi məlumatlara əsaslanaraq söyləyə bilərik ki, I Şah İsmayıl dövründə Naxçıvan ölkəsində Ərəşli və Zülqədərli tayfalarının da müəyyən qolları məskunlaşmışdılar və onlar İsmayılın qoşunlarının tərkibində döyüşürdülər (27, s. 44).

XVI əsrdən başlayaraq Naxçıvan ərazilərinə müxtəlif məqsədlərlə ermənilərin gələrək məskunlaşması müşahidə olunmaqdadır. İlk dövrlərdə sadəcə olaraq ən aşağı xidməti işlərdə çalışmaq üçün bölgəyə gələn erməni köçkünləri bu ərazilərdə



təsərrüfatlarını qurduqca daha geniş ərazilərin iddiasına düşür və öz dini məbədgahlarını yaradırdılar. Bu barədə hələ 1510-cu ildə Çuxursəd hakimi Rəvan xan Şah İsmayıl Xətaiyə yazırdı: "Əhalinin bir qismi, yəni İkiçayarasından Van gölü sahillərinə, ordan da beş-beş, on-on Qafa, bizim torpaqlarımıza gələn ermənilər sazişdəkilər kimi xırda ticarətlə, bənna və dülgərliklə güzəran sürüb fərağat oturmaqdansa, tabeliyimizdəki torpaqlarda yerdəyişmə vurnuxmalarına başlamış, geniş oturaq həyat iddialarına qapılmışlar" (63, s.73). Süleyman Məmmədov apardığı tədqiqatlar nəticəsində belə nəticəyə gəlmişdir ki, XV-XVII əsrlərdə gəlmə ermənilər yerli türk-azərbaycanlı əhalisindən 17 kənddə torpaq sahələri, 7 kənddə üzüm bağları və şirəxanalar satın almışdılar (186, s. 41-46). Orta əsrlərdə bölgəyə gəlmiş bir sıra avropalıların əsərlərində bölgənin əhalisinin erməni olması ilə bağlı iddialara da aydınlıq gətirmək istərdik. Məsələn XVI əsrin 40-cı illərində Naxçıvandan keçmiş Venesiya elçisi Membre yazırdı: "Bu səfər zamanı Naxçıvan adlı şəhərdən də keçdik. Bu zaman İrəvanda olan Sultan Məntəşa üçün Naxçıvanda bir neçə ev inşa edilirdi. Bu şəhərdən çoxlu bağları olan, Mərənd adlanan kiçik bir şəhərə gəldik. Beləliklə, bizim səyahət etdiyimiz bu məmləkətin Mərəndədək olan bütün kəndlərində hamısı Sufiyə tabe olan xristian ermənilər yaşayırdı" (130, s. 36-37). Səfəvilər dövrünün görkəmli tədqiqatçısı O.Əfəndiyevin də qeyd etdiyi kimi bu fikir tamamilə cəfəngiyyatdır. O, hesab edir ki, Membreni müşayiət edən ermənilərin dediklərini onun şəxsən gördüyü və müşahidə etdiklərindən fərqləndirmək lazımdır. Qeyd edək ki, Membrenin özü də bu səfər zamanı onu müşayiət edən şəxslərin beş Lori ermənisi olduğunu yazmışdır (130, s. 36). Yeri gəlmişkən bu məqamda bir məsələ ilə bağlı da fikirlərimizi bölüşmək istərdik. Məlumdur ki, İslamın güclü olduğu və bir az da xürafatın geniş hökm sürdüyü o dövrlərdə gələn əksər xristian avropalı səyyahları məhz ermənilərin müşayiət etməsi təbiidir. Çünki, bir İslam ölkəsində bir müsəlman üçün xristianla ünsiyyətdə olmaq, onunla eyni qabdan çörək yemək aşağılıq sayılırdı. Bu səbəbdən də müsəlman-türk əhalisinin nəzərində aşağı iş sayılan xristian səyyahlarına bələdçilik işini ermənilər həyata keçirmiş, onlar isə öz

məqsədlərinə və dini təəssübkeşliklərinə uyğun olaraq səyyahlara bölgədəki əhalini erməni kimi təqdim etmişdilər. Məlumdur ki, məqsədləri şah sarayına yetişmək olan elçilər və səfirlər hər yerdə dayanıb söylənilənləri şəxsən dəqiqləşdirə bilməzdilər. Məhz bu səbəbdən də onlar erməni müşayiətçilərinin dediklərini öz əsərlərində əks etdirmişdilər.

XVII əsrin əvvəllərində Naxçıvan əhalisinin sürətlə azalması baş verir. Bunun əsas səbəbi əhalinin demoqrafik yerdəyişməsi olmuşdur. Qeyd etdiyimiz kimi, Səfəvi şahı I Abbas 1604-1605-ci illərdə Naxçıvan və Culfa əhalisinin sürgün olunması ilə bağlı göstəriş vermişdir. J.Tavernyenin qeydlərindən aydın olur ki, bu dövrdə 27 min ailə Naxçıvandan imperiyanın digər ərazilərinə köçürülmüşdü (153, s. 80). Təbii ki, bu sürgün nəticəsində köçürülənlərin heç də hamısı uzun yolu qət edə bilməmişdir. Məsələn, İ.P.Petruşevski göstərir ki, Culfadan İsfahan ətrafına köçürülən 15 min ailədən yalnız 3 min ailə İsfahana qədər gəlib çıxa bilmişdi (196, s. 277). Tarixi mənbələrə istinadən İ.P.Petruşevski digər bir yerdə yazır ki, 1605-ci ildə, təqribən, 70 min naxçıvanlı İranın cənub və cənub-şərq regionlarına köçürülmüşdür (196, s. 277). 1984-cü ildə Naxçıvan Muxtar Respublikasının 60 illik yubileyi ilə əlaqədar çapdan çıxan "Sovet Naxçıvanı" kitabında da bu fakt təkrarlanaraq yazılır ki, sürgün nəticəsində Naxçıvandan 70 min insan köçürülmüşdür (173, s. 15).

Mənbələr əhalinin dini tərkibi ilə yanaşı, Osmanlı-Səfəvi müharibələri ilə əlaqdar hətta bölgə əhalisinin məzhəbi baxışları haqqında da məlumatları saxlamışdır. H.Çələbi, M.Cəlalzadə kimi dövrün Osmanlı tarixçilərinin verdikləri məlumatlardan aydın olur ki, bu dövrdə Naxçıvan əhalisinin əksər hissəsi qızılbaş-şiəliyinə etiqad etmişlər (142, s. 81; 136, s. 592). İrəvan əhalisi də birmənalı şəkildə qızılbaş-şiə inancına mənsub olmuşdur (139, s. 481). I Şah İsmayıl ilə eyni əsrdə yaşamış Xondəmirin "Həbib əs-siyər" əsərində göstərilirdi ki, bu dövrdə Səfəvi şahlarının dəstəyi nəticəsində cəfəri və heydəri məzhəbləri xeyli intişar tapmışdı (72, s. 116).

Şah Abbasın hakimiyyəti dövründə nöqtəvilik təriqəti Naxçıvan ərazisində ciddi nüfuza malik olmuşdur. K.N.Smirnov



Naxçıvan şəhərinin məscidlərindən biri olan Pir-xamuş məscidinin bu dövrdə yaşamış məhşur nöqtəvi şeyxlərindən biri olan Pir Xamuşun adı ilə bağlı olduğunu yazmışdır (207, s. 78). Bu təriqətin üzvləri, əsasən, Ordubad və Şərur ərazisində yaşayırdılar. XVI əsrin əvvəllərindən başlayaraq bölgədə bəktaşi-sufi təriqəti tərəfdarlarının sayı sürətlə artmağa başlamışdır. 1538-ci ildə I Şah Təhmasib Şirvanı və Naxçıvanı tutduqdan sonra bu təriqət tərəfdarları bölgədə açıq fəaliyyət göstərməyə başlamışlar. AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli qeyd edir ki, Naxçıvan ərazisində bu dövrdən başlayaraq bəktaşilərin fəaliyyətini təsdiq edən tikililərə və kitabələrə rast gəlmək olur (114, s. 134).

## 2.3. I Osmanlı idarəçiliyi dövründə (1587-1603) Naxçıvanın tarixi coğrafiyası

Səfəvilər dövlətinin mövcud olduğu illərdə Naxçıvan ərazisi iki dəfə Osmanlı imperiyası tərəfindən işğal edilmiş və işğalın şərtlərinə uyğun olaraq, Naxçıvanın inzibati ərazi quruluşu Osmanlı sisteminə qismən uyğunlaşdırılmışdır.

XII Osmanlı sultanı və 91-ci İslam xəlifəsi hesab edilən sultan III Muradın dövründə (1574-1595) Osmanlılar qərb istiqamətində fransız-ingilis rəqabətinin gücləndiyi bir şəraitdə protestant İngiltərəsi ilə əlaqələrini gücləndirməyə başladılar. Sultan III Murad işğallarını şərq istiqamətində davam etdirməyi qarşısına məqsəd qoydu və Səfəvilərlə yeni bir müharibəyə başladı.Osmanlıların hücuma başlamasına Qızılbaş dövlətində Təhmasibin ölümü ilə başlamış olan taxt-tac mübarizəsi də əsas vermiş oldu. 1578-1590-cı illər müharibəsi Naxçıvanın tarixi coğrafiyasına da təsirsiz ötüşmədi. Osmanlı ordusunun komandanı Fərhad paşa 1584-cü il yazın əvvəllərində Sultan III Muradın əmrinə uyğun olaraq, Dmanisi, Lori, Quri yolu ilə şimal istiqamətindən Naxçıvana doğru yönəldi (141, s. 79). Dövrün Osmanlı tarixçisi İbrahim Rəhimzadənin "Gənciney-in fəthi Gəncə" əsərinə istinad edən F.Hüseynqızı Fərhad paşanın rəhbərlik etdiyi Osmanlı qoşunları tərəfindən Naxçıvanın 1587-ci ildə işğal edildiyini yazır (174, s. 167).Türk tarixçisi F.Kırzıoğlu isə Naxçıvanın Osmanlı qoşunları tərəfindən tamamilə işğal edilməsinin 1588-ci ilə təsadüf etdiyi barədə məlumat verir (144, s.347). Səfəvi və Osmanlı dövlətləri arasında 1590-cı il İstanbul sülh müqaviləsi iki dövlət arasında de-fakto mövcud olan sərhədləri, de-yure təsdiqlədi.

Osmanlı hakimiyyət orqanları zəbt olunmuş ərazilərdə yeni inzibati idarə vahidləri yaratdılar, əyalətlərə hakimlər təyin etdilər. Azərbaycanın ən iri yaşayış məntəqələrində hərbi hissələr yerləşdirdilər, vergi və mükəlləfiyyətlərin növlərini, məbləğini müəyyənləşdirdilər (10, s.220). Azərbaycanın qərb bölgələrinin idarəçiliyi əsasən osmanlıların tərəfində çıxış etmiş tayfaların



hakimlərinin ixtiyarına verilmişdi. Osmanlı işğalı dövründə Maku, Ordubad və Şərur qəzaları bir müddət Mahudi tayfasından olan hakimlər tərəfindən idarə edilmişdir (10, s. 223).

***Sərhədlər və inzibati ərazi quruluşu.*** Osmanlılar Naxçıvan ölkəsini tutduqdan sonra buranı Çuxursəd bəylərbəyliyinin torpaqları ilə birlikdə yeni yaradılmış İrəvan əyalətinin tərkibinə daxil etdilər. Osmanlılar tərəfindən müəyyən edilmiş inzibati bölgüyə əsasən, əyalət sancaqlıqlara, sancaqlıqlar qəzalara, qəzalar nahiyələrə, onlar isə şəhər, qəsəbə, kənd, məzrəə, dizə və s. yaşayış məntəqələrinə bölünmüşdü (31, s. 121).

E.Mehrəliyev xalq coğrafi terminlərindən bəhs edərkən nahiyəni kiçik yer, qəzanın bölündüyü hissələrdən biri kimi mənalandırır (71, s. 58).

Bəhs etdiyimiz dövrdə Naxçıvan ərazisində işlədilmiş əsas inzibati ərazi vahidi terminlərindən biri də qışlaq ifadəsidir. "Qışlaq" sözü, əsasən, köçəri və yarımköçəri təsərrüfatlarla bağlı anlayış olub "heyvandarların qış yurdu" anlamında işlədilmişdir. 1727-ci ilə aid "Naxçıvan sancağının müfəssəl dəftəri"ndən də aydın olur ki, qoyunçuluqla məşğul olan əhali qış vaxtı bu ərazilərdə qışlayır və bəzən hətta dənli bitkilər də becərirdilər (82, s. 148). AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru Adil Bağırovun yazdığına görə, bu termin Orta Asiyada kənd məfhumunu ifadə etmişdir (16, s.12-13).

Məzrəə ifadəsinin açıqlamasını verən Hüsaməddin Məmmədov bunu "sakinləri olmayan kəndlərin əkin sahələri" kimi açıqlamışdır (82, s. 23). B.Budaqov və Q.Qeybullayev ərəb dilində "məzrəə" sözünün "düzən yerdə əkin yeri", "suvarıla bilən əkin yeri" mənasını verdiyini yazmışlar (23, s. 91). "Azərbaycan xalq coğrafi terminləri lüğəti"ndə E.Mehralıyev bu terminin mənasını yanlış olaraq "mərz arası yer" kimi mənalandırmış və bu sözün XIX əsrdən sonra meydana çıxdığını yazmışdır (71, s. 55). Qeyd edək ki, mərz farsca sərhəd mənasını verir. XIX əsrdə bu söz tarla, bağ, bostan və s. sahəsini bir-birindən ayıran xətt mənasını vermişdir. Buna görə Naxçıvan bölgəsində məzrəə sözünün mərz sözündən yarandığı fikri ilə razılaşmaq olmaz.

1727-ci ilə aid "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə oxuduğumuz bəzi faktlar da yalnız təsərrüfat üçün istifadə edilən və sakinləri olmayan məntəqələrə məzrəə adı verildiyi qənaətinə gəlməyimizə imkan verir. "Dərələyəz nahiyəsinə tabe olan Sədərək Qışlası məzrəəsi. Bu məzrəə əvvəllər kənd imiş. Əkinçiliklə məşğul olub, xoş həyat sürürmüş. Qarışıqlıq vaxtı qaçıb getdikləri üçün bir kimsə qalmamış və ona görə də məzrəə olaraq qeydə alındı" (82, s. 318). Digər bir yerdə isə oxuyuruq: "Dərələyəzə tabe olan Məndərvanıs məzrəəsi. Bu məzrəə əvvəllər kənd imiş. Amma uzun bir zaman burada bir kimsənin yaşamadığı və bununla əlaqədar əkinçilik işi görülmədiyinə görə dəftərdə məzrəə olaraq qeydə alındı" (82, s. 320). 1727-ci ilə aid "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Dərələyəz nahiyəsinə tabe olan Dibi, Şahyurdu, Kərəkəlük, Sallı məzrəələri haqqında da eyni fikirləri oxuyuruq (82, s. 320, 324).

Naxçıvan ərazisində adı çəkilən terminlərdən biri də bu günə qədər bir çox kəndlərdə qorunub saxlanılmış olan dizə terminidir. F.Rəşiddəddinin "Came ət-təvarix" əsərində "diz" sözü qala mənasında işlədilmişdir. Rəşiddəddinin "دز" kimi qeyd etdiyi söz, adətən, qala adları ilə birgə qeyd edilmişdir (Məsələn: Diz-i Zar, Diz-i Kəmali, Diz-Mərc və s.) (203, s. 346). Arxeoloq Bəhlul İbrahimli Xaraba-Gilan yaxınlığındakı beş kəndin adında saxlanmış «Dizə» sözünün hələ Sasanilər dövründə (III-VII əsrlər) «qala» mənasında işlədildiyini yazmışdır (51, s. 63). Tarixçi İ.Kəngərli "dizə" sözünün fars mənşəli olduğunu və "qala" mənasını verdiyini yazmışdır (63, s. 23).

Bu dövrdə Naxçıvan ərazisi İrəvan əyalətinin tərkibində xüsusi bir liva (sancaq) statusunda idi. 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Naxçıvan livasının (sancağı) üç qəza və 16 nahiyyədən ibarət olduğu göstərilmişdir. Sonra isə dəftərdə Naxçıvan livasının Naxçıvan qəzasının tərkibinə Naxçıvan, Məvaziyi-Xatın, Mülki-Arslanlı, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı nahiyələrinin, Şərur qəzasının tərkibinə Şərur, Ağcaqala, Karni, Vedi, Abaran, Şərabxana, Talin, Ərmus, Abnik, Aralıq nahiyələrinin, Ordubad qəzasının tərkibinə isə Ordubad şəhəri,



Azadciran, Şorlut, Dərənürgüt, Əlincə, Sisyan, Zar, Zəbil nahiyələrinin daxil edildiyini görürük (82, s. 11). Belə olan halda nahiyələrin sayı 25-ə çatır. "İrəvan əyalətinin icmal dəftəri"nin giriş hissəsində də İrəvan əyalətinin 10 nahiyyəsi və Ağcaqala nahiyəsinin Naxçıvan sancağının tərkibində olduğu qeyd olunur (53, s. 8). "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə oxşar məqam xüsusi diqqət çəkir. Belə ki, sözügedən dəftərdə İrəvan əyalətinin İrəvan qəzasının tərkibində yalnız İrəvan və Karbi nahiyyələrinin yaşayış məntəqələri göstərilir. Uzun zaman ərzində məhz İrəvan əyalətinin birbaşa tabeliyində olan Karni, Vedi, Abaran, Şərabxana, Talin, Ərmus, Abnik, Aralıq nahiyələri Şərur qəzasının tərkib hissələri kimi göstərilir (53, s. 170-178) (Şəkil 15). Bölgünün hansı səbəbdən bu şəkildə göstərildiyi anlaşılmazdır. Lakin "İrəvan əyalətinin icmal dəftəri"nin son səhifələrində verilən məlumatlarda İrəvan sancağının Ağcaqala nahiyyəsi də daxil olmaqla 11 nahiyədən ibarət olduğu göstərilir. Beləliklə, aydınlaşır ki, adı sadalanan bəzi nahiyələrin Şərur qəzasının tərkibinə daxil edilməsi ya müvəqqəti xarakter daşımış, ya da icmal dəftərinin Azərbaycan dilində versiyasının nəşri zamanı yol verilən bir yanlışlıq olmuşdur.

Naxçıvanın bu dövrdəki inzibati ərazi quruluşu ilə bağlı maraq doğuran digər bir məsələ Sisyan və Əlincə nahiyələrinin Ordubad qəzasına deyil, Şərur qəzasına daxil edilməsi ilə bağlıdır. Belə ki, F.Kırzıoğlu Başbakanlıq arxivindəki 633 saylı sənədə əsaslanaraq bu dövrdə Əlincə və Sisyan nahiyələrini Şərur qəzasının tərkib hissəsi kimi göstərmişdir (145, s. 375).

Tarixçi İ.Kəngərli də Əlincə və Sisyanın Şərur qəzasına daxil olduğunu göstərmişdir (63, s. 210). Belə olan halda Əlincə və Sisyan kimi nahiyələrin Ordubad qəzasına deyil, Şərur qəzasına daxil edilməsi də sual doğurur. "İrəvan əyalətinin icmal dəftəri"ndə adı çəkilməyən Culfa nahiyyəsinin adının Türkiyə Cumhuriyyəti Başbakanlıq arxivindəki 633 nömrəli sənəddə qeyd olunması (145, s. 375) da göstərir ki, bu qısa dövr ərzində bölgənin inzibati ərazi quruluşu dəyişkənliyi ilə seçilmişdir. Azərbaycan bəylərbəyliyinin tərkibinə daxil olduğu dövrdə Naxçıvan ölkəsinin əsas inzibati vahidlərindən biri olan Dərələyəz nahiyəsinin isə bu dövrdə

mənbələrdə adı çəkilmir.

Beləliklə, yuxarıda göstərilən bütün faktları nəzərə alaraq, I Osmanlı işğalı dövründə Naxçıvan sancağının inzibati ərazi quruluşunu aşağıdakı kimi müəyyənləşdirə bilərik. Naxçıvan sancağı bəhs olunan dövrdə 3 qəzaya – Naxçıvan, Şərur və Ordubad qəzalarına bölünmüşdür.

Müvəqqəti qarışıqlıq dövrlərini nəzərə almasaq, yeni inzibati ərazi quruluşunun oturuşmasından sonra Naxçıvan qəzasının tərkibinə Naxçıvan, Məvaziyi-Xatın, Mülki-Arslanlı, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı nahiyələrinin, Şərur qəzasının tərkibinə Şərur, Zar, Zəbil, Əlincə və Sisyan nahiyələrinin, Ordubad qəzasının tərkibinə isə Ordubad şəhəri, Azadciran, Şorlut, Dərənürgüt və Culfa nahiyələrinin daxil olması qənaətinə gəlirik.

Qeyd edək ki, müfəssəl və icmal dəftərlərində yaşayış məntəqələrinin əvvəlki dövr mənbələrinə nisbətən daha dəqiqliklə göstərilməsi nahiyələrin və sancağın ərazisinin tərəfimizdən daha dəqiq hesablanmasına imkan vermişdir. Beləliklə, apardığımız hesablamalardan məlum olur ki, bəhs etdiyimiz dövrdə Naxçıvan sancağının ərazisi 8020 km$^2$-ə yaxın idi (Şəkil 12).

Naxçıvan qəzası ümumilikdə 2930 km$^2$ ərazini əhatə edirdi. Onun tərkibinə Naxçıvan, Məvaziyi-Xatın, Mülki-Arslan, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı nahiyələri daxil idi (Şəkil 13) (82, s. 11).

1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"nə (İƏMD-1590) görə, Naxçıvan qəzasının Naxçıvan nahiyəsinin tərkibində bəhs olunan dövrdə 1 şəhər, 35 kənd, 9 məzrəənin adı çəkilmişdir (53, s. 164-165). Əvvəlki dövrlərdə haqqında şəhər kimi bəhs etdiyimiz Astabad (Yezdabad) haqqında bu zaman Naxçıvan nahiyəsinin tərkibində olan bir kənd kimi bəhs olunur. Təhlillərimiz göstərir ki, bu nahiyənin ərazisində XVIII əsrin 20-ci illərində bir neçə nahiyə yaradılmışdır. Naxçıvan nahiyəsi şimaldan Mülki-Arslan və Dərəşahbuz, şərqdən Əlincə və Dərəşam nahiyələri, cənubdan Təbriz əyaləti, qərbdən Qarabağ nahiyəsi ilə həmsərhəd olmuşdur. Hesablamalarımıza görə bu nahiyənin ərazisi 690 km$^2$-ə çatırdı.

Məvaziyi-Xatın nahiyəsi 8 kənd, 2 məzrəədən ibarət



olmuşdur. Livis, Sultanbəy, Ağxaç, Oğbin, Gürədiz, Degin, İtqıran, Almalıq kəndləri, Aydaş, Qızılca məzrəələri bu nahiyənin tərkib hissələri idi (53, s.165; 32, s. 171). Bu nahiyənin ümumi sahəsi 181 km$^2$-ə çatırdı. Şimaldan və qərbdən İrəvan sancağı, şərqdən Bazarçayı və Dərəşahbuz, cənubdan isə Mülki-Arslan nahiyəsi ilə həmsərhəd olmuşdur.

Mülki-Arslanlı nahiyəsi 5 kənd, 2 məzrəədən ibarət idi. Payız, Gərməçataq, Buzğav, Qaraquş, Lizberd kəndləri, Xızırxana və Kahalar məzrəəsi nahiyənin ərazisində yerləşirdi (15, s. 216). Bu nahiyə şimaldan Məvaziyi-Xatın, cənubdan Naxçıvan, qərbdən Qarabağ, şərqdən isə Dərəşahbuz nahiyələri ilə sərhədlənmişdir. Ərazisi 244 km$^2$-ə yaxın olmuşdur.

Qarabağ nahiyəsi 6 kənd (Qarabağlar, Çınıq (Bakaul), Xök (Əhmədağa dizəsi), Səng, Qıvraq, Sus kəndləri) və 2 məzrəədən (Fazilqışlağı və Əlixangüney məzrəələri) ibarət idi (15, s. 216). Ərazisi, təqribən, 467 km$^2$-ə çatırdı. Şimaldan İrəvan sancağı və Məvaziyi-Xatın nahiyəsi, şərqdən Mülki-Arslan və Naxçıvan nahiyələri, cənubdan Təbriz əyaləti, qərbdən isə Şərur qəzasının Şərur nahiyəsi ilə həmsərhəd olmuşdur.

1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"nə görə, Naxçıvan qəzasının Dərəşam nahiyəsi üç kənddən ibarət olmuşdur: Dibkənd, Başkənd, Ortakənd (15, s. 217). Maraqlıdır ki, Culfa şəhərinin dağıdılmasından sonrakı dövrdə Culfa və ətraf ərazilər mənbələrdə Ordubad qəzasının tərkibində ayrıca olaraq Culfa nahiyəsi kimi göstərilmişdir. F.Kırzıoğlu Başbakanlıq arxivindəki 633 saylı sənədə istinadən Culfa və Dərəşam nahiyələrini ayrı-ayrı nahiyələr kimi qeyd etmişdir. Bu dövrdə Dərəşam nahiyəsi şimaldan Əlincə, şərqdən Azadciran, cənub-qərbdən Culfa nahiyəsi, cənubdan Araz çayı vasitəsilə Təbriz əyalətinin əraziləri, qərbdən isə Naxçıvan nahiyəsinin əraziləri ilə həmsərhəd olmuşdur. Hesablamalarımıza əsasən bu nahiyənin ərazisi bəhs olunan dövrdə, təqribən, 138 km$^2$-ə bərabər olmuşdur.

"İrəvan əyalətinin müfəssəl dəftəri"ndən (1590) məlum olur ki, XVI əsrin sonu-XVII əsrin əvvəllərində Naxçıvan qəzasına daxil olan nahiyələrdən biri də Dərəşahbuz nahiyəsi olmuşdur. Bu nahiyə

şimaldan Məvaziyi-Xatın və Bazarçayı, şərqdən Sisyan nahiyəsi, cənubdan Naxçıvan nahiyəsi, qərbdən isə Mülki-Arslan nahiyəsi ilə həmsərhəd olub, 27 kənd, 2 məzrəə, 6 yaylağı əhatə etmişdir (32, s. 118). Ərazisi, təqribən, 773 km$^2$ olmuşdur.

Ərazisi 477 km$^2$ olan Bazarçayı nahiyəsi 10 kəndi birləşdirirdi. Bu nahiyəyə daxil olan kəndlər aşağıdakılar idi: Qalacıq (Pürnadik), Bazarçayı (Yaylaq), Türküt, Qızılcakilsə, Ağcadamal, Kələdək, Pur, Şiqad, Tülkütəpəsi, Yenicə (15, s. 218).

Yuxarıda da qeyd etdiyimiz kimi Şərur qəzasının tərkibinə Şərur, Zar, Zəbil, Əlincə, Sisyan nahiyələri aid idi. Ağcaqala, Karni, Vedi, Abaran, Şərabxana, Talin, Ərmus, Abnik, Aralıq kimi nahiyələrin bu qəzanın tərkibində göstərilməsi yuxarıda da qeyd etdiyimiz kimi ya müvəqqəti xarakter daşımış, ya da texniki bir yanlışlıq olmuşdur. Bəhs olunan dövrdə Şərur qəzasının ərazisi (Şərur, Zar, Zəbil, Əlincə, Sisyan nahiyələri), təqribən, 3873 km$^2$ olmuşdur.

Şərur qəzasının eyniadlı nahiyəsi 32 kənd, 4 qışlaq, 4 yaylağı birləşdirirdi (15, s. 218-219). Qərbdən və şimaldan İrəvan sancağı, şərqdən Qarabağ nahiyəsi, cənubdan isə Maku ilə həmsərhəd olan bu nahiyə 596 km$^2$əraziyə malik olmuşdur.

Zar və Zəbil nahiyələri həm "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə, həm də "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə ayrı-ayrı nahiyələr kimi qeydə alınmışdılar. "İrəvan əyalətinin müfəssəl dəftəri"ndən aydın olur ki, Zar nahiyəsinin tərkibində 25 kənd 1 məzrəə, Zəbil nahiyəsinin tərkibində isə 24 kənd, 18 yaylaq birləşmişdi (53, s. 180-181).

Dövrün bəzi sənədlərində bu nahiyələrdən bir nahiyə kimi bəhs olunmasına dair faktlara da rast gəlirik. Məsələn 4 noyabr 1590-cı ilə (6 Məhərrəm 999) aid bir Osmanlı arxiv sənədində Zar və Zəbil nahiyələri vahid bir nahiyə - Zarzəbil nahiyəsi kimi göstərilmişdir. Belə ki, "Gəncə və Qarabağdan Rəvan və Naxçıvana zahirə gətirməyə gedənlərdən vergi alınmaması" adlı sənəddə yazılır: "Hızâne-i Âmire'min Gence cânibi Defterdârı Ali dâme ulüvvühû südde-isa'âdetime mektûb gönderüp Gence ve Karabag vilâyetine kaht u galâ müstevlî olupfukarâ ve zu'afâ def'-i muzâyakaları için



Revan ve Nahçıvan câniblerinden zahîre getürülmek[le] mesgûl olup vilâyet-i mezbûre ahâlîsinden cemm-i gafîr kendüyevarup zahîre içün Revan cânibine gitmeden bos davar ile varduklarında davarbasına birer selîmî ve Gökçe cânibinden gidenlerden Balıklı nâm mevzi'de Gökçe beyinin âdemleri dahi davar basına birer selîmî ve bir def'a dahi Nahçıvan'a zahîreye giderken Zâruzenbil ve Orut sancak beylerinin âdemleri gerü davar basına birer selîmî almagla fukarâ tâ'ifesi zahîre getürmek husûsunda ızdırâb çeküp..." (147, s. 13).

Zar və Zəbil nahiyələrinin birlikdə ərazisi, təqribən, 1200 km$^2$-ə çatırdı.

Qəzanın böyük nahiyələrindən biri Əlincə nahiyəsi idi. Onun tərkibində 32 kənd, 8 məzrəə birləşmişdi (53, s. 181-182). Şimaldan Sisiyan və Dərəşahbuz, şərqdən Azadciran və Dərənürgüt, cənubdan Dərəşam və Culfa, qərbdən Naxçıvan nahiyələri ilə həmsərhəd olmuşdur. Əlincə nahiyəsinin ərazisi, təqribən, 814 km$^2$-ə bərabər idi.

Şərur qəzasının tərkibinə daxil olan sonuncu nahiyə olan Sisyan nahiyəsinin tərkibinə 31 kənd, 4 məzrəə daxil edilmişdir (53, s. 182-183). Nahiyənin ərazisi təqribi hesablamalara görə 1263 km$^2$ olmuşdur.

1 şəhər və 4 nahiyəni birləşdirən Ordubad qəzasına, yuxarıda da qeyd etdiyimiz kimi, Ordubad şəhəri, Azadciran, Şorlut, Dərənürgüt, Culfa nahiyələri daxil olmuşdur (Şəkil 14). Bu qəzanın ərazisi, təqribən, 1217 km$^2$ olmuşdur. Ordubad livasına daxil olan Ordubad nahiyəsinin Naxçıvan sancağının tərkibində olması müvəqqəti xarakter daşımış və tarixi mənbələr sübut edir ki, az sonra bu ərazi ayrıca liva kimi Təbriz əyalətinin tərkibinə verilmişdir (53, s. 9).

Qəzanın mərkəzi Ordubad və ətraf ərazilərin sahəsi, təqribən, 12 km$^2$ idi.

Qəzanın ən böyük nahiyəsi olan Azadciranın tərkibində 28 kənd var idi (53, s. 179). Bu nahiyə şimaldan Dərənürgüt və Sisyan nahiyələri, şərqdən Təbriz əyalətinin Qafan nahiyəsi, cənubdan Təbriz əyalətinin digər əraziləri, qərbdən isə Dərəşam və Əlincə nahiyələri ilə həmsərhəd olmuşdur. Hesablamalarımız göstərir ki,

nahiyənin ərazisi bu dövrdə, təqribən, 815 km$^2$ olmuşdur.

8 kəndi birləşdirən Şorlut nahiyəsi şimaldan, qərbdən və cənubdan Ordubad qəzasının Azadciran nahiyəsi ilə, şərqdən isə Təbriz əyalətinin Qafan nahiyəsi ilə həmsərhəd olmuşdur. Nahiyənin xəritədəki yerinə nəzər yetirdiyimiz zaman bu ərazi sanki anklav təəssüratı yaradır. Anabad, Kənizə, Yuxarı Əndəmic, Nüsnüs, Nüyadə, Dükan, Vəraqıt, Aşağı Əndəmic kəndləri bu nahiyəyə daxil edilmişdi (53, s. 179). XVI əsrin I yarısında Şorlut nahiyəsinin mərkəzi olmuş Əylis şəhərinin yerləşdiyi ərazidə, Osmanlı idarəçiliyi dövründə Əylis və Səharayi-Əylis adlı kəndlər qeydə alınmış və bu kəndlər Şorlut nahiyəsinin deyil, Azadciran nahiyəsinin tərkibinə daxil edilmişdir. Hesablamalarımız göstərir ki, Osmanlıların yaratdıqları Şorlut nahiyəsinin ərazisi Səfəvilər dövründə mövcud olmuş Şorlut nahiyəsindən daha az, təqribən, 137 km$^2$ olmuşdur.

Naxçıvan ölkəsinin Azərbaycan vilayətinin (bəylərbəyliyinin) tərkibinə daxil olduğu dövrlərdən fərqli olaraq, Osmanlı işğalından sonra İrəvan əyalətinin tərkibində olan Naxçıvan sancağında yeni bir nahiyənin (mahalın) – Dərənürgüt nahiyyəsinin adına rast gəlirik. Hesablamalarımıza görə, ərazisi 223 km$^2$ olan Dərənürgüt nahiyəsi 5 kənddən ibarət idi: Bist, Əznəmiri, Tilyak, Dərənürgüt, Xurs.

Dərənürgüt toponiminin mənası maraq doğurduğundan bu məsələ üzərində dayanmağı vacib bilirik. Belə ki, B.Budaqov və Q.Qeybullayev bu toponimin monqol mənşəli olduğunu yazaraq, "nürgüt" və ya "nohur hut" sözünün monqol dilində "düşərgə, dayanacaq" mənasında olduğunu yazmışlar (23, s. 97). A.Bağırov isə "dərə" və "nürgüt" komponentlərindən ibarət olan sözün "Nürgüt zonası" mənasını verdiyini yazmışdır. Nürgüt komponentinin hansı anlamda işlədildiyi ilə bağlı ehtimal irəli sürməmişdir (15, s. 129).

Səfəvi idarəçiliyi dövründə Dərəşam nahiyəsinin tərkibində olmuş Culfa ərazisində Osmanlı işğalı dövründə ayrıca olaraq Culfa nahiyəsi yaradılmış və bu nahiyə Ordubad qəzasının tərkibinə daxil edilmişdir. Culfa nahiyəsi şimaldan və qərbdən Dərəşam, şərqdən Azadciran nahiyələri, cənubdan isə Təbriz əyalətinin əraziləri ilə həmsərhəd olmuşdur. Bu nahiyənin ərazisi, təqribən, 30 km$^2$ olmuşdur.



***Şəhərlər və iri yaşayış məntəqələri.*** "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Naxçıvan şəhərinin 12 məhəlləsinin adı qeyd edilmişdir. Bunlar Qaziyi-cahan (Xacə Mirixan), Seyid Hüseyn, Molla Əhməd, Mirzəbəy, Şahab, Günbəz (Nuri-Kamanlar), Bala, Hacıbəy, Xuzamərək, Tizxiran, Qala və Məhəlleyi-Gebran idi (82, s. 16). Məhəllələrdəki evlərin sayının ümumilikdə 745 olduğunu nəzərə alsaq və bir ailənin orta hesabla 5 nəfərdən ibarət olduğunu götürsək, şəhərdə evlərin sayına görə əhalinin, təqribən, 3725 nəfər olduğunu müəyyənləşdirmək mümkündür. Lakin nəzərə alsaq ki, bunlardan əlavə məhəllələrdə yaşayan 121 nəfər subay şəxsin adı da qeyd olunmuşdur, o zaman şəhərin əhalisinin sayının ən azı 3846 nəfər olduğunu söyləyə bilərik. Məhəllələr arasında ən çox əhali Hacıbəy məhəlləsində, ən az əhali isə Tizxiran və yaxud Tizxarab məhəlləsində məskunlaşmışdı.

Apardığımız təhlillər göstərir ki, Səfəvi-Osmanlı müharibələrindən istifadə edərək bölgədə məskunlaşmağa çalışan qeyri-müsəlman əhali bütün cəhdlərə baxmayaraq yenə də xüsusi üstünlüyə malik deyildi. Naxçıvan şəhərinin əhalisinin 95 faizi müsəlmanlardan, başqa sözlə desək Azərbaycan türklərindən ibarət idi. Xristian əhalinin məskunlaşdığı xüsusi bir məhəllə adı dəftərdə ayrıca olaraq qeyd edilməmişdir.

Bölgədəki müsəlman-türk əhalisinin çoxluğunu göstərən digər bir məqam məscidlərlə bağlıdır. Türk səyyahı Evliya Çələbi XVII əsrdə Naxçıvan şəhəində 70 came və ibadət yeri, 40 məhəllə məscidi, Qarabağlar şəhərində isə 70 mehrab, o cümlədən 40 came olduğunu qeyd etmişdir (6, s. 231-232).

"İrəvan əyalətinin icmal dəftəri"ndə Naxçıvan şəhərində 3 came, 10 məscidin adı çəkilir. Qızıl Arslan, Məhməd Kətxuda və Cameyi-şərif o dövrdə şəhər tikililəri arasında xüsusilə seçilirdi. Qeyd etmək lazımdır ki, Cameyi-Şərif sultan III Muradın şərəfinə ucaldılmışdı. Məscidlərin adları isə belə idi: Ağa məscidi, Hacı Xəlil məscidi, Keçəçi məscidi, Molla Əhməd məhəlləsinin məscidi, Sultan Mahmud məscidi, Hacı Sani məscidi, Bəsri məscidi, Şeyx Əminəddin məscidi, Ətməlik məscidi, İsmayilan məscidi (53, s. 20).

Bu dövrdə bölgənin ikinci böyük şəhəri Ordubad qəzasının

mərkəzi Ordubad şəhəri idi. Bu zaman Ordubad şəhərində 5 məhəllənin qeydə alındığını görürük. Bunlar Sərşəhər, Anbaras, Mingis, Girdətal (Meydan) və Məhəlleyi-Əraminə idi (53, s. 19).

Ordubadın əsas məhəlləsi Sərşəhər idi. Məhəllə Ordubadçayın sol sahilində, şəhərin yuxarı hissəsində yerləşdiyi üçün "baş şəhər" anlamında "Sərşəhər" adlandırılmışdır. Ordubadçayın sağ sahilində yerləşən Ambaras məhəlləsi iki hissədən - Aşağı və Yuxarı Ambaras məhəllələrindən ibarət idi. Bəzi məlumatlara görə, Ambaras sözünün mənası "bol sulu" deməkdir (232). Müşahidələr göstərir ki, bu məhəllədə, həqiqətən də, çeşmələrin sayı digər məhəllələrə nisbətən çoxdur. Şəhərin əsas məhəllələrindən biri də Mingis məhəlləsi idi. Girdətal və ya Meydan məhəlləsi şəhərin aşağı hissəsində yerləşmişdi. Bu məhəllənin ərazisi digərlərinə nisbətən daha kiçik idi.

***Əhalinin etnik və dini tərkibi.*** Bəhs etdiyimiz dövrdə aramsız Səfəvi-Osmanlı müharibələri nəticəsində Naxçıvanın əhalisi müxtəlif yerlərə köç etməyə məcbur olur, müharibələr zamanı xeyli sayda insan tələf olur, kəndlər və şəhərlər boşalırdı. H.Məmmədov yazır ki, 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"nə görə, Naxçıvan sancağının tabeliyində olan Bazarçayı, Şərabxana, Zar və Zəbil nahiyələrinin əhalisi öz yurdlarını tamamilə tərk etmiş, sancaqlıqda, ümumilikdə, 393 yaşayış məntəqəsindən 269-nun əhalisi köçmüşdü (82, s. 12-13). Səfəvilərlə Osmanlılar arasında əslində iqtisadi maraqlar uğrunda aparılan müharibələrə məzhəb donu geydirilməsi bölgə üçün daha ağır nəticələrə səbəb olmaqda idi. Belə ki, Osmanlıların şiə-qızılbaş etiqadlı əhalini, buna cavab olaraq Səfəvilərin işğaldan azad olunmuş yerlərdə sünni etiqadlı əhalini qırması, digər dinlərdən olanlara, xüsusən ermənilərə qarşı loyal münasibət bəslənməsi boşalan məntəqələrdə getdikcə bu məkrli tayfanın məskunlaşmağa başlaması ilə nəticələndi. Bu barədə bəhs edən tarixçi İlhami Əliyev bir sıra tarixi faktları gətirməklə göstərir ki, ermənilər, müvafiq olaraq, həm Osmanlı, həm də Səfəvi şahlarından məkrli planlarını reallaşdırmaq üçün istifadə etmişlər. Tədqiqatçı yazır ki, Osmanlı sultanı III Murad Səfəvilər üzərinə hücumdan əvvəl 28 aprel 1578-ci ildə imzaladığı fərmanda Mustafa



Lələ Paşaya "erməni tayfasının mallarına və canlarına zərər verilməməsi..." tapşırığını vermişdi. Digər bir yerdə isə tədqiqatçı göstərir ki, hələ 1650-ci ilə aid sənəddə Üçkilsədəki erməni icmasının başçısı II Şah Abbasa müraciət yazmış və şahın qayğısı nəticəsində bu ərazilərdə məskunlaşmalarını qeyd etmiş, erməni tayfasının şaha böyük sevgisindən bəhs etmişdir (36, s. 42). Beləliklə, bu təfriqədən istifadə edən ermənilər (haylar) əslində heç vaxt özlərinə məxsus olmayan barlı-bərəkətli torpaqlarda məskunlaşırdılar.

F.Kırzıoğlu da Səfəvi-Osmanlı müharibələrinin bölgənin demoqrafik tərkibinə göstərdiyi təsirdən bəhs edərək, Osmanlı qoşunlarının 1579-cu ilin oktyabr ayında bölgəyə hücumu zamanı təkcə Şərur qəzasının Şərabxana nahiyəsindən 20 minə qədər əsir aparıldığını yazmışdır (144, s. 327). Z.Bünyadov və H.Qaramanlının fikrincə köçürülən əhalinin tam əksəriyyəti müsəlman-türk əhalisi olmuşdur (53, s. 12).

Bu dövrdə Naxçıvan sancağı üzrə 6037 nəfər vergi mükəlləfiyyəti daşıyan şəxs olmuşdur ki, onların da 28,6 faizi (1728 nəfər) şəhərlərdə, 71,4 faizi (4309 nəfər) kəndlərdə yaşayırdı.

## 2.4. Naxçıvan Çuxursəd bəylərbəyliyinin tərkibində

XVI əsr boyunca Azərbaycan bəylərbəyliyinin tərkibində olmuş Naxçıvan ərazisi haqqında mənbələr XVII əsrdə Çuxursəd bəylərbəyliyinin tərkib hisssəsi kimi məlumat verirlər. Səfəvilər dövlətində inzibati vahidlərdən bəhs edən İ.Petruşevski Naxçıvan ərazisinin XVII əsrin ikinci yarısında Çuxursəd bəylərbəyliyinin tərkibinə daxil edildiyini yazmışdır (195, s. 117). Tarix elmləri doktoru Həsi Abdullayev də 1965-ci ildə nəşr etdirdiyi bir əsərində Naxçıvan, Bərgüşad və Kapanın XVII əsrin II yarısında Çuxursəd vilayətinin tərkibinə daxil edildiyini qeyd etmiş (157, s. 72) və bu dəyişikliyin dəqiq tarixini göstərməmişdir. Ə.Rəhmani ərazinin Çuxursədin tərkibinə nə vaxt daxil edildiyini konkretləşdirməyərək bunun XVII əsrdə baş verdiyini qeyd etməklə kifayətlənmişdir (181, s. 123). V.Piriyevin fikrincə isə mərkəzi İrəvan şəhəri olan Çuxursəd bəylərbəyliyinin tərkibinə XVII əsrdən etibarən Araz çayının hər iki sahilini əhatə edən düzənlik, Naxçıvan, Maku, Paşak və s. ərazilər daxil olmuşdur (121, s. 40) (Şəkil 16).

Y.M.Mahmudov, T.T.Mustafazadə, S.A.Məmmədov, İ.Əliyev və başqaları isə Naxçıvan və Maku ərazilərinin Çuxursəd bəylərbəyliyinin tərkibinə verilməsinin tarixini daha da konkretləşdirərək bunun XVII əsrin 20-ci illərində, daha dəqiq desək, I Şah Səfinin (1629-1642) hakimiyyəti dövründə baş verdiyi qənaətindədirlər (68, s. 42; 34, s. 201). Belə ki, 1629-1634-cü illərdə bir sıra vilayətlərin sərhədlərinə dəyişiklik edilmiş, Naxçıvan və Maku Çuxursəd bəylərbəyliyinin tərkibinə keçirilmiş, Pəmbək və Borçalı isə Çuxursəd bəylərbəyliyindən alınaraq Qarabağ bəylərbəyliyinə daxil edilmişdir.

Bizim fikrimizcə, Naxçıvanın Çuxursəd bəylərbəyliyinin tərkibinə daxil edilməsi Osmanlılarla əldə edilən 1612-ci il razılaşmasınıdan sonra baş vermiş, şərtlərə əsasən, Naxçıvanın da daxil olduğu Çuxursəd bölgəsi Səfəvilərin hakimiyyəti altında qalmışdır. 1639-cu il Qəsri-Şirin müqaviləsi də Naxçıvan torpaqlarının Səfəvilərin hakimiyyəti altında olmasını təsbit etmişdir.



"Təzkirət ül-mülük" əsərinin farsca variantını araşdırarkən müəyyən etdik ki, Çuxursəd bəylərbəyliyinin tərkibində olan digər ərazilərdən fərqli olaraq bu dövrdə yalnız Naxçıvan üçün inzibati ərazi vahidi olaraq "tümən" anlayışı işlədilmişdir. Müqayisə üçün qeyd edək ki, bəylərbəyliyin digər ərazilər üçün "Maku hakimi", "Bəyazid qala hakimi", "Sədərək hakimi" yazıldığı halda, Naxçıvan üçün "Naxçıvan tüməninin hakimi" ("Hakime-tuməno Naxçıvan") ifadəsi qeyd edilmişdir (225, s. 75).

Səfəvilər dövlətinin idarəçiliyi altında olan müxtəlif ərazilərə səfər etmiş fransız səyyahı Şardən Naxçıvan ərazilərinin Çuxursəd bəylərbəyliyinin tərkibində xüsusi inzibati ərazi vahidi olduğuna işarə edərək yazırdı: "Bütün qonşu torpaqları suvaran Arpasu adlanan çaydan keçdik. O, bu hissədə paytaxtı İrivan olan bəylərbəyliyini İrivanın digər hissəsindən ayırır. Bu hissənin paytaxtı Naxçıvandır" (124, s. 63). XVII əsrin ikinci yarısında Naxçıvanda olmuş E.Çələbinin verdiyi məlumatlara istinad edən S.Babayev türk səyyahının Naxçıvanın xüsusi statusundan bəhs etdiyini qeyd etmiş və E.Çələbidən belə bir sitat vermişdir: "Naxçıvan hazırda Azərbaycanın ərazisində ayrıca xanlıqdır" (12, s. 50). Buradan aydın olur ki, bəhs olunan dövrdə Naxçıvan Çuxursəd (İrəvan) bəylərbəyliyinin tərkibində qolbəyilik statusunda olmamış, idarəçiləri mərkəzdən – şah sarayından təyin olunmaqla xüsusi status daşımışdır.

Qeyd edək ki, Təbriz bəylərbəyliyinin tərkibinə daxil olduğu dövrlərdən fərqli olaraq bu dövrdə Naxçıvan ölkəsinin ərazisində bəzi dəyişikliklər baş vermişdir. "Təzkirət ül-mülük" əsərində verilən məlumatlarda qeyd edilir ki, XVIII əsrin birinci rübündə Çuxursəd bəylərbəyliyinin tabeliyində Naxçıvan tüməni, Maku, Zaruzəbil, Şadili, Bəyazid qala, Sədərək, Dünbülü, Mağzaberd hakimlikləri olmuşdur (221, s. 101). Bir sıra orta əsr mənbələrinə istinad etməklə Əbülhəsən Rəhmani göstərir ki, keçmişdə Naxçıvan ölkəsinin tabeliyində olan Qafan (Kabanat), Culfa və Mərənd arasında, Arazın cənub sahilində yerləşən Zunuz əraziləri XVII əsrin 20-ci illərində artıq Təbriz bəylərbəyliyinin tərkibində olmuşdur (200, s. 87).

Evliya Çələbi ibn Dərviş Məhmət Zillinin məlumatları sübut

edir ki, XVII əsrin 40-50-ci illərində Naxçıvan sancağının (tüməninin) tərkibində Qarabağlar ərazisi xüsusi status daşıyan bir sultanlıq olmuşdur (7, s. 256).

Sədərək isə yenə də Naxçıvana deyil İrəvana tabe olan ayrıca hakimlik – sultanlıq statusu daşımışdır. Dövrün idarəçilik sistemindən danışan müəlliflər qeyd edirlər ki, sultanlıqların idarəçiləri olan sultanlar qolbəyilərin tabeliyində sayılırdılar. "Təzkirət ül-mülük" əsərində də biz Sədərəyin ayrıca bir inzibati ərazi vahidi kimi birbaşa Çuxursəd bəyərbəyliyinə tabe olduğunun şahidi oluruq (225, s. 76). XVIII əsrin əvvəllərində bölgədə olmuş Şardən də təsdiqləyir ki, bu dövrdə Sədərək ayrıca bir hakimlik – sultanlıq olmuş, Qars, İğdır və Sədərək əraziləri bir sultanlıqdabirləşmişdir. Bu sultanlığın Çuxursəd bəylərbəyinə tabe olan ayrıca sultanı olmuş və sultanlığın mərkəzi Sədərək adlı şəhərcik olmuşdur. Şardən yazır: "Çox düzən və barlı-bəhərli bir ölkə ilə beş lyö getdik. O, dağlarla əhatə olunmuşdu. Sağdakı dağları Nuh dağı adlandırırlar. Biz Qaynar adlı kiçik bir şəhərdə mənzil saldıq. Biz həmin yolla gedib səkkiz lyö qət etdik. Yolun yarısında, sol tərəfdə Sədərək adlı şəhərciyin yanından ötüb keçdik. Mahalın sultanı da bu şəhərcikdə yaşayır" (124, s. 62-63). Ola bilsin ki, Sədərək sultanlığı müəyyən dövrlərdə birbaşa bəylərbəyliyin və yaxud da Naxçıvan ölkəsinin tabeliyində olmuşdur.

XVII əsrin əvvəllərində Naxçıvan tüməninin inzibati ərazi bölgüsündən bəhs edən A.D.Papazyan Naxçıvan, Şahbuz, Əlincə, Azadciran, Dərələyəz və Sisəcan nahiyələrinin adını çəkimişdir (190, s. 50). Naxçıvan tüməninin tərkibində Şahbuz nahiyəsinin olmasını 1654-cü ilə aid bir sənəd də sübut edir. Sənəddə "Naxçıvan tüməninin Şahbuz dərəsinin Huremeşin kəndi" (195, s. 121) ifadəsi işlədilmişdir. "Matenadaranın farsdilli sənədləri"ndə 1621-ci ilə aid 17 saylı sənəddə Naxçıvan ölkəsinin Azadciran nahiyəsinin, 1631-ci ilə aid 20 saylı sənəddə isə Dərəşam nahiyəsinin adı çəkilmişdir (194, s. 333, 337).

Beləliklə, mənbələrdə və tədqiqatlarda bu dövrə aid əksini tapmış faktların qarşılaşdırılması göstərir ki, Naxçıvan ölkəsi Çuxursəd bəylərbəyliyinin tərkibinə daxil olduğu dövrdə Zar və



Zəbil nahiyələri onun tərkibindən çıxarılmış (32, s. 162), Dərələyəz nahiyəsi isə yenidən Naxçıvan sancağının tərkibinə daxil edilmişdir. Çuxursəd bəylərbəyliyinin Naxçıvan ölkəsinə Naxçıvan, Şahbuz, Əlincə, Azadciran, Dərələyəz, Sisyan Məvaziyi-Xatın, Mülki-Arslan, Dərənürgüt, Şorlut, Dərəşam nahiyələri və Qarabağ sultanlığı daxil idi. Müəyyən dövrlərdə Arazdan cənuda yerləşən Qışlağat nahiyəsi də Naxçıvan ölkəsinə aid edilirdi.

Naxçıvan ölkəsi bu dövrdə təkcə şimaldan və qərbdən deyil, həm də cənub-qərbdən Çuxursəd bəylərbəyliyinin əraziləri ilə əhatə olunmuşdur. Belə ki, 1629-1634-cü illərdə bir sıra bəylərbəyliklərin inzibati ərazi quruluşunda edilən dəyişikliklər zamanı əvvəllər Təbriz bəylərbəyliyinə daxil olmuş Maku Çuxursəd bəylərbəyliyinin tərkibinə daxil edilmişdir (68, s. 42). Beləliklə, bəhs olunan dövrdə Naxçıvan ölkəsi şimaldan Vedi, Göyçə və Zarzəbil, şimal-şərqdən Qafan, şərqdən Bərgüşad, cənubdan Zunuz, cənub-qərbdən Maku, qərbdən Sədərək sultanlığı və Vedi mahalı ilə həmsərhəd olmuşdur. Təqribi hesablamalarımıza görə bu dövrdə Naxçıvan ölkəsinin ərazisi 8427 $km^2$ olmuşdur.

***Şəhərlər və iri yaşayış məntəqələri.*** 1639-cu il Qəsri-Şirin müqaviləsinin imzalanmasından sonra müharibələrin səngiməsi bölgədə şəhərlərin inkişafına, həmçinin uzun müddətli bir dövr üçün inzibati ərazi idarəçiliyinin sabit sistem şəkilində oturuşmasına imkan vermişdir. Müharibələrin səngiməsi dağıdılmış şəhərlərin yenidən bərpasına imkan yaratmışdı. XVII əsrin ortalarında Evliya Çələbi Naxçıvan şəhərində 10 min evin olduğu haqqında məlumat vermişdir (170, s. 116). Dövrün digər səyyahı J.Şardən isə yazırdı: "Naxçıvan səksən faiz dağılmış böyük bir şəhərdir: yaxud böyük və qeyri-adi viranə topasıdır. Bu şəhər yavaş-yavaş məskunlaşır və bərpa olunur. Şəhərin mərkəzi hal-hazırda yenidən qurulmuş və məskunlaşmışdır. Orda böyük bazarlar deyilən hər iki tərəfi hər cür mal və yeyinti məhsulları satılan dükanlarla dolu qalereyalardan və ya örtülü küçələrdən ibarətdir. Naxçıvanda beş karvansara, hamamlar, bazar meydanları, tütün və qəhvə verən iri mehmanxanalar və təxminən iki min ev vardır. Fars tarixçiləri əvvəllər orada qırx min ev olduğunu təsdiq edirlər.

...Şəhərə kənardan baxdıqda, onları qorumağa gücü çatmadığını hiss edən I Şah Abbas tərəfindən keçən əsrin sonunda dağıdılan çoxlu istehkamlar (qalaça) və böyük bir qalanın viranələri görünür. O, Naxçıvanı türklərin əlindən aldıqdan sonra qala və istehkamları sökdürmüş, xaraba qoymuş, əhalisini köçürmüşdür. Türklərin möhkəmlənməsinə və ərzaq tapa bilməsinə mane olmaq üçün hər yerdə bu üsuldan istifadə edirdi. Həqiqətən, bu şəhər hazırkı vəziyyətinə görə ürək ağrıdan bir obyektdir." (124, s. 63).

Şardənin əsərinin digər bir hissəsindəki qeydləri ilə qarşılaşdırmaqla bu dövr Naxçıvan əhalisinin sayının da azaldığını demək olar. Belə ki, Mərənddə 2500 evin olduğunu yazan Şardən Naxçıvanın əhalisinin bu şəhərin əhalisindən az olduğunu vurğulayır. XVII əsrdə Naxçıvan 10-15 min nəfər əhalisi olan şəhərlər sırasına daxil idi (10, s. 253). Ə.Kəsrəvi, İ.Petruşevski, Ə.Rəhmani kimi tədqiqatçılar XVII əsrin birinci yarısında Naxçıvanın iki dəfə dağıdılmasının şəhərin bir daha əvvəlki şöhrətini özünə qaytara bilməməsi ilə nəticələndiyini yazırlar (200, s. 168).

XVI əsrdə elə də böyük şəhər olmayan Ordubadın vergilərdən azad edilməsi onun sürətlə böyüməsinə şərait yaratmışdır. Qeyd etmək lazımdır ki, Naxçıvanın Çuxursəd bəylərbəyliyinin tərkibində olduğu bu dövrdə Ordubad bir çox hallarda müstəqil ərazi kimi Azərbaycan (Təbriz) bəylərbəyliyinin tərkibində saxlanılmışdır. XVII əsrin ikinci yarısında Ordubad daha böyük əhəmiyyət kəsb etməyə başlamışdır. Zəkəriyyə Əylislinin verdiyi məlumatlardan aydın olur ki, XVII əsrin 80-ci illərində Ordubadda qazilik institutu ləğv edilmiş, onun yerini daha böyük şəhərlər üçün xarakterik olan şeyxülislamlıq tutmuşdur (170, s. 123).

XVII əsr coğrafiyaşünası və təzkirəçisi Məhəmməd Müfid Yəzdi bu dövrdə Ordubadın abad bir qəsəbə olması, şəhərin ortasından 72 çeşmədən qaynaqlanan suyun axması haqqında məlumat vermişdir (91).

Bəhs olunan dövrdə Ordubad həm də əsas ticarət mərkəzlərindən biri olmuş Azərbaycanın Təbriz, Şamaxı kimi şəhərləri ilə yanaşı Ordubadın Venesiya, Marsel, Amsterdam və s. Avropa şəhərləri ilə də ticarət əlaqələri mövcud olmuşdur (200,



s.169).

XV-XVI əsrlərdə bölgənin əsas ticarət şəhəri statusunu özündə saxlayan Culfanın XVII əsrin əvvəllərindəki taleyi kifayət qədər acınacaqlı olmuşdur. Ə.Rəhmani göstərir ki, əsrin 60-cı illərində şəhərin sadəcə olaraq şimal-qərb hissəsində yaşayış olmuşdur (200, s. 170).

"Səyahətnamə"sində Naxçıvan şəhərindən yeddi lyö aralıda yerləşən Naxçıvançayın adını çəkən Şardən də bölgənin digər dağıdılmış şəhəri Culfa haqqında məlumat vermişdir. Culfa şəhərinin coğrafi mövqeyi barədə qeydlərdən aydın olur ki, şəhər çay boyunca, sahil uzunu salınmışdır. Şəhərin əsas hissəsi dağ döşündə yerləşmişdir. Onun küçələri saysız-hesabsız istehkamlar vasitəsilə qorunurdu. Şardən bu şəhərdə əvvəllər dörd min ev olduğunu yazır (224, s. 390). O göstərirdi ki, mövcud olan evlərin əksəriyyəti daxmalardan, dağda qazılmış və adamların yaşamasından daha çox, sürü üçün yararlı olan mağaralardan ibarət idi. Digər bir müəllif J.Tavernye isə yazır ki, culfalıların bu dövrdə yaşadıqları evlər evdən daha çox katakombaya bənzəyirdi (153, s. 86). Bu şəhərin tamamilə əhəmiyyətini itirdiyini və bu şəhərdən köçürülən əhalinin hesabına Səfəvilərin paytaxtı İsfahan yaxınlığında yeni Culfanın salındığını Jan Batist Tavernye (226, s. 56), Robert Ker Porter (217, s. 214) və digər müəlliflər də qeyd etmişlər.

Şəhərin dağıdılmasını I Şah Abbasın adı ilə bağlayan fransız səyyahı J.Şardən bu işə haqq qazandırırdı: "Adətən türklər bu xətdən keçib gəlir, orda öz ordularını doyuzdurmaq üçün kifayət qədər ərzaq tapır və möhkəmlənirdilər. Belə ki, o, (I Abbas) oradan adamları və taxılı daşıtdırmış, bütün kəndlərə və bütün ağaclara od vurdurmuşdur; hətta bir çox su paylaşdıran kalonkaları (tunelləri-E.K.) zəhərləmişdi. Bu barədə tarix kitablarında yazmışlar. Kimlər ki, onları oxuyublar, bunun ona tamamilə müvəffəqiyyət gətirdiyini bilirlər" (124, s. 67).

Şardən Culfa həyatının müxtəlif portretlərini də əsərində əks etdirmişdir. O, Araz çayı üzərində bərəçiliyin inkişafı haqqında maraqlı məlumatlar vermişdir: "Culfanın yuxarı hissəsində və müxtəlif yerlərdə dəfələrlə bu çay üzərindən körpü salmışlar, lakin

bütövlükdə gəmilərə bənzəyən bəzi bəndlər və ağac tirlər çayın təzyiqinə davam gətirməmişdir. Havalar yumşalanda, yaz başı çay qonşu dağlardan əriyib axan qar sularından şişir, qəzəbli olur, bəndləri və başqa qurğuları ağzına alıb aparır. Həqiqətdə isə, suların səsi və axınının sürəti ilə adamları heyrətə gətirir. Biz onu bir dəfəyə otuz adam və iyirmi at götürən böyük bir gəmidə keçdik. ...Onu dörd adam idarə edirdi. ...Bərə Culfadan yarım lyö kənarda, çayın yatağının ən geniş olduğu və daha sakit axdığı bir yerdədir." (124, s. 68).

Culfanın tənəzzülündən sonra onun ticarət yolları üzərindəki rolunu öz üzərinə götürən Əylis şəhəri XVII əsrdə sürətlə tərəqqi etməyə başlamışdı. Əylis beynəlxalq ticarətin mərkəzinə çevrilmiş, burada çoxlu karvansaralar tikilmişdir. S.Budaqova İ.Şopenə əsaslanaraq göstərir ki, XVII əsrdə Əylisdə 10 min ailə yaşamışdır. Tədqiqatçı hər ailənin orta hesabla 5 nəfərdən ibarət olduğunu götürməklə bu dövrdə Əylis şəhərində ən azı 50 min nəfərin yaşadığını göstərir (24, s. 58). Əylisin XVII əsr boyunca inkişaf və tərəqqisini sübut edən faktlardan biri də əsrin sonlarında bu ərazidə yeni bazar və karvansaranın tikilməsidir. Bu barədə Zəkəriyyə Əylisli öz gündəliyində məlumat vermişdir (178, s. 121).

Şərur nahiyəsinin mərkəzi sayılan Şərurun bu dövrdə vəziyyəti ilə əlaqədar da mənbələrdə məlumatlar saxlanılmışdır. Fransız səyyahı J.Şardən Şərur ərazisində Noraşen adlı yaşayış məntəqəsinin adını çəkmiş və Noraşenlə Naxçıvanın arasındakı məsafənin üst-üstə 9 lyö olduğunu göstərmişdir (124, s. 63).

Azad şəhəri də kiçik yaşayış məntəqəsi kimi bu dövrdə əhəmiyyətini qoruyub saxlayırdı.

XIV əsrdən mənbələrdə tez-tez xatırlanan Astabad şəhəri haqqında da bu dövrə aid mənbələr məlumatlar saxlamışdır. Məsələn Jan Batist Tavernye əsərində Astabadı kiçik, lakin gözəl şəhər kimi təsvir edir, burada 4 karvansaranın olduğunu, hər bir evin həyətində bulaqlar (kəhrizlər?) olduğunu yazmışdır (223, s. 19). Lakin bəzi tədqiqatçılar yanlış olaraq Astabad və Azad şəhərlərini eyniləşdirmişlər. Məsələn tədqiqatçı Mikayıl Heydərov Tavernyenin bəhs etdiyi Araz çayından 3 kilometr şimalda yerləşən Astabadla



Məcidəddin əl Hüseyninin "Azadabad" adlandırdığı şəhəri eyniləşdirmiş və bunun Azad adının sonrakı versiyası olması fikrini irəli sürmüşdür (170, s. 123). Halbuki əvvəlki fəsildə də qeyd etdiyimiz kimi alman hərbçi-səyyahı İohan Şiltberqerin Stravba adlandırdığı Astabad və Azad tamamilə fərqli şəhərlərdir. Astabad orta əsr şəhəri indiki Naxçıvan şəhərindən 12 kilometr cənub-şərqdə yerləşmiş, şəhərin xarabalıqları Babək qəsəbəsinin yaxınlığında olmuş, 1967-1971-ci illərdə Araz su qovuşağının tikintisi ilə əlaqədar şəhərin xarabalıqları su altında qalmışdır (80, s. 28).

Bəhs etdiyimiz dövrdə mənbələrdə adı çəkilən şəhərlərdən biri də Qarabağlardır. XVII əsrdə Övliya Çələbi Qarabağlar şəhərindən bəhs edərkən burada 50 min nəfər əhalinin yaşaması, 10 minə qədər evin, 40-a qədər minarənin, 70 məscidin, karvansaraların, bazarların, hamamların, meyvə bağlarının olması barədə məlumat vermişdir (12, s. 49). Türk səyyahı burada olduğu dövrdə şəhərdə geniş quruculuq işlərinin aparılmasından bəhs etmiş, şəhərdə hətta yunan tacirlərinin olması barədə də məlumat vermişdir (7, s. 257). XX əsrin 20-ci illərində Naxçıvanda olmuş V.M.Sısoyev Qarabağlar ərazisində bir zamanlar mövcud olmuş şəhərin adının yerli əhalinin yaddaşında Qara-Qissar və yaxud Qara-Hissar kimi qaldığını yazmışdır (208, s. 113).

***Əhalinin etnik və dini tərkibi.*** Səfəvi-Osmanlı müharibələrinin qısamüddətli də olsa səngiməsi bölgə əhalisinin say tərkibinə təsir göstərmişdi. Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, bölgə əhalisinin tərkibində türkdilli əhali tam üstünlüyə malik olmuş, yunan, yəhudi, ermənilər bölgəyə əsasən ticarət məqsədilə gəlmişlər (7, s. 257).

Səfəvi dövlətinin tarixini tədqiq edən bir sıra müəlliflər hər nə qədər bu dövlətdə dini məzhəbçiliyin aparılması faktorunu qabartmağa çalışsalar da, mənbələrin verdiyi məlumatlar sübut edir ki bu fikir yanlışdır. Bəhs olunan dövrdə Naxçıvan ərazisində İslamın müxtəlif məzhəb və təriqətlərinin mənsubları yaşamış və fəaliyyət göstərmişlər. Türk səyyahı Evliya Çələbinin "Səyahətnamə"də verdiyi məlumatlardan aydın olur ki, XVII əsrin 50-ci illərində bölgədə islam məzhəb və təriqətlərindən şiəliklə

yanaşı cəbrilik, qədirilik, hürufilik, zəminilik də yayılmışdır (7, s. 25; 26, s. 11). Cəbrilik qəzavü-qədərə, ilahi təqdirə, olacağa, qismətə inamı olanları, qədrilik – insana sərbəst azadlıq verilməsini rədd edən təriqət tərəfdarlarını ifadə edirdi.

E.Çələbi bölgədə yayılmış dinlər və təriqətlər sırasında məlahidə və zenadiqənin adlarını da çəkmişdir. S.Onullahi şərhlərində qeyd edir ki, məlahidə orta əsr ateizmi olub, Allahsızlığı ifadə edirdi (26, s. 80). Araşdırmalar isə göstərir ki, məlahidə Allahın deyil, sadəcə axirət həyatının varlığına inamı inkar edən batini təriqətlərindən biridir (69, s. 76). Zenadeqə anlayışı da "Zındıq" sözü ilə əlaqəli olub dinsiz mənasını verir.

Səyyahın haqqında bəhs etdiyi botrai, kardi kimi anlayışların hansısa məzhəb və ya etnik kimliyi bildirməsi ilə bağlı məlumatlarımız məhduddur.

Beləliklə aydın olur ki, bəhs etdiyimiz dövrdə İslam dini bölgə əhalisinin inanc sistemində mühüm rol oyanmış, mövcud olan müxtəlif məzhəb və təriqətlər isə yanaşı mövcudiyyətini qoruyub saxlamışdır.



# III FƏSİL

# XVIII ƏSRİN BİRİNCİ YARISINDA NAXÇIVANIN TARİXİ COĞRAFİYASI

## 3.1. XVIII əsrin I yarısında baş vermiş hərbi-siyasi proseslərin Naxçıvanın tarixi coğrafiyasına təsiri

XVIII əsrdə Azərbaycan ərazisi uğrunda qonşuluqda yerləşən imperiyalar arasında mübarizənin güclənməsi, Azərbaycanın tarixi coğrafiyasında ciddi dəyişikliklərlə nəticələnmişdir. XVIII əsrin birinci yarısında Naxçıvanın idarəçiliyi 4 dəfə dəyişilmişdir. Əvvəlcə Səfəvilər, sonra Osmanlı idarəçiliyi, daha sonra Nadir şah imperiyası tərkibinə daxil olan Naxçıvanda əsrin birinci yarısının sonlarına yaxın müstəqil regional idarəçilik ənənələrinin davamı olan Naxçıvan xanlığı yaranmışdır.

Qeyd etmək lazımdır ki, bu dövrdə Azərbaycan əraziləri uğrunda Səfəvilər və Osmanlılarla yanaşı Rusiya da aktiv mübarizəyə qoşulmuşdur. Lakin Rusiyanın Qafqaz uğrunda mübarizəsi XVIII əsrin birinci yarısında Naxçıvana elə də böyük təsir göstərməmişdir. Çünki, Naxçıvan hələlik Rusiya üçün kifayət qədər uzaq nöqtədə yerləşirdi. XVIII əsrin 20-ci illərində Şirvan bəylərbəyliyində mərkəzdənqaçma meyilləri güclənmiş, Şirvan Səfəvi hakimiyyətinə qarşı mübarizənin mərkəzinə çevrilmişdir. Həm Rusiya, həm də Osmanlı dövləti Səfəvilərə qarşı Şirvandakı mübarizəni məzhəbçilik yönündə qızışdırmağa çalışır və Səfəvilərə qarşı mübarizədə, əsasən, Şirvanın sünni əhalisi iştirak edirdi. Bu dövrdə Səfəvilər dövlətinin kifayət qədər zəifləməsi onunla nəticələndi ki, Rusiya və Osmanlı imperiyaları regionu öz aralarında bölüşdürmək cəsarəti tapdılar. Nəticə olaraq 1724-cü ildə İstanbulda Cənubi Qafqazın faktiki olaraq bölüşdürülməsi haqqında müqavilə imzalandı (158, s. 129). Osmanlı dövləti Rusiyanın Cənubi Qafqazın Xəzərsahili vilayətlərini nəzarətdə saxlamaq hüququnu tanıdı. Öz növbəsində Rusiya Osmanlıların Naxçıvanın da daxil olduğu Cənubi Qafqazın digər ərazilərini tutması ilə razılaşdı. Müqavilədə həmçinin Osmanlı və Rusiya dövlətləri II Təhmasibə İstanbul müqaviləsini tanıması üçün birgə təsir göstərmək barədə razılığa da gəlmişdilər (76, s. 33). Təsadüfi deyil ki, II Təhmasibin bu şərti qəbul etməkdən boyun qaçırması Osmanlıların yenidən Azərbaycan torpaqlarına



girməsi üçün bəhanə oldu. 1724-cü ilin ikinci yarısında və 1725-ci ilin əvvəllərində osmanlı qoşunları Gürcüstanı və Azərbaycanın böyük bir hissəsini, o cümlədən 1724-cü ilin avqustunda Ordubadı, sonra isə Naxçıvanı ələ keçirdilər (24, s. 20).

Şirvandan fərqli olaraq Naxçıvan ərazisində bu dövrdə Osmanlılara qarşı əhali ciddi müqavimət göstərirdi. Bunun əsas səbəblərindən biri daha çox Səfəvilərə bağlı olan Kəngərli-Ustaclıların mövqeyi idi.

XVIII əsrin 30-cu illərində isə Nadir xanın Əfşarın Səfəvilərə tabe olan torpaqları vahid dövlətin tərkibində birləşdirmək üçün apardığı mübarizə Naxçıvan ərazilərini yenidən hərbi mübarizə meydanına çevirmişdi. Artıq 1736-cı ildə Səfəvilər dövlətinin varlığına son qoyaraq Muğanda özünü İran şahı elan edən Nadir şah Əfşar Səfəvilərə bağlılığını qoruyan bir sıra qızılbaş tayfaları, o cümlədən Kəngərli-Ustaclılar tərəfindən müqavimətlə qarşılanmışdı. Kəngərli hakimləri Səfəvilər xanədanının bir sərkərdəsi olan Nadirin hakimiyyətinə qarşı ciddi müqavimət göstərmişdilər. Elə bu səbəbdəndir ki, Naxçıvan şəhəri də daxil olmaqla, bölgənin bir sıra yaşayış məntəqələri məhz Nadir tərəfindən dağıdılmışdı.

Nadir şahın ölümündən sonra isə (1747) Azərbaycanın digər ərazilərində oluğu kimi Naxçıvan ərazisində də yeni idarəçilik - milli təmayüllü dövlət idarəçilik sistemi olan xanlıq yaranmış və bu XVIII əsrin birinci yarısının sonunda Naxçıvan ərazisinin tarixi coğrafiyasına öz təsirini göstərmişdir. Naxçıvan xanlığı Zəngəzur dağlarından başlayaraq Araz vadisinə qədər olan əraziləri əhatə etmişdir (158, s. 133). Biz Naxçıvan xanlığının XVIII əsrin 60-cı illərinə qədərki dövrdə tarixi coğrafiyasını təsvir etməyə çalışmışıq. Çünki Naxçıvanın ilk xanı olan Heydərqulu xanın hakimiyyəti dövrü 1747-ci ildən başlamış 1764-cü ilə qədər davam etmişdir.

Beləliklə, XVIII əsrin birinci yarısında Naxçıvanın tarixi coğrafiyasında əsaslı dəyişikliklərə səbəb olmuş hadisələri aşağıdakı kimi sıralaya bilərik:

a) XVIII əsrin 20-ci illərində bölgə Səfəvi və Osmanlı imperiyaları arasında mübarizə meydanına çevrilmiş, ciddi dağıntılara məruz qalmış, bir çox yaşayış məntəqələri boşalmışdır;

b) XVIII əsrin 20-ci illərinin ortalarından başlayaraq – 30-cu illərin ortalarına qədər Naxçıvanda ikinci Osmanlı işğalı dövrü davam etmiş və bölgənin inzibati ərazi bölgüsündə bir sıra dəyişikliklər baş vermişdir;

c) XVIII əsrin 30-cu illərinin ortalarından başlayaraq Naxçıvan ərazisi Nadir şah Əfşar imperiyasının tərkibinə daxil edilmişdir;

d) XVIII əsrin 40-ci illərinin sonlarında Naxçıvan ərazisində müstəqil xanlıq yaranmış və xanlığın özünəməxsus inzibati ərazi quruluşu olmuş, tarixi-siyasi və tarixi-hərbi proseslərin təsiri altında bəzi ərazilər Naxçıvandan ayrılaraq qonşu xanlıqların ərazisinə daxil edilmişdir.

Beləliklə, XVIII əsrin birinci yarısında Naxçıvan ərazisinin tarixi coğrafiyasında bir çox dəyişikliklliklər baş vermiş və bu dövrdə regional miqyasda baş verən hadisələrin təsiri altında Naxçıvan ərazisi müxtəlif işğallara, dağıntılara məruz qalmışdır.



## 3.2. XVIII əsrin əvvəllərində Naxçıvanın tarixi coğrafiyası

Şah Sultan Hüseyn Səfəvinin hakimiyyəti dövrü (1694-1722) Qızılbaş dövləti üçün tənəzzül dövrü kimi xarakterizə edilə bilər. Daha çox iradəsiz və idarəçilikdən uzaq bir şah kimi xarakterizə olunan Şah Sultan Hüseyn Səfəvinin dövründə saray çəkişmələri genişlənməyə başladı. Bu dövrdə Səfəvi saray əmirləri ilə dövlətin teokratik hakimiyyət qanadını təmsil edən üləmalar arasındakı çəkişmələr dövlətin monolitliyini sarsıdırdı. 1694-cü ildən 1709-cu ilə qədərki dövrdə bu mübarizə daha kəskin fazaya keçmişdir. Daha çox İrandilli ünsürlərin hegemoniyası altında olan üləmaların Şah üzərində təsiri zaman keçdikdə daha da artırdı (218, s.38). Bu isə öz növbəsində türkdilli tayfalardan olan əmirlərin mərkəzdənqaçma meyillərini gücləndirirdi. Bu isə şahı bir çox mərkəzləşdirmə tədbirlərini təşkil etmək məcburiyyətində qoyurdu.

Bəzi müəlliflərin verdiyi məlumatlar ehtimal etməyimizə imkan verir ki, artıq bu dövrdə Azərbaycan ərazisindəki 4 bəylərbəylik mərkəzi Təbriz olan vahid Azərbaycan bəylərbəyliyində birləşdirilmişdi. Məsələn, 1708-1726-cı illərdə Səfəvilər dövlətinin paytaxtı İsfahanda yaşamış polyak J.T.Kruşinski Səfəvilərin 12 vilayəti olduğunu yazmış və 12-ci vilayət kimi "ərazisinə İrəvan, Şirvan və Gürcüstan da daxil olan Azərbaycan" vilayətinin adını çəkmişdir (66, s. 19). 1717-1724-cü illərdə Qızılbaş dövlətində baş vermiş hadisələrdən bəhs edən dövrün digər bir müəllifi Jozef Tiflisi də "Vaqiati-Mir Veys və Şah Hüseyn" əsərində bu dövrdə Təbriz mərkəz olmaqla bəylərbəyliyin yaradılmasından bəhs etmişdir (127, s. 18). Ehtimal etmək olar ki, bəylərbəyliklərin vahid Azərbaycan vilayətində birləşdirilməsi prosesi XVIII əsrin 20-ci illərinin ortalarından başlamışdır. Çünki, 1717-ci ilə aid sənədlərdə Naxçıvan ölkəsi ərazisindəki mülkiyyət məsələləri ilə bağlı sakinlərin Çuxursəd bəylərbəyliyinin ali müvəkkilliyinə müraciət etdiyi göstərilmişdir (119, s. 23). Beləliklə aydın olur ki, XVIII əsrin ilk iki dekadası ərzində Naxçıvan Səfəvilər dövlətinin Çuxursəd

bəylərbəyliyinin tərkibində olmuş, ikinci dekadanın sonlarına yaxın Çuxursəd vilayətinin digər əraziləri kimi vahid Azərbaycan bəylərbəyliyinin (vilayətinin) tərkibinə qatılmışdır.

Bu dövrə aid mənbələrdə Naxçıvan ərazisində Naxçıvan, Azad-ciran, Dərələyəz (119, s. 24), Məvaziyi-Xatın, Mülki-Arslan, Qarabağ, Dərəşam, Şahbuz, Şərur, Əlincə, Sisyan nahiyələrinin adı çəkilir. Artıq XVIII əsrin başlanğıcında Azadciran, Dərənürgüt və Şorlut nahiyələrinin əraziləri Ordubad mahalının tərkibində birləşdirilərək Azərbaycan bəylərbəyliyinin tərkibinə daxil edilmişdi (77, s. 38). Sonuncu faktı da nəzərə almaqla, XVIII əsrin əvvəllərində Naxçıvan ölkəsinin ərazisinin, təqribən, 7240 $km^2$-ə bərabər olduğunu söylərə bilərik (Şəkil 17).

***Şəhərlər.*** Naxçıvan şəhəri bölgənin mərkəzi və ən böyük şəhəri idi. Əvvəlki dövrlərdə adını qeyd etdiyimiz şəhərlərdən yalnız Ordubad Naxçıvan şəhəri ilə birlikdə şəhər kimi varlığını qoruyub saxlaya bilmişdir. Böyük bir tarixi dövr ərzində bölgənin ən böyük şəhərlərindən biri olmuş Kiran şəhəri bu dövrdə tamamilə tənəzzül edərək yalnız kənd kimi varlığını qoruyub saxlamışdı. 1717-ci ilə aid bir Kəngərli arxeoqrafik sənədində məhz Azadciran mahalının Ciran kəndinin adı çəkilir (119, s. 23).

Əylis bu dövrdə müvəqqəti də olsa tənəzzül dövrünü yaşamaqda idi. Şah Sultan Hüseynin dövründə Əylis şəhəri o qədər tənəzzül etmişdi ki, burada olmuş Jozef Tiflisli Əylisdən "Əklis adlı kənd" kimi bəhs etmişdir (127, s. 56).

Əhalinin etnik və dini tərkibi. 1833-cü ildə nəşr edilmiş Naxçıvan vilayətinin statistik təsvirində qeyd edilir ki, hələ XVI-XVII əsrlərdə Naxçıvan ərazisində əsasən müsəlmanlar yaşamışdır. Daha sonra verilən məlumatlardan aydın olur ki, rus işğalından sonra XIX əsrdə buraya İrandan 2285 erməni ailəsi köçürülmüşdü (171, s. 31). Əhalinin tərkibində və Naxçıvan ölkəsinin idarəçiliyində əvvəlki dövrlərdə olduğu kimi Kəngərli tayfaları xüsusi yer tuturdular. Kəngərlilərin Yurdçu, Xalxal, Qaraxanbəyli, Ağabəyli, Cığatay, Qaracalı, Qaradolaqlı, Sarvanlar, Şahbanulu, Əlixanlı, Qızıllı, Pirxanlı, Qızıl Qışlağı, Qarabağlar və digər tirələri Naxçıvan ərazisində məskunlaşmışdılar.



## 3.3. II Osmanlı idarəçiliyi dövründə Naxçıvanın tarixi coğrafiyası (1724-1735-ci illər)

Yuxarıda qeyd etdiyimiz kimi Naxçıvanın ərazisində II Osmanlı idarəçiliyi dövrü 1724-cü ildən başlayır. 1736-cı ilə qədər Naxçıvanı öz əllərində saxlamağı bacaran Osmanlılar bölgənin inzibati idarəçiliyini yenidən Osmanlı imperiyasının inzibati ərazi quruluşuna uyğunlaşdırmağa çalışmışlar. Hələ 1724-cü ilin mayında Osmanlılara tabe olan Van paşası Xoyu işğal etmiş, 1724-cü ilin avqustunda isə Osmanlı qüvvələri tərəfindən Naxçıvan və Ordubad işğal edilmişdi (185, s. 66). Səfəvilərin Naxçıvanı Osmanlı işğalından azad etmək cəhdlərinin demək olar ki, bütün bu illər ərzində real nəticəsi olmamışdır. Əvəzində isə 1729-cu və 1732-ci illərdə Səfəvilər Osmanlıların bu torpaqlar üstündə işğalını bir daha təsdiqləyən müqavilələrə imza atmışdılar.

***Sərhədlər və inzibati ərazi quruluşu.*** Osmanlılar bu işğal dövründə də Azərbaycanın əraziləri vilayətlərə və əyalətlərə, yaxud bəylərbəylik və sancaqlıqlara bölünürdü. Sancaq sözünün əvəzinə bəzən liva termini də işlədilirdi. Sancaqların ərazisi keçmiş "ölkə"lərin ərazilərinə uyğun gəlirdi. Bunlar isə öz növbələrində nahiyələrə bölünürdülər. Sancaqların idarəçiləri sancaqbəyi, livaların idarəçiləri isə mirliva adlandırılırdı (82, s. 23).

1727-ci ilə aid "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Naxçıvan sancağına aid olan nahiyələr sırasında 14 nahiyənin - Naxçıvan, Əlincə, Sair-Məvazi, Dərəşahbuz, Mülki-Arslan, Məvaziyi-Xatın, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Sisyan, Dərələyəz nahiyyələrinin adı çəkilir. 1728-ci ilə aid "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə də Naxçıvan sancağının tərkibində məhz yuxarıda göstərdiyimiz nahiyələrin adı qeyd edilmişdir (53, s.9).

I Osmanlı idarəçiliyi dövrü ilə müqayisə etdiyimiz zaman görürük ki, XVIII əsrdə Naxçıvan sancağının tərkibində Ağcaqala, Bazarçayı, Şərur, Zar, Zəbil, Culfa adlı nahiyyələr olmamışdır.

Əvəzində isə bu dövrdə sancaqlığın inzibati ərazi bölgüsündə Sair-Məvazi, Qışlağat və Dərələyəz nahiyələrinin adına rast gəlirik.

Apardığımız müqayisələr göstərir ki, II Osmanlı idarəçiliyinin ilk dövründə Naxçıvan sancağı ilə yanaşı Ordubad sancağı da yaradılmış və bu sancaqlıq yalnız iki il – 1724-1726-cı illərdə mövcud olmuşdur. Sonradan isə sancaqlıq Naxçıvan sancaqlığına qatılmış və ehtimal ki, Azad-ciran nahiyəsi adlandırılmışdır (Şəkil 18).

Bu dövrdə Zar, Zəbil, Şərur nahiyələri Naxçıvan sancaqlığının tərkibindən çıxarılaraq İrəvan sancağına verilmişdir. Əvvəlki dövrdə olduğu kimi Sədərək sultanlığı nahiyə adı altında birbaşa İrəvan sancağının tabeliyində olmuşdur. Eyni zamanda Culfa, Bazarçayı və Ağcaqala nahiyələri ləğv edilmiş, Sair-Məvazi, Qışlağat və Dərələyəz adlı yeni nahiyələr yaradılmışdır (82, s. 11). Bəhs etdiyimiz dövrdə Naxçıvan sancağının kəndlərinin sayına görə ən kiçik nahiyəsi Dərəşam (4 məntəqə), ən böyük nahiyəsi isə Dərələyəz (101 məntəqə) olmuşdur. Bu dövrdə Naxçıvan sancağının ərazisi 8077 km$^2$-dən artıq idi.

"Naxçıvan sancağının müfəssəl dəftəri"ndə (NSMD-1727) Naxçıvan sancağına daxil olan Naxçıvan nahiyəsində 1 şəhər, 7 kənd, 4 məzrəə, 2 dizənin adı çəkilir (82, s. 24). Bir il sonra tərtib olunmuş "İrəvan əyalətinin icmal dəftəri"ndə (İƏİD-1728) isə 1 şəhər, 7 kənd, 3 məzrəə, 2 dizənin adı qeyd olunmuşdur (53, s. 138). NSMD-1727-də adı qeyd olunmuş Dendavar (Didivar) kəndinin adı İƏİD-1728-də yoxdur. NSMD-1727-də məzrəə kimi qeyd edilmiş Xəlilxarabası, İƏİD-1728-də kənd kimi qeydə alınmışdır. Buna əsasən ehtimal etmək olar ki, Osmanlı işğalı dövründə hansısa səbəbdən Didivar kəndinin əhalisi köçərək Xəlilxarabası kəndinin ərazisində məskunlaşmış və beləliklə də məzrəə kəndə çevrilmişdir. Hesablamalarımız göstərir ki, bəhs olunan dövrdə Naxçıvan nahiyəsinin əraziləri hesabına iki yeni nahiyənin (Sair-Məvazi və Qışlağat) yaradılması nəticəsində bu nahiyənin ərazisi xeyli azalaraq cəmi 128 km$^2$ olmuşdur.

"NSMD-1727"-də Naxçıvan şəhərinin tərkibində iki məhəllənin - Yuxarı və Aşağı məhəllələrin, Qaraxanbəyli,



Durmuşbəy, Əliabad və Göyəli dizələrinin adı çəkilir. 1590-cı ilə aid "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə (İƏMD-1590) Əliabad dizəsi "Əlibəy dizəsi məzrəəsi" kimi ifadə edilmişdir. 1723-cü ilə aid bir sənədə görə isə Göyəli dizəsinin başqa adı "Möminxan yeri" olmuşdur (82, s. 50). AMEA-nın Əlyazmalar İnstitutunda saxlanılan "1723-cü ilin may ayında Naxçıvan ölkəsinin vəziri Mirzə Məhəmməd Tahirin Allahverdi və Xudaverdi bəylərə satdığı torpaq sahəsinin qəbaləsi" adlı sənəddə Göyəlidizənin başqa adı Kükəli kəndi kimi qeyd edilmişdir (119, s. 101). Sözügedən sənəddə "Möminxan yeri"adlanan ərazi barədə də məlumat verilmişdir. E.Seyidbəyli "Möminxan yeri" toponiminin etimalogiyası ilə bağlı fikir irəli sürərkən yazır ki, ərazi Naxçıvan ölkəsinin kələntəri Möminxan bəyin ərazisi olduğu üçün sonralar bu cür adlandırılmışdır (119, s. 163). Lakin bizim fikrimizcə bölgənin əsas şəhərinin yaxınlığında münbit torpaqları əhatə edən böyük ərazinin sadəcə olaraq bir kələntərin adı ilə adlandırılması inandırıcı görünmür. Fikrimizcə bu ad "Möminə Xatın yeri" sözünün təhrif edilmiş formasıdır. Bu halda Eldənizlərin xass torpaqları olan Naxçıvanın müxtəlif hissələrinin Eldənizlərə aid şəxsiyyətlərin adı ilə bağlı olması təbii hal hesab edilə bilər. Bu fikrə əsaslanaraq deyə bilərik ki, əvvəlki fəsillərdə də qeyd etdiyimiz kimi müxtəlif nahiyələrin adları olan Mülki-Arslan və Məvaziyi-Xatın adları da bu qəbildən olmuşdur. Bəzi kəngərli arxeoqrafik sənədləri əsasında həmçinin "Möminxan yeri"nin hansı ərazidə yerləşdiyini də müəyyənləşdirmək mümkündür. Belə ki, 1723-cü ilə aid olan belə sənədlərindən birində Möminxan yerinin şərqdən magistral küçə, qərbdən Kükəli kəndi, cənubdan su anbarı, şimaldan isə Şeyx Mahmud (Şıxmahmud) kəndi ilə əhatələndiyi qeyd edilir (119, s. 163).

"NSMD-1727"də indiki Hacıvar kəndinin adı həm də Hacıbala kimi, "İƏİD-1728"də isə Hacıabad kimi qeyd edilmişdir. Fikrimizcə kəndin adı Hacılu tayfası ilə bağlı olmuşdur və yarandığı ilk dövrlərdə "Hacular" kimi səslənmişdir. "Tarix-e Qızılbaşan"da Hacular tayfası Qaraqoyunlu tayfalarından biri kimi qeyd edilmişdir (104, s. 25). "NSMD-1727"-də Badaşqan kəndinin adı Bədəxşan

kimi, Şıxmahmud kəndinin adı Şeyx Mahmud kimi, Xəlilli kəndinin adı Xəlil xarabası kimi, Didivar kəndinin adı Dendavar və Dendabad kimi ifadə edilmişdir.

Bu dövr Naxçıvanın tarixi coğrafiyasının əsas problemlərindən biri bu gün mövcud olmayan və yaxud unudulmuş məzrəə və qışlaq yerlərinin yerləşdiyi arealın müəyyənləşdirilməsidir. Mənbələrdə adı çəkilən belə məzrəələrdən biri Xəlfədüzən məzrəəsidir. Bu məzrəə indiki Hacıvar* kəndinin yaxınlığında yerləşir və Hacıvar kəndinin əhalisinin əkin yeri hesab edilirdi. Torpaqları kifayət qədər məhsuldar olan Xəlfədüzəndə buğda, arpa, darı becərilirdi. Naxçıvan sancağına tabe olan Yenicə və Yarımca məzrəələri isə Bədəşxan kəndinin tabeliyində idi. Məlumatlardan aydın olur ki, Naxçıvan sancağına tabe olan iki dizə - Sübhanverdi dizəsi və Muradxan dizəsi Kültəpə kəndinin yaxınlığında yerləşmişdir (82, s. 57). Xəlil xarabası məzrəəsi isə Şıxmahmud kəndinin yaxınlığında yerləşirdi.

Naxçıvan sancağına tabe olan digər bir nahiyə Əlincə nahiyəsi olmuşdur. "NSMD-1727"-də nahiyənin 24 kənd, 1 qala, 1 məzrəə, 1 çiftlikdən ibarət olduğu göstərilmişdir. Hesablamalarımıza görə bəhs olunan dövrdə bu nahiyənin ərazisi 605 km$^2$ olmuşdur.

Əlincə qalası da bu nahiyənin tabeliyində idi və Osmanlı xəzinəsinə 6449 ağça vergi verirdi. Nahiyənin tabeliyində olan Qurd Mahmud ciftliyi Böyük və Kiçik Haçaparaq kəndlərinin yaxınlığında yerləşirdi və bu kəndlərin əhalisi tərəfindən becərilirdi. Haçaparaq kəndlərinin xarabalıqları bu gün Naxçıvan-Əshabi-Kəhf asfalt yolunun sağ tərəfində qalmaqdadır. Qeyd edək ki Haçaparaq yaşayış məskəninin qalıqları Culfa rayonunun Nəhəcir kəndindən 2 kilometr şərqdədir və təqribən 3 hektar sahəni əhatə edir (81, s. 245). Mənbələrdə Güznüd məzrəəsinin Ərəzin və Nehrəm kəndlərinin əhalisi tərəfindən becərilməsi haqqında məlumatlar saxlanılmışdır (82, s. 95).

"İƏİD-1728"-də isə bu nahiyənin tərkibində olan 23 kəndin adı çəkilir. "NSMD-1727"-də haqqında bəhs olunan Böyük Xaçaparaq və Ərəzin kəndlərinin adı "İƏİD-1728"-də qeydə alınmamışdır.



1727-ci ildə Güznüd məzrəə kimi qeydə alınmışdısa, sabitləşmə dövründə burada yenidən əhali məskunlaşmış və artıq 1728-ci ildə bu yaşayış məntəqəsi kənd kimi qeydə alınmışdır (53, s. 139).

Sancağa tabe olan üçüncü nahiyə XVI əsrdə Naxçıvan nahiyəsinə tabe olmuş kəndlərin hesabına yaradılan Sair-Məvazi nahiyəsi idi. Bu nahiyə qərbdən Naxçıvan, şimaldan Dərəşahbuz, qərbdən Dərənürgüt, cənubdan Əlincə nahiyələri ilə həmsərhəd olmaqla 249 km$^2$ ərazini əhatə edirdi. Nahiyəyə 15 kənd və 2 məzrəə daxil idi (53, s.140, 152). 1727-ci ildə Alagöz məzrəəsi kimi qeydə alınmış ərazi, 1728-ci ildə kənd kimi qeyd olunmuşdur. İndiki Babək rayonuna aid olan Nəhəcir, Sirab, Qahab, Məzrəə, Vayxır kəndləri və Culfa rayonuna aid olan Ərəfsə kəndi məhz bu nahiyənin tərkibinə daxil idi.

Mənbələrdə Dərəşahbuz nahiyəsi ərazisində 21 kənd və 3 məzrəənin adı çəkilir (53, s.141, 152-153). Bu dövrdə nahiyənin ərazisi, təqribən, 796 km$^2$ olmuşdur. 1727-ci ildə nahiyə ərazisində adına rast gəldiyimiz Daylaqlı və Dərə Altaq məzrəələrinin adı "İƏİD-1728"də yoxdur, həmin dəftərdə yalnız Dibi adlı bir məzrəə qeyd olunmuşdur. Tədqiqatlarımız göstərir ki, Dərə Altaq məzrəəsi Şahbuz kəndinin, Daylaqlı məzrəəsi isə Sələsüz kəndinin tabeliyində olub. Biz ilk dəfə olaraq Sələsüz kəndinin digər bir adına Gülyazı adına da "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə rast gəlirik (82, s. 120). Bir məsələni də qeyd etmək lazımdır ki, həm 1590-cı ilə, həm 1727-ci ilə, həm də 1728-ci ilə aid "dəftər"lərdə bu nahiyənin ərazisində Taqtak və ya Saktak adlı kənd qeydə alınmışdır. A.Bağırovun fikrincə bu kənd bu günki Şahbuz rayonunun Yuxarı Qışlaq kəndidir (17, s. 150).

Naxçıvan nahiyəsindən şimal istiqamətində Mülki-Arslan nahiyəsi yerləşirdi. Ərazisi, təqribən, 200 km$^2$ yaxın olan nahiyə 8 kənddən ibarət olmuşdur. Şeyx Yusifli, Cəhri, Payız, Kərəm çatağı, Canıqışlaq, Buzğav, Lizberd və Qaraquş kəndləri bu nahiyəyə tabe idilər (82, s. 142).

Bu dövr Naxçıvan sancağına tabe olan daha bir nahiyə olan Məvaziyi-Xatın nahiyəsinin ərazisi 181 km$^2$ idi. Bu nahiyənin

öyrənilməsi xüsusilə əhəmiyyət kəsb edir. Belə ki, bu nahiyəyə daxil olan kəndlər XX əsrin 20-ci illərin sonlarına qədər Naxçıvan MSSR-in tərkibində olsa da, 1929-cu ildə beynəlxalq Moskva və Qars müqavilələrinin ziddinə olaraq Ermənistana verilmişdir (12, s. 192). Bu nahiyə cənubdan Dərəşahbuz nahiyəsi, qərbdən və şimaldan Dərələyəz nahiyəsi, şərqdən və şimali-şərqdən Sisiyan nahiyəsi ilə həmsərhəd idi. Nahiyənin tərkibinə 9 kənd – Livis, İtqıran, Degin, Oğbin, Sas, Almalı, Kürədiz, Ağxaç və Soltanbəy kəndləri daxil idi.

Naxçıvan sancağının Qarabağ nahiyəsi şərqdən Naxçıvan nahiyəsi, qərbdən isə Dərələyəz və Şərur nahiyəsi (İrəvan sancağı) ilə həmsərhəd olmuşdur. Nahiyənin ərazisi, təqribən, 480 km$^2$ idi. "NSMD-1727"-də nahiyənin 11 kənd, 6 qışlaq və 1 duzlağdan ibarət olduğu göstərilmişdir. Buradakı qeydlərdən aydın olur ki, Ərəfsağı qışlağı, Xoşlu qışlağı, Biləci qışlağı ilə yanaşı Qarabağ nahiyəsinin Tüqavil kəndinə tabe olan üç qışlaq ərazisi də olmuşdur (82, s. 148). "İƏİD-1728"-də isə 11 kənd 3 qışlaq və 3 duzlaqdan yığılan vergilərin miqdarı göstərilir (53, s. 144). 1727-ci ildə qışlaq kimi qeydə alınmış Biləci ərazisindən 1728-ci ildə Biləci qışlağı kəndi kimi bəhs olunur.

Qışlağat nahiyəsinə isə "NSMD-1727"-yə görə 17 kənd, 4 məzrəə, 1 qışlaq, "İƏİD-1728"ə görə isə 18 kənd, 3 məzrəə aid idi. Təqribi hesablamalarımıza görə bu nahiyənin ərazisi 288 km$^2$ idi. Maraqlıdır ki, "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Əlincə qalasının özü Əlincə nahiyəsinin tərkibinə daxil olsa da, Qışlağat nahiyəsinin tərkibində Əlincə və ya Ağsuincə adlı məzrəələrin də olduğunu görürük. Həmçinin, Naxçıvan nahiyəsi ilə yanaşı Qışlağat nahiyəsinin tərkibində də Uzunoba kəndi qeydə alınmışdır (82, s. 29). Lakin buradakı Uzunoba kəndində heç kəsin yaşamadığı qeyd edilmişdir. Digər bir məsələni də qeyd etmək lazımdır ki, 1590-cı il dəftərində Naxçıvan nahiyəsinin tərkibində qeydə alınmış bir sıra kəndlər bu dövrdə Qışlağat nahiyəsinin tərkibinə daxil edilmişdi. Məsələn müasir Didivar kəndi 1590-cı ildə Dendabad adı ilə Naxçıvan nahiyəsinin tərkibində 1727-1728-ci illərdə isə Didabad və Dendabad fonetik variantlarında Qışlağat nahiyəsinin tərkibində təqdim olunmuşdur (17, s. 149). Molla Həmdi məzrəəsi Naxçıvan



şəhərinin yaxınlığında, Hocamverdi məzrəəsi Nehrəm kəndinin yaxınlığında, Xəlifə məzrəəsi isə Xəlifəli kəndinin yaxınlığında yerləşmişdir. 1728-ci ildə nahiyənin ərazisində adına rast gəldiyimiz İməşli kəndinin (53, s. 145) adı 1727-ci ildə tərtib olunmuş "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə yoxdur.

Mərkəzi Culha (Culfa) kəndi olan Dərəşam nahiyəsinin ərazisi 169 km$^2$ olmuşdur. Culfa əhalisinin köçürülməsi və müharibələr nəticəsində tənəzzülə uğramış, bir daha özünün keçmiş şöhrətini geri qaytara bilməmişdi. Nahiyəyə 4 kənd- Başkənd, Ortakənd, Dibkənd və Culha (Culqa) kəndləri daxil idi (82, s. 146). AMEA-nın müxbir üzvü A.Bağırov yazır ki, hazırda da Naxçıvan Muxtar Respublikası ərazisində Dərəşam sahəsi, Dərəşam dəmiryol stansiyası, Dərəşam mineral bulağı kimi toponimlər saxlanılmışdır (17, s. 42). Müəllif göstərir ki, bu nahiyə Babək və Culfa rayonlarının sərhədində, Araz çayının sol sahilində yerləşmişdir.

"NSMD-1727"-də göstərilir ki, bu dövrdə Azadciran nahiyəsinin tərkibinə 1 qəsəbə, 2 vəqf ərazisi, 36 kənd daxil olmuşdur. "İƏİD-1728"-də 36 kəndin və Ordubadın adı çəkilir (53, s. 147, 154-155). Lakin Ordubadın qəsəbə və ya şəhər olması barədə heç bir qeydə rast gəlmirik. Nahiyənin ərazisi 920 km$^2$-ə çatmışdır. Bu dövrdə nahiyənin ən çox vergi verən yaşayış məntəqələri Ordubad qəsəbəsi (63-65 min ağça), Yuxarı Əylis kəndi (51-55 min ağça), Mehri kəndi (47-48 min ağça), Aşağı Əylis kəndi (27-28 min ağça) olmuşdur. Nahiyəyə daxil olan Bist kəndi XVI əsrin sonundakı Osmanlı idarəçiliyi zamanında Dərənürgüt nahiyəsinə tabe idisə, bəhs etdiyimiz dövrdə Azadciran nahiyəsinin tərkibində olmuşdur (32, s. 173).

Bu dövrdə nahiyəyə daxil olan Qorçuvan kəndi də XX əsrin 30-cu illərinə qədər Naxçıvan MSSR-in tərkibində olmuşdur. Belə ki, 1921-ci ildə imzalanmış beynəlxalq Moskva və Qars müqavilələrinə zidd olaraq kənd 1929-cu ildə Ermənistana verilmişdir. Halbuki beynəlxalq müqavilələrə əsasən bu kənd Naxçıvan MSSR-in sərhədləri daxilində qalmalı idi.

Naxçıvan sancağına tabe olan digər bir nahiyə Şorlut nahiyəsi olmuşdur. Nahiyə Ordubad qəsəbəsindən şimalda yerləşmiş və 5

kəndi (Aşağı Əndəmiş, Anabad, Gənzək, Yuxarı Əndəmiş, Beşquş) əhatə etmişdir (82, s. 31). Ərazisi 124 $km^2$ olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə Beşquş kəndinin adının əvəzinə Nüsnüs kəndinin adı qeyd edilmişdir (53, s. 148).

Dərənürgüt nahiyəsi şimaldan Sisiyan, şərqdən və cənubdan Azadciran, qərbdən Əlincə, şimali-qərbdən Sair-Məvazi nahiyələri ilə həmsərhəd idi (82, s. 250-252). 1727-ci il tarixli "Naxçıvan sancağının müfəssəl dəftəri"nə görə Dərənürgüt nahiyəsinə Nürgüt, Teyvaz, Vərkəarx, Milaq, Əznəmiri kəndləri aid olmuşdur. Ərazisi 190 $km^2$ olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə isə Nürgüt kəndinin adı Dərənürgüt, Milaq (Milax) kəndinin adı Tillaq, Teyvaz kəndinin adı Hors kimi yazılmışdır. İcmal dəftərində Vərkəarx kəndinin adı yoxdur, əvəzində isə biz iki yeni kənd adına – Dərkəmərək və Hacatı kəndlərinin adına rast gəlirik (53, s. 149).

Yaşayış məntəqələrinin sayına görə Sisyan Naxçıvan sancağının ikinci ən böyük nahiyəsi idi. Ərazisi 1456 $km^2$ olmuşdur. 41 kənd 1 yaylaqdan ibarət olan bu nahiyə həm tarixi-coğrafi, həm də inzibati idarəçilik baxımından demək olar ki, əksər dövrlərdə Naxçıvana tabe olmuşdur. 1727-ci ilə aid "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə qeyd edilir ki, nahiyəyə daxil olan Salbartob (Salvartı) yaylağı Kəngərli elinə məxsusdur (82, s. 257).

Həm ərazi, həm də yaşayış məskənlərinin sayına görə ən böyük nahiyə Dərələyəz nahiyəsi olmuşdur. Onun ərazisi, təqribən, 2297 $km^2$ idi. "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə bu nahiyənin 96 kənd və 8 məzrəəsinin adı qeyd edilmişdir. "İrəvan sancağının icmal dəftəri"ndə isə 94 kənd, 5 məzrəənin adı qeyd edilmişdir. "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə adı çəkilən bu nahiyyəyə aid 5 kəndin və 3 məzrəənin adına "İrəvan sancağının icmal dəftəri"ndə rast gəlmirik. Bu yaşayış məntəqələri aşağıdakılardır: Qaraqaya, Hurevadik, Ayısəsi, Gələnçevir, Ərdəpin kəndləri və Kərəmpa, Məndərvanıs, Dibi məzrəələri.

Bu nahiyə ilə bağlı aydınlaşdırılması vacib olan məsələlərdən biri müfəssəl və icmal dəftərlərində verilən məlumatların fərqli olmasıdır. Belə ki, 1728-ci ilə aid "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə və "Naxçıvan sancağının müfəssəl



dəftəri"ndə Dərələyəz nahiyyəsi Naxçıvan sancağının tərkibində göstərildiyi halda, 1728-ci ilə aid "İrəvan əyalətinin icmal dəftəri"ndə nahiyyə İrəvan əyalətinin tərkibində göstərilmişdir. Bu baxımdan bir sıra tədqiqatçıların bu dövrdə Dərələyəz nahiyəsinin İrəvan əyalətinin birbaşa tabeliyində olması ilə bağlı qeyd etdikləri fikirlər yanlışdır. Çünki, inzibati ərazi quruluşunda tabeçilik məsələsi icmal dəftərinə görə deyil, müfəssəl dəftərə görə müəyyən edilmişdir. Bu faktı, Z.Büynadov və H.Qaramanlı da "İrəvan əyalətinin icmal dəftəri"nə yazdıqları ön sözdə təsdiq etmişlər (53, s. 10). Bu baxımdan XVIII əsrin 20-30-cu illərində Dərələyəz nahiyəsinin birmənalı şəkildə məhz Naxçıvan sancağının tərkibində olduğunu qeyd etmək lazımdır.

Lakin aparılan aramsız müharibələr kəndlərin boşalması ilə nəticələnmişdi. Belə ki, bu zaman, bu nahiyədəki 68 məntəqədə yaşayış olmuşdur (82, s. 287). Qeyd etmək lazımdır ki, Şərur və Sədərək nahiyələri II Osmanlı işğalı dövründə İrəvan sancağının tərkibinə daxil edilmişdir. Lakin Sədərək ətrafı qışlaqlar isə Dərələyəz nahiyəsinə aid olmuşdur. "Dəftər"də bu barədə yazılıb: "Dərələyəz nahiyəsinə tabe olan Sədərək Qışlası məzrəəsi. Bu məzrəə əvvəllər kənd imiş. Əkinçiliklə məşğul olub, xoş həyat sürürmüş. Qarışıqlıq vaxtı qaçıb getdikləri üçün bir kimsə qalmamış və ona görə də məzrəə olaraq qeydə alındı" (82, s. 318).

"İƏİD-1728"-dən aydın olur ki, bu zaman Sədərək nahiyəsi İrəvan əyalətinə daxil olmuşdur. Nahiyəyə 24 kənd, 1 məhəllə daxil olmuşdur (82, s. 361-362). Şərur nahiyəsinə isə 58 kənd, 12 qışlaq, 3 məzrəə daxil idi (82, s. 362-367).

***Şəhərlər və iri yaşayış məntəqələri.*** Bu dövrün mənbələrində Naxçıvan şəhər kimi, Ordubad qəsəbə kimi, Culfa, Əylis, Kırna, Qarabağlar və Astabad kənd kimi xatırlanmışdır.

"Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Naxçıvan şəhərinin tərkibində iki məhəllənin – Yuxarı və Aşağı məhəllələrin, Qaraxanbəyli, Durmuşbəy, Əliabad və Göyəli adlı yaşayış məntəqələrinin olduğu qeyd edilmişdir. Həm sancaqlığın, həm nahiyənin mərkəzi olan Naxçıvan şəhəri bu dövrdə Osmanlı xəzinəsinə 192 min 676 ağça gümüş pul vergi verirdi. Bu dövrə aid

mənbələrdə şəhərdə sabunxana, boyaxana və şamxana sexləri, dəyirmanlar, camelər, bazar və çarşıların olması haqqında da məlumatlar saxlanılmışdır.

XIV əsrdə alman səyyahı Şiltberqerin şəhər və ya qəsəbə kimi xatırladığı Kırnanın adı "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Kirnə kəndi kimi qeyd edilmişdir (82, s. 95).

Əvvəlki əsrlərdə bölgənin inkişaf etmiş şəhərlərindən biri kimi xatırlanan Qarabağlar Osmanlı mənbələrində bu dövrdə Qarabağ kəndi kimi qeydə alınmışdır. Lakin bu məntəqə mərkəz rolunu itirməmiş və Qarabağ nahiyəsinin mərkəzi statusunda olmuşdur. Qarabağların məhəllələri bu dövrdə müxtəlif tayfaların adı ilə adlandırılmışdır. Belə məhəllələrdən biri də Bəydili tayfasının məskunlaşdığı Bəydili məhəlləsi olmuşdur (81, s. 87).

XIV əsrdə bölgənin əsas şəhərlərindən biri kimi bəhs etdiyimiz Astabad şəhəri haqqında 1727-ci ilə aid "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Yəzdabad kəndi kimi bəhs edilir. Yezdəbadın keçmişdə şəhər olduğunu sübut edən amil 1727-ci ilə aid olan "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə bu kəndin əhalisinin şəhərlərdə olduğu kimi məhəllələr üzrə təsvirinin verilməsidir. Qeyd edək ki, sözügedən dəftərdə Yezdabaddan əlavə Naxçıvan və Ordubad şəhərlərində məhəllələr təsvir edilmişdir. Mənbədə kəndin aşağıdakı məhəllələrinin adı qeyd edilmişdir: Müsəlman məhəlləsi, Xaçım məhəlləsi, Paksu məhəlləsi, Absu məhəlləsi (82, s. 157-159). Burada şəhərlərə aid digər bir xüsusiyyət müxtəlif sexlərin də fəaliyyət göstərməsi idi. Astabad kəndində dəyirman, bəzirxana, boyaqxana və şamxanalar olmuşdur.

Yuxarıda qeyd etdiyimiz kimi 1727-ci ilə aid olan "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Ordubad qəsəbə kimi xatırlanmışdır. XVII əsr coğrafiyaşünası və təzkirəçisi Məhəmməd Mufid Yəzdi də Ordubadı qəsəbə kimi xatırlamışdır (115, s. 19).

Bu dövrdə nahiyənin mərkəzi hesab edilən Ordubad qəsəbəsi şimaldan Şorlut nahiyəsinin Aşağı Əndəmic kəndi, qərbədən Azadciran nahiyəsinin Dəstə kəndi, şərqdən Kotam kəndi, cənubdan isə Araz çayı ilə sərhədlənmişdir. Mənbəyini şimaldakı uca dağlardan götürən Dübəndi çayı şəhəri iki hissəyə ayırırdı. 1727-ci



ilə aid "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Ordubad şəhərindəki Anbaras, Məngis, İştərəngə, Sərşəhər məhəllələrinin və Ordubad qalasının adı çəkilir (82, s. 224-238).

***Əhalinin etnik və dini tərkibi.*** 1727-ci ilə aid "Naxçıvan sancağının müfəssəl dəftəri"nə əsasən müəyyənləşdirilmişdir ki, bu dövrdə Naxçıvan sancağında 9788 nəfər vergi mükəlləfiyyəti daşıyan şəxs olmuşdur. Şərur və Sədərək nahiyələrində isə bu dövrdə 2004 nəfər belə şəxs qeydiyyata alınmışdır. H.Qaramanlı yazır ki, bu rəqəmlərə əsasən XVIII əsrdə Naxçıvan sancağının öz tarixi hüdudları daxilində 11 min 792 nəfər vergi mükəlləfiyyəti daşıyanların olduğunu görərik (82, s. 12). Tədqiqatçı qeyd edir ki, XVIII əsrin 20-ci illərində Naxçıvan sancağının əhalisinin tərkibində şəhər əhalisinin nisbəti xeyli aşağı düşmüş və 10,2 faiz olmuşdur. Bizə görə bunun səbəbi bir tərəfdən müharibələr nəticəsində əhalinin kütləvi köç etməsi ilə bağlı idisə, digər tərəfdən bəzi şəhərlərin (Əylis, Ordubad, Astabad, Culfa və s.) əvvəlki statusunu itirərək qəsəbə və ya kənd kimi qeydə alınması ilə bağlı idi.

Bütün dövrlərdə olduğu kimi, bu dövrdə də bölgənin əhalisinin demək olar ki, tam əksəriyyətini (70-80 faiz) türk-müsəlman əhalisi təşkil etmişdir. Səfəvilər hakimiyyətinin bütün dövrlərində olduğu kimi, Kəngərli tayfalarının bölgənin idarəçiliyində rolu əhəmiyyətli dərəcədə olmuşdur. Qeyd etdiyimiz kimi, 1727-ci ilə aid "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə göstərilir ki, nahiyəyə daxil olan Salvartı yaylağı Kəngərli elinə məxsusdur (82, s. 257). Mənbələrdə Osmanlı işğalı ilə əlaqədar olaraq bir sıra qızılbaş-türk tayfalarının bu əraziləri tərk etməsi faktı da sübut edir ki, bu yurdun əhalisinin tərkibində türk tayfaları üstünlük təşkil etmişlər. Məsələn, "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Şahyurdu məzrəəsi, Kərəkəlük məzrəəsi, Sallı məzrəəsi və bir çox digər məntəqələrdəki əhalinin qızılbaş tayfalarından olduqları üçün Osmanlı işğalı zamanı bu əraziləri tərk etdikləri yazılır (82, s. 324-325).

Bu dövrdə Naxçıvan sancağına, o cümlədən Şərur və Sədərək nahiyələrinə daxil olan bir çox kəndlərin adlarına əsasən də, bu ərazidə məkunlaşmış türkdilli tayfaların demək olar ki, əksəriyyətini

müəyyənləşdirmək mümkündür. Türkdilli olduqları birmənalı şəkildə qəbul edilən Qazançı, Qarabağlar, Yurdçu, Kolanı, Keçili, Abdallı, Yaycı, Cağatay, Pirhəsənli, Muğanlı, Bayat, Bəydili, Oğuz tayfa, Didivar tirə adları Naxçıvan sancağının müxtəlif toponimlərində öz əksini tapmışdır. Bu tayfalardan Yurdçu, Qarabağlar, Cağatay tayfalarının türk-kəngərli tayfasının qolları olduqları şəksizdir.

Qeyd etmək lazımdır ki, uzun illər Naxçıvan toponimlərinin tədqiq ilə məşğul olmuş Adil Bağırovun fikrincə Didivarlılar da məhz Kəngərli tayfalarının bir qolu olmuşlar (17, s. 149). Didvarlılar Naxçıvan və Dərələyəz nahiyəsinin bir sıra kəndlərində yaşayırdılar (80, s. 136).

"Naxçıvan sancağının müfəssəl dəftəri"ndən o da aydın olur ki, bu dövrdə bölgədə müsəlmanlarla yanaşı müxtəlif məqsədlərlə buraya gəlmiş xristian tacirləri də qrup halında yaşamışlar. Məsələn Naxçıvan sancağının Əlincə nahiyəsinə tabe olan Bənəniyar kəndində Katolik-firəng ailələri, Mülki-Arslan nahiyəsinə tabe olan Cəhri kəndində firənglər də yaşamışdır (82, s. 69, 130). Məlumat üçün deyək ki, "firəng" anlayışı o zaman müsəlman dünyasında avropalı katolik xristianlarının adlandırılması üçün işlədilən ümumi ad olmuşdur.



## 3.4. Əfşarlar imperiyası dövründə Naxçıvanın tarixi coğrafiyası

1736-cı ildə III Şah Abbas müəmmalı şəkildə həlak oldu və Nadir xanın simasında hakimiyyət Əfşarların əlinə keçmiş oldu. Əvvəllər Səfəvilər dövlətinin qorunub saxlanılması uğrunda mübarizə aparan Nadir xan bu imperiyanın qorunub saxlanılması üçün sərkərdə kimi səlahiyyətlərinin yetərli olmadığını gördükdən sonra, özünü şah elan etmişdir. Nadir şah Əfşarın əsas məqsədi keçmiş imperiya sərhədlərini bərpa etmək olmuşdur. Təbii ki, Nadir şah Əfşar özünü milli və məzhəbi hökmdardan daha çox bir imperator kimi aparmış, dövlətdə ciddi islahatların həyata keçirilməsinə cəhd göstərmişdir. Hələ özünü şah elan etməmişdən əvvəl 1735-cı ildə Osmanlılardan son 10 il ərzində tutduqları bütün torpaqları, o cümlədən İrəvan və Naxçıvanı geri almış Nadir xanın fəaliyyəti o zaman müqavimətlə qarşılanmışdı ki, o özünü rəsmi olaraq şah elan etmişdir.

Təbii ki, Azərbaycan dövlətindəki bu sülalə dəyişikliyi bir çox digər qızılbaş tayfaları və yerli hakimlər tərəfindən razılıqla qarşılanmamışdır. Səfəvi imperiyası dövründə Naxçıvanın irsi idarəçiləri olan və özlərini haqlı olaraq Səfəvilər dövlətinin qurucusu olan tayfalardan hesab edən Ustaclı-Kəngərli hakimləri Nadir şah Əfşarın hakimiyyətinə qarşı müqavimət göstərirdilər. Səfəvi xanədanına sadiqlikləri ilə seçilən və Nadir şahın rəsmi dövlət məzhəbinin loyallığı ilə barışmayan qızılbaş Kəngərlilər Əfşar hakimiyyətini qəbul edə bilmirdilər.

XVII-XIX əsrlərə aid Naxçıvana dair əlyazma sənədlərinin tərcüməsini və şərhini həyata keçirmiş K.N.Smirnov və C.Qayıbov bir sıra sənədlərə istinad edərək Səfəvilərin Naxçıvana münasibəti ilə Əfşarlar, Zəndlər və Qacarlar zamanında münasibətin fərqli olduğunu yazmışlar (192, s. 97). 1936-cı ildə Tiflisdə çap edilmiş "Naxçıvan əlyazma sənədləri XVII-XIX əsrlər" adlı topluda təqdim edilmiş tarixi dəqiq bəlli olmayan bir sənəddə əksini tapmış fikirlər də bunu bir daha təsdiq edir.

Nadir şah hakimiyyətə gəldikdən sonra dövlətin inzibati quruluşunda ciddi dəyişikliklər edilmiş və son Səfəvilər dövründə həyata keçirilməsi planlaşdırılan bir sıra inzibati islahatlar reallaşdırılmışdır. Əvvəllər, Naxçıvanın tabeliyində olduğu Çuxursəd bəylərbəyliyi də daxil olmaqla, Azərbaycan ərazisindəki 4 bəylərbəyliyin ləğv edilərək vahid Azərbaycan bəylərbəyliyinin tərkibində birləşdirilməsi prosesi məhz Nadir şahın hakimiyyəti dövründə başa çatdırılmışdır. "Başa çatdırılmışdır" ifadəsini xüsusi olaraq vurğulamağı ona görə zəruri hesab edirik ki, Azərbaycan bəylərbəyliklərinin birləşdirilməsi prosesi hələ Nadirin şah olmasından əvvəl başlamışdı.

Bəylərbəyliklərin birləşdirilməsindən bəhs edən əksər müəlliflər, Nadir şahın bəylərbəylikləri ləğv etdikdən sonra bütün bəylərbəylikləri Azərbaycan bəylərbəyliyi tərkibində birləşdirdiyini yazırlar. F.Əliyev və M.Əliyevin "Naxçıvan xanlığı", F.Əliyev və U.Həsənovun "İrəvan xanlığı" kitablarında bu barədə müəlliflər Nadir şahın tacqoyma mərasimində iştirak etmiş katalikos Abram Kreatsidən iqtibas gətirirlər: "Nadir şah öz qardaşını rəis və sərdar, yəni Azərbaycan sərəskəri təyin etdi. Naxçıvanı, Şirvanı, bütün Ararat vilayətini, Gürcüstanın idarəsini qardaşına tapşırmaqla onu bəylərbəyi kimi bütün digər xanların başçısı təyin etdi" (20, s.27). Apardığımız müqayisəli təhlillər isə sübut edir ki, birləşdirmə prosesi mərhələli şəkildə həyata keçirilmişdir. Birinci mərhələdə Gəncə, Tiflis, Qarabağ, İrəvan, Naxçıvan və Şirvan əraziləri mərkəzi Gəncə olan vahid vilayətdə birləşdirilmiş, ikinci mərhələdə isə tam mərkəzləşdirmə prosesi başa çatdırılmış və mərkəzi Təbriz olan Azərbaycan vilayəti yaradılmışdır. XIX əsr tarixçisi Mir Mehdi Xəzaninin "Kitabi-tarixi-Qarabağ" əsərindən gətirdiyimiz aşağıdakı sitat da bunu sübut edir: "Bəd öz an ki, Nadir şah Gəncə və Tiflis və Qarabağ və İrəvan və Naxçıvan və Şirvanatı Rum əhlinin qanunlarını təsəllüblərindən çıxarıb öz təsərrüfünə götürdü. Bir qəlil müddətdə bu vilayətlər Gəncə hakiminə baxdılar. Amma sonra Azərbaycan bəylərbəyisinə tabe oldular" (95, s. 118).

Əfşar idarəçiliyi dövründə Naxçıvan mənbələrdə iki cür "ölkə" və "tümən" kimi qeyd edilmişdir. Nadir şah Kəngərlilərə



etibar etmədiyi üçün Naxçıvana iki hakim təyin etmişdir. Bunlardan biri "hakim-e ölke-yi Naxçıvan" (Naxçıvan ölkəsinin hakimi), ikincisi isə "hakim-e tomən-e Naxçıvan" (Naxçıvan tüməninin başçısı) adlanırdı. E.Seyidbəyli də Kəngərli arxeoqrafik sənədlərinə əsasən qeyd edir ki, XVII-XVIII əsrlərdə Naxçıvanda iki hakimlik üsuli idarəsi mövcud idi. Bunlardan biri "ölkə hakimi", digəri isə "tümən hakimi" adını daşıyırdı (119, s. 6). Fikrimizcə, Əfşarların hakimiyyəti illərində işlədilən tümən anlayışı monqolların idarəçiliyi dövründəkinə nisbətən fərqlənmişdir. Belə ki, bu dövrdə istifadə edilən tümən anlayışı daha çox hərbi dairə anlayışı ilə uyğun gəlirdi və bu termini inzibati ərazi vahidi kimi istifadə etmək bəhs olunan dövrdə doğru deyildir. Başqa sözlə desək hakim-e tomən-e Naxçıvan, müasir dillə ifadə etsək Naxçıvan hərbi dairəsinin rəhbəri anlamında işlədilmişdir. Çünki, "hakim-e tomən-e Naxçıvan" kəngərli süvari bölməsinin rəisi olurdu. Burdan isə aydın olur ki, Əfşar idarəçiliyi dövründə Naxçıvanın hərbi və inzibati idarəçiliyi vahid əldə cəmləşməmişdir. Bütün bu səbəblərdən də Naxçıvanın inzibati ərazi bölgüsündən danışdığımız hallarda "ölkə" anlayışının işlədilməsi daha doğrudur. Ölkə tabeliyindəki mahalların idarəçiliyini vəkillər və ya naiblər, ayrı-ayrı tayfaların idarəçiliyini isə tayfa ağsaqqalları həyata keçirirdilər.

M.Xəzaninin əsərində verdiyi məlumatlar sübut edir ki, Azərbaycan bəylərbəyliyi yaradılarkən Naxçıvan Çuxursəd bəylərbəyliyinə tabe olan bir ərazi kimi deyil, müstəqil bir hakimlik kimi bu vahidə daxil edilmişdir. Vahid Azərbaycan bəylərbəyliyinin tərkibində də Naxçıvan İrəvanla birlikdə deyil, ayrıca bir ölkə - hakimlik şəklində idarə olunmuşdur. Dövrün salnaməçilərindən biri A.Kreatsi də Nadir şah Əfşarın dövründə İrəvan əyalətinin mahallarından bəhs edərkən yalnız 9 mahalın – İrəvan, Körpü, Qırxbulaq, Şuragel, İğdır, Gərni, Abaran, Şirakavan və Göyçənin adını çəkmişdir (97, s. 204).Burdan da aydın olur ki, bəhs olunan dövrdə nəinki Naxçıvan ayrıca bir hakimlik olmuş, əvvəllər İrəvanın tabeliyində olmuş Şərur mahalı və Sədərək sultanlığı da Naxçıvan ölkəsinin tabeliyinə verilmişdir. Əfşarların idarəçiliyi dövründə Naxçıvan, Ordubad və Qafan mahalları ilə yanaşı daha iki mahal

Sisyan və Tatef də Naxçıvan ölkəsinin tabeliyində olmuşdur. Mirzə Yusif Qarabağinin "Tarixi-safi" əsərində verdiyi məlumatlardan aydın olur ki, bu mahallar yalnız XVIII əsrin 50-ci illərində Qarabağ xanlığına qatılmışdır (95, s. 19).

Beləliklə, apardığımız təhlil və ümumiləşdirmələrə əsasən söyləyə bilərik ki, Əfşarların idarəçiliyi dövründə Naxçıvan ölkəsinin tərkibinə 11 mahal daxil olmuşdur. Bunlar Naxçıvan, Ordubad, Mehri, Qapan, Sisyan, Tatef, Şərur, Dərələyəz, Xok (Qarabağ), Əlincə, Sədərək mahalları olmuşdur. Bu sərhədlər çərçivəsində götürdükdə, Naxçıvan ölkəsinin ərazisi qeyd olunan dövrdə 12 min 389 km-²ə yaxın olmuşdur (Şəkil 19).

Naxçıvan mahalı keçmiş Naxçıvan, Qışlağat, Sair-Məvazi, Mülki-Arslan, Məvaziyi-Xatın, Şahbuz nahiyələrini birləşdirmişdir. Mahalın mərkəzi Naxçıvan şəhəri olmuşdur.

Əlincə mahalının bir sıra kəndləri Nadir şahın hakimiyyəti dövründə ciddi dağıntılara məruz qalmışdır. V.Qriqoryev göstərir ki, qoşunlarına göstərilən müqavimətdən qəzəblənən Nadir şah mahalın 3 kəndini – Bənəniyar, Saltaq və Kırna kəndlərini yerlə yeksan etmişdir (171, s. 75).

Naxçıvan ölkəsinin tərkibində Naxçıvan tüməni ilə yanaşı, Ordubad tüməni də formalaşdırılmışdır. Bu dövrdə mövcud olmuş Ordubad tüməni keçmiş Azadciran, Dərənürgüt, Şorlut nahiyələrinin ərazisini əhatə edirdi. Mərkəzi Ordubad şəhəri idi.

Dərəşam və Əlincə nahiyələrinin ərazisində isə Əlincə mahalı yaradılmışdı.

***Şəhərlər və iri yaşayış məntəqələri.*** Mənbələrdə Əfşar idarəçiliyi dövründə Naxçıvan ölkəsinin ərazisində üç əsas şəhərin – Naxçıvan, Ordubad və Əylisin adı xatırlanır. Lakin təəssüf ki, qüdrətli Azərbaycan imperiyasının birləşdirməkdə və yenidən dirçəltməkdə israrlı olan Nadir şah bəzən ən qəddar və dağıdıcı tədbirlər həyata keçirməyə məcbur olmuşdur. Orta əsrin digər hökmdarları kimi onun da həyata keçirdiyi tədbirlər bəzən böyük ərazilərin tarixi taleyində ağrılı rol oynamışdır.

Şəksiz ki, bu baxımdan Əfşarlar dövrünü Naxçıvan şəhərinin tarixində ən böyük tənəzzül dövrlərindən biri kimi xarakterizə edə



bilərik. Rusiya Dövlət Qədim Sənədlər (Aktlar) Arxivində 1406 saylı fondda saxlanılan A.P.Yermolovun qeydlərindən bu fikirləri oxuyuruq: "Tayfadaxili müharibələr və Nadir şahın ordusunun yürüşləri bu zavallı torpaqları viranəyə çevirib, bu qəsbkarın hər bir addımı xalqına fəlakət gətirib" (57, s. 255). Yermolov daha sonra yazırdı: "Onun adı "ilk kənd" kimi tərcümə edilir, iranlılar Naxçıvanı "Nəqşicahan" adlandırırlar, bu da "dünyanın bəzəyi" deməkdi, ancaq bu "Nəqşicahan" artıq öz qədim möhtəşəmliyini xatırlatmır, zira burada xarabalıqlardan və gözəl bağlardan savayı heç nə görünmür" (57, s. 258).

Bəhs etdiyimiz dövrdə bölgənin əsas şəhərlərindən biri də Ordubad şəhəri idi. AMEA-nın müxbir üzvü F.Səfərlinin fikrincə Ordubad şəhərində qeydə alınan və Nadir şahın Hindistana yürüşü xatırlanan bir epiqrafik sənəd – kitabə Naxçıvan bölgəsinin Əfşarlar dövlətinin tərkibində olmasını təsdiq edən çox mühüm qaynaqdır (84, s. 318).

Bu dövrdə bölgənin əsas şəhərlərindən biri də Əylis şəhəri olmuşdur. Şopen, Sısoyev və digər müəlliflərin veriyi məlumatlardan aydın olur ki, XVIII əsrin 40-50-ci illərində Əylisdə 2000 ailə yaşamışdır (208, s. 159). Tarixçi M.Quliyev apardığı tədqiqatların nəticəsi olaraq göstərmişdir ki, hətta xanlığın yarandığı dövrə qədər Naxçıvan və Ordubadla yanaşı Əylis də şəhər kimi varlığını qorumuş, yalnız 1752-ci ildə Azad xan Əfqanlının hücumu nəticəsində dağıdılmışdır (107, s. 3). Tarixçi S.Budaqova da Əylisin XVIII əsrin ortalarına qədər şəhər kimi varlığını qoruyub saxladığını, 1751-1752-ci illərdə Azərbaycanın cənub vilayətlərində hakimiyyət uğrunda mübarizə aparan Azad xanın Kartli-Kaxetiya çarlığına hücum edərkən yolüstü Əylis şəhərini mühasirəyə alaraq yerlə yeksan etdiyini yazmışdır (24, s. 59). Azərbaycan Respublikası Dövlət Tarix Arxivində (indiki - Azərbaycan Milli Arxivi) saxlanılan Ordubad dairəsinin Əylis mahalının 1831-ci ilə aid kameral siyahısında da 1752-ci ildə Əylisin Azad xan tərəfindən dağıdılması faktı öz əksini tapmışdır. Quberniya katibi Vladimr Zalotniki tərəfindən tərtib edilmiş sənəddə Yuxarı Əylisin tarixi ilə bağlı ilk cümlə belədir: "Hələ keçən əsrdə Yuxarı Əylis tanınmış bir şəhər

idi" (229, v. 6). Sənəddən həmçinin o da aydın olur ki, Azad xana qarşı əylislilərin müqaviməti onunla nəticələnmişdi ki, xan şəhəri ələ keçirdikdən sonra əhalinin əksəriyyətini qırmışdır.

***Əhalinin etnik və dini tərkibi.*** Azərbaycanı Osmanlı işğalından azad etmək uğrunda Səfəvilərin apardığı müharibələr, sonrakı dövrdə isə Nadir şahın sərt vergi siyasəti Naxçıvandan da əhalinin kütləvi köçü, aşağı təbəqələrin bir çox hallarda aclıqdan tələf olması ilə nəticələnmişdir. Bir çox vilayətlərin hakimləri isə vəziyyətdən sui-istiafə edərək əhalidən daha artıq vəsait toplamağa çalışmışlar. Bəhs olunan dövrdə Naxçıvan hakimi olmuş Mirzə Rza məhz bu cür mənimsəmə hallarına görə Nadir şahın göstərişi ilə vəzifəsindən uzaqlaşdırılmışdır (30, s. 28).

Uzun bir tarixi dövr ərzində bölgənin etnik tərkibində və idarəçiliyində xüsusi rol oynamış qızılbaş Kəngərlilərin bir qismi mərkəzə tabe olmadıqları üçün Əfqanıstana sürgün edilmişdilər (30, s. 28). Belə kəngərli tirələrindən biri də Kəclər və Kəcoğlular olmuşdular. Onlar Naxçıvanın Araz çayının cənubunda yerləşən torpaqlarında (Qışlağat nahiyəsi) məskunlaşmışdılar. Səfəvilər dövründə elatlar sırasına daxil olan Kəclər və yaxud Köclər Kəngərlilərin Biləci qolunun tərkibinə daxil idilər. K.N.Smirnov Osmanlılarla müharibə ərəfəsində Nadir şahın onların bir qismini Nisaya köçürməsi barədə məlumat verir (207, s. 39). Lakin o göstərir ki, bu qrupun nümayəndələrinin digər bir qismi Naxçıvanda qalmış və hətta Nadir şahdan sonra hakimiyyətə gələn Azad xan Əfqanlı onların döyüşçülük məharətindən yararlanaraq Kəcoğluları özünün müşayiətçi dəstələrinə daxil etmişdir.

Bəhs olunan dövrdə Naxçıvan ölkəsində Kəngərli tayfasının aşağıdakı qolları məhşur idi: Qızıllı, Sarbanlar, Ağabəyli, Qaradolaq, Əlixanlı, Qaraxanbəyli, Qarabağlar və b. (30, s. 29).

Ağabəylilər Kəngərli tayfasının ən böyük tirələrindən biri olmuşdur. Bu tayfa hələ Nadir şah Əfşarın hakimiyyəti illərindən başlayaraq öz aralarından çıxmış vəkillər tərəfindən idarə olunurdular (81, s. 17).

Nadir şahın hakimiyyəti dönəmində bu ərazilərdə yaşamış və bu gün də yaşamaqda olan türk Qarapapaqlar barədə də mənbələrdə



məlumatlar saxlanılmışdır. Mirzə Yusif Qarabaği "Tarixi-safi" əsərində bu tayfanın XVIII əsrin 60-cı illərində Qarabağlı İbrahimxəlil xanın qoşunlarının tərkibində Naxçıvana hücum etmiş Dağıstan ləzgilərinə qarşı Kalbalı xanla birlikdə qəhrəmancasına vuruşması barəsində məlumat vermişdir (95, s. 29). Bu gün də Qars ətrafında varlıqlarını qoruyub saxlayan qarapapaqlar türkdilli tərəkəmə tayfalarından biridir, ehtimal ki, Naxçıvan ərazisindəki Qarababa kəndinin adı da məhz qarapapaq türkləri ilə bağlıdır.

Nadir şahın dövründə bölgə əhalisinin dini tərkibi də maraq doğurur. Nadir şah Səfəvilərin ənənəvi isna-əşəriyyə (oniki imamçı) məzhəbi ilə sünni məzhəbləri arasında ortaq körpü rolunu oynayacaq yeni bir məzhəbi cəfəriliyi dövlətin rəsmi məzhəbinə çevirmişdir. Şiə məzhəbini xeyli yumuşaldaraq sünniliyə yaxın bir hala gətirməyi bacaran Nadir şahın yeniləşmiş məzhəbi "cəfəriyyə" adlandırması da təsadüfi olmamışdır (125, s. 19). Şiələrin 6-cı imamı olan Cəfəri Sadiqin həm də sünni aləmində Əbu Hənifənin müəllimi olaraq böyük hörmətlə anılması Nadir şahın məzhəbi bu cür adlandırmasında önəmli rol oynamışdır. İslam dünyasında məzhəb qarşıdurmalarını aradan qaldırmaq üçün ciddi addımlar atan Nadir şah həm də yeni məzhəbin qəbulu üçün ciddi-cəhdlə çalışmışdır. Bəhs etdiyimiz dövrdə Naxçıvan ölkəsinin əhalisi tərəfindən də bu məzhəb qəbul edilmiş, lakin əsrlərdən bəri məzhəb müharibələrinin əsas savaş meydanlarından birinə çevrilmiş Naxçıvanda əhali tərəfindən bu loyal məzhəbin qəbulu prosesi o qədər də çox dəstəklənməmişdir. Xüsusilə, Nadirin bu addımının qarşı tərəfdən (Osmanlı imperiyası tərəfindən) adekvat cavab almayacağını bilən bölgə hakimləri olan Kəngərlilər tərəfindən bu islahata ciddi yanaşılmamış və müqavimət göstərilmişdir.

## 3.5. Naxçıvan xanlığının yarandığı ilk dövrlərdə bölgənin tarixi coğrafiyası

***Sərhədlər və inzibati ərazi quruluşu.*** Naxçıvan xanlığı yarandığı dövrdə şimaldan və şimal-qərbdən İrəvan, şimal-şərqdən Qarabağ, cənub-şərqdən Qaradağ, cənubdan və cənub-qərbdən Təbriz,Xoy və Maku xanlıqları ilə həmsərhəd olmuşdur (85, s. 22). Rus müəllifi S.D.Burnaşev Naxçıvan xanlığının sərhədlərini təsvir edərkən yazırdı: "O, şimaldan İrəvan xanlığı ilə, şərqdən Qarabağla, cənub-şərqdən Təbriz və Xoy xanlıqları ilə həmsərhəd idi" (96, s. 112).Tədqiqatçı E.Qarayevin də qeyd etdiyi kimi, S.D.Burnaşev sərhədləri göstərərkən qeyri-dəqiqliyə yol vermişdir. Əslində Naxçıvan xanlığı qərbdən Maku xanlığı, cənub-şərqdən isə Qaradağ xanlığı ilə həmsərhəd olmuşdur (96, s. 112).

Bir çox müəlliflərin XIX əsr mənbələrinə əsaslanmaqla xanlığın sadəcə İrəvan, Qarabağ, Xoy və Maku xanlıqları ilə həmsərhəd olduğunu yazırlar. Bu barədə F.Əliyev və M.Əliyev "Naxçıvan xanlığı (1797-1828)" kitabında məlumat vermişlər (29, s. 20; 159, s. 41). Digər bir tədqiqatçı Y.Rəhimov yazır ki, Azərbaycanın qərbində Zəngəzur dağından başlamış Araz çayına qədər uzanan böyük bir ərazidə yerləşən Naxçıvan bölgəsi şimalda İrəvan, şimal-şərqdə Qarabağ, cənubda isə Xoy və Maku xanlıqları ilə həmsərhəd idi (110, s.139). Müəllif xanlığın qərb sərhədləri məsələsinə toxunmamış və xanlığın nisbətən sonrakı dövrlərə aid kiçildilmiş sərhədlərini təsvir etmişdir.

Bir məsələni də qeyd etmək lazımdır ki, xanlıqlar dövrünün tədqiqi ilə məşğul olmuş bir çox tarixçilər Naxçıvan xanlığının İrəvan xanlığı ilə qərb sərhədinin bugünkü Kəngərli rayonunun Qıvraq qəsəbəsinin qərbindən keçdiyini yazırlar. Lakin Gürcüstan Milli Arxivində saxlanılan bir sənəd xanlığın yarandığı dövrdə Şərur nahiyyəsinin Parçı kəndi və ətraf ərazilərin məhz Naxçıvan xanlığının tabeliyində olduğunu göstərir. Belə ki, 1 aprel 1847-ci ildə I Kalbalı xanın oğlu Mehdi ağanın Qafqaz canişinliyinə yazdığı məktubundan da görünür ki, onun atası I Kalbalı xanın dövründə



Şərur nahiyəsinin Parçı kəndi və ətraf ərazilər məhz Naxçıvan xanlığına tabe olmuş və I Kalbalı xan tərəfindən Hüseynəli Xan İrəvanskiyə icarəyə verilmişdir (86, s. 112-113). Məktubda yazılır: "İrəvan qəzasının kəndləri olan Parçı, Əncər-Səfi kəndləri və onlara bitişik olan digər kəndlər rəhmətlik atam Kalbalı xan tərəfindən mənə bağışlanıbdır. Hansı ki, həmin kəndləri o öz sağlığında Hüseyn xan İrəvanskiyə icarəyə vermişdi. Atamın vəfatından sonra da mən həmin kəndləri Hüseyn xan İrəvanskiyə icarəyə vermişəm və o kəndlərdən gələn gəlirdən istifadə etmişəm. İrəvan Rusiyanın himayəsinə keçəndən sonra həmin kəndlər məndən alınıb xəzinəyə verilmişdir" (230). Bu fakt bir daha sübut edir ki, akademik İsmayıl Hacıyevin rəhbərliyi altında tarixçilər M.Quliyev və F.Cəfərli tərəfindən hazırlanmış və 2007-ci ildə nəşr olunmuş "Naxçıvan xanlığının xəritəsi"ndə də doğru olaraq Naxçıvan xanlığının 1747-1797-ci illərdə ərazisinin 1797-1828-ci illərdəkinə nisbətən daha geniş olduğu göstərilmişdir.Belə ki, xəritədə də təsvir olunduğu kimi 1747-1797-ci illərdə Naxçıvan xanlığının ərazisi 942 min 870 hektar, başqa sözlə desək 9428,7 $km^2$ olmuşdur (108, s. 173; 148, s. 50). 1797-1828-ci illərdə isə xanlığın ərazisi 464 min 282,9 hektar və yaxud, təqribən, 4642,83 $km^2$ olmuşdur (87). Burdan da aydın olur ki, 1797-ci ildən sonra xanlığın ərazisi 478 min 587,1 hektar azalmışdır.

Xanlıq yarandığı dövrlərdə İrəvan xanlığı ilə qərb sərhədləri bu günkü Şərur rayonunun Ərəbyengicə kəndinin qərbindən başlayıb Çomaxtur - Şəhriyar - Ağəhməd - Təzəkənd - Maxta - Dəmirçi xətti üzrə idi. Sonra sərhəd Dəmirçi kəndindən şimala doğru istiqamətlənir Arpakənd, Aynazor və Həsənkəndin şimalından keçməklə Ələyəz kəndi yaxınlığındakı Sal-sal qalasına çatırdı. Güneyvəng - Canıkənd - Muradtəpə istiqamətində davam edən sərhəd xətti Sarımsaqlı dağına çatmamış cənuba istiqamətlənirdi. Burdan isə Naxçıvan xanlığının Qarabağ xanlığı ilə sərhədi başlayırdı. İki xanlığın sərhədi XVIII əsrin 40-cı illərinin sonunda Südbulaq - Bazarkənd - Qalacıq - Verdiqala - Əngələvid - Şəki - Qarakilsə - Dərikənd - Urud - Qənd - Bartaz xətti boyunca idi (85, s. 510). Mirzə Yusif Qarabağinin "Tarixi-safi" əsərində verdiyi məlumatlardan aydın olur ki, XVIII

əsrin 50-ci illərində bu sərhədlər qismən dəyişmiş, əvvəllər Naxçıvanın tabeliyində olan Sisyan və Tatef mahalları Naxçıvan xanlığından alınaraq Qarabağ xanlığına qatılmışdır. "Tarixi-safi"də yazılır: "O, Qaradağ hakimlərindən Mehri, Güney mahallarını, Bərgüşada kimi Naxçıvan hakimindən Tatef və Sisyan mahallarını, Təbriz bəylərbəyisindən Uşacıq kəndinin yuxarısınadək, Tərtər çayı sahilində Kolanıların məskəni olan Göyçə sərhədinə kimi İrəvan hakimindən aldı. Vaxtilə Xudafərin körpüsündən Kürək çayına kimi ərazi Gəncə bəylərbəyilərinə tabe idi. İki-üç ilin müddətində, yəni 1755-1757-ci illərdə bu qeyd olunan yerləri onların əllərindən alıb öz ixtiyarlarına keçirdi" (95, s. 19-20). Qeyd edək ki, Bərgüşad mahalının əsas əhalisi Kəngərlilərdən ibarət olmuşdur. Elə Bərgüşad toponiminin özü də Kəngərlilərin Bərgüşadlı tirəsinin adı ilə bağlıdır (81, s. 87).

Bartaz-Daşqaya xəttindən isə Naxçıvan xanlığının Qaradağ xanlığı ilə cənub-şərq sərhədləri başlayırdı. Bu xanlıqla sərhəd Ağbənd dağının cənubundan keçməklə Mehriyə qədər uzanırdı. Naxçıvan xanlığı Mehridən başlayaraq Ordubada qədər Təbriz xanlığı, buradanQızılburuna qədər Araz çayı boyunca Xoy xanlığı ilə həmsərhəd idi. Astabaddan Ərəbyengicəyə qədər isə Araz çayı boyunca Maku xanlığı ilə sərhədd xətti keçirdi.

Yuxarıda istinad etdiyimiz arxiv sənədi (Gürcüstan Milli Arxivi. Fond 4, siyahı 2, iş № 79) ilə əlaqədar bir məsələyə də aydınlıq gətirmək istərdik. Belə ki, sənəddə iki kəndin Parçı və Əncər-Səfi kəndlərinin adı çəkilir (230). Parçı kəndinin adı o dövrdən günümüzədək olduğu kimi qorunub saxlanılsa da, Əncər-Səfi kəndinin hansı yaşayış məntəqəsi olması ilə bağlı uzun müddət tədqiqat aparmalı olduq. Topladığımız faktlar və apardığımız araşdırmalar belə deməyə əsas verir ki, Mehdi ağanın adını çəkdiyi bu kənd 1728-ci il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Muğanlı kimi qeyd olunan Aşağı Əlişar kəndidir (53, s. 72). Qeyd edək ki, dəftərdə Şərur nahiyəsinin tərkibində Əlişar adlı iki kənd – Yuxarı Əlişar və Aşağı Əlişar kəndləri qeydə alınmışdır. Aşağı Əlişarın digər adı Muxanlı kimi qeyd edilmişdir. "İrəvan əyalətinin icmal dəftəri"ndə isə kəndin adı Muğancıqi-Senili (Səfili- E.K.) kimi



qeyd olunmuşdur (53, s. 72). Fikrimizcə, yuxarıda qeyd etdiyimiz kənd adının birinci komponenti "Əncər" məhz Alışarı ifadə edir. Fikrimizcə, Alışar sözünün ilkin forması "Alaşlar" şəklində olmuşdur. Alaşlar və yaxud alaşoğulları ustaclı tayfa birliyinə daxil olan tayfalardan biri olmuşdur. Səfəvişünas İ.P.Petruşevski ustaclılara aid olan tayfalar haqqında danışarkən kəngərli, kusulu, toxmaq, şeyxli, qarıncaoğlularla yanaşı alaşoğluların da adını qeyd etmişdir (195, s. 50).

İkinci komponent "səfi" və yaxud "sofu" isə kəngərlilərin sofulu tayfasının adı ilə bağlıdır. B.Budaqov və Q.Qeybullayevin yazdığına görə Alışar kəndi məhz kəngərlilərin Sofulu tayfasının kəbirli, mahmudlu, dəmirçi, səbirli və başqa tirələrinin məskunlaşması nəticəsində yaranmışdır (23, s. 38). AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru A.Bağırov tədqiqatçı T.Əhmədovun da bu fikrə şərik olduğunu yazmışdır (15, s.102). A.İmanlı da Əlişar kəndinin məhz sofululların məskunlaşması nəticəsində yaşayış məntəqəsinə çevrildiyi barədə məlumat vermişdir. O yazır: "Alışarın mənşəyi haqqında alimlərimiz əsasən yekdil rəydədirlər. Ümumi fikir belədir ki, Alışar qışlaq adı olmuş, kəngərlilərin sofulu tayfasının ailələrindən bir qrupunun burada məskunlaşması ilə yaşayış məntəqəsi yaranmışdır" (52, s. 18).

Beləliklə, tədqiqatlarımız belə nəticəyə gəlməyə əsas verir ki, XVI əsrdə Əlişar, XVIII əsrin 20-ci illərində Aşağı və Yuxarı Əlişar kəndləri kimi qeydiyyata alınmış müasir Əlişar kəndinin adı XVIII əsrin 60-90-cı illərində Əncər-Səfi və yaxud Əlişar-Sofu olmuşdur.

Naxçıvan xanlığının yarandığı ilk dövrlərdə onun inzibati quruluşu haqqında məlumat verən konkret mənbə yoxdur. Sahibə Budaqova, Fuad Əliyev, Mirabdulla Əliyev və bir çox digər tarixçilərin fikrincə Naxçıvan xanlığının inzibati ərazi bölgüsündə əvvəlki dövrə nisbətən dəyişikliklər əsasən XVIII əsrin sonunda (1797-ci ildən sonra) baş vermişdir. Sahibə Budaqova yazır ki, İran hakimiyyəti dövründə Naxçıvan xanlığı inzibati baxımdan iki tümənə bölünmüşdür ki, bunlardan biri Naxçıvan, digəri isə Ordubad tüməni olmuşdur (24, s. 26). "Naxçıvan tarixi" çoxcildliyinin ikinci cildində isə göstərilir ki, 1747-1797-ci illərdə Naxçıvan xanlığı Naxçıvan,

Ordubad, Mehri və Qafan dairələrindən ibarət olmuşdur (85, s. 26). V.Qriqoryevin qeydlərindən aydın olur ki, XIX əsrdə isə Naxçıvan xanlığı artıq iki dairədən (tümələndən) – Naxçıvan və Ordubad tümənlərindən ibarət olmuşdur (171, s. 64). Naxçıvan xanlığının inzibati ərazi bölgüsü ilə bağlı V.Qriqoryevin verdiyi məlumatlar XIX əsrə aid olsa da, ilk dövrlər haqqında da müəyyən təsəvvür yaradır.

Fikrimizcə, XIX əsrdəkindən fərqli olaraq, yarandığı ilk dövrlərdə Naxçıvan dairəsi (tüməni) 4 deyil 5 mahaldan ibarət olmuşdur. V.Qriqoryevin qeyd etdiyi, Naxçıvan, Əlincə, Xok, Dərələyəz mahallarından (171, s. 64, 195) əlavə, 1752-ci ilə qədər Sisyan mahalı da bu dairənin tərkibinə daxil olmuşdur. Sisyanın Naxçıvan dairəsinin (tüməninin) bir mahalı olmasını Mirzə Yusif Qarabağinin "Tarixi-safi" əsərində verdiyi məlumatlar da sübut edir. Bu müəllif göstərir ki, XVIII əsrin 50-ci illərində Sisyan və Tatef mahalları Naxçıvan xanlığından alınaraq Qarabağ xanlığına qatılmışdır (95, s. 19-20).

Naxçıvan mahalı Naxçıvan ölkəsinin mərkəzi sayılır və Araz çayının sol sahilində yerləşirdi. Əvvəllər ayrıca bir mahal olmuş Dərəşahbuz, Məvaziyi-Xatın, Mülki-Arslan, Sair-Məvazi, Qışlağat nahiyəsinin Araz çayından şimalda yerləşən torpaqları bu mahalın tərkibində birləşmişdi. Mahal şimalda Qarabağ – Zəngəzur dağları, cənubdan Araz çayı, şərqdən Əlincə mahalı, qərbədən isə Xok mahalı ilə həmsərhədi idi. Kəndlərin əksəriyyəti Naxçıvançay boyunca yerləşmişdir (171, s. 64).

Mahalın və ölkənin mərkəzi olan Naxçıvan şəhəri Araz çayından 8 verst (təqribən, 8 kilometr yarım) məsafədə yerləşirdi (228, v. 2). Naxçıvan şəhəri bu dövrdə tənəzzül dövrünü yaşayırdı (57, s. 258).

Naxçıvan şəhərinin özü Şıxmahmud, Əliabad, Bulqan, Tumbul, Komadizə (Qoşadizə) kəndləri və Naxçıvançayla sərhədlənirdi. Naxçıvançay başlanğıcını Salvartı dağından götürür, Naxçıvan şəhərinin cənubundan keçməklə, Bulqan və Astabad arasındakı ərazidə Araz çayına qovuşurdu.

Əlincə mahalının ərazisi Araz çayından başlamış Əlincəçay



boyunca şimala doğru Zəngəzur dağlarına qədər uzanırdı. Keçmiş Dərəşam nahiyəsinin torpaqları bu dövrdə artıq Əlincə mahalının tərkibində idi. Qərbdən Naxçıvan mahalı ilə sərhədlənən bu mahalın şərq sərhədi isə Darıdağ ətrafından keçirdi. XIX əsrə aid mənbələrdə bu mahalın tərkibində 18 kəndin olduğu göstərilmişdir (171, s. 73).

Xok mahalı şimaldan Dərələyəz mahalı, cənubdan Araz çayı, şərqdən Naxçıvan mahalı, qərbdən isə Dərələyəz mahalının Şərur torpaqları ilə əhatələnirdi. Bu mahalın ərazisi əsasən keçmiş Qarabağ nahiyəsinin və qismən də Şərur nahiyəsinin ərazilərini əhatə edirdi. Mahalın əhalisinin əksər hissəsini Kəngərli tayfaları təşkil etmişdir.

Dərələyəz mahalı Xok mahalından şimalda yerləşən torpaqları əhatə edirdi. Mahal iki hissəyə - şərq və qərb hissələrinə bölünürdü. Dərələyəz mahalının şərq hissəsi 44 kənddən ibarət idi (171, s. 80). Mahalın qərb hissəsinə 10-dan artıq kənd daxil idi.

Sisyan mahalı Naxçıvan dairəsinin şimal-şərq ərazilərini əhatələyirdi.

XVIII əsrin 50-ci illərində Naxçıvan xanlığının Ordubad dairəsi ehtimal ki, XIX əsrdəki kimi 5 mahaldan - Ordubad, Əylis, Dəstə, Çalanaq və Biləv mahallarından ibarət idi.

Ordubad tüməninə daxil olan Ordubad mahalı 1 şəhər və 8 kənddən ibarət olmuşdur. Ordubad şəhəri Araz çayının sol sahilində, çaydan 4 verstlik (4,3 kilometr) məsafədə yerləşirdi (171, s. 193). Şəhərin özü 5 hissəyə bölünürdü: 1) Ambaras, 2) Kür-Tatar, 3) Sər-şəhər, 4) Mingis, 5) Üç-tənəngi.

Ambaras məhəlləsi Ordubad çayın sağ sahilində yerləşmişdir. Sonrakı dövrlərdə məhəllə böyüyərək iki hissəyə Aşağı Ambaras və Yuxarı Ambaras məhəllələrinə ayrılmışdır (81, s. 25).

V.Qriqoryevin verdiyi məlumatlarda göstərilir ki, Əylis çayı boyunca yerləşən Əylis mahalı 4 kəndi əhatə etmişdir. Bunlar Aşağı Əylis, Yuxarı Əylis, Vıraqurt, Nügədi idi. Kameral siyahılarda mahalın Nüqadə çayı boyunca yerləşdiyi yazılmışdır (229, v. 112). Kameral siyahılarda Nügədi kəndinin adı Nüqadə kimi də qeyd edilmişdir (229, v. 111).

Vənəndçay boyunca yerləşən Dəstə mahalı 13 kənddən, Üstüpüçay boyunca yerləşən Çalanap mahalı 8 kənddən, Gilançay və

Arpaçay arasında yerləşən Biləv mahalı 14 kənddən ibarət olmuşdur.

Qafan dairəsinin tərkibinə Qafan mahalından əlavə, 1752-ci ilə qədər Naxçıvan xanlığının tərkibinə daxil olmuş Tatef mahalı da daxil olmuşdur.

***Əhalinin etnik və dini tərkibi.*** Naxçıvan xanlığının əhalisi ilə bağlı tədqiqatlar aparan N.Quliyevin fikrincə xanlığın yarandığı dövrdə Naxçıvan xanlığının ərazisində 45 min 140 nəfər yaşamışdır. Xanlığın ləğvi dövründə isə əhalinin sayı 42 min 497 nəfər olmuşdur (109, s. 41).

Əvvəlki dövrlərdə olduğu kimi əhalinin tərkibində azərbaycanlı-türk əhali say üstünlüyünə malik olmuşdur (85, s. 58). Xanlıqlar dövründən bəhs edən bəzi rusdilli mənbələrdə Rusiya imperiyasının, sonrakı dövrdə isə Sovetlərin məqsədyönlü siyasətinin nəticəsi olaraq yerli azərbaycanlı türk əhalisi ümumi ad altında adlandırılmır və regiondakı türkdilli əhali müxtəlif tayfalar şəklində təqdim edilir (171, s.32; 207, s. 23). O, dövr üçün bu daha çox regionda əhalinin say tərkibində sonradan köçürülən erməniləri çoxluğunu göstərmək məqsədi daşıyırdısa, hazırda bu mənbələr Naxçıvanın xanlıq idarəçiliyi dövründə etnik mənzərəsinin öyrənilməsi üçün ciddi əhəmiyyət daşıyır. Beləliklə, biz nəinki region əhalisinin böyük əksəriyyətinin türkdilli olduğunu, həm də türkdilli əhalinin tərkibinin hansı tayfalardan formalaşdığını da müəyyənləşdirə bilirik. Yuxarıda qeyd etdiyimiz səbəbdəndir ki, XX əsrin 20-30-cu illərində Naxçıvanın tarixinə və etnoqrafiyasına aid materiallar toplamış Konstantin Smirnov əhalinin tərkibində tatarlar (azərbaycanlılar), kürdlər və ermənilərlə yanaşı kəngərliləri xüsusi olaraq ayrıca bir tayfa kimi qeyd etmişdir (207, s. 23). Fikrimizcə bu həm də Kəngərlilərin digər türk tayfalarına nisbətən bölgədə nüfuz üstünlüyü ilə əlaqədar olmuşdur. Xanlıq dövrünün sonunda aparılan kameral təsvir zamanı da Naxçıvanda Kəngərli tayfası üstün yer tutmuşdur ( 85, s. 58-59).

Xanlığın yarandığı dövrlərdə Kəngərlilərin tərkibinə daxil olmuş yurdçu (yurçu), cəmşidli, ağabəyli, kəclər, sarvanlar, şahbanlılar, əlixanlı, ərəfsəli, qaradolaği, sarabanxanlı, şabanlı, xalxali, pir-həsənli, salahi, qaraxanbəyli, hacılari, bilici, cığataylı, qaracadaği, kəlfirli, pirhəsənli, qarabağlar və başqa tirələr bölgənin həm siyasi həyatında, həm də bölgə əhalisinin etnik tərkibində xüsusi yerə və rola malik olmuşlar (228; 85, s. 59). Kəngərli tayfaları bu dövrdə Naxçıvan diyarındakı ən yaxşı torpaqlarda əsasən dörd istiqamətdə məskunlaşmışdılar. Bu tayfaların birinci qrupu Naxçıvançay və Küküçay vadilərində, ikinci qrupu Nəhəcir ətrafı ərazilər və Qarababa çayı ətrafında məskunlaşmışdılar. Kəngərlilərin nisbətən daha qüdrətli və çoxsaylı hissəsi Xok mahalında yaşayırdılar. Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, Azad-Kiran istiqamətində də Kəngərli tayfalarının bəzi qolları məskunlaşmışdılar (207, s. 31-32).



Yuxarıda qeyd etdiyimiz kimi bölgənin türkdilli əhalisi içərisində kəngərlilər xüsusi ad altında anılsa da, digər tayfalar üçün ümumi tatar adlandırmasından istifadə edilmişdir. Lakin mənbələrdə verilən məlumatlar əsasında digər türk tayfaları və onların məskunlaşdığı əraziləri də müəyyənləşdirmək mümkündür. Bəhs olunan dövrdə Naxçıvan xanlığı ərazisində Kəngərlilərlə yanaşı bayat, cavanşir, qaraqoyunlu, qaşqay, əfşar, padar, qarapapaq, qaraçorlu tayfaları da məskunlaşmışdılar. Bayatlar Şərur və Yengicə kəndində, qaraqoyunlular Şərurda və Xanlıqlar kəndində, əfşarlar Şərur ətrafı ərazilərdə, padarlar Püsyan kəndində yaşamışlar. Ermənistan Mərkəzi Dövlət Arxivinin 133 nömrəli fondunda saxlanılan 1-a saylı sənəddə Qaraçorlu tayfasının Dərələyəz mahalında məskunlaşdığı göstərilmişdir (157, s. 108).

Əhalinin dini tərkibində üstünlük əsasən müsəlmanlara məxsus olmuşdur. Mənbələrdə verilən məlumatlar sübut edir ki, ənənəvi onikiimamçı (isna-əşəriyyə) şiələr və sünni məzhəbinə aid olanlarla yanaşı, ismaililik, nöqtəvilik, bektaşilik kimi müsəlman sektaları da mövcud olmuşdur (207, s. 72-90).

# NƏTİCƏ

Kifayət qədər geniş bir xronoloji çərçivədə Naxçıvanın tarixi coğrafiyasının öyrənilməsi istiqamətində apardığımız tədqiqatlar zamanı obyektiv tarixi reallığın aşkara çıxarılması əsas məqsəd olmuşdur. Əsərin xronoloji çərçivəsi XII-XVIII əsrin birinci yarısını əhatə etmişdir. Azərbaycan tarixində ilk dəfə olaraq Naxçıvan diyarının XII-XVIII əsrin birinci yarısında tarixi coğrafiyası kompleks şəkildə öyrənilmiş, Naxçıvan diyarının ərazisi və inzibati ərazi bölgüsündə dəyişikliklər xronoloji çərçivədə izlənilmişdir.

